ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№1 (67)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022
№1 (67)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 32

## MÜASİR GEOSİYASİ ŞƏRAİTDƏ NEOİMPERİALİZMİN TƏHLÜKƏLƏRİ

**MƏHƏMMƏD CƏBRAYILOV**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

*E-mail: mahmmad2021@mail.ru*

**Giriş**

Müasir dövr bəşər tarxində izlənilməyən hadisələrlə müşahidə olunmaqdadır. Qlobal pandemiyanın yaratdığı şərait və bu şəraitə uyğunlaşma tamamilə yeni şərtlər diktə edir. Yeni şərtlər bir neçə istiqamətdə qalobal təsir və təzyiqlər yaradır:

Birincisi, qlobal pandemiyannın yaratdığı yeni vəziyyətin diktə etdiyi təsirlər;

İkincisi, qlobal geosiyasi platformaların toqquşduğu məkanlarda neoimperializmin yaratdığı yeni vəziyyətə uyğunlaşmanı zəruri edən təsirlər;

Üçüncüsü, yeni maliyyə imperializminin inkişafına 4-cü sənaye inqilabının yaratdığı təsirlər.

Yuxarıda qeyd etdiyimiz hər bir təsir beynəlxalq münasibətlər sistemində, o cümlədən milli təhlükəsizlik məsələsində dövlətlər qarşısında yeni suallar yaradır və bu suallara cavab axtarışlarını zəruri edir. Məhz bu baxımdan qlobal neoimperializmin təsirləndirdiyi sahələrlə bağlı mövzular beynəlxalq elmi ictimaiyyətin, həmçinin ictimai və humanitar elmlər sahəsində çalışan alimlərin müzakirə etdiyi mövzulardı. Dördüncü sənaye inqilabının və pandemiyanın yaratdığı vəziyyətə uyğun olaraq qlobal maliyyə imperializmi siyasətində yeni yanaşmalar, yeni baxışlar meydana çıxır.

Yuxarıda qeyd etdiyimiz məsələləri mövzu daxilində sorğulamaqda əsas məqsəd, dördüncü sənaye inqilabının diktə etdiyi mövcud şərtlər daxilində dünyanın güc mərkəzlərinin yaratdıqları maliyyə imperyalarının yeni vəziyyətə transformasiya etməsi və onun yerli maliyyə institutlarına təsirini, baş verə biləcək spekulyasiya və manipulyasiya əməliyyatlarını nəzərə alan təhlillər aparmaqdır.

**1. Maliyyə imperializminin yeni təhdidləri**

Pandemiyanın yaratdığı qlobal maliyyə böhranı dünyanın əksər ölkələrini əhatə etməkdədir. Bu cür vəziyyətin davam etməsi bir tərəfdən mövcud beynəlxalq maliyyə münasibətlərinə təzyiq göstərirsə, digər tərəfdən yeni dünya düzəninin formalaşmasında iştirakçı və iddiaçı dövlətlərin yeni geosiyasi maraqlarını həyata keçirmək üçün maliyyə imperializmi üzərində qurulan texnologiyaların yaranmasını diktə edir.

Müasir dövrün ən çətin problemlərindən biri dünyada güc mərkəzləri tərəfindən müxtəlif məqsədlər üçün ayrı-ayrı dövlətlərə qarşı tətbiq etdikləri maliyyə təzyiqləridir. Məhz bu baxımdan yeni dünya düzəninin formalaşmasında iştirakçı olan və maraqları çərçivəsində digər dövlətlər üçün maliyyə spekulyasiyaları həyata keçirən “güc və beyin mərkəzi” kimi tanınan “Soros fondu” və “Açıq Cəmiyyət İnstitutu” fəaliyyətini müxtəlif ölkələrdə həyata keçirməklə həmin ölkələri sahib olduğu maliyyə imperyasının təzyiqləri ilə məqsədyönlü planlar reallaşdırmağa nail olmuşdur. Məsələn, “Avropa dəyərləndirmə sistemindən çıxması Sorosa çoxlu pul qazandırmışdır. Həmin əməliyyatda Ç.Soros bir milyard pul qazanmışıdır. Həmin dövrdə klassik maliyyə möhtəkirliyi reallaşdırıldı və faktiki olaraq saxta (fake) fondlar vasitəsilə Böyük Britaniya maliyyə bazarına çox ciddi şəkildə dollar intervensiyaları həyata keçirildi, müəyyən müddət ərzində funt sterlinqin xarici valyutaya nisbətdə dəyərinin artması baş verdi. Daha sonra saxta (fake) fondlar vasitəsilə bazara dollar kütləsinin çıxarılması ona səbəb oldu ki, Böyük Britaniya mərkəzi bankı 25% -lik devalvasiyaya getmək məcburiyyətində qaldı. Misal üçün qeyd etmək lazımdır ki, Times qəzetində 1992-ci ilin sentyabrında “Sorosun maliyyə imperiyası” haqqında dərc olunan məqalədə qeyd edilir ki, “bazarlarda 'Qara çərşənbə' olaraq bilinən gündə “Avropadakı liberal layihələr”də funt üzərində spekulyasiya etməklə 1 milyard dollar pul qazanılmışdır”. [6]

Soros maliyyə fırıldağına və malyiyyə imperyasına görə dünyanın ən təhlükəli adamlarından biri hesab olunur. Məsələn, Açıq Cəmiyyət İnstitutunun Rusiyada dövlət quruluşunu dəyişdirməyə cəhddə və dövlət təhlükəsizliyinə təhdid yaratmaqda itti-

ham olunur. 2003-cü ildə Rusiya ərazisində Soros öz xeyriyyə fəaliyyətini dayandırmasına məcbur edilməklə, 2004-cü Açıq Cəmiyyət İnstitutunun bu ölkədə qrant layihələrinin həyata keçirilməsinə birdəfəlik son qoyulmuşdur. Bütün təhlillər göstərir ki, maliyyə imperyasına sahib beyin mərkəzləri və transmilli korporasiyalar qarşılarına qoyduğu məqsədə uyğun olaraq bir çox dövlətlərdə ictimai mühiti manipulyasiya edə bilir. Sorosun Açıq Cəmiyyət İnstitutu bir çox ölkələrdə sahib olduğu maliyyə imperyasının təzyiqi ilə dövlət çevrilişlərini həyata keçirir.

Türkiyənin prezidenti Rəcəb Təyyib Ərdoğan qeyd edir ki, "Soros Türkiyəni və digər ölkələri bölüb, parçalamağa xidmət edir". [15]

Türkiyə liderinin Soros haqqında söylədiyi fikirlər, bir neçə il əvvəl Türkiyədə "Soros Fondunun" dəstəyi ilə demokratik açılım adı altında kürd-türk, türk- erməni məsələsinin qızışdırılması və milli maraqları təhlükəyə salan təşəbbüslərlə bağlıdır. Sorosun yaratdığı maliyyə imperiyasının Türkiyədə həyata keçirmək istədiyi əsas məqsəd iqtisadi-siyasi böhran yaratmaq və iqtisadi–siyasi sabitliyi pozmaqla cəmiyyəti manipulyasiya etmək idi.

Macarıstanda "Açıq Cəmiyyət İnstitutunun" fəaliyyətinin dayandırılması ilə bağlı qərar qəbul olundu. Macarıstanda doğulan Yəhudi əsilli Amerikalı iş adamı George Soros tərəfindən maliyyələşdirilən Mərkəzi Avropa Universiteti (CEU) 15.05.2018-ci ildə qapadılaraq Vyanaya köçməsinə qərar verilmişdi. Dünyanın müxtəlif kontinentlərində maliyyə imperyasını yaradan George Soros xüsusi geosiyasi məqsədləri olduğu ölkələrdə çoxplanlı fəaliyyət həyata keçirməklə təhsil sahəsində kadrların yetişdirilməsi məsələsinə də xüsusi diqqət yetirmişdi. Məsələn, Macarıstanın Milli Məclisi tərəfindən 4 aprel 2017-ci il tarixində qəbul edilmiş qanuna görə, xarici universitetlərin ölkədə fəaliyyət göstərməsi üçün universitetin bağlı olduğu ölkə ilə Macarıstan hökuməti arasında müqavilə imzalanmalıdır. Bu qanundan narazı olan George Soros qeyd edir ki, "Mərkəzi Avropa Universiteti (CEU) 20 ayda Macarıstan qanunlarına riayət etmək üçün hər şeyi etdi. Biz də ABŞ-da bir ali təhsil proqramı başlatdıq və ABŞ qurumları bununla razılaşdı. Bütün bunlara baxmayaraq, Macarıstan səlahiyyətliləri bir ildən çox müddətdə Nyu-York və CEU arasında gözlənilən sazişi imzalamaqdan imtina etdilər". [8]

Macarıstan Baş Naziri Viktor Orbanın Soros tərəfindən maliyyələşdirilən universiteti bağlamaq qərarını, əslində maliyyə imperyasının layihələrində rol alan böyük tələbə kontingentinin gələcəkdə ölkənin təhlükəsizliyi üçün yarada biləcəyi vəziyyətlə qiymətləndirmək olar. Məhz bu baxımdan Macarıstanın baş naziri Viktor Orban qeyd edir ki, "Soros Macarıstanı miqrantlarla doldurmaq, ölkəni fəlakətə aparmaq üçün plana sahibdir. Bizdən fərqli bir düşmənlə mübarizə aparırıq. Açıq və dürüst deyil gizlidir, hiyləgərdi, mənəviyyatsızdı, milli deyil beynəlxalqdı, əməklə arası yoxdu. Pullarla spekulyasiya edir. Öz vətəni yoxdu, bütün dünyanı özününkü sayır". [8]

Macarıstan hökumətinin rəsmi açıqlamasında qeyd olunur ki, "Macarıstanlı Amerikalı milyarder George Sorosu Avropadakı qaçqınların yerləşdirilməsi üçün plan hazırlamaqla və həyata keçirməklə milli dövlətləri uzun müddətə ortadan qaldırmağı hədəfləyir. Macarıstanda Soros Vəqfi və xarici mənsubiyyəti olan digər qeyri-hökumət təşkilatlarının fəaliyyətinə nəzarət etmək və maddi dəstəyini məhdudlaşdırmaq üçün "Sorosu Durdur" adlı bir qanunun qəbul olunmasına ehtiyac var". [9]

Macarıstanın baş naziri Viktor Orbanın açıqlamasından açıq-aydın hiss olunur ki, yeni maliyyə imperializm milli dövlətlər üçün böyük təzyiq və təhlükə yaradır. Xüsusilə, Avropa Birliyinə daxil olan ölkələrin hökumət və dövlət başçılarınım George Sorosun maliyyə imperiyasının yaratdığı təhlükəni qeyd etməklə yanaşı, həm də yeni miqrant axınını dəstəkləyən layihələrə dəstək verməsinin böyük narahtlıq yartdığını bəyan edirlər. Məsələn, İtaliya baş nazirinin keçmiş müavini Matteus Sandili "Sorosun ölkəni miqrantlarla doldurdurmaq istəyini reallaşması böyük fəlakətlərə yol aça bilər". İngiltərənin tanınmış siyasətçilərindən Migel Paradi "Sorosu miqrantları qəsdən Avropaya yönəltməsi bütün Qərb dünyası üçün təhlükə yaradır.

Bu gün maliyyə imperializminin yaranma səbəbləri geosiyasi məqsədlərə yönəlmiş daha dərin prosesləri özündə ehtiva edir. Yeni maliyyə imperializmi təsir gücü, milli dövlətləri həm konstruktiv, həm də dağıdıcı məqsədlər üçün istifadə etmə imkanları artmaqda davam edir. Maliyyə imperializminin təsiri altında olan dövlətlərin özünü düzgün

idarə etmək qabiliyyəti zəifləyir və xarici təzyiqlər qaşısında milli təhlükəsizlik problemi ilə qarşılaşmalı olur.

Yeni dünya nizamının xüsusiyyətləri adlı məqalədə qeyd olunur ki, “taktiki dəyişiklik olaraq artıq birbaşa işğal deyil, hədəfdə olan ölkələrin daxilində öz əlaltıları - “beşinci kolon” vasitəsilə hərəkət nəzərdə tutulur. Bu mənada, Qərb ölkələri sanki səbəbkarı olduqları dünya müharibələrini, keçmiş müstəmləkəçilik ənənələrini bir gündə yaddan çıxardıblar. Əvəzində onların “demokratiya və insan haqlarını” bəhanə etməklə bütün dünya üzərində təsir mexanizmi yaratmaq istəkləri müşahidə olunur”. [10]

Maliyyə imperyasına sahib olan Soros və digər güc mərkəzləri tərəfindən aparılan yeni dünya siyasətini təhlil edərkən aydın olur ki, onların həyata keçirdiyi maliyyə imperializmi siyasəti ölkələr və regionlar üçün fərqli alətlərlə aparılır. Əgər yeni dünya nizamının yaranmasında həyata keçirilən siyasət Liviya, İraq, Əfqanıstan, Suriya və.s. kimi ölkələrdə birbaşa hərbi müdaxilə hesabınadırsa, bir çox ölkələrdə, xüsusilə də postsovet məkanında vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə həyata keçirilir.

Məsələn, Azərbaycan prezidenti İlham Əliyev qeyd edir ki, “Biz Sorosun Azərbaycandan qovulmasına nail olduq... Bu gün Ermənistanın siyasi rəhbərliyi Soros fondunun təsiri altında olan adamlarıdı. Onların tərcümeyi halına baxmaq kifayətdir. Bu gün hakimiyyətdə, parlamentdə, məhkəmə hakimiyyətində və digər önəmli vəzifələrdə kimlər çalışır. Bütün bunların əksəriyyəti Soros fondu və ona yaxın olan təşkilatların adamları olub., ...Ermənistanın rəhbəri sadəcə, təsadüfən hakimiyyətə gəlməyib, o, həm Azərbaycan xalqına, həm də erməni xalqına həddən artıq iztirab və qəm-qüssə gətirib. O, Sorosun əlaltısıdır”. [11]

Azərbaycan Respublikası Prezidentinin verdiyi müsahibənin mətnindən aydın olur ki, böyük maliyyə imperiyasına sahib olan Soros fondu və digər beynəlxalq təhlükəsizliyə təhdid yaradan maliyyə mərkəzlərinin bir ölkədə həyata keçirdiyi məqsədli fəaliyyət istiqamətləri bir dövlətə deyil, bütövlükdə regiona böyük təhlükələr yaradır. Məhz bu baxımdan klassik maliyyə imperyasına sahib olan güc mərkəzləri tərəfindən aparılan mövcud siyasətin müşahidə edilən hazırkı, anailizi onu göstərir ki, C.Soros və eyni prinsiplərlə fəaliyyətlərini həyata keçirən qlobal maliyyə institutlarının əsas məqsədi, dürdüncü sənaye inqilabının açdığı imkanları fürsət bilərək maliyyə resurslarını yeni texnologiyalara transformasiya etmək və onu dünya düzəninin formalaşmasında təzyiq aləti kimi istifadə etməkdir.

### 1.2. Qlobalizm imperializmin yeni mərhələsi kimi

1990-cı ildən hazırkı, zamana qədər ictimai və siyasi elmlərdə ən çox istifadə olunan “qloballaşma”, "təkqütblü dünya", “çoxqütüblü dünya”, "yeni dünya düzəni" anlayışlarına, əslində imperializmin mahiyyətinə məqsədli va ya məqsəd olmadan verilən müxtəlif dəyərləndirmələr aspektindən yanaşmaq lazımıdır. Çünki, “qloballaşma”nı, "təkqütblü dünya"nı, “çoxqütüblü dünya”nı, "yeni dünya düzəni"ni yaradan proseslər bir tərəfdən imperializmin yeni mərhələyə transformasiyası kimi baş verirsə, digər tərəfdən qlobal geosiyasətdə imperializmin inkişafı ilə əlaqəli olan siyasi texnologiyaların yaranması ilə təzahür edir. Məhz bu baxımdan, sərhədlərarası kapital hərəkətlərinin artması, qlobal maliyyə spekulyasiyaları, kütləvi istehlak, transmilli şirkətlərin güclənməsi, milli dövlətlərin zəiflədilməsi məqsədilə həyata keçirilən tədbirlər, qlobal istiləşmə, rəqəmsal texnologiyanın sürətli inkişafı, Post-Fordizm kimi məsələlər qloballaşmaya bir başa təsir edən, qloballaşma isə müasir imperializmin yeni texnologiyalarla həyata keçirilməsinə zəmin yaradan proses kimi dəyərləndirilməlidir.

Qloballaşma termini dövriyyəyə buraxılana qədər dünyanı müəyyən edən əsas iqtisadi münasibətləri bir çox hallarda imperializmlə əlaqələndirilirdi. Lakin, bunlar bu gün "qloballaşma" termini ilə izah olunur. Hazırki dövrdə "qloballaşma" termini “imperializmi” terminini bir anlayış olaraq əvəzlədi və eyni hadisələrə iki fərqli baxışı meydana çıxardı. Burada məqsəd “'qloballaşma' terminologiyasından istifadə edilən təhlilləri, imperializmi strateji bir konsepsiya olaraq istifadə edənləri tənqid etmək deyil, aydın məqsəd ondan ibarətdir ki, “qlobalalaşma”nın klassik imperializmidən müsir imperializmə transformasiyasının açıq və gizli proses olduğunu fakt və məntiqi uzlaşdırma ilə təhlillər aparmaq, nəticələr hasil etməkdir. Məhz bu baxımdan qlobal-

laşmanı "qlobalizm", "qlobal proseslər", "qlobal hadisələr" anlayışlarından fərqini və bu anlayışların dünyada doğurduğu nəticələrin də müxtəlif olduğunu qeyd etməklə yanaşı müasir maliyyə imperializmi yaradan səbəbləri aydınlaşdırmaq lazımdır.

1990-cı ildən sonra Marksizmin davam edən böhranı səbəbindən, postmarksistlərin "qloballaşma" terminologiyasından istifadə etməsinin əsas səbəbini, bunun qaçınılmaz bir proses olması və yeni bir dövrün başlaması, qapalı sərhədlərin açılması ilə baş verən dəyişikliklərdən sonra böyük bir sıçrayışın olduğu ilə izah etmək mümkündür. Hazırkı, qlobal güclərin əlində bu terminologiya kapitalizmin məğlubedilməz yeganə qüvvə olduğunu və alternativin yalnız özünün olduğunu göstərir. Əslində, "yeni dünya düzəni" əvvəllər istifadə olunan bütün anlayışları əhatə edən bir formuladır. Qeyd olunmalıdır ki, "qloballaşma" yeni bir şey deyil, imperializm maraqlarının coğrafi baxımdan genişlənməsi və insan həyatının bütün sahələrini əhatə etməsidir. 1990-ci illərdən bəri imperializm maraqlarının iki fərqli istsiqamətdə inkişafı (dünyada yeni texnologiayların sürətli inkişafı, dünya nizamında iştirak edən qlobal güclərin maliyyə imperializmi sistemində baş verən dəyişikliklər) qloballaşma adı altında dəyərləndirilməyə başlanıldı. Məsələn, Samir Amin "Dəyişən dünya sistemi" adlı kitabında imperialist mərkəzləri kapitalist ölkələrin inhisarçı fəaliyyəti kimi nəzərdən keçirməklə beş sahəyə ayırır:

1) Müasir mərkəzlərin texnologiya sahəsindəki inhisarı,

2) dünya miqyasında əhəmiyyətli maliyyə axınlarına nəzarət edən inhisarlar,

3) planetin təbii ehtiyatlarına çıxış təmin edən inhisarlar,

4) kütləvi rabitə və media sahəsində fəaliyyət göstərən inhisarlar,

5) və nəhayət kütləvi qırğın silahları sahəsində fəaliyyət göstərən inhisarlar".

Yuxarıda müəllifin qeyd etdiyi beş müxtəlif sahələrdə olan "inhisarlar" əslində, qloballaşmaya imperialzmin müxtəlif istiqamətlərində "dəyər" yaradan görüntü kimi istifadə olunan, sosial və siyasi çərçivədən ayrılmış "təmiz iqtisadi" rasionallıqdan çox, inhisarların beynəlxalq şərtləşməsinin ümumi təzahü kimi qiymətləndirmək lazımdır. İmperializm qloballaşma və yeni dünya düzəni adı altında asosassiya olunmaqla 1990-cı illərdən sonra iki istiqamətdə inkişaf etdi:

1) imperializm anlayışını qloballaşma adı altında funksional hala gətirəcək inkişaflar;

2) qlobal maliyyə sistemlərinin kapital hərəkətlərində baş verən texnoloji inkişaflar.

Göstərilən iki istiqamətdə aparılan təhlillər onu göstərir ki, imperializmin mahiyyəti əslində qloballaşma adı altında məqsədin həyata keçirilməsinin hamı tərəfindən qəbul olunması üçün istifadə edilən "örtükdür". Əslində belə bir "örtükdən" güc mərkəzləri tərəfindən beynəlxalq təşkilatların məruzələri və hesabatları zamanı istifadə olunması problemin dərinliyini göstərir.

1998-ci ildə Ticarət və İnkişaf üzrə Millətlər Konfransının "Ticarət və İnkişaf Hesabat"ının III və IV fəsillərində Birləşmiş Millətlər Təşkilatı Katibliyinin ümumi baxışını tövsiyyə edən "Yeni beynəlxalq maliyyə mühəndisliyinə doğru", birgə bəyanat hazırlanmışdır. 21 yanvar 1999-cu ildə həmin hesabatın dərc olunduğu "Dünya iqtisadiyyatı" (The world economy) jurnalında "İnkişaf üçün çağırışlar və kommunikasiya iqtisadiyyatları" adlı bölümünün "Qlobal maliyyə sistemini zəiflədən siyasətlər" adlı məruzənin mətnində qeyd olunur ki, "..Bazarların həddindən artıq dəyişməsi, yüksək dəyişkənlik və ətrafdakı qeyri-şəffaflıq qlobal maliyyə fəaliyyətinin müxtəlif aspektləri hər zaman beynəlxalq maliyyə sisteminin atributları olmuşdur. Buna baxmayaraq, məhdudiyyətsiz qlobal faydalı əlaqələrin çatışmazlıqlarını aradan qaldırmağın yolları düşünülür. Ancaq bu yaxınlarda maliyyə təlatümləri dalğaları elə sürət və şiddətlə başladı ki, sistemin mahiyyətini əsaslandıran ənənəvi müdriklik ciddi şəkildə pozuldu. Ehtiyat tədbirlərinin gücləndirilməsi lazımdır. Bununla yanaşı, təcrübə göstərir ki, hər hansı bir tədbir görülsə də, böhranlar davam edəcək və baş verməkdədir. ...Yeni siyasət tədbirləri üçün meydan hazırlamaq olduqca böyük problemlər yaradır. Yaxşı idarəetmə və güclü maliyyə qurumlarının nəzarəti iqtisadi zərbələrə qarşı durmağın açarıdır. Beləliklə fəaliyyət bir neçə beynəlxalq qurumun nəzarətindədir". [12]

Yuxarıda qeyd olunan hesabatdan aydın olur ki, qlobal maliyyə sisteminin şəffaf fəaliyyətinə əsaslanan siyasətin qurulmasına maneə olan güc mərkəzlərinin yaratdığı təhlükələr imperializmin bu və ya

digər mərhələsi ilə əlaqəli deyil, maliyyənin hərəkət qanunlarını, onun dəyişmə müddətini əvvəldən öz maraqlarına uyğunlaşdırması ilə bağlıdır. Məhz bu baxımdan XX-ci əsrin əvvəlində və ortalarında maliyyə imperializminin inkişafına təsir edən səbəbləri, yaşadığımız XXI-ci əsrdə baş verən inkişafla eyniləşdirmək olmaz. Əksinə, maliyyə imperializmini yaradan texniki vasitələr dəyişir, amma bu dəyişiklik əvvəldən başa düşülən bir "prosesin məntiqi" ilə dəyərləndirilir. Bu cür dəyərləndirmə maliyyə imperializminin həm qlobal genişlənməsi ilə, həm də təzyiq yaratdığı milli dövlətlər və onun təhlükəsizliyi ilə bağlı araşdırmalarda öz əksini tapır.

**Milli dövlətləri təhdid edən neoimperializm**

Qloballaşma və texnoloji inkişaf klassik imperializmin – neoimperializmlə əvəzlənməsində böyük imkanlar yaratdı. XX əsrin sonlarına doğru maliyyə və iqtisadi sahədə neoliberalizm dalğasının genişlənməsi prosesi qlobal məqsədlərin həyata keşirilməsinin tərkib hissələri kimi baxılmalıdır. Məsələn, neoliberalizmi təşviq edən ideyalardan çıxan nəticələrdən biri də budur ki, bugünkü şəraitdə klassik mənada müstəqillik fenomeni yoxdur və onun yerini "qarşılıqlı asılılıq" əlaqəsi tutur. Neoliberalizmə görə, qlobal milli iqtisadiyyatlar bir-birləri ilə ayrılmaz əlaqələr içərisindədir və bu əlaqələr üçüncü dünya ölkələrinin trans milli şirkətlərə deyil, transmilli şirkətlərin üçüncü dünya ölkələrində asılılığını yaratmışdır. Qarşılıqlı asılılıq həm də üçüncü dünya ölkələrində transmilli şirkətlərin sənaye məhsullarının ixracını artırmaqla rəqabət aparmaq üçün şərait yaratdı. İstehsal üçün tələb olunan bəzi resursların xarici ölkələrdən gətirilməsi bu cür sahələrin xarici asılılığını qaçılmaz edir. Neoliberalizm adı altında həyata keçirilən tədbirlər nəticəsində istehsal olunan məhsulların asılı ölkələrə satılması və öhdəliyə məcbur edilən ölkələrin bu məhsulları almaq məcburiyyəti ilə üz-üzə qoyur. Bu şərtlər altında ayrı-ayrı milli iqtisadiyyatların kifayət qədər olması və özlərini inkişaf etdirməsi qeyri-mümkün olmuşdur. Əslində, qloballaşan dünyada imperializmə qarşı mövqeyini sərt şəkildə ifadə edən milli dövlətin uzun müddət yaşaması və ölkə daxilində iqtisadi inkişafı təmin edə bilməsi çoxlu suallar doğurur.

Məsələn, köhnə müstəmləkəçi sistemlə bugünkü imperializm arasında fərqlərin olduğunu söyləyən Ani Loomba "Kalonyalizm, Postkalonyalizm" kitabında qeyd edir ki, "Müasir dünyada müstəmləkəçilik arasında torpaq işğalı, maddi qaynaqların ələ keçirilməsi, əməyin istismarı, başqa bir millətin siyasi və mədəni quruluşuna müdaxilə və qlobal bir sistem olaraq imperializm arasında fərqlilikləri göstərir". [1, s.24]

Ani Loombanın qeyd etdiyi fərqliliklərə baxmayaraq, bu gün imperializm "həqiqi işğala" çatan metodları tətbiq etməklə yeni maliyyə imperializminin təsir vasitələrindən istifadə olunması, kənardan manipulyasiyanın hədəf seçildiyi ölkəni (ölkələri) nəzarətdə saxlamaq kimi imkanlara sahib olmaq deməkdir. Məhz bu baxımdan imperialist ölkələr üçün iqtisadi inkişafa çatmağın ən qısa yolu qlobal maliyyə resurslarının mövcud olmasıdır. Başqa sözlə, maliyyə imperializmini həyata keçirməyin müasir şərtlərini anlamaq üçün, klassik imperializm haqqında ümumi baxışları nəzərdən keçirmək lazımdır. Məsələn, ümumi yanaşmalarda gəlinən nəticə budur ki, ilk istehsalın başlaması üçün əvvəlcə "iqtisadi qaynaq", yəni kapital tapılmalıdır. Buna görə də, imperialist ölkələrindəki ilk iqtisadi mənbələr bir çox hallarda daxili resurslar hesabına deyil, kənarda əldə olunan resurslar hesabına formalaşır. Yoxdan heç bir şey yarana bilmədiyi məntiqilə məsələyə yanaşsaq aydın olur ki, klassik imperializmi həyata keçirən güc mərkəzləri üçün istehsalın ilk "iqtisadi mənbəsi" başqa bir yerdən gəlmiş olmalıdır. İmperiya siyasətini həyata keçirən dövlətlər üçün - kənarda ilk "iqtisadi mənbə"yə sahib olmadan, yəni ilkin kapital yığımına neoliberal bazar qanunları ilə deyil, digər ölkəyə qarşı təzyiq və təsirlərdən istifadə etməklə nail olmadan yeni maliyyə imperializminə keçidi mümkün deyil. Əks təqdirdə, "mənbəyi harada tapmaq" sualı qarşısında çıxılmaz vəziyyətə düşən klassik imperalizm tərəfdarlarını, kapitalın nəzərdə tutulan məqsədi üçün, "haradan və necə" əldə etməyin yollarının axtarışına rast gəlinməzdi. Buradan çıxarılan nəticəni analiz etdikdə aydın olur ki, bu gün imperialist ölkələrdə mövcud olan qeyri-adi kapitalın yığımasını birinci səbəbi imperializmin klassik fazasında əldə olunan nəticələrlə bağlıdırsa, digər səbəbi yeni texnologiyaların inkişafıyla əldə olunan təsirlərin milli dövlətləriin üzərində sınaqdan keçirilməsi ilə əlaqədardı.

Məsələn, Ziqmunt Bauman "Qloballaşma" adlı kitabında imperialist istismara məruz qalan ölkələrdə milli dövlətin vəziyyətini belə izah edir: "qloballaşma səhnəyə gəldikdə, dövlət nümayişlərin sonunda yalnız açıq imperativlər, yəni zülmkar qüvvələr qalır. Maddi bazası məhv edildikcə, suverenliyi və müstəqilliyi ləğv edilən və siyasi statusu silinən milli dövlət meqa şirkətlərin sadə təhlükəsizlik vahidlərinə çevrilir. Dünyanın yeni liderlərinin birbaşa rəhbərlik etməsinə ehtiyac duyulmur. Milli hökumətlər işlərini düzəltmək üçün onların adından istifadə edir". [ 2, s.34]

Ziqmunt Baumanın da yuxarıda qeyd olunan yanaşmasından çıxan nəticəni təhlil etdikdə aydın olur ki, müasir imperializmin milli dövlətlərə verdiyi neoliberalist ticarət vədi, əslində yaxşı uydurulmuş bir yalandır. Çünki, bu gün dünyada klassik və müasir imperializmin doğurduğu qlobal təzyiqlərə qarşı milli dövlətlərin müqavimətinin genişlənməsi nəticəsində aydın olur ki, əslində bu siyasətdən fayda götürənlər tərəfindən əlavə itkilərdən yayınmaq üçün, yeni cəlbedici terminlər (neoliberalizm, qlobalizm və s.) uydurmaqla, guya beynəlxalq dövriyyədə ciddi bir prosesin olduğuna dünya ictimaiyyətini inandırma siyasəti həyata keçirilir.

Rudolf Hilferding "maliyyə imperializmi" kitabının "Maliyyə kapitalı və sərbəst rəqabətin məhdudlaşdırılması" adlı III bölümündə qeyd edir ki, "monopolist birləşmə, bu səbəbdən müstəqil ticarətin bütün formalarını ləğv etməyə çalışacaq, çünki yalnız o zaman bütün təsirlərini qiymətlər səviyyəsinə gətirə biləcəkdir. Ancaq gördüyümüz kimi, kartelləşmənin özü onsuz da sənaye ilə bank kapitalı arasında sıx bir əlaqəni əhatə edir. Bu səbəbdən kartel ümumiyyətlə daha güclüdür və ticarət üçün öz şərtlərini diktə edə bilər. Bunu etməkdə məqsədi ticarəti müstəqillikdən məhrum etmək və qiymətləri tənzimləmək də öz müstəqilliyini qorumaqdır. Beləliklə, kartelləşmə kapital qoyuluşu sahəsi kimi ticarəti ləğv edəcəkdir". [3, s.63]

Rudolf Hilferdinq XX əsrin əvvələrində yazdığı bu kitabda əslində maliyyə imperializmini yaradan çoxlu səbəbləri kapitalizm sisteminin çatışmazlıqları ilə izah etməyə çalışır. Aydın məsələdir ki, sənaye və texnologiyanın inkişafının yeni mərhələsi sayılan bu dövrdə Hilferdingin maliyyə imperializmi ilə bağlı gətirdiyi izahlar hazırkı, dövrün reallıqları baxımından yetərli deyil. Lakin, hazırkı, yeni maliyyə imperializminin yaranmasına təsir edən texniki alətələr dəyişmişdir, başqa sözlə rəqəmsal texnologiyaların sürətli inkişafı, keçmiş ənənəsinə maraqlı olan güc mərkəzlərinin qlobal səviyyədə həyata keçirdikləri monopolist və spekulyativ fəaliyyətlərində sürət baxımından keyfiyyət dəyişikliyi yaratmışdır. Bu sürətli dəyişiklik bir tərəfdən milli dövlətləri qlobalizm, neoliberalizm adı altında "sərhədsiz dünya"ya inteqrasiyasını təşviq edirsə, digər tərəfdən yeni dünya nizamının formalaşmasında iştirakçı qlobal güclərin sərt tədbirləri ilə müşahidə olunur.

XX əsrin ikinci dünya müharibəsi ərəfəsində Uinston Çörçil "Dünya böhranı" adlı kitabında maraqlı faktlara toxunaraq "yeni dünya düzənində böyük güclərin sərt qanunlar yaratmasına ehtiyac olduğunu bildirir". Məsələn, "dünya liderləri "yeni dünya nizamını" Çörçillin fikirlərindən belə ifadə edir: "Dünyanın hökmranlığı özləri üçün özlərindən başqa bir şey gözləməyən sərt millətlərin ixtiyarına buraxılmalıdır. Əgər dünyanın hökmü ac insanların əlinə keçərsə, təhlükə həmişə bizim qapımızdadır. Daha çox şey üçün heç bir səbəb yoxdur ... Gücümüz bizi digərlərindən üstün tutdu, biz öz malikanəsində dinc yaşayan zənginlərə bənzəyirik". [4, s.14]

Yuxarıda diktə edilməsinə çalışılan nəticə, imperializmin inkişaf proqramının həyata keçirilməsi üçün mövcud güclərin siyasi-iqtisadi fəlsəfəsini ifadə edən etiraflardı. Beləliklə, siyasi mənada imperializm - onun təhlükələrindən ən effektiv şəkildə qoruna bilən maliyyə sisteminə və bütövlükdə iqtisadiyyata daim yenilənən müxtəlif alətlərlə təsir imkanlarına malikdir. Milli dövlətlərin maliyyə sisteminə olan təzyiqlərin güclənməsi bir tərəfdən onun müstəqilliyin zəifləməsi ilə nəticələnir, digər tərəfdən, imperializmdən asılı olan ölkələrin yeraltı və yerüstü sərvətlərinin emal edilərək, əmtəə ixracatının dünya bazarlarına maneəsiz çıxaran ölkələr vasitəsi ilə həyata keçirilməsi təmin edilir.

V.İ.Lenin maliyyə imperializmini tənqid edən fikirləri XX əsrin əvvəllərində Qərbin bir çox güc mərkəzləri tərəfindən təpkiylə qarşılanmağına baxmayaraq, problemin qoyuluşu bu gündə öz aktuallığını itirməyib. Sadəcə olaraq V.Lenin "İmperializm kapitalizmin ən yüksək mərhələsi kimi" yazdığı kitabında imperializmi sosializm ilə müqayisə edir və

onu kapitalizmin ali məqsədi hesab edərək yazırdı: “indi biz əmtəə istehsalının və xüsusi mülkiyyətin ümumi şəraitində kapitalist inhisarları “ağalığının” labüd olaraq maliyyə oliqarxiyası hökmranlığına çevrilməsinin təsvirinə keçməliyik. Qeyd etməliyik ki, alman — həm də nəinki yalnız alman — burjua elminin Risser, Şultse-Gevernits, Lifman və başqaları kimi bütün nümayəndələri imperializmin və maliyyə kapitalının məddahlarıdır. Onlar oliqarxiya əmələ gəlməsi “mexanikasını”, onun üsullarını, onun “halal və haram” gəlirlərinin qədərini, onun parlamentlərlə əlaqəsini və i. a. və s. açıb meydana qoymaq deyil, bunları ört-basdır edirlər, bunlara bəzək-düzək verirlər. Onlar “çətin məsələlərdən” gurultulu, dumanlı ibarələrlə, bank direktorlarını “məsuliyyət hissi” göstərməyə çağırmaqla, Prussiya məmurlarının “vəzifə hissini” tərifləməklə, “nəzarət” və “tənzimat” haqqında əsla ciddi olmayan qanun layihələrinin təfərrüatını ciddi bir surətdə araşdırmaqla və misal üçün, professor Lifmanın aşağıda qeyd olunan “elmi” tərifi kimi bir nəzəriyyə oyunu oynamaqla yaxalarını qurtarmağa çalışırlar; Lifman yazır: “...ticarət nemət toplamaq, onu saxlamaq və sərəncama vermək məqsədini güdən peşəkarlıq fəaliyyətidir”. Belə çıxır ki, hələ mübadilənin nə olduğunu bilməyən ibtidai adamlarda da ticarət olmuş, sosializm cəmiyyətində də olacaqdır! Lakin maliyyə oliqarxiyasının dəhşətli hökmranlığına aid dəhşətli faktlar o dərəcədə gözə çarpır ki, bütün kapitalist ölkələrində, Amerikada da, Fransada da, Almaniyada da burjua nöqteyi-nəzərində duran və maliyyə oliqarxiyasının hər halda təqribən doğru mənzərəsini verən və onu — əlbəttə, meşşancasına — tənqid edən ədəbiyyat meydana gəlmişdir”. [5, s.37]

Burada Leninin “kapitalizm deyərkən imperializm başa düşülməlidir” fəlsəfəsi ilə razılaşmadan qeyd etməliyik ki, imperializm ictimai “formasiya” problemi deyil, onun həm kapitalizmdə həmdə digər ictimai formasiyalarda mövcud olması üçün çoxlu səbəblər göstərmək olar. Müxtəlif ictimai qurluşlarda imperializm ümumiləşdirən cəhətlər kimi monopolistləri, maliyyə fırıldaqçılarını misal gətirməklə, Leninin “imperializm yalnız kapitalizmi üçün səciyyəvidir” fikrinin yetərsizliyi və arqumentsizliyi haqqında mülahizələr söyləmək mümkündür. Lakin, bu mövzuda qarşıya qoyulan məqsəd Leninin kapitalizm və ya sosializm haqqında hər hansı fikrinə münasibət bildirmək deyil, əsas məsələ klassik impeializmin inkişafını yaradan amillərlə, onun yeni mərhələyə keçməsinə təsir edən proseslərin müqayisəli təhlilini aparmaq və elmi nəticələr əldə etməkdir.

**Nəticə**

Bütün bu qeyd olunanlar onu göstərir ki, ilk növədə yeni maliyyə imperyasını yaradan qlobal güclərin digər dövlətlər üzərində yeni təzyiq vasitələrinə sahib olması məqsədilə dövriyyəyə buraxdıqları rəqəmsal kriptovalyutaları gələcəkdə milli valyutalar üzərində spekulyasiya imkanlarını artırır. Qlobal güclərin yeni maliyyə imperyasının təzyiqinə məruz qalan dövlətlərin və maliyyə institutlarının qarşılaşa biləcəyi müsbət və mənfi təsirlərin ehtimal edilən nəticələri aşağıdakı kimi təsnifatlaşdırmaq mümkündür:

**Müsbət təsirlər:** süni zəka vasitəsilə icazəsiz müdaxilənin aşkar edlməsi; qlobal maliyyə sistemində çeviklik; maliyyə sisteminə girişin nəzarətdə saxlanması; maliyyə bazarına daha sürətli çıxış imkanları.

**Mənfi təsirlər:** qlobal rəqəmsal maliyyə sitemінin bir neçə güc mərkəzi tərəfindən idarə olunması; qlobal şəbəkələrin çökmə risqi; milli valyutalrın təzyiqlə qarşılaşması; kiber hucumların qarşısında effektiv müdafiənin yetərli olmaması

Yeni maliyyə imperiya mərkəzlərinin formalaşmasından sonra baş verə biləcək müsbət və mənfi təsirlərinin regional və lokal maliyyə sistemlərində yarada biləcək “pozitiv və neqativ” təzahürlərindən çıxarılan nəticədən aydın olur ki, bu prosesin dayandırılmasını durduracaq hələlik hər hansı vasitələr mövcud deyildir.

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Ania Loomba. Kolonyalizm, Post Kolonyalizm, Çev.: Mehmet Küçük, Ayrıntı Yay.,İstanbul 2001, s. 24, s. 310*

*2. Zygmunt Bauman. Küreselleşme - Toplumsal Sonuçları Çevirmen: Abdullah Yılmaz. Yayınevi: Ayrıntı Yayınları İstambul:2016, s. 34, s.160*

*3 Rudolf Hilferding. Finance Capital. Edited by Tom Bottomore from translations made by Professor Morris Watnick and Mr Sam Gordon. Transcription/Markup: Steve Palmer. PDF . Batto-*

*mer:1981, s. 63*

*4. W. Churchill'den aktaran: Noam Chomsky, Dünya Düzeni: Eskisi Yenisi, Çev.: A. Çakıroğlu, T. Birkan, Metis Yayınları, İstambul:2003, s. 14, s. 203*

*5. Ленин Владимир Ильич. Империализм, как высшая стадия капитализма. Москва: 1952, с.37, с. 232*

*6.Ərəstü Həbibbəyli, Soros Fondu «Beşinci kolon»un əsas maliyyə dayağı. http://www.azerbaijan-news.az/view-11743/Soros-Fondu-%C2%ABBe%C5%9Finci-kolon%C2%BBun-%C9%99sas-maliyy%C9%99-daya%C4%9F%C4%B1*

*7. Times: Erdoğan'ın karalama kampanyasından sonra Soros kuruluşu Türkiye'yi bıraktı. https://www.bbc.com/turkce/haberler-dunya-46369241*

*8. Macaristan Soros'u kovdu: Viyana'ya taşınıyor. https://www.yenisafak.com/dunya/macaristan-sorosu-kovdu-viyanaya-tasiniyor-3412939 05.11.2018*

*9. Ve Soros böyle kovuldu. https://odatv4.com/ve-soros-boyle-kovuldu-15051849.html. 15.05.2018*

*10. Ərəstü Həbibbəyli, Soros Fondu «Beşinci kolon»un əsas maliyyə dayağ. http://www.azerbaijan-news.az/view-11743/Soros-Fondu-%C2%ABBe%C5%9Finci-kolon%C2%BBun-%C9%99sas-maliyy%C9%99-daya%C4%9F%C4%B1*

*11. İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verib. https://president.az/articles/43547. 19.10.2020*

*12 World economıc and socıal survey. https://www.un.org/en/development/desa/policy/wess/wess_archive/1999wess.pdf. Unıted Natıons- New York 1999*

## Müasir geosiyasi şəraitdə neoimperializmin təhlükələri

**Məhəmməd Cəbrayılov**

***fəl.ü.f.d Məhəmməd Cəbrayılov. AMEA-n Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi.***

### XÜLASƏ

Müasir dövr bəşər tarxində izlənilməyən hadisələrlə müşahidə olunmaqdadır. Qlobal pandemiyanın yaratdığı şərait və bu şəraitə uyğunlaşma tamamilə yeni şərtlər diktə edir. Yeni şərtlər bir neçə istiqamətdə qalobal təsir və təzyiqlər yaradır:

Birincisi, qlobal pandemiyannın yaratdığı yeni vəziyyətin diktə etdiyi təsirlər;

İkincisi, qlobal geosiyasi platformaların toqquşduğu məkanlarda neoimperializmin yaratdığı yeni vəziyyətə uyğunlaşmanı zəruri edən təsirlər;

Üçüncüsü, yeni maliyyə imperializminin inkişafına 4-cü sənaye inqilabının yaratdığı təsirlər.

Yuxarıda qeyd etdiyimiz hər bir təsir beynəlxalq münasibətlər sistemində, o cümlədən milli təhlükəsizlik məsələsində dövlətlər qarşısında yeni suallar yaradır və bu suallara cavab axtarışlarını zəruri edir. Məhz bu baxımdan qlobal neoimperializmin təsirləndirdiyi sahələrlə bağlı mövzular beynəlxalq elmi ictimaiyyətin, həmçinin ictimai və humanitar elmlər sahəsində çalışan alimlərin müzakirə etdiyi mövzulardı. Dördüncü sənaye inqilabının və pandemiyanın yaratdığı vəziyyətə uyğun olaraq qlobal maliyyə imperializmi siyasətində yeni yanaşmalar, yeni baxışlar meydana çıxır.

Yuxarıda qeyd etdiyimiz məsələləri mövzu daxilində sorğulamaqda əsas məqsəd, dördüncü sənaye inqilabının diktə etdiyi mövcud şərtlər daxilində dünyanın güc mərkəzlərinin yaratdıqları maliyyə imperyalarının yeni vəziyyətə transformasiya etməsi və onun yerli maliyyə institutlarına təsirini, baş verə biləcək spekulyasiya və manipulyasiya əməliyyatlarını nəzərə alan təhlillər aparmaqdır.

**Açar sözlər:** *Geosiyasi, neoimperializm, maliyyə imperializm, qlobalizm, 4-cü sənaye inqilabı.*

## Threats of neo-imperialism in modern geopolitical conditions

**Mahammad Jabrailov**

***Ph.D. Mahammad Jabrailov. Researcher of the Institute of Philosophy and Sociology of ANAS..***

### SUMMARY

The modern era is marked by unprecedented events in human history. The conditions created by the global pandemic and adaptation to these conditions dictate completely new conditions. The new conditions create global impacts and pressures in several directions:

First, the impacts of the new situation created by the global pandemic;

Second, the impacts that make it necessary to

adapt to the new situation created by neo-imperialism in places where global geopolitical platforms collide;

Third, the impacts s of the Fourth Industrial Revolution on the development of new financial imperialism.

Each of the above-mentioned impacts raises new questions for states in the system of international relations, including national security, and makes it necessary to seek answers to these questions. Namely from this viewpoint, the subjects related to the areas affected by global neo-imperialism are those discussed by the international scientific community, as well as scientists working in the social sciences and humanities. In accordance with the situation created by the Fourth Industrial Revolution and the pandemic, new approaches and new views are emerging in the policy of global financial imperialism.

The main purpose of the above-mentioned issues is to analyze the transformation of the financial empires created by the world's power centers into the new situation and its impact on local financial institutions, possible speculation and manipulation operations under the conditions dictated by the Fourth Industrial Revolution.

**Keywords:** *geopolitics, neo-imperialism, financial imperialism, globalism, 4th industrial revolution.*

**Угрозы неоимпериализма в современной геополитической ситуации**

**Махаммед Джебраилов**
***Доктор философии по философии***
***Магамед Джабраилов. Научный сотрудник Института философии и социологии НАНА.***

**РЕЗЮМЕ**

Современный период в истории человечества сопровождается скрытыми явлениями и процессами. Ситуация, вызванная глобальной пандемией, и адаптация к ней диктуют совершенно новые условия. Новые условия создают глобальные эффекты и вызовы в различных направлениях:

Во-первых, эффекты, продиктованные новой ситуацией, вызванной глобальной пандемией;

Во-вторых, эффекты, вызванные необходимостью адаптации к новой ситуации, обусловленной неоимпериализмом, в пространстве, где сталкиваются глобальные геополитические платформы;

В-третьих, влияние четвертой промышленной революции на развитие нового финансового империализма.

Каждое из отмеченных нами воздействий порождает новые вопросы, стоящие перед государствами в системе международных отношений, в том числе и в вопросе национальной безопасности, и делает необходимым поиск ответов на данные вопросы. Исходя из этого темы, связанные с областями, затронутыми глобальным неоимпериализмом, являются предметом обсуждения международного научного сообщества, а также ученых, работающих в области общественных и гуманитарных наук. В соответствии с ситуацией, вызванной четвертой промышленной революцией и пандемией, в политике глобального финансового империализма возникают новые подходы, новые взгляды.

Основная цель опроса затронутых выше вопросов в рамках указанной темы, заключается в проведении исследований, учитывающих трансформацию финансовых империй, созданных мировыми центрами власти, в новое состояние в текущих условиях, продиктованных четвертой промышленной революцией, и ее влияние на местные финансовые институты, а также возможные спекулятивные и манипулятивные операции.

**Ключевые слова:** *геополитический, неоимпериализм, финансовый империализм, глобализм, четвертая промышленная революция.*

UOT 327; 930.22

# TÜRKİYƏNİN MÜASİR YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİNƏ REALİZM PERSPEKTİVİNDƏN BAXIŞ: XARİCİ SİYASƏTDƏ "YENİ OSMANLIÇILIQ"DAN "REALPOLİTİK"Ə TRANSFORMASİYA VƏ ONUN HAZIRKI NƏTİCƏLƏRİ

**SULTAN ZAHİDOV**
*Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dissertantı*

*E-mail: sultanzahidov@gmail.com*

1923-cü ildə yarandığı zamandan etibarən Türkiyə Cümhuriyyətinin xarici siyasəti qərbləşmə, qüvvələr balansının və status-kvonun saxlanmasına əsaslanırdı. Soyuq müharibə dövründə Türkiyə əsasən özünütəcrid siyasəti yürütmüş və Yaxın və Orta Şərq regionundakı proseslərdə fəal iştirak etməmişdi. Bununla belə bu cür xarici siyasət kursu 21-ci əsrdə mövcud geosiyasi və geostrateji şərtlərə cavab vermədiyindən Türkiyənin xarici siyasətində əhəmiyyətli transformaiya baş verir. 2002-ci ildə AKP-nin (Ədalət və İnkişaf Partiyası) hakimiyyətə gəlməsi ilə Türkiyə daha çoxölçülü və fəal xarici siyasəti kursuna qədəm qoyaraq əvvəllər bitərəf qaldığı, lakin Türkiyə üçün böyük geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edən Yaxın və Orta Şərq regionuna daha çox diqqət ayırmağa başlayır. Türkiyənin geostrateji mövqeyi, bölgədəki tarixi kökləri və dini və mədəni bağları ona qeyri-regional güclərdən daha çox imkanlar yaradır və üstəlik regionda yeni meydana çıxan problemlər Türkiyədən daha fəal xarici siyasət yürütməyi tələb edirdi. "Yumşaq güc" mexanizminin fəal tətbiqinə əsaslanan bu xarici siyasət kursunun əsas aspektlərindən biri də qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmağı özündə ehtiva edən "Qonşularla sıfır problem" siyasəti idi (6, s.211).

2002-ci il seçkilərindən sonra qalib gələn AKP hökuməti Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlunun "Strateji dərinlik" konsepsiyasına dayanaraq xarici siyasətdə "Yeni Osmanlıçılıq" konseptini rəhbər tutmuş və Orta Şərq regionunda daha fəal siyasət yürütməyə meyl göstərmişdir. Ötən əsrin 80-ci illərində Türkiyənin siyasi-iqtisadi intellektual dairələrində formalaşmağa başlayan "Yeni Osmanlıcılıq" konsepti Türkiyənin bir zamanlar Osmanlı İmperiyasının tərkibində olan bölgələrdə nüfuz dairəsinin artırılmasına dayanır. "Strateji dərinlik" kitabında Əhməd Davudoğlu "Yeni Osmanlıçılığı" belə izah edir: "Türkiyə özünə qapanma siyasətini tərk edərək bir zamanlar əksər hissələri Osmanlının tərkibində olan bu hövzələrdəki dövlətlərlə yaxın münasibətlər yaratmalı və regionda öz nüfuzunu bərpa etmək üçün yeni kimliyə dayanan çoxölçülü xarici siyasət həyata keçirməlidir. Bu yeni kimlik özündə demokratiya və qərb dəyərlərini, islamı, mədəni və etnik ünsürləri birləşdirir. Yəni, bu o deməkdir ki, Türkiyə Orta Asiya və Qafqaz regionu ilə münasibətləri etnik və mədəni ünsürlərə, Orta Şərq dövlətləri ilə münasibətləri dini ünsürlərə və Balkanlarla münasibətləri qərb dəyərlərinə əsaslanan siyasətlə inkişaf etdirmək iqtidarındadır və Türkiyə bu imkanlardan yararlanaraq bəhs olunan dövlətlərə açılmaq siyasətini həyata keçirməlidir. Davudoğlunun təbirincə desək, dünyanın şimal-cənub və şərq-qərb istiqamətindəki ən strateji mövqeyin mərkəzi xətti üzərində yerləşən Türkiyənin içinə qapanması coğrafi baxımdan mümkün deyildir (4, s.556).

Türkiyənin "Yeni Osmanlıçılıq" siyasəti ilə bağlı digər tədqiqatçıların fikirləri də kifayət qədər diqqətə dəyərdir. Həmin tədqiqatçılar Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətində əsas alət kimi "Yumşaq güc"ün (soft power) rolunu qabardırlar. Məsələn, Batalla-Adamın fikrincə, demokratik dəyərlərə malik Türkiyə digər Yaxın və Orta Şərq regionu ölkələri üçün model rolunu oynamaq iqtidarındadır (3,s.143). Əslində, 2011-ci ilin Ərəb Baharı bu tezisin mümkünlüyünü ortaya qoysa da, Liviya, Suriya və Misirdə baş verən sonrakı hadisələr (Ərəb Qışı) bu ölkələrin hələ demokratiyaya hazır olmadıqlarını göstərmiş oldu(14).

"Yeni Osmanlıçılıq" konsepti çərçivəsində Türkiyə regionda bir sıra münaqişələrin həllində, o cümlədən İsrail-Fələstin, İsrail-Suriya, ABŞ-İran münasibətlərinin nizamlanmasında vasitəçilik etmiş, eyni zamanda regional dövlətlərlə ikitərəfli əlaqələrini daha da inkişaf etdirmişdi. 2010-cu ildə baş verən Ərəb Baharını bir çoxları Türkiyənin

regiondakı nüfuzunu artırmaq baxımında ideal imkan hesab etsə də, gözləntilərin əksinə olaraq, Türkiyə bir sıra çətinliklərlə üzləşmiş oldu. Ərəb Baharını regionun demokratikləşdirilməsi və demokratiyanın Türkiyə modelinin Yaxın və Orta Şərqə ixrac olunması baxımdan böyük imkan hesab edən Türkiyə Liviya, Suriya və Misirdəki siyasi rejimləri tənqid edərək müxalif qüvvələrə dəstək verməyə başladı. Həmin ərəfədə regionda vüsət alan vətəndaş müharibələri (Liviya, Suriya, İraq) və bu müharibələrin fonunda İŞİD və YPG kimi terrorçu qruplaşmaların fəallaşması, xüsusilə 2015-ci ildən etibarən Türkiyənin daha sərt xarici siyasət kursuna keçid etməsi ilə nəticələndi. Daha çox "Realpolitik" konseptə əsaslanan bu siyasət kursu ilk növbədə Türkiyənin milli maraqlarının, ərazi bütövlüyünün və təhlükəsizliyinin təmininə yönəlmişdi. Bu siyasi kurs çərçivəsində Türkiyə təhlükəsizliyini təmin etmək və terrorçu qruplaşmaları məhv etmək məqsədilə üç dəfə Suriyada və 2019-cu ildən etibarən şimali İraqda genişmiqyaslı hərbi əməliyyatlar həyata keçirdi (7, s.1). Beləliklə, regionda yaranan yeni geosiyasi reallıqlar və ölkə daxilində baş verən proseslər Türkiyənin əvvəlki "Yumşaq gücü" siyasətindən imtina edərək "Sərt güc"ə keçidini şərtləndirmiş oldu. Bir çox tədqiqatçılar bu hadisələrin fonunda Türkiyənin artıq "Yeni Osmanlıçılıq" siyasətindən vaz keçdiyini və daha çox "Realpolitik" siyasət yürütdüyünü qeyd etməyə başladı. Bəziləri bunu Ahmet Davudoğlunun istefası ilə əlaqələndirsələr də, əksəriyyət bunu sadəcə regiondakı mövcud geosiyasi vəziyyətin reallıqlarından irəli gəldiyini vurğuladılar(15).

"Realpolitik" siyasətin "Yeni Osmanlıçılıq" üzərində təntənəsindən bəhs etmişkən Türkiyənin müasir xarici siyasətinin nəzəri əsaslandırılmasına da yer vermək labüddür. Bəzi tədqiqatçılar Türkiyənin "Yeni Osmanlıçılıq" siyasətini sosial-konstruktivizm nəzəriyyəsi ilə əlaqələndirərək siyasi realizmi tənqid atəşinə tuturlar. Onların fikrincə Türkiyənin regionda böyük güc olmasının yeganə yolu "Yeni Osmanlıçılıq" siyasi kursunun tətbiqindən keçir(16). Bununla belə 2010-cu ildə baş verən "Ərəb Baharı" və ondan sonrakı hadisələr Türkiyənin "Yeni Osmanlıçılıq" siyasətinə yenidən nəzər salmağı vadar etdi. Regionda mövcud olan hazırkı geosiyasi mənzərəyə nəzər salsaq görərik ki, Türkiyənin Misir, Səudiyyə Ərəbistanı, Suriya, Liviya, İran və körfəz dövlətləri (Qətər xaric) kimi regional dövlətlərlə, o cümlədən regionda marağı olan Rusiya və ABŞ-la ziddiyyətləri mövcuddur. Bu durum Yeni Osmanlıçılığın bir o qədər də uğurlu nəticə vermədiyini göstərmiş olur. Belə ki, bu siyasətin əsas hədəfi regional dövlətlərlə münasibətləri inkişaf etdirərək regionda Türkiyənin nüfuzunu artırmaqdı, lakin gözlənilən nəticə əldə olunmadığından və yeni təhdidlərin yaranması səbəbindən Türkiyə "Yeni Osmanlıçılıq"dan "Realpolitik" siyasətə keçməli oldu.

Türkiyənin müasir "Realpolitik" siyasətini nəzəri cəhətdən əsaslandırarkən beynəlxalq münasibətlərin realist məktəbinin fikirlərinə istinad etmək məqsədəuyğundur. Realizm öz kökünu Fukididin "Peloponess müharibələri" əsərindən, N. Makiavellinin, T.Hobbsun və digərlərinin fikirlərindən götürür. Siyasi realizmin 20-ci əsrdəki ən məşhur nümayəndələrindən olan Hans Morgentau özünün "Xalqlar arasındakı siyasət" əsərində beynəlxalq münasibətlərdə etik normaların yersiz olduğunu və ölkənin daxili siyasətinin xarici siyasətdən fərqli olduğunu qeyd edir. Morgentauya görə beynəlxalq münasibətlər güc mübarizəsidir, yəni dövlətlər xilas olmaq və digər dövlət tərəfindən məhv edilməmək üçün güc əldə etməyə can atırlar. Dövlətlər öz maraqlarını təmin etmək üçün digər dövlətlərlə əməkdaşlıq edir və ittifaq yaradırlar. Əməkdaşlıq və diplomatiyanın əsas məqsədi də gücün artırılmasıdır. Morqentauya görə güc hərbi, siyasi, iqtisadi, texnoloji, coğrafi, mədəni, psixoloji və digər aspektləri özündə birləşdirir(11, 30-31). Dövlətlər gücdən təhlükəsizliyini təmin etmək və bəzən də gücünü nümayiş etdirərək prestijini artırmaq naminə istifadə edirlər. Türkiyənin də müasir dövrdə hərbi gücdən istifadə etməsini (Suriya və İraq əməliyyatları) bölgədəki terrorçu qruplaşmalardan təhlükəsizliyini təmin etmək və yeri gələndə regiondakı prestijini artırmaqla əlaqələndirmək olar. Bu da Türkiyənin müasir xarici siyasətinin realizmlə bağlı olduğunu göstərmiş olur(13, s.142).

Realizmə görə Beynəlxalq sistemin əsas aktorları dövlətlərdir və dövlətin əsas məqsədi öz maraqlarını qorumaq və anarxik beynəlxalq sistemdə sağ qalmaqdır(8, s. 22-25). Dövlətlər üçün ən ali maraq isə milli təhlükəsizlik hesab olunur və

əgər milli təhlükəsizliyə hər hansı bir təhdid olarsa dövlətlər hər vasitə bu təhdidi aradan qaldırmağa cəhd göstərirlər. Türkiyənin müasir xarici siyasətinin əsasən milli təhlükəsizliyin təmin olunmasına yönəlik olduğunu vurğulasaq yanılmaraq. Əvvəlki dönəmdə Türkiyə regionda çoxölçülü xarici siyasət yürüdərək hegemon dövlət statusuna nail olmağa çalışırdısa, Suriya böhranından sonra İŞİD və YPG-nin fəaliyyətləri fonunda bölgədəki terror təhdidi milli təhlükəsizliyin təmini üçün Türkiyəni qonşu dövlətlərdə müxtəlif hərbi əməliyyatlar həyata keçirməyə vadar etdi. Suriyada həyata keçirdiyi Fərat Qalxanı (2016), Zeytun Budağı (2018) və Sülh Bulağı (2019) adlı hərbi əməliyyatlarda Türkiyənin əsas məqsədi bölgəni terrordan təmizləmək və suriyalı məcburi köçkünlərin şimalda yerləşməsinə şərait yaratmaqdı(17). Belə ki, Suriyadakı münaqişə nəticəsində Türkiyəyə kütləvi şəkildə axın edən qaçqınlar məsələsi Türkiyə milli təhlükəsizliyini narahat edən məsələlərdən biridir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə hazırda Türkiyədə 3.6 milyona yaxın Suriyalı qaçqınlar yerləşməkdədir(18). Bu qaçqınlara ev sahibliyi etmək isə sözsüz ki, siyasi, iqtisadi, sosial öhdəliklər və çətinliklər yaradır. Bu hərbi əməliyyatlarda əsas məqsədlərdən biri də İŞİD-in məğlub olması və ABŞ-ın qismən Suriyadan çəkilməsindən sonra bölgədə yaranan lakunanı doldurmaq və PKK ilə əlaqəli olan PYD/YPG qruplaşmasının güclənməsinə mane olmaqdı. Türkiyə bu cür əməliyylatları yalnız Suriya ilə məhdudlaşdırmamış və 2019-cu ildən etibarən şimali İraqda terrorizmlə mübarizə məqsədi ilə “Pəncə əməliyyatları” da həyata keçirmişdir(20).

70-ci illərdə realizmin yeni qanadı olan neo-realizm və ya struktural realizm meydana gəldi. Bu cərəyanın banisi Kennet Uoltsdur. Klassik realistlərdən fərqli olaraq Uoltsa görə dövlətlərin davranışı onların insana xas təbiəti ilə deyil, beynəlxalq sistemin quruluşu ilə müəyyən olunur. Beynəlxalq sistemin anarxik olması, vahid dünya hökümətinin mövcud olmaması dövlətləri xilas olmaq üçün müxtəlif addımlar atmağa vadar edir. Uoltsa görə beynəlxalq sistem güc, sərvət və təhlükəsizliyin təmini uğrunda mübarizədir. Sistemin anarxik təbiəti dövlətlər arasında qeyri-müəyyənliyi daha da artırır. Bu cür qeyri-müəyyənlik şəraitində dövlətlər sağ qalmağa can atırlar və bunun üçün güc əldə etməyə səy göstərirlər. Bu tezisi Yaxın və Orta Şərq regionu ilə əlaqələndirsək mövcud dinamika və bəlirsizliyin Yaxın və Orta Şərqdə də dövlətlərin xarici siyasət kursunu müəyyənləşdirdiyinin şahidi ola bilərik. Bu gün regionda münaqişələr və müharibələrin sıx baş verməsini anarxik sistem və qeyri-müəyyənlik şəraitində dövlətlərin “Realpolitik” siyasət tətbiq etməsi ilə əlaqələndirmək olar. Hər bir dövlət anarxiya və qeyri-müəyyənlik şəraitində sağ qalmağa, yəni milli təhlükəsizliyini təmin etməyə çalışır və bunun yolu da güc toplamaq və gərəkli olduqda gücü nümayiş etdirməkdən keçir.

Digər realistlərdən fərqli olaraq K.Uoltsa görə dövlətlər mütləq güc əldə etməyə çalışmırlar. Belə ki, mütləq güc əldə etmək istəyi, digər dövlətlərin böyük dövlətin niyyəti ilə bağlı narahatlıq keçirməsinə və onların da cavab tədbiri olaraq öz güclərini artırmağa səy göstərmələri ilə nəticələnə bilər. Müasir dönəmdə Türkiyənin xarici siyasətində əsas məqsədlərdən biri də rəqib dövlətlərin Türkiyənin öz nüfuz dairəsi hesab etdiyi ərazilərdə, ələlxüsus qonşu dövlətlərdə möhkəmlənməsinə imkan verməməkdir. Qonşuluqda rəqib dövlətlərdən hər hansı birinin hərbi kontingentə malik olması Türkiyəni narahat edən məqamlardan biridir. Qeyd edək ki, hazırda Türkiyənin 8 qonşusundan 4-də xarici dövlətlərin hərbi kontingenti yerləşməkdədir və Türkiyə haqlı olaraq bu halı öz milli təhlükəsizliyinə təhdid olaraq görür. Bu baxımdan bir çox mütəxəssislər Türkiyənin milli təhlükəsizliyinə ən böyük təhdid kimi məhz Rusiyanı görürlər, çünki məhz Rusiya Türkiyənin qonşuluğunda yerləşən 8 dövlətdən 4-də (Azərbaycan, Ermənistan, Gürcüstan və Suriya) hərbi kontingentə malikdir(1). Uoltsa görə dövlətlər hegemonluğa can atan ölkəyə qarşı koalisiyalarda birləşərək qüvvələr balansı yaratmağa meyl göstərirlər. Yaxın və Orta Şərq regionunda Türkiyə xüsusilə, 2016-cı ildə baş verən 15 iyul qiyamından sonra ABŞ və İsrailə qarşı Rusiya və İranla daha sıx münasibətlər yaratmağa çalışsa da, bugün Türkiyə-Rusiya-İran oxunda da xeyli ziddiyyələrin olduğunu görürük. Bu ziddiyyətlər özünü daha çox Suriya, Liviya, İraq və Cənubi Qafqaz məsələlərində göstərməkdədir. Eyni zamanda Uoltsa görə dövlətlərin əsas vəzifəsi güclərini daha da artırmaq deyil, beynəlxalq sistemdəki mövcud

mövqelərini qoruyub saxlamaqdır(12, s.126). Məhz bu səbəbdən də Uolts "müdafiə realizm"inin (defensive realism) nümayəndəsi hesab olunur.

Neo-realizm məktəbinin digər nümayəndəsi Con Mirşaymer isə Uoltsdan fərqli olaraq dünya siyasətində böyük dövlətlər arasında status-kvonun nadir hallarda mövcud olduğunu qeyd edir. Özünün "Böyük dövlət siyasətinin faciəsi" əsərində Mirşaymer böyük dövlətlərin əsas hədəfinin hegemon dövlətə çevrilmək olduğunu və daha çox güc əldə etmək üçün hər cür imkandan yararlandığını qeyd edir. Məhz bu səbəbdən Mirşaymeri "hücum realizm"inin (offensive realism) nümayəndəsi adlandırırlar. Onun fikrincə çoxqütblü dünyada dövlətlərarası müharibə ehtimalı, birqütblü dünyadakından daha çoxdur. Güclü aktorların sayı nə qədər çox olarsa, dövlətlər arasında bir o qədər çox münaqişə baş tutar. Mirşaymerə görə ən təhlükəli dünya sistemi tarazlaşdırılmamış çoxqütblü dünyadır. Bu cür sistemdə potensial hegemonun mövcud olması müharibə ehtimalını daha da artırır (10, s.347). Bu baxımdan Yaxın və Orta Şərq regionundakı münaqişə və müharibələrin çoxluğunu regionda böyük güclərlə yanaşı bərabər gücə malik aktorların sayı ilə əlaqələndirə bilərik. Yaxın və Orta Şərqdə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir və İsrail kimi müəyyən maraqlara malik və bu maraqları zaman-zaman bir-birlərilə toqquşan regional güclər mövcuddur.

Bir dövlətin xarici siyasətini anlamaq üçün bu siyasətə təsir göstərən xarici və daxili amilləri nəzərdən keçirmək zəruridir. Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətinin xarakterinə təsir göstərən xarici amilləri aşağıdakı kimi sadalamaq olar:

• Ərəb baharından sonra bölgədə tüğyan edən vətəndaş müharibələri fonunda bölgədaxili proseslərin dinamikasında dəyişikliklər.

• Regionda İŞİD, PYD/YPG və digər terror qruplaşmalarının fəallaşması.

• Regionun ümumiyyətlə geosiyasi və geoiqtisadi cəhətdən Türkiyə üçün mühum əhəmiyyət kəsb etməsi.

• ABŞ, Rusiya və Çin kimi qlobal güclərin bölgədə fəallaşması və öz maraqlarını təmin etməyə çalışmaları.

• İran, İsrail, Misir və Səudiyyə Ərəbistanı kimi regional güclərlə Türkiyənin maraqlarının toqquşması.

Qeyd etmək yerinə düşər ki, Türkiyənin müasir xarici siyasətinə yalnız xarici deyil, daxili faktorlar da təsir göstməkdədir. Məşhur tədqiqatçı Bülənt Arasın təbirincə desək, Türkiyənin xarici siyasətini anlamaq üçün daxili və xarici amillərə bərabər şəkildə nəzər yetirmək labüddür (2, s.155).

Françesko D'Alemonun fikrinə görə Suriyadakı vətəndaş müharibəsindən sonra "qonşularla sıfır problem" diplomatiyasından imtina edən Türkiyə demokratiyanın carçısı roluna üstlənərək regiondakı nüfuzunu artırmağa çalışsa da, hadisələri düzgün qiymətləndirə bilmədiyindən müəyyən problemlərlə üzləşdi(19). Bu problemlər ilk növbədə daxili faktorlarla bağlıdır:

• Suriya münaqişəsi fonunda ölkəyə axan yüz minlərlə qaçqın Türkiyənin sosial-iqtisadi durumuna mənfi təsir göstərdi.

• Türkiyənin Suriyada İŞİD və PYD-YPG kimi qruplaşmalarla mübarizəsi fonunda ölkə daxilində ard-arda baş verən terror aktları dövlətin təhlükəsizliyinə böyük zərbələr vurdu.

• AKP daxilindəki Ərdoğan-Davudoğlu arasında ziddiyətlər sonuncunun istefa verməsi ilə nəticələndi.

• 2016-ci ilin 15 iyulunda Türkiyədə çevriliş cəhdi ölkədəki siyasi, sosial-iqtisadi həyati iflic vəziyyətinə qoydu.

Türkiyəli araşdırmaçı Hasan Kösebalabanın da qeyd etdiyi kimi, "Qonşularla sıfır problem" konsepti Ərəb Baharına kimi Türkiyədə müvəffəqiyyətlə tətbiq olundu. Türkiyə bu ərəfədə İran və Suriya ilə, o cümlədən Balkan dövlətləri ilə münasibətlərini daha da inkişaf etdirdi (9, s.366). Bundan sonrakı proseslər isə əks effekt verərək Türkiyənin region dövlətləri ilə münasibətlərində mənfi dinamikaya səbəb oldu. 2016-ci ilin 15 iyulunda baş verən qiyama cəhd isə nəinki Türkiyənin daxili siyasətində, eyni zamanda xarici siyasətində də böyük dəyişikliklər yaradan faktorlardan biri oldu. Əvvəllər demokratiyanı yaymaqla, iqtisadi layihələrlərlə, regiondakı problemlərinin həllində aktiv iştirak etməklə bölgədə nüfuz sahibi olmağı hədəf alan Türkiyə bu siyasi kursdan imtina edərək, ilk növbəti öz təhlükəsizliyinin qeydinə qalmaq məqsədi ilə yenidən öz daxilindəki problemlərin

həllinə yönəlik siyasət yürütməyə başladı.

Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətinə təsir göstərən daxili və xarici faktorların nəzərdən keçirilməsi üçün realizmin yeni yaranmış qanadı neoklassik realizmə müraciət etmək məqsədə uyğundur. İlk dəfə Amerikalı tədqiqaçtı Qideon Rouz tərəfindən 1998-ci ildə "Dünya siyasəti" adlı məqalədə işlədilən neoklassik realism yanaşması klassik realistlərin və neorealistlərin fikirlərini özündə cəmləşdirir. Rouza görə dövlətlərin beynəlxalq sistemdəki davranışlarına daxili və xarici dəyişkənlər təsir göstərir. Xarici dəyişkənlərə dövlətlərarası güc bölgüsünu, anarxik sistemin təzyiqlərini, digər dövlətlərin niyyətlərini, daxili dəyişkənlərə isə xarici siyasətdə qərarvericiliyə təsir göstərən aktorları – dövlət institutlarını, siyasi elita və cəmiyyəti aid etmək olar (5, s.146).

Tədqiqatçı Şaban Kardaş qeyd edir ki, xüsusilə 2015-ci ildən etibarən Yaxın və Orta Şərqdə yaranmış geosiyasi reallıqlar Türkiyəni Suriya və İraqa qarşı daha sərt siyasət yürütməyə vadar etdi. Onun fikrincə "Ərəb Baharı"nın ilk mərhələsində Türkiyənin Orta Şərq siyasəti əsasən liberal dəyərlərə söykənirdi. Həmin ərəfədə Türkiyə Suriya və İraqdakı kürdlərlə əməkdaşlıq etmiş, şimali İraqdakı Kürdüstan Regional Höküməti ilə münasibətlərini inkişaf etdirmişdi. Lakin 2015-ci ildən etibarən müəyyən daxili və xarici amillər səbəbindən Türkiyə Orta Şərq siyasətində kifayət qədər sərt mövqe tutmağa başladı. Bu zaman Türkiyənin əsas məqsədi öz milli təhlükəsizliyini təmin etmək və daxilində sabitliyi bərqərar etməkdi. Ş.Kardaş Türkiyənin xarici siyasət kursundakı bu dəyişikliyi izah etmək üçün neoklassik realizm yanaşmasına istinad edir(5). Xarici siyasətə təsir göstərən həm xarici, həm də daxili faktorları nəzərə alan bu yanaşma müəllifin fikrincə, Türkiyənin müasir YOŞ siyasətini izah etmək baxımından daha uyğundur. Ş.Kardaşa görə Ərəb Baharından sonra regional mühit daha məhdudlaşdırıcı səciyyə daşıdığından Ankara kifayət qədər sərt xarici siyasətə əl atmış və beləcə əvvəlki müttəfiqlərindən aralanmışdı. Onun fikrincə Türkiyənin xarici siyasətindəki dəyişikliyə təsir göstərən əsas faktorlar aşağıdakılardır:

• İŞİD terror təhdidinin yaranması.
• Suriya və İraqda xaos və anarxiyanın hökm sürməsi.
• ABŞ-ın İŞİD-ə qarşı mübarizə aparmaq üçün koalisiya formalaşdıraraq regiona müdaxilə etməsi.
• İranın İŞİD-lə mübarizə bəhanəsi altında regionda öz nüfuzunu yüksəltməyə çalışması.
• 2015-ci ildən etibarən Rusiyanın regionda və ələlxüsus Suriyada möhkəmlənməsi.
• Kürd terrorçu qruplaşmalarının şimali Suriya və İraqda möhkəmlənməyə cəhd göstərmələri.

Müəllif eyni zamanda Türkiyə xarici siyasətinə təsir göstərən daxili faktorlara da yer ayırır və burada iki əsas amilə diqqəti cəlb edir. Birinci amil PKK və İŞİD tərəfindən törədilən terror aktları fonunda Türkiyədə daxili məsələlərin resekuritizasiyadır. Türkiyə terrorla mübarizə aparmaq üçün yalnız ölkəxarici əməliyyatlarla məhdudlaşmamış, eyni zamanda ölkə daxilində PKK və İŞİD-ə qarşı genişmiqyaslı əməliyyatlar həyata keçirmiş, HDP (Xalqların Demokratik Partiyası) üzvlərini terrorçu PKK təşkilat ilə əlaqələri səbəbindən həbs etmişdir. İkinci amil isə Türkiyədə yeni güc konfiqurasiyasının formalaşmasıdır. Buna misal olaraq hakim AKP partiyasının millətçi MHP (Millətçi Hərəkat Partiyası) ilə ittifaq formalaşdırmasını göstərə bilərik. Əgər əvvəllər AKP qərb yönümlü liberallar və bəzi mühafizəkarlarla ittifaqda idisə, regionda baş verən proseslər və Türkiyənin milli təhlükəsizliyinə artan təhdidlər AKP-ni millətçi qanadla əməkdaşlıq etməyə vadar etdi. Müəllifin fikrincə, Ankara gələcəkdə də təhlükəsizliyin təmin olunmasına dayanan "Realpolitik" siyasət yürüdəcək və hərbi əməliyyatlarda iştirak edəcəkdir. Onu da qeyd edək ki, Türkiyə prezidentinin müşaviri İbrahim Kalın da müsahibələrindən birində Türkiyənin müasir xarici siyasətini praqmatizm və "Realpolitik"lə əlaqələndirmişdi(21).

Yekun olaraq qeyd olunmalıdır ki, Türkiyənin müasir YOŞ siyasəti Ərəb Baharından sonra ciddi transformasiyaya məruz qalmışdır. Öncələr "Yeni Osmanlıçılıq" konsepti çərçivəsində region dövlətləri ilə əməkdaşlıq vasitəsilə regionda öz təsir dairəsini artırmağa çalışan Türkiyə proseslərin sonrakı inkişafı nəticəsində xarici siyasət kursunu 180 dərəcə dəyişdirməli olur. Baş verən hadisələrin fonunda "Qonşularla sıfır problem" və "Yumşaq Güc" mexanizmlərindən imtina edən Türkiyə öz milli təhlükəsizliyni təmin etmək üçün bölgədə genişmiyaslı hərbi əməliyyatlar həyata keçirərək

“Sərt Güc” mexanizmini işə salmışdır. Mövcud geosiyasi vəziyyət “Yeni Osmanlıçılıq” konseptinin uğurlu nəticə vermədiyini və Türkiyənin “Realpolitik”ə əsaslanan siyasət yürütməyə başlamasını şərtləndirmiş oldu. Türkiyənin xarici siyasətində bu dəyişikliyi daxili və xarici faktorlarla izah etmək olar. Bu baxımdan Türkiyənin müasir xarici siyasətinin realizm perspektivindən təhlil olunması daha məqsədəuyğundur.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Aktürk Ş. Turkey’s Grand Strategy and the Great Powers, İnsight Turkey Fall 2021/ Volume 23, Number 4, https://www.insightturkey.com/article/turkeys-grand-strategy-and-the-great-powers*

2. *Aras B. Turkey and the Greater Middle East, Istanbul: Tasam Publications, 2004, 172 p.*

3. *Batalla-Adam, Laura. Turkey’s Foreign Policy in the AKP Era: has there been an axis shift?: Istanbul: Turkish Policy Quarterly, Vol. 11, no. 3. 2012, p. 139-148.*

4. *Davutoğlu A.M. Stratejik Derinlik, İstanbul: Küre Yayınları, 2001, 584 s.*

5. *Gideon R. “Neoclassical Realism and Theories of Foreign Policy”, World Politics, C: 51, No: 1, 1998, p.144-172.*

6. *Işıksal H., Göksel O. Turkey’s Relations with the Middle East: Political Encounters after the Arab Spring, Cham: Springer International Publishing AG, 2018, 220 s.*

7. *Kardaş Ş. Revisionism and Resecuritization of Turkey's Middle East Policy: A Neoclassical Realist Explanation, Journal of Balkan and Near Eastern Studies 2021, Vol. 23, No. 3, 490–501*

8. *Kegley C.W., Wittkopf E.R. World Politics: Trend and Transformation, New-York: St.Martin Press, 1993, 624 p.*

9. *Kösebalaban H. Türk Dış Politikası, Ankara: BigBang Yayınları, 2014, 432 s.*

10. *Mearsheimer J.J. The Tragedy of Great Power Politics, New-York: W.W. Norton, 2001, 555 p.*

11. *Morgenthau H. Politics Among Nations: The Struggle for Power and Peace, New-York: McGraw-Hill Education, 7th edition, 2005, 752 p.*

12. *Waltz N.K. Theory of International Politics. Long Grove: Waveland Press, 2010, 251 p.*

13. *Yılmaz A. Küresel Dünyada Uluslararası İlişkiler, Ankara: Kadim Yayınları, 2013, 478 s.*

14. *“Arabs not yet ready for democracy”, https://www.thenational.ae/arabs-not-yet-ready-for-democracy-1.392148*

15. *“From zero problems to real politik: Turkey's foreign policy after Davutoglu”, http://www.middleeasteye.net/columns/terms-which-cannot-be-ignored-govern-turkey-s-regional-policy-976887874*

16. *“A Constructivist analysis of Turkish Foreign Policy in 1980s and 2000s: The example of Turkey-U.S. Relations”, https://d-nb.info/1068362820/34*

17. *“Turkey ‘neutralizes’ 4 YPG/PKK terrorists in notrhern Syria”, https://www.aa.com.tr/en/turkey/turkey-neutralizes-4-ypg-pkk-terrorists-in-northern-syria/2428240*

18. *“Refugees and Asylum Seekers in Turkey”, https://www.unhcr.org/tr/en/refugees-and-asylum-seekers-in-turkey*

19. *“The Evolution of Turkey’s Syria Policy”, http://www.iai.it/sites/default/files/iaiwp1728.pdf*

20. *“Pençe harekatları: terörizmle mücadelede devamlılık ve kararlılık”, https://www.sabah.com.tr/yazarlar/perspektif/murat-aslan/2020/06/20/pence-harekatlari-terorizmle-mucadelede-devamlilik-ve-kararlilik*

21. *”Turkish Foreign Policy Between Ideology and Realpolitik”, https://www.mei.edu/resources/transcript/turkish-foreign-policy-between-ideology-and-realpolitik*


## XÜLASƏ


Əvvəllər “Yeni Osmanlıçılıq” konsepti çərçivəsində region dövlətləri ilə əməkdaşlıq və inkişaf edən münasibətlər vasitəsilə regionda öz təsir dairəsini artırmağa çalışan Türkiyə proseslərin sonrakı inkişafı nəticəsində xarici siyasət kursunu 180 dərəcə dəyişdirməli olur. Baş verən hadisələrin fonunda “Qonşularla sıfır problem” və “Yumşaq Güc” mexanizmlərindən imtina edən Türkiyə öz milli təhlükəsizliyni təmin etmək üçün bölgədə genişmiyaslı hərbi əməliyyatlar həyata keçirərək “Sərt Güc” mexanizmini işə salmışdır. Mövcud geosiyasi vəziyyət Yeni Osmanlıçılıq konseptinin uğurlu nəticə vermədiyini və Türkiyənin Realpo-

litikə əsaslanan siyasət yürütməyə başlamasını şərtləndirmiş oldu. Türkiyənin xarici siyasətində bu dəyişikliyi daxili və xarici faktorlarla izah etmək olar. Bu baxımdan Türkiyənin müasir xarici siyasətinin realizm perspektivindən təhlil olunması daha münasibdir.

Məqalədə Türkiyənin müasir Yaxın və Orta Şərq siyasəti, o cümlədən "Yeni Osmanlıçılq"dan "Realpolitik"ə transformasiyanın səbəbləri realizm məktəbinin müxtəlif yanaşmaları prizmasından izah edilir.

**Açar sözlər:** *Türkiyə, Yaxın və Orta Şərq, Yeni Osmanlıçılıq, Realpolitik, Realizm, Neo-klassik realizm, Yumşaq güc, Sərt güc, "Qonşularla sıfır problem" siyasəti.*

## РЕЗЮМЕ

Турция, ранее стремившаяся увеличить сферу своего влияния в регионе за счет сотрудничества и развития отношений со странами региона в рамках концепции "Неоосманизм"а, вынуждена изменить свой внешнеполитический курс на 180 градусов в результате дальнейшего развитие процессов. На фоне событий Турция, отказавшаяся от механизмов «Ноль проблем с соседями» и «Мягкой силы», развернула широкомасштабные военные действия в регионе для обеспечения своей национальной безопасности и запустила механизм «Жесткой силы». Нынешняя геополитическая ситуация привела к провалу концепции "Неоосманизм»а и проведению Турцией политики, основанной на "Реалполитик". Такое изменение внешней политики Турции можно объяснить внутренними и внешними факторами. С этой точки зрения целесообразнее анализировать современную внешнюю политику Турции с позиции реализма.

В статье рассматривается современная ближневосточная политика Турции, в том числе причины перехода от "Неоосманизм"а к "Реалполитик" сквозь призму различных подходов школы реализма.

**Ключевые слова:** *Турция, Ближний Восток, Неоосманизм, Реалполитик, Реализм, Неоклассический реализм, Мягкая сила, Жесткая сила, Политика "Ноль проблем с соседями".*

## SUMMARY

Turkey, which previously sought to increase its sphere of influence in the region through cooperation and development of relations with the countries of the region within the concept of "Neo-Ottomanism", is forced to change its foreign policy by 180 degrees as a result of further development of processes. Against the background of the events, Turkey, which abandoned the policy of "Zero problems with neighbors" and "Soft Power" mechanisms, launched large-scale military operations in the region to ensure its national security and started to apply "Hard Power" mechanisms. The current geopolitical situation has led to the failure of the "Neo-Ottomanism" concept and the pursuit of a policy based on "Realpolitik" by Turkey. This change in Turkey's foreign policy can be explained by internal and external factors. From this point of view, it is more expedient to analyze the modern foreign policy of Turkey from the standpoint of realism.

The article examines the modern Middle East policy of Turkey, including the reasons for the transformation from "Neo-Ottomanism" to "Realpolitik" through the lenses of various approaches of the school of realism.

**Keywords:** *Turkey, Middle East, Neo-Ottomanism, Realpolitik, Realism, Neoclassical realism, Soft power, Hard power, "Zero problems with neighbors" policy.*

UOT 327; 930.22

# AZƏRBAYCANIN AVROPA İNTEQRASİYA PROSESLƏRİNƏ QOŞULMASI: AQS-DƏN AVRONESTƏ

**KAMRAN MƏMMƏDOV**
*Bakı dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dissertantı*

*E-mail: kamran.c.mammadov@gmail.com*

**Giriş**

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin ilk illərindən xarici siyasət fəaliyyətində Avropaya inteqrasiya xətti götürməsi başlıca strateji xətt kimi müəyyənləşdirilmiş və dönmədən həyata keçirilməkdədir. Ölkəmizin geosiyasi mövqeyi və enerji resursları Avropa İttifaqının respublikamızla siyasi və iqtisadi münasibətlərində mühüm əhəmiyyətə malik idi. Təsadüfi deyildi ki, 1991-1992-ci illərin qovşağında Aİ xətti ilə Azərbaycana humanitar yardımların göstərilməsinə başlanmış, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı narahatlığı əks etdirən sənədlər qəbul edilmiş, 2000-ci ildən etibarən Brüsseldə Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Daimi Nümayəndəliyi, 2008-ci il fevralın 4-də isə Avropa Komissiyasının Azərbaycanda nümayəndəliyi Bakıda fəaliyyətə başlamışdı (1).

Aİ-nin şərq, cənub-şərq və cənub istiqamətində qonşuları ilə əməkdaşlığa dinamik xarakter vermək üçün təsis olunmuş proqramlardan biri kimi Avropa Qonşuluq Siysəti (AQS - layihənin ilk adı Yeni Qonşuluq Siyasəti olmuşdu) Barselona prosesindən fərqli olaraq birliyin yalnız şərq qonşuları üçün nəzərdə tutulmuşdu. Aİ-nin Azərbaycanı AQS-yə dəvət etmək haqqında 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli əməkdaşlığa yeni məzmun və forma verməyi nəzərdə tuturdu. AQS proqramı Azərbaycana aşağıdakı istiqamətdə fəaliyyət imkanları yaradırdı:

- siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olmaq imkanı;
- vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalların sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirakın təmin edilməsi;
- Aİ üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi (4) və s.

Avropa İttifaqının yaxın sərhədlərində baş verən hadisələr, xüsusilə qanunu və qeyri-qanuni mühacirət, habelə bunlarla bağlı təhlükələr onun daxili təhlükəsizliyinə təsir etdiyinə görə Aİ belə ölkələrlə sıx əlaqələr yaratmaqda maraqlıdır. Mahiyyətinə görə, "Avropa Qonşuluq Siyasəti" daha geniş proqram olduğuna və ümumi əməkdaşlıq konturlarını müəyyən etdiyinə görə onun konkretləşdirilməsi ikitərəfli fəaliyyət planlarının hazırlanmasını zəruri etmişdi (15, 26-27) ki, məhz bu zərurət Aİ-Azərbaycan Fəaliyyət Planının meydana gəlməsini şərtləndirmişdi.

Avropa İttifaqı - Azərbaycan Fəaliyyət Planı birliklə Azərbaycan arasında siyasi və iqtisadi cəhətdən qarşılıqlı asılılığın gücləndirilməsi, iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, sabitliyin, təhlükəsizliyin və rifahın dəstəklənməsi məqsədlərinə hədəflənmiş və 14 noyabr 2006-cı ildə imzalanmışdı. Fəaliyyət Planında on prioritet istiqamət müəyyənləşdirilmişdi:

- Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi;
- demokratiyanin gücləndirilməsi;
- qanunun aliliyinin, insan hüquqlarının və fundamental azadlıqların müdafiəsinin gücləndirilməsi;
- sahibkarliq və investisiya mühitinin yaxşılaşdırılması;
- gömrük xidməti işinin yaxşılaşdırılması;
- tarazli və davamlı iqtisadi inkişafa dəstək;
- iqtisadi qanunvericiliyin və inzibati praktikanın yaxınlaşdırılması;
- Aİ-Azərbaycan arasında enerji və nəqliyyat əməkdaşlığının gücləndirilməsi;
- məhkəmə, azadlıq və təhlükəsizlik sahələrində, o cümlədən sərhəd işində əməkdaşlığın dərinləşməsi;
- regional əməkdaşlığın gücləndirilməsi (5).

Göstərilən prioritetlər iri zaman kəsiyi üçün nəzərdə tutulmuş strateji kurs idi və reallaşdırılması əməkdaşlıq/üzvlük dilenmasına əsaslanırdı. Rusiyanın Fəaliyyət planına (FP) loyal münasibəti birliyin "yumşaq güc" diplomatiyasının uğuru kimi də

qiymətləndirilə bilər. AQS-yə daxil olan dövlətlərin fərqli ictimai-siyasi inkişaf səviyyəsi və mentaliteti layihəyə qoşulan ölkələrlə birlik arasında imzalanmış FP-yə fərqli məzmun verirdi. Məhz belə vəziyyət 20-dən yuxarı ölkənin qatıldığı Avropa Qonşuluq Siyasətini yeni, daha konkret layihə ilə əvəz etməyi zərurətə çevirmişdi ki, 2009-cu ilin mayında Polşa və İsveç dövlətlərinin təklifi ilə təsis edilmiş "Şərq tərəfdaşlığı" proqramı bu baxımdan cəmi 6 postsovet məkanı ölkəsini əhatə edirdi: Azərbaycan, Moldova, Ukrayna, Belarus, Gürcüstan və Ermənistan (13). Avropa Birliyi “5+1” qrupuna daxil olan dövlətləri bu proqrama daxil etməklə onlarla daha sıx əməkdaşlığa çalışırdı. Birlik bu proqram vasitəsilə ona qoşulan ölkələr üçün viza rejiminin yumşaldılmasını, ticarət sahəsində məhdudiyyətlərinin aradan qaldırılmasını və enerji əməkdaşlığını genişləndirməyi nəzərdə tuturdu. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamaqdadır. Belə ki, BTC və Trans-Adriatik Təbii Qaz Kəməri enerji sahəsində strateji əməkdaşlığımızın mühüm amillərindən biridir və dönmədən həyata keçirilir.

Avropa politoloji fikrinə görə, Şərq tərəfdaşlığında (ŞT) məqsəd tərəfdaşları Avropa İttifaqına daha da yaxınlaşdırmaq, sabitlik, yaxşı idarəçilik və iqtisadi inkişafı təşviq etməkdir. ŞT Aİ ilə tərəfdaş ölkələri arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılması, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tuturdu. Yeni layihəyə əsasən Aİ və hər bir tərəfdaş ölkə arasında daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində artıq reallaşdırılmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişlərinin əvəzinə yeni, Assosiasiya Sazişlərinin imzalanması nəzərdə tutulurdu (14).

Müəyyən təşkilati işlər görüldükdən sonra "Şərq tərəfdaşlığı" sammiti ilk dəfə 2009-cu ilin mayında Çexiyanın paytaxtı Praqada keçirilmiş, ikincisi isə 2011-ci ilin sentyabrında Varşavada təşkil edilmişdi. 2013-cü ildə Vilnüsdə, 2015-ci ildə Riqada və 2017-ci ildə Brüsseldə keçirilmiş sammitlərdə ŞT-nin praktiki fəaliyyəti ilə bağlı bir sıra normativ aktlar qəbul edilmişdi. 13-14 may 2019-cu ildə Brüsseldə ŞT-nin 10 illik yubileyinə həsr olunmuş zirvə görüşündə layihənin reallaşdırılması, əldə edilmiş uğurlar və nəticələr ümumiləşdirilmişdi. Görüşdə habelə 2020-ci ilə kimi ŞT ölkələri arasında, regionda yaşayan vətəndaşların gündəlik həyatında hiss ediləcək faydaları vermək öhdəliyini təsdiqlənmiş, dörd prioritet sahədə 20 hədəfə çatmaq üzərində işi davam etdirmək barədə razılığa gəlinmişdi. Bu dörd prioritet sahəyə aşağıdakılar daxildir: iqtisadi inkişaf və bazar imkanları üçün "Daha güclü iqtisadiyyat"; institutlarin gücləndirilməsi və yaxşı idarəçilik üçün "Daha güclü idarəçilik"; əlaqələr, enerji səmərəliliyi, ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq üçün "Daha güclü əlaqələr"; mobillik və insanlar arasında əlaqələr üçün isə "Daha güclü cəmiyyət"(4).

Azərbaycanın Şərq Tərəfdaşlığı çərçivəsində Avronest Parlament Assambleyası ilə əməkdaşlığı Avropaya inteqrasiya siyasətində mühüm əhəmiyyətə malikdir. Belə ki, Avronest ("East İnvest") Avropa Kommisiyasının təşəbbüsü ilə Sərq tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilməkdədir. Avropa Birliyinin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində əməkdaşlıq etdiyi ölkələrin parlament təmsilçilərindən ibarət Avronest Parlament Assambleyası AB-yə inteqrasiyanı sürətləndirməyə xidmət edirdi.

Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində Avronest proqramına 2011-ci il mart 31-də Brüsseldə start verilmişdir. Avronestin təsis yığıncağında Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna və Moldovanın parlament nümayəndə heyətləri iştirak etmiş, Belorusiya gözləmə mövqeyi tutmuşdu. Avronestin başlıca vəzifəsi Aİ ilə ŞT ölkələri arasında assosiasiyalı üzv sazişinin imzalanması və viza sisteminin yumşaldılması üçün danışıqların davam etdirilməsi idi. Postsovet məkanı ölkələrindən Avronest proqramında iştirak edən 5 dövlətin hamısında sesessionist münaqişələr olduğuna görə, bu sahəyə xüsusi diqqət verilməsi tələb olunurdu. Məhz buna görə Azərbaycan Prezidenti İ.Əliyev respublikamızın Avronestin fəaliyyətində iştirakına xüsusi əhəmiyyət vermiş, 2012-ci il aprelin 3-də onun II sessiyasının Bakı şəhərində keçirilməsinə nail olmuşdu. Sesiyada postsovet məkanının şərqi və cənubunda latent vəziyyətə gətirilmiş münaqişələrin mövcud vəziyyəti təhlil edilmiş, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazda sülh və təhlükəsizliyə vurduğu zərərin miqyası açılıb göstərilmişdi (12).

Avronest çərçivəsində əməkdaşlığa daha dinamik xarakter vermək məqsədi ilə Milli Məclisin spikeri S. Qafarovanın rəhbərliyi ilə deputatlardan Tahir Mirkişili, Cavanşir Feyziyev və Azər Kərimli daxil olmaqla Azərbaycanın “Avronest” PA-dakı nümayəndə heyətini formalaşdırıldı. Avronest Azərbaycan diplomatiyasına Aİ çərçivəsində yeni

tribuna demək idi, elə bir tribuna ki, onun vasitəsi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri demək, Ermənistanın işğalçı dövlət imicini formalaşdırmaq, erməni vandalizminin mahiyyətini dünyaya bəyan etmək mümkün idi (7).

Avronestin fəaliyyətinin elmi-politoloji və praktiki təhlili göstərir ki, ona erməni diasporunun təsiri güclüdür və bu amil milli diplomatiyamızdan bu sahəyə xüsusi diqqət verməsini tələb edir. Bunu Avronest PA-nın 2015-ci il martın 15-18-də Yerevanda keçirilən 4-cü sessiyasının işi aydın şəkildə göstərdi. Azərbaycan nümayəndələri onların təhlükəsizliklərinə təminat verilmədiyinə görə sessiyanın işinə qatılmamışdılar, Gürcüstan və Ukrayna nümayəndə heyətləri isə Yerevana tam tərkiblə getməmişlər. Bu eyni zamanda Ermənistanın beynəlxalq imicinin göstəricisi idi və qəbul edilmiş qərarların xarakterini müəyyən edirdi (10).

Ermənistan diplomatiyası da əlinə fürsət düşdükcə Avronestin tribunasından Azərbaycana qarşı istifadə etməyə çalışırdı. Belə ki, Avropa Parlementinin 2015-ci il sentyabrın 10-da qəbul etdiyi qətnamədə Azərbaycan hakimiyyəti insan hüquqlarının pozulması, siyasi hakimiyyətin geniş repressiya siyasəti yeritməsi və s. bağlı məsələlərdə ittiham edilirdi. "Azərbaycan" qəzetinin hesabatında deyilirdi: "Qətnamədə siyasi hakimiyyətə şər və böhtan atılıb, tərəfdaşlıq münasibətləri sarsıdılıb, Azərbaycanı Avropadan inteqrasiyadan təcrid etməyə yönəlib. Avropa Parlamenti ötən il formalaşan yeni tərkibindən sonra sədrinin qərəzli münasibətinə görə, deputatların Azərbaycana gəlməsinə qadağa qoyulub. Avropa Parlamentinin sədri Martin Şults ələbaxan qrupların fəaliyyətinə göz yumur... onun bütün qətnamələrin guya Avropa məhkəmələrinin çıxardığı qərarlara söykənir. Amma həmin Avropa Məhkəməsidir ki, bir müddət əvvəl "Çıraqov qardaşları Ermənistana qarşı" işi ilə bağlı qərar qəbul etsə də, hələ də icra edilməyib. İndidən Azərbaycanda keçiriləcək seçkilərin nəticələrini şübhə altına almağa çalışırlar. Bu da Azərbaycan seçicilərinin iradəsinə ziddir"(11).

Report.az-ın yaydığı xəbərə görə, Milli Məclis Avronest PA-nın qərarına etiraz əlaməti olaraq 13 bənddən ibarət qərar qəbul etmişdi ki, onlardan başlıcaları aşağıdakılardır:

- Azərbaycana qarşı pozucu fəaliyyətlərə son qoyulsun;
- ölkəmizə qarşı qərəzli kampaniyalardan əl çəkilsin;
- Azərbaycana qarşı konstruktiv addımlar atılsın;
- Avropa Parlamentinin nüfuzuna xələl gətirən fəaliyyətin qarşısı alınsın;
- Azərbaycan nümayəndə heyətinin "Avronest" Parlament Assambleyasının iclaslarında iştirak edilməsinə son qoyulsun və fəaliyyəti dayandırılsın;
- Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycanın məsul şəxsləri ilə bağlı sanksiya tətbiq olunacağı təqdirdə, Avropa Parlamenti üzvlərinin Azərbaycana girişinə qadağa qoyulsun"(3).

Azərbaycan parlamentinin Avronest PA-nın qərarına belə kəskin reaksiyası dərhal öz təsirini göstərdi, belə ki, Avronestin həmsədrləri Heidi Haut və Viktor Dolidze sentyabrın 17-də birgə bəyanat yaydılar. Bəyanatda deyilirdi: "Azərbaycan Milli Məclisi rəsmi şəkildə Avronest həmsədrlərini məlumatlandırdıqdan sonra qurumun normal şəkildə fəaliyyətini davam etdirməsi üçün lazımi addımlar atmaq məqsədilə vəziyyəti dərhal dəyərləndirəcəyik. Avronest PA Şərq tərəfdaşlığı proqramı üçün çoxtərəfli parlament qurumu olaraq qalır. O, Avropanın Şərq qonşularının Avropa İttifaqına siyasi və iqtisadi cəhətdən inteqrasiyasını sürətləndirmək məqsədilə açıq və inteqrasiya ruhunda fəaliyyət göstərməyə davam edəcək. Avronest PA-da iştirak etmək meyarlara cavab verən bütün əlaqədar Şərq tərəfdaşı ölkələrinin suveren və könüllü qərarıdır. Bu baxımdan biz Milli Məclisin qərarına hörmətlə yanaşırıq. Hesab edirik ki, bu qərar təəssüfləndiricidir... Bu qurumdan çıxmaq haqında qərar xəbərdarlıq etdikdən bir il sonra qüvvəyə minir. Bu müddətdə biz Milli Məclislə vəziyyəti müzakirə etməyə hazır olduğumuzu bildiririk"(6).

Məsələni müzakirə etmək üçün 2016-cı il sentyabrın 19-da Avronest Azərbaycana 15 nəfərdən ibarət geniş tərkibdə nümayəndə heyəti göndərdi. Qeyd edək ki, Avropa Parlamenti belə geniş tərkibdə hələ heç bir ölkəyə nümayəndə heyəti göndərməmişdi. AP-nin nümayəndə heyəti sentyabrın 19-21-də Bakıda olmuş, Prezident İ.Əliyev, Milli Məclisin üzvləri və digər rəsmi şəxslərlə görüşlər keçirmiş, Azərbaycanda mövcud vəziyyət, Dağlıq Qarabağ və ətrafındakı rayonlarda erməni vandalizmi ilə bağlı məsələlər, habelə bir sıra qanunvericilik aktları geniş müzakirə edilmişdi (2). Səfər Azərbaycanın Avronest PA-da işinin bərpa edilməsi ilə nəticələndi. Bununla belə, Ermənistan nümayəndələrinin Avronestdə təxribatçı fəaliyyətinə son verilmədi.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin hərbi həll yolu mövcud deyil" - fikri dəfələrlə Avropa qurumlarının tribunalarından, Ermənistanı dəstəkləyən qüvvələrin dilindən səsləndirilmiş, o cümlədən 2017-ci il noyabrın 4-də Avronest PA Bürosunun müraciətində də yer almışdı, halbuki, Azərbaycan Prezidenti İ.Əliyev dəfələrlə bəyan etmişdi ki, diplomatik danışıqlar nəticə verməsə, münəqişənin həllinin hərbi yolu istisna deyildir. Müraciətdə deyilirdi: "Biz Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün Ermənistan və Azərbaycan qoşunları arasında hərbi əməliyyatların qısa zamanda dayandırılmasını tələb edirik. Bu münaqişənin hərbi həll yolu mövcud deyil. Münaqişə substantiv danışıqların bərpası, etimadın möhkəmlənməsi üçün tədbirlərin görülməsi və dialoqun keçirilməsi yolu ilə həll olunmalıdır"(9).

Avronestin fəaliyyətində iştirak edən dövlətlər ölkələrində gedən siyasi-iqtisadi proseslər, Covid-19 pandemiyasına qarşı mübarizə, peyvəndləmə ilə bağlı mövcud vəziyyət haqqında məlumat verir, regional təhlükəsizlik məsələlərinə toxunurdular. 2021-ci il dekabrın 2-də Avronest PA-da 44 günlük Vətən müharibəsindən sonra Ermənistan nümayəndəsinin dezinformasiya xarakterli çıxışına cavab olaraq Azərbaycan nümayəndə heyətinin rəhbəri A. Kərimli erməni tərəfinin sərhəddəki təxribatları barədə ətraflı məlumat vermiş, Azərbaycan və Rusiya prezidentləri, habelə Ermənistanın baş nazirinin 26 noyabr 2021-ci il Soçi görüşü və görüşdə qəbul olunmuş bəyanatda öz əksini tapan məsələləri diqqətə çatdırmışdı. Avronest PA-nın Büro iclasında Büronun "Şərq tərəfdaşlığı" Sammitinə ünvanlanacaq mesajı ilə bağlı müzakirələrdə Ermənistan mətnə irəli sürdüyü Azərbaycanın əleyhinə dəyişikliyi qəbul etdirməyə çalışsa da, Azərbaycan tərəfinin qəti etirazı nəticəsində təklif rədd edilmişdi (8).

Bununla belə, Aİ qurum və proqramları təkcə diplomatik mübarizə meydanı deyildi, ikitərəfli əməkdaşlıq siyasi sahələrlə yanaşı, Azərbaycanda investisiya və biznes mühitinin daha da təkmilləşməsi prosesində də öz əksini tapırdı. Belə ki, "2018-2020-ci illər üçün Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetləri" adlı sənəd tərəflər arasında qarşılıqlı maraq kəsb edən sahələr üzrə prioritetlərin müəyyən edilməsi və 3 il üçün (2018-2020) konkret layihələr şəklində həyata keçirilməsi məqsədini daşıyırdı. 2021-ci ilin fevralında Avropa İttifaqı Azərbaycanda 131 layihəni nümayiş etdirən yeni veb saytını - "www.eu4azerbaijan.eu"-i təqdim etmişdir. Qeyd edək ki, birliyin Azərbaycan üzrə 2021-2027-ci illər üçün Çoxillik İndikativ Proqramlaşdırmanın aparılması işi artıq həyata keçirilməkdədir. Prezident İ.Əliyevin sərəncami ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə əsasən dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşdırılması həmin prioritetlər sırasındadır və Azərbaycan bu prosesdə tərəfdaş qurum və ölkələrlə əməkdaşlıq edir (4).

**Nəticə**

Ümumiyyətlə, Azərbaycanın xarici siyasət fəaliyyətinin konkret istiqaməti kimi Avropa inteqrasiya proseslərində fəal iştirak etmək zamanın tələbindən irəli gəlir. Coğrafi baxımdan Avropaya mənsub olan Azərbaycan bu istiqamətdə inteqrasiya proseslərinə qatılmaqla Qərb dəyərləri ilə səciyyələnən demokratik və sivil cəmiyyət quruculuğunu reallaşdırmaqdadır. Avropa ölkələrinin enerji təchizatında fəal aktorlardan biri kimi Azərbaycan Respublikası Avropa Qonşuluq Siyasəti, onun Şərq Tərəfdaşlığı aləti, cari fəaliyyət planları və Avronest vasitəsilə Birliyin sıralarında öz mövqelərini möhkəmləkdirməkdə və söz sahibinə çevrilməkdədir.

**Açar sözlər:** *Azərbaycan, Avropa Qonşuluq Siyasəti, Şərq tərəfdaşlığı, Avronest, qonşuluq aləti, Bakı sessiyası, fəaliyyət planı, geoiqtisari maraqlar, regional münaqişə, inteqrasiya.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Azərbaycan-Avropa İttifaqı / https://republic.preslib.az/az_a7-3.html*

*2. Azərbaycan Avropa Parlamenti ilə əlaqələri bərpa edir / https://www.bbc.com/azeri/ azerbaijan-37519500*

*3. Azərbaycan "Avronest" Parlament Assambleyasından çıxıb / https://report.az/xarici-siyaset/azerbaycan-avronest-parlament-assambleyasindan-cixib/*

*4. Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi Avropa İttifaqı ilə münasibətlərin inkişaf perspektivləri, sosial aspektləri – I Hissə/ http://newtimes.az/az/ organisations /7406/*

*5. Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın hüquqi əsasları / https://www.fhn.gov.az/organizations.php?aze-5/menu/382*

*6. Avronest: Azərbaycanın qərarına hörmətlə yanaşırıq / https://axar.az/news/toplum/65134.html*

*7. "Avronest" nümayəndə heyətinin tərkibi dəyişdirildi/ https://oxu.az/politics/260853*

*8. Avronest PA-nin büro iclasında Ermənistanın Azərbaycan əleyhinə təklifi qəbul edilməyib / https://ordu.az/ru/news/204611/avronest-pa-nin-buro-iclasinda-ermenistanin-azerbaycan-eleyhine-teklifi-qebul-edimeyib*

*9. "Avronest" PA Bürosu: Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu mövcud deyil /https:// news. milli.az/politics/596599.html*

*10. Avronest təsis olundu //http://www.aztv.az/ readnews.php?lang=en&id=1460*

*11. Milli Məclisin bu gün keçirilən növbədənkənar xüsusi iclasında Avronest PA-nın qərarı müzakirə olunub. Azərbaycan qəz., 2015, 14 sentyabr*

*12. Prezident İlham Əliyev: Azərbaycan beynəlxalq səviyyədə mühüm tərəfdaşa çevrilib. Azərbaycan qəz., 2012, 3 aprel*

*13. Şərq əməkdaşlığı və Avropa qonşuluq siyasəti //http://www. jam.az/ index. php?sid=559*

*14. "Şərq tərəfdaşlığı" bizə niyə lazımdır?// http://www.contact.az/ docs/2013/Interview / 061400039756az.htm#.VRmuYvysVIw*

*15. Постсоветские государства: 25 лет независимого развития. Сб. ст. в 2-х тт. / Отв. ред. – А.Б. Крылов. Том 2. Южный Кавказ. М.: ИМЭМО РАН, 2017, 127 с.*

## Присоединение Азербайджана к евроинтеграционным процессам: От ЕПС до Евронеста

### РЕЗЮМЕ

Региональное сотрудничество стало особенно актуальным в современную эпоху интеграции и глобализации. Азербайджанская Республика, вступившая на путь евроинтеграции с первых дней государственной независимости, начала предпринимать конкретные шаги по расширению контактов и сотрудничества с Союзом в политической, экономической, научной, образовательной и культурной сферах, а также реализовать планы действий.

В статье уточняется становление и сущность Европейской политики соседства в контексте общеевропейских интеграционных процессов и сотрудничества с ближайшими соседями Европы, анализируется возникновение и деятельность Евронест после программы Восточного партнерства, а также вопросы, связанные с участием Азербайджана в его Парламентская ассамблея.

**Ключевые слова:** *Азербайджан, Европейская политика соседства, Восточное партнерство, Евронест, Инструмент соседства, Бакинская сессия, план действий, геоэкономические интересы, региональный конфликт, интеграция.*

## Accession of Azerbaijan to European integration processes: From ENP to Euronest

### SUMMARY

Regional cooperation has become especially relevant in the modern era of integration and globalization. In this sense, the creation of regional associations is sustainable in our time and plays an important role in interstate relations. The Republic of Azerbaijan, which embarked on the path of European integration from the first days of state independence, began to take concrete steps to expand contacts and cooperation with the Union in the political, economic, scientific, educational and cultural fields, as well as to implement action plans.

The article clarifies the formation and essence of the European Neighborhood Policy in the context of pan-European integration processes and cooperation with Europe's closest neighbors, analyzes the emergence and activities of Euronest after the Eastern Partnership program, as well as issues related to Azerbaijan's participation in its Parliamentary Assembly.

**Key words:** *Azerbaijan, European Neighborhood Policy, Eastern Partnership, Euronest, Neighborhood Instrument, Baku session, action plan, geoeconomic interests, regional conflict, integration.*

UOT 32

# MÜASİR AZƏRBAYCANDA MODERNLƏŞMƏNİN İNNOVATİV TƏZAHÜRLƏRİ

**VASİF İSMAYILOV**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*E-mail: vasif.ismayil@mail.ru*

XX əsrin sonları və XXI əsrin əvvəllərində ölkələrin ictimai-siyasi həyatında yeni tendensiyalar meydana gəlməyə başladı. Yaranan bu yeni tendensiyalar mahiyyət etibarı ilə ümumbəşəri xarakteri daşımağa başladı. Dünyada baş verən sosial, iqtisadi, siyasi və digər proseslər açıq şəkildə görünməyə başladı. Bəzi cəmiyyətlər traditsionalizmi və elmi-texniki inqilabları, qlobalizmi və separatizmi, maarifçiliyi və dini fanatizmi, tərəqqi və tənəzzülü özlərinə cəlb etdilər, bəzi sosial qrupların cəmiyyətin siyasi həyatında iştirakı fəallaşdı, cəmiyyətin bəzi sahələri geri qaldı. Hazırda dünyanın və keçmiş SSRİ-nin müxtəlif ölkələrinin ictimai-siyasi həyatında mürəkkəbliklər və ziddiyyətlər davam edir. Həmin ölkələrin dövlət idarəçilik sistemləri ənənəvi qayda-qanunları saxlamaqla bərabər, həm demokratik, həm də qeyri-demokratik idarəetmə sistemlərinin əlamətlərinə uyğunlaşır və uyğunlaşmaqda davam edirlər.

Modernləşmə hərtərəfli bir proses kimi ictimai orqanizmin müxtəlif səviyyələrində eyni zamanda baş verən dəyişikliklər çoxluğunu özündə birləşdirir. Öz inkişafında geridə qalmış ölkələr üçün modernləşmə mahiyyət etibarı ilə daha inkişaf etmiş ölkələrin məhsullarının və texnologiyalarının nümunələrinin imitasiya və transplantasiya formalarını mənimsəyir. Beləliklə, müxtəlif cəmiyyətlər və mədəniyyətlər arasındakı ünsiyyət və təmaslar modernləşmənin mühüm şərtlərinə çevrilir.

Ümumiyyətlə, müasir dövr tarixi inkişafın yeni mərhələsindədir. Müasir dövr ictimai həyatda, xalqların və ölkələrin böyük əksəriyyətini əhatə edən qloballaşma və informasiyalaşma proseslərində siyasətin rolunun getdikcə artması ilə xarakterizə olunur. Bir çox hadisələr qlobal xarakter daşıyır. İnformasiyalaşma sərhəd tanımır, ekoloji problemlərin əhəmiyyəti kəskin şəkildə yüksəlir, hər hansı bir ölkənin sosial-iqtisadi şəraiti dünyanın başqa ölkələrindəki şərait ilə bu və ya digər dərəcədə əlaqəlidir.

Dünya sivilizasiyasında ümumi qanunauyğunluqlara tabe olan yeni hadisələrin baş verməsinə baxmayaraq, dünya təkamül yolu ilə inkişaf etməkdə davam edir. Əgər əvvəlki dövrdə siyasi sistemlər açıq şəkildə ənənəvi xarakter daşıyırdısa, bir qayda olaraq hökmdar təkbaşına hakimiyyətə malik idisə, dövlətin əhəmiyyətli məsələlərinin həllində praktiki cəhətdən vətəndaşların siyasi iştirakı yox idisə, sosial mobillik zəifdirsə, artıq XIX əsrin ortalarından etibarən şərait keyfiyyətcə dəyişməyə başladı. Qərbi Avropanı əhatə edən inqilablar, Amerika dövlətinin inkişafı və Rusiyadakı siyasi böhranlar müasir tipli yeni siyasi sistemin simvollaşdırılmasının əsasını qoydu. Bunlar siyasi modernləşmə prosesləri ilə müşayiət olunmağa başladı ki, bu da hakimiyyət bölgüsü, siyasi və ideoloji plüralizm və seçki institutları ideyalarının reallaşdırılmasını nəzərdə tuturdu. Bu proseslər dünyanı əhatə etdi və XX əsrin ikinci yarısında yenidən postmodern cəmiyyətlər üçün xarakterik olan siyasi sistemlərdə keyfiyyət dəyişikliklərinə gətirib çıxardı.

Sosial-siyasi paradiqmaların sivilizasasiyaların yeni qaydalarına uyğun olaraq dəyişməsi cəmiyyətin siyasi həyatındakı rolu ilə bağlı məsələləri ciddi şəkildə qarşıya qoyur. Postmodern cəmiyyətlərin idarəedilməsi təkcə müəyyən strateji vəzifələrin yerinə yetrilməsini ifadə etmir, həm də sosial ədalət, azadlıq və bərabərliyin meyarlarına cavab verən siyasətin ali məqsədlərinin reallaşdırılmasını nəzərdə tutur. Belə güman edirik ki, bu ali məqsədlərin həyata keçirilməsi siyasi modernləşmə vasitəsi ilə mümkündür. Məhz siyasi modernləşmə hazırda müasir cəmiyyətin ən səmərəli inkişaf vasitəsidir. Bizim fikrimizcə, siyasi modernləşmə prosesləri siyasi sistemi dəyişdirmək qabiliyyətinə malikdir ki, bu da cəmiyyətdə daha çox sosial ədalət və həmrəylik yaradır.

Dünya təcrübəsində dövlət idarəçiliyinin modernləşdirilməsinin müəyyən alqoritmi mövcuddur. Birinci mərhələdə əsas diqqət hüquqi aktlara və qanunvericiliyin normativ əsaslarının yaradılmasına yönəldilir. Sonra dövlət idarəetmə sisistemində stabil fəaliyyət göstərən institutların və təşkilatların yaradılmasına keçilir. Yalnız bundan sonra mövcud problemlərin təhlilinə və dövlət idarəetməsinin "ideal" modelinin işlənilməsinə əsaslanan idarəetmə

fəaliyyətinin effektivliyinin yüksəldilməsi məsələləri üzərində işlənilməsinə başlanır [1, s.137].

İdarəetmə fəaliyyətinin moderləşdirilməsi müasir cəmiyyətin birləşməsinə, onun yaşamasına və "riskli cəmiyyət" şəraitində inkişafının yüksəldilməsinə yönəldilmişdir. İdarəetmə fəaliyyətinin modernləşdirilməsi mahiyyətcə özündə köhnə idarəetmə sistemindən dövlət idarəçiliyinin yeni modelinə dönüşü ifadə edir. İdarəetmənin köhnə sistemi artıq cəmiyyətin sosial aspektlərinə yönələ bilmədiyinə və ona istinad etmək qabiliyyətinə malik olmadığına görə cəmiyyətin kəskin qütbləşməsinə, insanların bir-birinə etimadsızlığına və dözümsüzlüyünə, öz ölkələrinin gələcəyi naminə vətəndaşların qarşılıqlı məsuliyyətinin azalmasına gətirib çıxarır. Dövlət və cəmiyyətin inteqrasiyası, sosial-iqtisadi və sosial-mədəni inkişaf naminə müxtəlif sosial qrupların əməkdaşlığı idarəetmə sisteminin modernləşdirilməsinin başlıca vəzifəsidir.

Dövlət idarəçiliyinin modernləşdirilməsi dövlətlə cəmiyyət, hakimiyyətlə biznes, mərkəzlə regionlar arasında idarəetmə funksiyalarının yenidən bölünməsini nəzərdə tutur. Dövlət idarəçiliyinin desentralizasiyası və hazırda dövlətin ixtiyarında olan iqtisadi, sosial və digər funksiyaların bir hissəsinin verilməsi bütün idarəetmə sisteminin əhəmiyyətli dərəcədə optimallaşdırılmasına, onun effektivliyinin və keyfiyyətinin yeni səviyyəyə qaldırılmasına imkan yaradır.

Dövlət idarəçiliyində modernləşmənin effektivliyinin yüksəldilməsinin növləri aşağıdakılara ayrılır: texniki, təşkilati, iqtisadi, istehsal, sosial effektivlik.

Dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsinin strukturuna aiddir:

- idarəetmənin ümumi effektivliyi istənilən idarəetmə sisteminin fəaliyyətinin nəticəsi ilə xarakterizə olunur;

- idarəetmənin konkret effektivliyi idarəetmə fəaliyyətinin ayrı-ayrı elementlərinə – konkret idarəetmə qərarlarına, vəzifəli şəxslərin, menecerlərin, digər idarəedicilərin davranış aktlarına yönəldilir [2, s.411-412].

Dövlət idarəçiliyində modernləşdirilmənin effektivliyinin yüksəldilməsi cəmiyyətin və insanların həyat fəaliyyətinin müxtəlif tərəflərini əks etdirir və xarakterizə edir. Ona görə də dövlət idarəçiliyində effektivliyin yüksəldilməsi idarəetmə obyekti ilə idarəetmə subyektləri arasında qarşılıqlı təsirin nə dərəcədə olması ilə bağlı az və ya çox dərəcədə aydın və dəqiq təsəvvür yaradır və onlar cəmiyyətin inkişafına və onun problemlərinin həllinə hansı xəzinəni bəxş edir.

Dövlət idarəçiliyində effektivliyin yüksəldilməsinin başlıca vasitələrindən biri də nəzarətdir. Nəzarət çoxşaxəli olmadan məqsədyönlü həyat fəaliyyəti mümkün deyil. Buna görə də nəzarətin başlıca məqsədi idarəetmənin keyfiyyətinin yüksəldilməsindən, idarətemənin aparılması prosedurunun formalarından və metodlarından ibarətdir [2, s.37].

Dövlət idarəçiliyində hüquq sisteminin modernləşdirilməsi həmişə hüquqla nizamlanan ictimai münasibətlərin bütün konqlomeratının kompleksli struktur transformasiyasını nəzərdə tutur. Dövlət idarəçiliyinin modernləşdirilməsinə həmişə idarəetmə fəaliyyətinin köhnə, zamanın tələblərinə cavab verə bilməyən hüquqi əsasları maneçilik törədir. Dövlət idarəçiliyi sahəsində islahatların aparılması bu sahədə keyfiyyətin yüksəldilməsinə səbəb olur. Tədrici islahatların aparılması məharəti və üstünlüyü konsepsiyaları sosial və dövlət tələbatlarının effektivliyini aşağı salmadan bu prosesin tədricən həyata keçirilməsindən ibarətdir.

Heydər Əliyev yaradılacaq konstitusiyanın demokratik prinsiplərini bəyan edərək bildirmişdir ki, "Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları konstitusiya özündə əks etdirməlidir" [3, c.4, s.319].

Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ilə Azərbaycanda hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Hüquqi dövlət quru-

culuğunun bərqərar edilməsi isə məhkəmə – hüquq sisteminin modernləşdirilməsindən başlayır. Çünki, 1991-ci ilin oktyabrında Azərbaycan öz dövlət müstəqilliyini elan etsə də, sovet hakimiyyətindən miras qalmış totalitar məhkəmə – hüquq sistemi və qanunlar hüquqi və demokratik dövlət və cəmiyyət quruculuğuna əngəl olur, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarına təminat vermirdi. Buna görə də demokratik və hüquqi dövlət idarəçiliyinin bərqərar edilməsi və hüquqi islahatların həyata keçirilməsi zərurəti yarandı. Bu baxımdan tamamilə yeni ümumbəşəri demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasına tələbat yarandı.

Dövlət idarəçiliyi sahəsində aparılan modernləşmənin və islahatların zəruriliyini qeyd edən Prezident İlham Əliyev demişdir: “Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki, bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır. Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni, bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılmışdır” [4, c.100, s.108].

Ümumiyyətlə, modernləşmə və innovasiyalı inkişaf müasir cəmiyyətin uğurlu inkişafının ayrılmaz xarakteristikasını özündə ifadə edir. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında əldə etdiyi uğurların əsasında iqtisadi modernləşmə və innovasiyalar durur. Müasir dünyada rəqabətin yüksək səviyyəsinin mövcud olması innovasiyaların tətbiqi yolu ilə əldə olunan effektivliyin durmadan yüksəldilməsini tələb edir. Hazırkı şəraitdə son illərdə Azərbaycanda modernləşmə yolu ilə aparılan dərin islahatlar həm ictimai həyatın bütün sahələrində – sosial, iqtisadi, siyasi, mədəni sahələrində, həm də dövlət idarəçiliyinin bütün səviyyələrində baş verən kardinal islahatların prioritetlərini əvvəlcədən müəyyən edir.

Azərbaycan Respublikasında sosial dövlətin bərqərar edilməsi və sosial modernləşmənin strateji istiqamətləri Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində irəli sürülmüşdür. Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək sosial-iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün üzünmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Stirateji Yol Xəritəsində sosial-iqtisadi inkişaf, ardıcıl islahatlar əsasında sosial dövlətin möhkəmləndirilməsinin və sosial modernləşdirilmənin həyata keçirilməsinin məqsədləri və başlıca hədəfləri göstərilmişdir. Strateji Yol Xəritəsində deyilir: “Azərbaycan neft gəlirlərinin düzgün idarə edilməsi hesabına sosial və iqtisadi infrastruktur qurulması, yüksək yığım və nisbətən kiçik xarici borc, yoxsulluğun azaldılması, özəl sektorun ÜDM-də payının yüksək həddə çatdırılması və biznes mühitinin yaxşılaşdırılması sahəsində uğurlara imza atmışdır. Strateji Yol Xəritəsi çərçivəsində yaxşı idarəetmə əsasında makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, tarazlaşdırılmış regional inkişafı təmin etmək, biznes mühitini yaxşılaşdırmaq və özəl sektorun iştirakçılığını gücləndirmək planlaşdırılır” [5, s.55].

2020-ci il sentyabr ayının 27-dən noyabrın 10-dək İkinci Qarabağ müharibəsi baş verdi. 44 günlük müharibə nəticəsində Azərbaycan Ordusu düşmən üzərində şanlı qələbə çalaraq, Ermənistan ordusunu ağır məğlubiyyətə uğradaraq işğal edilmiş Azərbaycan ərazisindən çıxardı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusu və Azərbaycan xalqının möhkəm birliyi nəticəsində işğal altında olan Şuşa, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilan, Ağdam, Kəlbəcər, Laçın rayonları və digər ərazilər işğaldan azad edildi, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. 30 ilə yaxın işğal altında olan bu ərazilərdə yerləşən, şəhər, qəsəbə və kəndlər ermənilər tərəfindən vəhşicəsinə məhv edilmiş, məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri, kitabxanalar, məscidlər, tarixi abidələr, sosial infrastrukturlar və yaşayış evləri yerlə yeksan olunmuşdur. Dağıdılmış ərazilərin yenidən bərpası və bir milyondan artıq

məcburi köçkünün doğma evlərinə qayıtması, müharibədə şəhid olmuş əsgər və zabitlərin ailələrinin, qazilərin sosial müdafiəsi güclü sosial proqramın yaradılması və onun yerinə yetirilməsi zərurətini yaratdı. Eyni zamanda Azərbaycancda sosial dövlətin gücləndirilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılması sosial prioritet kimi qarşıya qoyulmuşdur. Bu məqsədlə Prezident İlham Əliyev 02 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Sərəncam imzaladı. Milli prioritetlərin "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" adlanan giriş hissəsində qeyd edilir ki, "Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

**Açar sözlər:** *modernləşmə, sosial dövlət, sosial modernləşmə, innovasiyalı inkişaf.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Орехов А.М. Методы экономических исследований. Учебное пособие для бакалавров. /А.М.Орехов, - Москва: 2020. – 344 с.*

2. *Атаманчук Г.В Теория государственного управления: учебник /Г.В.Атаманчук . – 4-е изд., стер.- Москва: Омега – Л, - 2014. – 525 с.*

3. *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] /H.Əliyev. - Bakı: Azərnəşr, - c.4. - 1997. – 528 s.*

4. *Prezident İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda nitqindən: Əliyev İ.H. İnkişaf məqsədimizdir: [108 cilddə] /İ.Əliyev. – Bakı: Azərnəşr, - c.100. – 2020. – 400 s.*

5. *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol xəritəsi Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir: [Elektron resurs] /Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. – Bakı, 2016. static.president.az/pdf/38542.pdf*

## РЕЗЮМЕ

Учитывая неспособность мировых политических процессов примириться с традиционной политикой и необходимость повышения роли человеческого фактора, в статье рассматривается вопрос устойчивой политики и безопасности в современном Азербайджане путем применения инновационных факторов в государственной политике в современном мире для обеспечения интеграции человеческого фактора и политики развития. Отмечается, что применение инновационных проявлений модернизации для адекватного ответа на вызовы новой эпохи является одним из важных факторов обеспечения устойчивости государственной политики и действенным фактором развития.

**Ключевые слова:** *модернизация, социальное государство, социальная модернизация, инновационное развитие.*

## SUMMARY

Article Incompatibility of world political processes with traditional politics and the human factor the necessity to be more important, To ensure the integration of the human factor and development policy into public policy by applying innovative factors to public policy in the modern world sustainable policy and security issue to provide more efficiently covers the factors that contribute to the development of innovative modernization in modern Azerbaijan. It is noted that the application of innovative manifestations of modernization in order to adequately respond to the challenges of the new era is one of the important factors to ensure the sustainability of public policy and the effective factor of development at all times.

**Key words:** *modernization, social state, social modernization, innovative development.*

**УДК 32**

# РОЛЬ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА В УКРЕПЛЕНИИ ДОВЕРИЯ МЕЖДУ ГОСУДАРСТВОМ И ГРАЖДАНСКИМ ОБЩЕСТВОМ

**ФАРИД АСКЕРОВ**
*Докторант кафедры Политологии и политического менеджмента Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

*E-mail: faridaskerov@rambler.ru*

Обычно в новых независимых государствах бывает немало проблем с управлением. Одной из таких проблем является организация борьбы с коррупцией. К важнейшим целям создания электронного правительства является борьба с коррупцией. Как показывает практика передовых стран, электронное правительство является одним из самых эффективных механизмов по борьбе с коррупцией.

Эффективность использования данного механизма в Азербайджане доказывается тем, что в последние годы рейтинг нашей республики растет по целому ряду показателей, отражающих шаги, предпринимаемые в данной сфере. На сегодняшний день Азербайджан занимает 56 место по индексу EGDI, который является пока единственный общепринятым международным стандартом по внедрению ИКТ в систему государственного управления.[7] В 2018-ом году Азербайджан занял 122 место в списке по индексу восприятия коррупции[3].

В Азербайджане обеспечивается право на получение информации и кроме Конституции данное право охраняется законом о «Свободе получения информации».

Начавшее в 2007 году вести широкомасштабную борьбу с коррупцией, правительство Азербайджана в 2012 году приступило к проведению второго этапа своей антикоррупционной стратегии. Важным шагом в обеспечении предоставляемых населению электронных услуг, стало создание при Президенте Азербайджанской Республики Государственного Агентства по оказанию гражданам услуг и социальных инноваций. В отчете ООН по электронному правительству за 2012 год указывается, что наличие национального координационного центра является важнейшим фактором, способствующим удовлетворению потребностей граждан. В Азербайджане созданы обеспечивающие оказание гражданам высококачественных услуг Центры Обслуживания ASAN. В то же время, с целью увеличения прозрачности и содействия деятельности открытого правительства, Азербайджан в 2012 году присоединился к организации «Партнерство Открытого Правительства».[6, 23]

Государственное Агентство по Оказанию услуг Гражданам и Социальным Инновациям является центральным исполнительным органом, обеспечивающим проведение в жизнь взаимной интеграции государственных организаций с информационными базами, ускорение процесса организации информационных услуг, совершенствование системы государственного управления в этой сфере. Одной из задач, стоящих перед Государственным Агентством, является оценка деятельности государственных учреждений по организации и оказанию населению электронных услуг, составление по результатам этих оценок различных справок и отчетов. К целям стоящим перед Центрами Обслуживания ASAN относятся рост прозрачности, усиление борьбы с коррупцией и более широкое использование электронных услуг населением.[1]

Для усовершенствования предоставляемых электронных услуг на основании утвержденных Государственным Агентством «Правил по оценке организации и оказания электронных услуг в государственных организациях» с целью определения степени использования электронных услуг была произведена оценка предоставляемых 40 государственными организациями электронных услуг. Информация об этом была размещена на официальной странице Государственного Агентства. По итогам оценивания в эти организации были направлены отчеты с перечнем выявленных недостатков и ошибок, а также даны рекомендации по их устранению. [2]

В утвержденной в 2009-ом году «Государственной Программе по развитию юстиции

на 2009-2013 гг.» в числе основных задач указывается ускорение внедрения новых ИКТ, организация соответствующего современным требованиям процесса работы и расширение возможностей для приема обращений граждан. Одной из важных проблем в судах является информирование граждан о месте и времени проведения судебных заседаний в установленном порядке. Несвоевременная доставка судебных уведомлений приводит к нарушению принципа состязательности, появляются трудности и в связи с этим Судебно-правовой Совет и Министерство Связи и Высоких Технологий подготовили «Концепцию по внедрению электронных судебных уведомлений».

В 2014 году Президент Азербайджана Ильхам Алиев подписал распоряжение о создании информационной системы «Электронный суд». Благодаря этой системе люди могут, не приходя в суд, обращаться в него в электронной форме, получать информацию о судебном процессе на электронных носителях, будет создана возможность с помощью аудио и видео и других технических средств для наблюдения за судебным процессом в онлайн-режиме, сведения о ходе процесса, принимаемых решениях и ходе их исполнения участники процесса получат в свое распоряжение через электронный «личный кабинет», будет обеспечен электронный оборот всего делопроизводства [4].

За последние года в нашей стране в эксплуатацию были переданы 4 новых здания суда, оборудованные с применением ИКТ. В рамках проводимого совместно с Всемирным Банком проекта «Модернизация системы правосудия» завершено создание ИТ инфраструктуры, обеспечен электронный документооборот, электронная система управления судебными делами, а также подготовлена система электронного учета процессов для Судебно-Правового Совета, Министерства Юстиции а также целого ряда судов и органов Министерства Юстиции. С помощью единого портала судебной системы для граждан создана возможность в онлайн-режиме обращаться в судебные органы и получать ответы на свои обращения, получать образцы исковых заявлений и других судебных документов, информацию о приемных днях и др. Желание использовать опыт нашей страны в этой сфере выразил целый ряд стран, в частности Хорватия, отдавшая предпочтение азербайджанской модели. На официальном сайте Министерства Юстиции размещена электронная форма обращений о злоупотреблениях в органах юстиции, коррупционных правонарушениях и правонарушениях, создающих условия для коррупции.

Для обеспечения участия граждан в государственном управлении в созданном на Государственном портале отделе «Предложения» граждане могут оставлять свои предложения и пожелания по подготавливаемым Кабинетом Министров и центральными исполнительными органами проектам нормативно-правовых актов [5].

Азербайджан также заинтересован в изучении международного опыта в области электронного государственного строительства.

Так, в 2013 году Министерством Связи и Высоких Технологий Азербайджанской Республики и Министерством Иностранных Дел Республики Корея был заключен договор на сумму 3,7 млн. дол. с целью создания учебных центров в рамках проекта электронного правительства в Азербайджане. Анализ показывает, что несмотря на то, что в Азербайджане создана необходимая правовая база, строительство электронного государства сталкивается с целым рядом проблем. В том числе, мы можем наблюдать существенные недостатки в работе сайтов некоторых государственных органов и на государственном электронном портале. Несмотря на эти проблемы, число предоставляемых гражданам электронных услуг постоянно растет. Для устранения имеющихся проблем ведется работа. Для решения этих проблем необходимо и активное участие граждан, которые должны выражать свои мысли и предложения посредством «банка предложений» на электронном государственном портале. Электронизация предоставляемых населению государственными органами услуг создает почву для качественно новых отношений между чиновниками и гражданами. Переход к оказанию электронных услуг имеет результатом обеспечение прозрачности, уменьшение коррупционных явлений, устранение случаев проволо-

чек, сведение к минимуму непосредственного общения между гражданами и работниками государственных органов. ИКТ воспринимаются как выгодное средство для обеспечения устойчивого развития республики, укрепления интеллектуального потенциала, реализации бизнес-проектов, ведения борьбы с коррупцией, уменьшения бедности и безработицы, развития прозрачности и демократии. С ростом электронных услуг и числа пользующихся ими граждан растет и прозрачность.

Процесс формирования электронного правительства и переход к информационному обществу в Азербайджане является прежде всего одним из важных условий глобализации. Переход к э-правительству предполагает трансформацию процессов в политической, экономической и культурной структуре общества. В перспективе для Азербайджана такие трансформации допускают возможность переход к электронной демократии. Посколку на данном этапе правительство Азербайджана принципиально такую цель не поставило перед собой. Таким образом, возможность формирования в Азербайджане электронной демократии будем рассматривать только в отдаленной перспективе.

Процесс формирования электронного правительства в Азербайджане привел к формированию новых отношений, новых институтов и некоторых элементов которые позитивно повлияли на эффективность системы государственного управления. Произошедшие изменения в качественном плане сами по себе можно отнести к признакам электронной демократии:

Прежде всего резко повысился уровень транспарентности. Как отмечает академик Р. Мехтиев «Новые технологии способствуют формированию новых ориентиров в общественном сознании, включая в процесс социальной активности индивидов одного пространства и других участников, связанных посредством информационных коммуникаций. Это, в свою очередь, создает возможность вовлечения политических элит других пространств для решения возникающих проблем демократии». Прозрачность укрепляет взаимопонимание между властью и гражданским обществом. Увеличилась степень доверия к государственным учреждениям. Практически все государственные структуры имеют интернет страницы, на которых они поместили информационные стенды для обеспечения прозрачность и подотчетности деятельности перед обществом. Каждый гражданин в стране имеет возможность получить информацию по поводу деятельности органах государственного управления. Это привело к сближению отношений между «четвертой» ветвью власти и органами государственного управления.

Повышение уровня участия в госуправлении. На самом деле электронная демократия предполагает переход от представительной к прямой демократии. Пока что в Азербайджане невозможно определить четкие формы прямого участия в системе государственного управления.

Интернет становится посредником в отношениях между государством и обществом. Надо отметить, что данная тенденция в Азербайджане усилилась за последние 4 года. Комитет статистики Азербайджанской Республики 2017-ом году опубликовал сборник под названием «Информационное общество в Азербайджане», в котором приведены интересные факты, отображающие ход и перспективы его развития. Так если в 2012-ом году число обращений через интернет к государственным структурам было 8 из 100 семей то в 2017 году данный показатель увеличился почти в два раза (15Х100). Данный показатель дает возможность сделать вывод о том, что правительство в Азербайджане сделало очень многое для того чтоб отношение между обществом и властью перешёл на непосредственную платформу. Увеличение данного показателя создает предпосылку для перехода к э-демократии в стране.

Формирование элементов электронной демократии. На сегодняшний день в Азербайджане не существует реальные элементы электронной демократии о которых говорил Анториокко. Одним из таких элементов является система электронной избирательной системы. На сегодняшний день в Азербайджане электронное выборы не практикуются, исключая единичные случаи, когда проводились акции по поводу сбора подписей под петициями направляемыми в

Белый Дом и т.д. Данное положение не говорит о том, что в Азербайджане возможный переход к данному механизму не рассматривается. Нужно отметить, что впервые данная проблема была обсуждена в Милли Меджлисе еще в 2017-ом году. Кроме того, техническая база для осуществления данного перехода была готова уже в 2010-ом году. Об этом заявило Министерство связи и информационных технологий» еще в ноябре 2010-ого года и презентовала систему «Электронные выборы и общественное мнение». В 2017-ом году после долгих обсуждений было принято решение о задержке процесса реализации данной системы связи с тем что пока в Азербайджане политическая культура не позволяет применить такие технологии.

Интернет и социальные сети - это среда подготовки общественного сознания к процессу перехода к электронной демократии. На сегодняшний день в Азербайджане общество широко использует социальные сети для обсуждения общественных проблем. Сюда входят и политические дискуссии. . Но и в этой сфере есть свои минусы. На сегодняшний день в стране нету почти что не осталось национальных платформ для такой дискуссии. Прежде всего это связано резким изменением тематического транскрипта. Были в Азербайджане такие национальные локальные платформы такие как bakililar.az, baku.ru и disput.az которые начиная с 2009-ого года начали резко терять рейтинги. Сеть была охвачена глобальными социальными сетями такими как facebook и twitter. Данная тенденция по нашему мнению опасна тем что сервера данный сетевых контроллеров находятся за рубежом. Опыт «арабской весны» показал что данные сети иногда очень легко можно использовать для запуска взрывоопасных политических технологий что не соответствует принципам национальной и государственной безопасности. Иногда политические «активисты» под прикрытием технической независимости могут использовать такие механизмы, которые не входят не в какие моральные и этические рамки. Для того чтоб не встречается с такими негативными явлениями государство обязательно должна стимулировать процесс расширение национальных платформ общественной дискуссии и должно участвовать в данных дебатах через определенные механизмы.

## СПИСОК ЛИТЕРАТУРЫ

1. *Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə, http://www.justice.gov.az*

2. *Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə həvalə edilmiş tədbirlərin (2013-cü il üzrə) icrası ilə bağlı Hesabat, http://www.vxsida.gov.az*

3. *Corruption Perceptions Index 2018: Results, http://www.transparency.org*

4. *http://www.justice.gov.az/view_full.php?id=566*

5. *Normativ-hüquqi aktların layihələri, https://www.e-gov.az/az/content/read/15*

6. *Report on Development of a monitoring methodology for e-governance in Azerbaijan. OSCE. Tallinn, 2012, 40 p*

7. *United Nations E-Government Survey 2014: E-Government for the Future We Want, New York, 2014, http://www.unpan3.un.org*

## XÜLASƏ

Dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, korrupsiyaya qarşı mübarizə Azərbaycanda dövlət siyasətinin ən mühüm istiqamətlərindən biridir. Bu kimi problemlərin həlli üçün çox səmərəli mexanizm elektron hökumətə keçid yolu ilə yeni idarəetmə modelinin yaradılmasıdır. İKT sahəsində nailiyyətlərdən istifadəyə əsaslanan ən qabaqcıl idarəetmə üsullarının tətbiqi elektron demokratiyaya keçid üçün ilkin şərtlər yaradır. Azərbaycanda elektron hökumətin formalaşması prosesi yeni münasibətlərin, yeni institutların və dövlət idarəetmə sisteminin səmərəliliyinə müsbət təsir göstərən bəzi elementlərin formalaşmasına səbəb olub.

**Açar sözlər:** *elektron hökumət, korrupsiyaya qarşı mübarizə, məlumat almaq hüququ, elektron demokratiya, əhaliyə elektron xidmətlər, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması.*

**РЕЗЮМЕ**

Повышение эффективности государственного управления, борьба с коррупцией является одним из наиболее важных направлений государственной политики в Азербайджане. Весьма эффективным механизмом решения таких задач является создание новой модели управления за счет перехода к электронному правительству. Внедрение наиболее передовых методов управления построенных на использовании достижений в сфере ИКТ создает предпосылки для перехода к электронной демократии. Процесс формирования электронного правительства в Азербайджане привел к формированию новых отношений, новых институтов и некоторых элементов которые позитивно повлияли на эффективность системы государственного управления.

**Ключевые слова:** *электронное правительство, борьба с коррупцией, право на получение информации, электронная демократия, электронные услуги населению, повышение эффективности государственного управления.*

**SUMMARY**

İncreasing the efficiency of public administration, fight against corruption is one of the most significant directions of public policy in Azerbaijan. A very effective mechanism for solving such problems is the establishment of a new management model through the transition to e-government. The application of the most advanced management methods based on the use of achievements in the field of ICT creates the preconditions for the transition to e-democracy. The process of formation of e-government in Azerbaijan has led to the formation of new relationships, new institutions and some elements that have a positive impact on the effectiveness of public administration.

**Key words:** *e-government, fight against corruption, right to information, e-democracy, e-services to the population, increasing the efficiency of public administration.*

UOT 32

# 44 GÜNLÜK MÜHARİBƏ ZAMANI ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TÖRƏTDİYİ MÜHARİBƏ CİNAYƏTLƏRİ

**AYSEL BƏDƏLOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının magistrantı*

*E-mail: aysel.bedelova.99@mail.ru*

Əsrlər boyu Azərbaycan torpaqları istər coğrafi mövqeyinə görə, istərsə də faydalı qazıntılarına görə digər dövlətlərin diqqət mərkəzində olmuşdur. Bu isə torpaqlarımıza hücum edilməsi, hətta onların işğal edilməsi ilə nəticələnmişdir. Azərbaycan tarixində Qarabağın yeri və tarixi xüsusi əhəmiyyətə malikdir. Qarabağ coğrafi cəhətdən Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Belə bir coğrafi mövqedə yerləşdiyindən tarix boyu bir çox dövlətlər buranı ələ keçirmək istəmişdirlər. Lakin, Qarabağ bütün dövrlərdə bütün cəhətlərdən Azərbaycanın bir hissəsi olmuşdur.

**Dağlıq Qarabağ münaqişəsinin başlaması**

Azərbaycan və Ermənistan arasındakı bu münaqişənin başlaması XX əsrin əvvəllərinə təsadüf edir. Rusiyada 1917-ci il bolşevik inqilabından sonra ermənilərin Qarabağ iddiaları səbəbindən qarşıdurmalar başladı. 30 iyun 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında qərar qəbul edildi və 7 iyulda Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.[7] Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-ə tabe olması 1936-cı ildəki Sovet Konstitusiyasının 24-cü maddəsində də təsdiq edilmişdir. Sovet İttifaqı zəifləməyə başlayanda ermənilərin Dağlıq Qarabağın Sovet Azərbaycanından Sovet Ermənistanına verilməsi tələblərini səsləndirməyə başlaması ilə münaqişə müharibəyə çevrildi. Ermənilər 1991-ci ildə Xankəndini, 1992-ci ildə Şuşanı və Xocalını, daha sonra Laçın, Xocavənd, Kəlbəcər və Ağdərəni işğal edərək 1993-cü ildə Ağdama daxil oldular. Ağdamın ardınca Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan işğal edildi. Bununla da, Azərbaycan torpaqlarının 20%-i Ermənistan tərəfindən işğal edilmiş oldu. Ermənilərin əsassız iddiaları səbəbilə 20 mindən çox insan həyatını itirmiş, 4 minə yaxın azərbaycanlı itkin düşmüşdür. 1 milyona yaxın insan öz doğma torpaqlarını tərk etməli olmuşdu.[2]

**44 günlük Vətən müharibəsi**

Bişkek protokolundan sonra müxtəlif beynəlxalq qurumlar çərçivəsində Azərbaycan Respublikası və Ermənistan arasında uzunmüddətli diplomatik danışıqlar aparılmışdır. Lakin diplomatik danışıqlar 2018-ci ildə baş nazir seçilən Nikol Paşinyanın təxribat xarakterli hərəkətləri, "Qarabağ Ermənistandır və nöqtə" kimi bəyanatları və işğal altında olan Azərbaycan torpaqlarına qanunsuz səfərləri nəticəsində sarsıldı. Bir digər səbəb isə 2020-ci il avqustunda Anna Hakobyanın işğal olunmuş Azərbaycan torpaqlarında keçirilən qanunsuz hərbi təlimdə iştirak edib bunu ictimaiyyətə təqdim etməsi olmuşdur. 25 sentyabrda Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasında Ermənistanın təxribatları nəticəsində Azərbaycan əsgərlərinin həyatını itirdiyini və Ermənistanın xarici hərbi dəstə ilə bir sonrakı böyük təxribata hazırlaşdığını bildirmişdir. Amma nə BMT və ATƏT-in Minsk qrupu, nə də digər dövlətlər bir addım atmadılar. 27 sentyabrda Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və minaatanlardan istifadə edilərək Azərbaycan ordusunun cəbhə xəttindəki mövqelərinə atəş açılmışdır. Ermənistanın atəşkəsi pozmasından sonra Azərbaycan əməliyyatlara başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasında hərbi vəziyyət, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə qismən səfərbərlik elan olunmuşdur. Hərbi əməliyyatlar başladığı an BMT-nin baş katibi Antonio Guterres və digər beynəlxalq təşkilatlar, xarici dövlətlər hər iki dövləti problemin sülh yolu ilə həllinə çağırdılar. Lakin heç vaxt bizdən dəstəyini əsirgəməyən Türkiyə həm bir millət-iki dövlət olmaqdan, həm də beynəlxalq hüququn təməl prinsiplərinin yerinə yetirilməsindən qaynaqlandığını ifadə edərək Azərbaycanı dəstəklədi. İlk saatlar işğal altında olan 6 kənd və bəzi strateji təpələr azad edildi. 29 sentyabrda BMT-nin Təhlükəsizlik Şurası

Azərbaycan və Ermənistanı danışıqlara qayıtmağa çağırsa da, Azərbaycan müharibəni dayandırmaq üçün yeganə şərtin Azərbaycan torpaqlarında erməni işğalına son qoyulması olduğunu bildirmişdir. Oktyabrın 3-də strateji əhəmiyyətə malik olan Suqovuşan işğaldan azad edildi. Oktyabrın 4-də 27 ildir işğal altında olan Cəbrayıl azad edildi.[9] Oktyabrın 9-da Hadrut, Cəbrayıl rayonunun Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı, Tərtər rayonunun Çaylı, Xocavənd rayonunun Sor kəndləri erməni işğalından azad edilmişdir.[5] Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan müzakirələrdən sonra oktyabrın 10-da Ermənistan və Azərbaycan arasında Rusiyanın vasitəçiliyilə birinci atəşkəs sazişi imzalandı. Lakin cəbhədə döyüşlərin yenidən başlaması ilə bu atəşkəs pozulmuşdur. 11 oktyabrda Ermənistan Silahlı Qüvvələrinin Gəncədəki yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 nəfər həlak olmuş, 35-dən çox insan yaralanmışdır. Ermənistan Azərbaycan xalqına qarşı bu cinayəti törədən zaman "TOÇKA-U" raket sistemindən istifadə etmişdir. Və bu da Ermənistanın terroru dəstəkləyən bir dövlət olduğunu bir daha sübut etmişdir.[3] Lakin hücumlarına hələ də davam edən Ermənistan 17 oktyabrda bir daha Gəncənin mərkəzi hissələrini atəşə tutmuşdur. 17 oktyabrda Azərbaycan ordusu Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərini və Füzuli şəhərini erməni işğalından azad etmişdir. Oktyabrın 18-də Azərbaycan və Ermənistan ikinci atəşkəs razılığına gəlsələr də, bu atəşkəs də Ermənistan tərəfindən pozuldu. Azərbaycan ordusu 18 oktyabrda Xudafərin körpüsünü, Hacılı kəndi və Hacı İsaqlı kəndini işğaldan azad etmişdir. Müzəffər ordumuz sayəsində 2 gün sonra Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edildi. Oktyabrın 25-də İlham Əliyev Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndinin və Qubadlı şəhərinin işğaldan azad edildiyini bildirmişdir.[5] Oktyabrın 26-da ABŞ-ın təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında üçüncü atəşkəs qüvvəyə minsə də, yenə Ermənistanın Azərbaycan qoşunlarını artilleriya atəşinə tutması ilə pozulmuşdur. 27 oktyabrda Ermənistanın Bərdə rayonunun Qarayusifli kəndini ağır artilleriya atəşinə tutması nəticəsində 4 nəfər ölmüş, 14 nəfər yaralanmışdır. 2020-ci ilin 8 noyabrında Şuşa şəhəri işğaldan azad olundu. 3 dekabrda Prezident İlham Əliyev Sərəncam imzalamış və beləliklə ölkəmizdə noyabrın 8-i Zəfər Günü olaraq qeyd edilməyə başlanılmışdır. 9 noyabrda 70-ə yaxın kənd işğaldan azad edilmişdir. Noyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanan bəyanat ilə 44 günlük müharibə Azərbaycan Respublikasının qələbəsi ilə başa çatdı. Bu bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də Laçın azad edildi.[5] Ağdam rayonunda atəşkəsin icrasına nəzarət etmək üçün Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradıldı. Bunun ilə bağlı memorandum 11 noyabrda Rusiya və Türkiyənin Müdafiə Nazirləri arasında aparılan danışıqların ardından imzalanmışdır. Bu mərkəzdə 60 türk, 60 rus əsgəri və pilotsuz uçuş aparatı personalı xidmət edir. Mərkəzin təhlükəsizliyini Azərbaycan əsgərləri təmin edir.[4] Vətən müharibəsi zamanı 2914 nəfər hərbi qulluqçu şəhid olmuşdur. Müharibə zamanı Azərbaycan ordusunun məhv etdiyi Ermənistana aid hərbi texnikaların minumum dəyəri 3.8 milyard ABŞ dolları olmuşdur.[9]

**Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri**

1992-1994-cü illərdə Ermənistanın Azərbaycan torpaqlarını işğal edərkən yol verdiyi hüquq pozuntuları 44 günlük Vətən müharibəsi zamanında da gündəmə gəlmişdir. Ermənistan mülki şəxslərə hücum etməklə "Mülki əhaliyə və ya münaqişələrdə bilavasitə iştirak etməyən mülki şəxslərə qarşı qəsdən hücumların həyata keçirilməsi"ni hərbi cinayət hesab edən Roma Əsasnaməsinin 8(b) maddəsini pozmuşdur. Mülki əhalinin yaşamaq hüququnun pozulması Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinin pozulmasıdır. Həmçinin, Ermənistan səhiyyə binalarına, avadanlıqlarına və personalına hücum etməklə Birinci Cenevrə Konvensiyasının 35-ci maddəsini də pozmuşdur.[8] Ermənistan ordusunun uşaqları zorla cəbhəyə aparıb döyüşdürməsi beynəlxalq insan hüquqları cinayəti olub qadağan edildiyindən 1949-cu il Cenevrə Konvensiyaları, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi və İnsan Hüquqları üzrə Avropa Konvensiyası kimi beynəlxalq hüququn əsas prin-

sipləri də pozulmuşdur.[6]

Müharibə müddətində Azərbaycanda xalq-ordu həmrəyliyi yaşandı, Azərbaycan xalqı yüksək vətənpərvərlik ruhu və qələbə əzmi nümayiş etdirdi. 44 gün davam edən müharibədə Ermənistan böyük itkilər vermiş, məğlubiyyətini qəbul edərək işğal etdiyi torpaqlardan geri çəkilməli olmuşdur. Beləliklə, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev artıq "Dağlıq Qarabağ" deyə bir ifadənin olmadığını bildirmişdir.[1] Prezident İlham Əliyevin dediyi kimi:"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

**Açar sözlər:** *atəşkəs, hərbi vəziyyət, münaqişə, işğal, danışıqlar.*

## ƏDƏBİYYAT SİYAHISI

*1.https://azerforum.com/az/cehennemdeki-status-bir-esrin-yanlishi-olan-dagliq-qarabag-ifadesi-artiq-yoxdur*

*2.https://justice.gov.az/categories/22*

*3.https://ona.az/az/tehlil/genceye-raket-hucumu-dunya-ermeni-terroru-qarsisinda-susur-tehli%CC%87l-24494*

*4.https://www.aa.com.tr/tr/dunya/daglik-karabagda-turk-rus-ortak-gozlem-merkezi-faaliyetini-surduruyor/2135267*

*5.https://www.bbc.com/azeri/region-55031057*

*6.https://www.haber7.com/dunya/haber/3027140-ermenistanin-cocuk-askerleri-cepheye-gonderilmeye-devam-ediyor*

*7.https://www.xalqcebhesi.az/news/project/19331.html*

*8.https://www.setav.org/ermenistanin-savas-suclari/*

*9.https://www.virtualkarabakh.az/tr/post-item/52/2871/ikinci-karabag-savasi.html*

**Айсель Бадалова**

***Академия Государственного Управления при Президенте Азербайджанской Республики Департамент международных отношений и внешней политики, магистрант.***

## ВОЕННЫЕ ПРЕСТУПЛЕНИЯ, СОВЕРШЕННЫЕ АРМЕНИЕЙ ПРОТИВ АЗЕРБАЙДЖАНА ВО ВРЕМЯ 44-ДНЕЙ ВОЙНЫ

## РЕЗЮМЕ

Нагорный Карабах - это территория, оккупированная Арменией путем совершения варварского преступления против азербайджанского народа, освобожденная и возвращенная азербайджанскому народу много лет спустя под руководством президента Азербайджанской Республики, Верховного главнокомандующего Ильхама Алиева. Оккупация этой территории Арменией и массовые убийства населения противоречат принципам международного права и гуманистическим ценностям. Однако в рамках международного права Азербайджанская Республика освободила свои территории от оккупации. Как в прошлом, так и во время 44-дневной войны многие ни в чем не повинные люди, в том числе младенцы и дети, погибли из-за необоснованных заявлений Армении.

Рассмотрены начало нагорно-карабахского конфликта, оккупация наших земель Арменией, освобождение наших оккупированных земель Президентом Азербайджанской Республики Ильхамом Алиевым и нашей Славной Армией, а также военные преступления, совершенные Арменией во время войны. в рамках международного права. Во время войны Армения открыто нарушила многие статьи Европейской конвенции о правах человека и Женевских конвенций.

**Ключевые слова:** *перемирие, военное положение, конфликт, оккупация, переговоры.*

**Aysel Badalova**
***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Department of International relations and foreign policy, master.***

# WAR CRIMES COMMITTED BY ARMENIA AGAINST AZERBAIJAN DURING THE 44-DAYS WAR

**SUMMARY**

Nagorno-Karabakh is a territory occupied by Armenia by committing a barbaric crime against the Azerbaijani people and liberated and returned to the Azerbaijani people many years later under the leadership of the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev. The occupation of this territory by Armenia and the massacre of the population contradict the principles of international law and humanistic values. However, within the framework of international law, the Republic of Azerbaijan liberated its territories from occupation. Both in the past and during the 44-day war, many innocent people, including infants and children, lost their lives because of Armenia's baseless claims.

The beginning of the Nagorno-Karabakh conflict, the occupation of our lands by Armenia, the liberation of our occupied lands by the President of the Republic of Azerbaijan Ilham Aliyev and our Glorious Army, and the war crimes committed by Armenia during the war were considered within framework of international law. During the war, Armenia openly violated many articles of the European Convention on Human Rights and the Geneva Conventions.

**Key words:** *ceasefire, martial law, conflict, occupation, talks.*

Tarix

UOT 94 (479.24)

# AZƏRBAYCAN BÖLGƏLƏRİNDƏ SOVET QURUCULUĞU PROSESİNİN İLKİN MƏNZƏRƏSİ

**LƏMAN HÜSEYNOVA**
*AMEA- nın A.A.Bakıxanov adına Tarix institutunun Vətən tarixi ixtisası üzrə fəlsəfə doktoru proqramının dissertantı*

*E-mail:lamanhuseynova94@gmail.com*

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti elan edildikdən sonra siyasi, sosial, iqtisadi və mədəni həyatda köklü dəyişikliklərin baş verməsi Azərbaycan xalqının əsrlər boyu qoruyub saxladığı milli-mənəvi dəyərlərə öz təsirini göstərmişdir. Azərbaycanda sovet quruculuğu birmənalı qarşılanmadığından bolşevik hakimiyyəti qarşısında çox çətin vəzifələr dururdu. Xüsusən bölgələrdə quruculuq işlərini həyata keçirmək daha ağır olduğundan labüd sosial-siyasi şərait yaradılmalı idi. Həm mədəniyyət, ideologiya, dini məsələlər, milli streotiplər baxımından Rusiyadan fərqli olaraq Azərbaycanda yerli şəraiti və xüsusiyyətləri nəzərə almaq ən vacib məsələlərdən biri idi.

Sovet Rusiyası "Ümumi sosialist vətəninin" mənafeləri ilə pərdələnən siyasətini Azərbaycanda da həyata keçirmiş oldu. Bütün hakimiyyət Müvəqqəti İnqilab Komitəsinin və Azərbaycan Xalq Komissarları Sovetinin əlinə keçdi. Respublikada dövlət hakimiyyətinin ali qanunverici, sərəncamverici və nəzarətedici orqanı Mərkəzi İcraiyyə Komitəsi idi. Xalq Komissarları Sovetinin tərkibi təsdiq edildi və N.Nərimanov onun sədri seçildi. Real hakimiyyət isə 1920-ci ilin fevralında yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının - AK(b)P-nin əlində idi.

Azərbaycanın bütün bölgələrində ara-sıra müqavimətə rast gəlməsinə baxmayaraq, sovet hakimiyyəti quruldu. 15 apreldən 30-na qədər Nuxa, Ağdam, Şamxor, Kürdəmirdə bolşeviklər hakimiyyəti öz əllərinə aldılar. Gəncə tərəfə hərəkət edən rus qoşunu mayın 1-də Gəncəyə daxil oldu. May ayının 2-də Qazax İnqilabi Komitəsi təşkil edildi. Şəki, Zaqatala və Balakən də ələ keçirildi. Mayın 1-də XI Qızıl Ordunun köməkliyi ilə 5 nəfərdən ibarət Şamaxı İnqilab Komitəsi təşkil edildi. Elə həmin gündə də Salyanda hakimiyyət ələ keçirildi və İnqilab Komitəsi yaradıldı. [10;24] Ümumiyyətlə, 1920-ci ilin aprelin 27-dən avqustun 25-dək Azərbaycanın 16 qəzasında inqilab komitələri təşkil edildi [5]. Bununla da, Azərbaycan İnqilab Komitəsinin qəzalarda inqilab komitələrinin təşkili haqqında göstərişi Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən həyata keçirildi.

Azərbaycan İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin qəbul etdiyi dekret və sərəncamlar respublikada sosializm quruculuğu işinin inkişafında böyük rol oynamışdır [1;181].

Azərbaycan İnqilab Komitəsi mayın 5-də torpaq haqqında imzaladığı dekretdə bəy, xan və vəqf torpaqlarının müsadirəsi və ödənişsiz kəndlilərə verilməsi nəzərdə tutulurdu [5;58] Bu dekret Azərbaycanda torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi demək idi. Dindarların, monastır və məscid torpaqlarının bəy-xan torpaqları ilə birgə müsadirə edilməsi bir siyasət idi. Çünki, bolşeviklər yaxşı bilirdilər ki, müsəlman əhalisi məscid torpağına sahib olmağa razılıq verməzlər.

Kəndlərdə təşkilati işlərin yaradılmasında Sovet Rusiyası təcrübəsinə rəğmən Azərbaycan şəraiti, yerli xüsusiyyətləri nəzərə alınaraq hakimiyyət-yoxsul komitələri yaradılmasına dair dekret imzalandı. Yeni cəmiyyətin quruculuğunda və kəndlilərin şüurunun formalaşmasında yoxsul komitələrə xüsusi əhəmiyyət verilirdi [18;5].

Bakı fəhlələri ilə Azərbaycan kəndlilərinin ittifaqının möhkəmləndirilməsində bəy, xan torpaqlarının müsadirə edilib, həmişəlik kəndlilərin istifadəsinə verilməsi, kəndlilərin dövlət quruculuğu işinə cəlb olunması çox mühüm rol oynadı. Bakı fəhlələri torpaq haqqında dekretin həyata keçirilməsində və öz hakimiyyət orqanlarının yaradılmasında zəhmətkeş kəndlilərə yaxından kömək edir, kənddə geniş mədəni-maarif işi aparırdılar [13;208].

1920-ci il iyunun 22-də bütün qəzalar üzrə fövqəladə komissarlara teleqram vurularaq tez bir zamanda yoxsul kəndlilərin qurultay və konfranslarının çağırılması ilə bağlı sərəncam verilmişdir. Qurultayda əsasən Sovet quruculuğu, torpaq və ərzaqla bağlı məslələrin müzakirə olunması nəzərdə tutulmuşdu. [6].

Azərbaycan KP MK, Azərbaycan MİK və XKS

– nin keçirdiyi birgə iclasında 28 aprel və 1 may bayram şənliklərində iştirak etmək üçün məsul işçilərin Azərbaycanın qəzalarına ezam olunması ilə bağlı qərar qəbul edilmişdir. Həmin qərara əsasən təyin olunmuş nümayəndə heyəti Şəmkir, Göyçay, Şamaxı, Gəncə, Şuşa, Ağdaş və digər qəzalarda olmuş, bayram şənliklərində iştirak etməklə yanaşı, oradakı vəziyyətlə yaxından tanış olmuşlar [17]. Səfərlə bağlı verilən hesabatlardan məlum olur ki, qəzalarda işlərin lazimi qaydada aparılmaması əhali arasında böyük narazılığa səbəb olur.

Şəmkir qəzasında yoxsul kəndlilərdən alınan çoxsaylı şikayətlərdə torpaq sahələrinin qolçomaqlar tərəfindən zəbt edilməsi faktı göstərilir. Torpaq məsələsi 20-ci illərin əvvəllərini xatırladır. Əhali hələ də tərksilah olunmamışdır. Komsomol təşkilatının işləri düzgün aparılsa da savadsızlığa qarşı mübarizə tədbirləri görülmür.

Şamaxıda vəziyyət gərgin olaraq qalır. 1918-ci ildə dağılan şəhərin bərpası üçün vəsait yoxdur. Qəzada 80 məktəb var, lakin müəllim yoxdur. Qaçqınlar acınacaqlı şəraitdə yaşayırlar. Əhalinin ağ neftə böyük ehtiyacı var. Bir pud ağ neft üçün 3 pud taxıl tələb olunur.

Şuşada partiya işi yox səviyyəsindədir, həmkarlar ittifaqının fəaliyyəti zəifdir. Qəzadakı 5000 qaçqınla heç kəs maraqlanmır.

Ağdaşda da quruculuq işləri həddsiz dərəcədə zəifdir. Bürokratik üsul-idarə hökm sürür. Savadsızlığa qarşı iş aparılmır. Tibbi məntəqədə heç bir avadanlıq yoxdur. Pambıq toxumlarının bölüşdürülməsində haqsızlığa yol verilir.

Qazaxda torpaq sahələrinin az olmasına baxmayaraq, torpaq bölgüsü düzgün aparılıb. Təhsil sahəsində işlər qənaətbəxşdir. 18 kənd tamamilə dağılmış vəziyyətdədir. Pambıq toxumları çatışmır. Ağ neft və duza böyük ehtiyac var.

Azərbaycanda Sovet hakimiyyətinin iqtisadi siyasəti olduqca mürəkkəb idi. Bölgələrdə ağır həyat şəraitində yaşayan kəndlilərin neft məhsullarına (ağ neft) böyük ehtiyacı var idi. Sovet Rusiyasının neftə olan tələbatı Bakı neft sənayesini nəzarətə almaq məqsədi daşıyırdı. V.İ.Leninin göstərişi ilə neft sənayesinin rəhbərləri Azərbaycan nefti üçün ayrılan vəsait və ondan götürülən gəlirə ciddi nəzarət edirdilər.

Azərbaycan Respublikasında Bakı Neft Komitəsinin sədri təyin olunan A.P.Serebrovskinin fəaliyyəti nəticəsində 1920-ci ilin sonunadək Rusiyaya 160 milyon pud neft və neft məhsulları göndərilmişdir. Buna baxmayaraq o, neftin cüzi hissəsindən gələn gəlirin Azərbaycan üçün xərclənməyin əleyhinə idi. N.Nərimanov dəfələrlə onun bu siyasətinə qarşı çıxmışdır. Bununla bağlı RK(b)P MK-nın baş katibi İ.Stalinə ünvanladığı "Ucqarlarda inqilabımızın tarixinə dair" məktubda yazırdı : "Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan." [15;36].

Nərimanov 1920-ci il 12 iyul tarixində Neftkom Serebroskiyə neftin (ağ kerosin) respublika üçün buraxılması haqqında tapşırığı xüsusi maraq doğurur. Həmin sərəncamda Serebroskidən tələb olunur ki, qısa müddət ərzində neft (ağ neft) respublika miqyasında buraxılsın və işin icrası haqqında 3 həftə ərzində ona məlumat verilsin [3].

N.Nərimanovun 26 sentyabr 1920-ci ildə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədrinə olan məktubunu da xüsusi qeyd etmək lazımdır. Məktubda Nərimanovun 1920-ci ilin sentyabr ayında vəziyyətlə yaxından tanış olmaq məqsədilə Azərbaycanın bütün bölgələrinə səfərə çıxarkən zəhmətkeş kəndlilərə paylamaq üçün 3 vaqon - sistern kerosin və 2 vaqon duzun onun sərəncamına verilməsindən bəhs edilir [4].

Xalq kütləvi rekvizisiyadan, ərzaq və malların zorla müsadirəsindən, XI Qızıl Ordunun xüsusi şöbəsi tərəfindən törədilən özbaşınalığından şikayətlənirdi. Bolşeviklərin qarətçiliyi, hərc-mərcliyi, xüsusən günahsız insanların güllələnməsi xalqın qəzəbinə səbəb olurdu. Bölgələrdə qolçomaqlarla yerli kəndlilər arasında narazılıqlar səngimək bilmirdi. Məsələn, Ağdaşda kəndlilərin şikayətlərinə görə bölgədə torpaq sahələri düzgün paylanmamışdır və onlar yarım desyatin , qolçomaqlar isə 28 desyatin torpaq sahəsinə malikdirlər. İcraiyyə Komitəsi kəndlilərin açıqlamalarına əhəmiyyət vermir, nəticədə kəndlilərlə münaqişələr yaranırdı. Torpaq mübahisələri qolçomaqların xeyrinə həll olunurdu [17]. Qəzəb dalğası üsyanlara gətirib çıxardı. 1920-ci il mayın 26-dan iyunun 20-dək Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada və Zaqatalada silahlı üsyan baş verdi. Üsyanın başlanmasına bilavasitə təkan verəcək hadisə Azərbaycan hərbi hissələrinin "sinfi baxımdan yad ünsürlərdən təmizlənməsi" tədbiri oldu. Lakin bu üsyanların amansızlıqla yatırılma-

sına baxmayaraq, bolşeviklər kəndli problemlərini köklü şəkildə həll edə bilmədilər.

Əhalinin bolşevik siyasətinə qarşı olan ikrah hissi təkcə torpaq məsələsi ilə kifayətlənmirdi, burada din məsələsi də öndə gedən problemlərdən biri idi.

Sovet dövründə bütün ittifaqda olduğu kimi, Azərbaycanda da məscid, kilsə və sinaqoqların kütləvi bağlanmasına, din xadimlərinin təqib olunmasına başlandı. Ümumilikdə təkcə 1929-cu ildə Azərbaycan qəzalarında 120 məscid binası zəbt edilib məktəb üçün istifadəyə verilmişdi.

Dinə münasibətdə bolşeviklərin birtərəfliyi yerli əhalinin müqəddəs ibadət evlərinin dağıdılmasına, din xadimlərinin həbs olunaraq repressiyaya məruz qalmasına səbəb olurdu. Qadınların zorla çadralarının çıxarılması, papağın zərərli əşya hesab olunaraq onun atılması məcbur edilirdi.

"Kommunist" qəzetinin "Nə kadar kadın çadrasını atmışdır" adlı məqalədə qeyd olunur ki, Özəklərin fəaliyyəti nəticəsində şəhərdə 3000 qadın çadrasını atmışdır. Kampaniya başlandıqdan bu vaxtacan 14 qəzada 12000-dən ziyadə qadın çadrasını atmışdır. O cümlədə Gəncə qəzasında -1300, Quba- 1317, Şamaxı- 268, Zaqatala – 122 (orada çadra örtən yox dərəcəsindədir), Lənkəran- 182, Göyçay – 728, Salyan – 500, Şəki – 920, Dağlıq Qarabağ – 150, Ağdam – 400, Cəbrayıl – 97, Qazax, Naxçıvanda 3307 arvad çadrasını atmışdır. [14;5]. Ağdam qəzası Hindarx kəndində şura seçkiləri münasibətilə mədəni inqilab məsələsi müzakirə edildikdə əməkçilər məktəb binasına ehtiyac olduğunu nəzərə alaraq məscidi məktəbə çevirmişlər [8;3].

Sovet hakimiyyətinin ilk günlərindən Azərbaycan hərbi İnqilab Komitəsinin torpaq haqqında, meşələrin, suların və yeraltı sərvətlərin milliləşdirilməsi haqqında dekret verməsi, qəza və kənd torpaq komitələrinin yaradılması, Gəncədə, Zaqatalada, Qarabağda təşkil edilən antisovet qiyamları kəndli kütlələrin şüurunda əsaslı dönüş əmələ gətirdi.

Şamaxı qəzasında olan bəzi kəndlərdə ümumiyyətlə sovet hakimiyyətinin yaradılması haqqında məlumat azlığı olub. Kəndlilər sovet hakimiyyətini qəzetlərdən, şəhərdən gələn insanlar tərəfindən təsadüfən öyrənirdilər [17]. Həmçinin Şuşada, Ağdaş qəzalarında yeni dövlət quruculuğunda mövcud problemlər yerli əhalinin yeni quruluşa inamsızlığına səbəb olurdu.

Belə bir çətin sosial-siyasi şəraitdə Azərbaycan Hərbi İnqilab Komitəsinin sədri N.Nərimanov Azərbaycanın partiya və sovet təşkilatlarının rəhbər işçiləri ilə birlikdə müntəzəm surətdə bölgələrə səfər edir və orada aparılan işə bilavasitə rəhbərlik edirdi. Onun 1920-ci il sentyabrın 30-dan oktyabrın 14-nə kimi Azərbaycan qəzalarına tarixi səfəri olduqca mühüm əhəmiyyətə malik idi. Səfər zamanı qarşıya qoyulan əsas məqsəd Azərbaycan qəzalarının yerli əhalisi ilə görüş və söhbətlərində onların həyatı, vəziyyəti, ehtiyac və tələbləri ilə ciddi maraqlanmaq, sovet hakimiyyətinin mahiyyətini onlara sadə dillə izah etməkdən ibarət idi.

Bölgələrdə yaranmış kəskin problemləri aradan qaldırmaq üçün N.Nərimanov başçılıq etdiyi "xüsusi komissiyanın müşayiəti" ilə Ucar, Göyçay, Gəncə, Qazax, Şuşa, Ləki, Kürdəmir torpaqlarında əhali ilə görüşlər keçirmişdir [7;63].

Kəndlilərlə ilk görüş 1920-ci ilin oktyabrın 1-də səhər saat 10-da Ucar stansiyasında olur. Nərimanovun Ucara səfəri zamanı zəhmətkeşlərin mitinqinin qəbul etdiyi qərar diqqəti cəlb edir. Orada deyilirdi: "1920-ci sənənin 1 oktyabrında Ucar stansiyasında Keşlə nahiyyəsinin kəndli və zəhmətkeşləri mitinqə cəm olub böyük və əziz yoldaşımız Nəriman Nərimanovun və qeyri yoldaşların mühazirəsinə qulaq asıb yekdil, yekcəhət səmimi-qəlbdən onları təbrik edib, and içirik ki, var qüvvəmizlə onların tutduqları yolu getməkdə onlara kömək edək." [13;212]. Ucar görüşündən sonra komissiya heyəti Göyçaya yola düşür. Burada komissiya 2 gün qaldı.

N.Nərimanovun qardaşı qızı İltifat xanım Nərimanovanın xatirələrində qeyd olunur ki, əmisi səfərdən qayıtdıqdan sonra Göyçayda baş verən hadisəni uzun müddət ununda bilməmişdir. Səfərdə olarkən valideynlərinin xahişi ilə qızdırma içərisində yanan xəstə uşağı müayinə etmiş və məlum olmuşdur ki, mollanın tövsiyəsi ilə ona suya qarışdırılmış torpaq məhlulu verilmişdir. Xəstəni xilas etmək mümkün olmamışdır [11].

Göyçay səfərindən sonra komissiya heyətinin oktyabrın 3-də Gəncədə qəza zəhmətkeşləri ilə görüşü oldu. Lakin Gəncə görüşü digər görüşlərə nisbətən çətin və məsuliyyətli idi. May üsyanı kəndlilər tərəfindən hələ unudulmamışdı. Əhali arasında böyük ruh düşkünlüyü var idi. N.Nərimanovun istər şəhər bağında, istərsə də məsciddə etdiyi çıxışları camaatın həyəcanına, əhvalına uyğun olmuşdur. Bundan başqa komissiya oktyabrın 6-da Qazaxa, Şuşaya, oktyabrın 12-si Yevlaxa, 13-ü Ləki stansi-

yasına yola düşür.

N.Nərimanovun Lənkəran qəzasına səfəri böyük maraq doğurur. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri işləyən Nəriman Nərimanov 1921-ci ilin iyun ayında Lənkəranda olarkən həmin bölgənin həbsxanasının rəisi İsrafil bəy Kələntərli onunla görüşərək həbsxanadakı gərgin vəziyyət haqqında məlumat verir, orada günahsız yerə həbs olunmuş insanların buraxılmasını xahiş edir. Nərimanov onu eşidir, siyasi çəkişmələrin qurbanı olan 186 nəfər dustaq azad edilərək evlərinə buraxılır [10;8].

Nərimanov səfərdən qayıtdıqdan sonra 1920-ci il oktyabr ayının 16-da Azərbaycan K(b)P-nın II qurultayındakı çıxışında kəndlilərin siyasi şüurluğunun yüksəldiyini qeyd edir və həmçinin göstərirdi ki, Azərbaycan kəndliləri Rusiya kəndlilərindən fərqli olaraq bəzən bəy, xan, qolçomaq torpaqlarını almaqdan imtina edir, bunu günah, şəriətə zidd hərəkət adlandırırdılar. Odur ki, kənddə sosialist tədbirlərini həyata keçirərkən, Azərbaycan kəndlilərinin iqtisadi, siyasi və mədəni inkişafca geri qalması faktı ilə hesablaşmalı, onların məişət xüsusiyyətləri, dini heysiyyətləri ciddi surətdə nəzərə alınmalıdır [13;213].

Sovet hakimiyyətinin qurulduqdan sonra Azərbaycanda maarif və mədəniyyətin hərtərəfli inkişafı təxirəsalınmaz məsələlərdən biri sayılırdı. Məktəb işinin yaxşılaşdırılmasında pedoqoji ixtisaslı müəllimlərə böyük ehtiyac var idi. Bu məqsədlə Bakıda, Şamaxıda, Göyçayda, Salyanda, Qusarda, Şuşada, Qazaxda, Nuxada və Gəncədə müəllim hazırlayan pedoqoji kurslar, texnikumlar açıldı. 1921-ci ilə kimi kurslarda 7 minə qədər müəllim hazırlandı. İxtisaslı müəllimlər hazırlığında pedoqoji texnikumlar xüsusi rol oynadı. Bu texnikumlar 1920-ci ildən 1927-ci ilə qədər təşkil edildi. Qısa müddət ərzində respublikada 15 pedoqoji texnikum təşkil olundu. İldən-ilə tələbələrin, xüsusən azərbaycanlı tələbələrin sayı artdı.

1920-ci ilin iyun-iyul aylarında Bakıda və qəzalarda xalq maarif məsələlərinə həsr olunmuş müəllim konfransları keçirildi. 1920-ci il iyun ayının 16-da Bakı şəhərində azərbaycanlı müəllimlərin, iyulun 29-da bütün Bakı şəhəri müəllimlərinin konfransı, avqustun 2-də Gəncə şəhərində Gəncə, Qazax, Şamxor, Tovuz və Cavanşir qəzaları müəllimlərinin qurultayı keçirildi. Xalq müəllimlərinin qarşısında duran əsas vəifə savasızlığa və cəhalətə qrşı mübarizə aparmaq, məktəblərdə uşaqları və yaşlıları savadlandırmaq, xalq evlərində və qiraətxanalarda söhbət aparıb, məruzələr oxumaq idi [16;3].

Azərbaycanda bütün şəhər və kəndlərdə sosial- iqtisadi və mədəni həyatın demək olar ki, bütün sahələrində ideologiyalaşdırma prosesi başlandı. Sovet hakimiyyəti respublikada ilk növbədə iqtisadi, mədəni sahədə islahatlar keçirməyə başladı. Mədəni sahədə bu islahatların keçirilməsi ölkədə həm savadsızlığın azadılması, məktəb və müəllimlərinin sayının artırılması, dini mövhumatçılığın aradan qaldırılması kimi müsbət nəticələrə yol açan addım oldu. İqtisadi sahədə isə neft məhsullarının milliləşdirilməsi və müsadirə əməliyyatı yeni yaranan dövlətin bünövrəsini zəiflətdi. Bütün qəzalarda demək olarki, torpaq sahələrinin qolçomaqlar tərəfindən zəbt edilməsi, partiya işinin zəif getməsi,bolşeviklərin yerlərdə olan özbaşınalıqları və digər faktlar öz əksini tapmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Sovet Ensiklopediyası. I cild. Bakı,1976, 585 s.*

*2. Bayramova R. Azərbaycan rəhbərliyində ixtilaflar və siyasi çəkişmələr. Bakı: Elm, 2007. 182 s.*

*3. DA, f.410, s.1, iş 34.*

*4. DA, f.410, s.1, iş 107.*

*5. DA, f.410, s.l, iş 130.*

*6. DA, f.410, s.1, iş 232.*

*7. Əhmədova F. Nəriman Nərimanov- İdeal və gerçəklik. Bakı, 1998. 170 s.*

*8. Əməkçilərə məscid deyil, mədəniyyət ocaqları lazımdır // "Kommunist" qəzeti, 1929, № 36 (2542).*

*9. Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005. 247 s.*

*10. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər. Bakı: 1996. 168 s.*

*11. İltifat Nərimanovanın xatirələri // N.Nərimanov muzeyinin fondu // 1982.*

*12. İsrafil bəy Kələntərli // "Söz" müstəqil ədəbi-publisistik jurnal, may 2015.*

*13. Köçərli F. Nəriman Nərimanov. Bakı, 1965. 339 s.*

*14. Nə kadar kadın çadrasını atmışdır // "Kommunist" qəzeti, 1929, № 56 (2562).*

*15. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 2019. 126 s.*

*16. Paşayev N. Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti. Bakı,1986. 174 s.*

17. RDSSTA, f.588, s.2, iş 177.
18. Respublika qəz. 2019, 12 oktyabr, № 225.

**Ləman Hüseynova**
***AMEA- nın A.A.Bakıxanov adına Tarix institutunun Vətən tarixi ixtisası üzrə fəlsəfə doktoru proqramının dissertantı***

## AZƏRBAYCAN BÖLGƏLƏRİNDƏ SOVET QURUCULUĞU PROSESİNİN İLKİN MƏNZƏRƏSİ

Məqalədə 20-ci illərin əvvəllərində sovet quruculuğu prosesinin inkişaf yolları, onun Azərbaycanın sosial və iqtisadi həyatına təsiri öz əksini tapmışdır. Sovet quruculuğu prosesində dinə münasibət, insanların yeni quruluşa olan fərqli münasibəti, bolşeviklərin bölgələrədə olan özbaşınalıqları nəticəsində yerlərdə qiyamların baş verməsi, maarifçilik sahəsində savadsızlığın ləğvi üçün atılan addımlar və digər məsələlər yer almışdır. Məqalənin mövuzusu sovet quruculuğu prosesinin öyrənilməsində əhəmiyyətlidir.

**Açar sözlər:** *sovet hakimiyyəti, Azərbaycan qəzaları, torpaq məsələsi, yoxsul kəndlilər, din*

**Laman Huseynova**
***Dissertation of the doctor of philosophy program specializing "The history of motherland" of the İnstitute of History named after A.A.Bakykhanov ANAS.***

## A PRELIMINARY OVERVIEW OF THE SOVIET CONSTRUCTION PROCESS IN THE REGIONS OF AZERBAIJAN

### SUMMARY

The article reflects the development of the Soviet construction process in the early 1920s, its impact on the social and economic life of Azerbaijan. İn the process of building the Soviet Union, there were issues of religion, people's different attitudes to the new structure, local uprisings as a result of bolshevik arbitrariness in the regions, steps taken to eradicate illiteracy and other issues. The subject of the article is important in the study of the Soviet construction process.
**Key words:** *Soviet government, Azerbaijani countries, land issue, poor peasants, religion*

**Ляман Гусейнова**
***Диссертант программы доктора философии по специальности «История отечества» Института Истории им. А.А. Бакыханова Национальной Академии Наук Азербайджана***

## ПРЕДВАРИТЕЛЬНЫЙ ОБЗОР ПРОЦЕССА СОВЕТСКОГО СТРОИТЕЛЬСТВА В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В статье отражено процесс разавития советского строительства в начале 1920-х годов, его влияние на социально-экономическую жизнь Азербайджана. В процессе строительства Советского Союза возникали вопросы религии, различного отношения людей к новой структуре, местных восстаний в результате большевистского произвола в регионах, шагов по ликвидации неграмотности и других проблем. Тема статьи важна при изучении советского строительства.

**Ключевые слова:** *Советское правительство, Азербайджанские уезды, земельный вопрос, бедняки, религия*

UOT 94(479.24)
930:314

# KÜTLƏVİ ƏHALİ YERDƏYİŞMƏLƏRİNİN FORMALARI HAQQINDA

**GÜLNAR BƏŞİROVA**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun dissertantı*

*E-mail: gulnar.bsirova@mail.ru*

Məlumdur ki, çox qədim və mürəkkəb sosial proses olan əhali miqrasiyası ayrı–ayrı bölgələrin və ölkələrin sosial–iqtisadi inkişaf səviyyələri, eyni zamanda siyasi və mənəvi amillərlə sıx bağlıdır. Sinifli cəmiyyətin yaranmasına qədər miqrasiya kortəbii xarakter daşımışdır. Dünyada ilk miqrasiya prosesləri ibtidai icma dövründə təbii şəraitdən asılı olaraq baş verib. Beləliklə, miqrasiya bəşər tarixinin bütün mərhələlərində mövcud olub, insanlar yaxşı, sakit və firavan həyat yaşamaq naminə bu şəhərdən və ya ölkədən digərinə köç ediblər[4].

Məlumdur ki, indi hər il 18 dekabrı Beynəlxalq Miqrant Günü kimi qeyd edirlər. 1990-cı ilin həmin günündə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiyanı qəbul edib. 2000-ci ildə isə BMT Baş Məclisi Konvensiyanın qəbul edildiyi günü Beynəlxalq Miqrant Günü elan edib. Həmin vaxtdan etibarən dekabrın 18–i dünyanın hər yerində Beynəlxalq Miqrant Günü kimi qeyd edilir. Azərbaycan Respublikası isə bu Konvensiyaya 1998-ci ildən qoşulub[4].

İnsanlar zaman etibarilə qloballaşan dünyada daimi, müvəqqəti, gündəlik olaraq hərəkət edirlər. Miqrasiya mədəniyyətlər, etnik qruplar və dillər arasında ənənəvi sərhədləri pozur və müxtəlifliyi, mədəni və sosial-iqtisadi münasibətləri yaradır. Miqrasiya bir çoxları tərəfindən bir çətinlik, hətta təhdid kimi qəbul edilir. Miqrantlar da daxil olmaqla, bütün insanların insan hüquqlarından istifadə etməsini təmin etmək üçün mübarizə aparan insan hüquqları mexanizmləri çətinliklərlə üzləşirlər, çünki miqrantların insan hüquqları tez-tez pozulur.

Miqrasiya, səbəblərindən asılı olmayaraq, hər hansı bir insan hərəkətini əhatə edən, bir beynəlxalq sərhəddə və ya bir ölkə daxilində baş verən bir prosesdir. "Miqrant"a hər hansı bir tərif vermək daha çətindir. Avropa Miqrasiya Komitəsinin fikrincə, "miqrant" termini kontekstdən asılı olaraq daimi, gündəlik, müvəqqəti mühacirləri, qayıdan miqrantları, immiqrantları, qaçqınları, məcburi köçkünləri, immiqrantların və ya immiqrasiyaya məruz qalan etnik azlıqların əhalisinin üzvlərini müəyyənləşdirmək üçün istifadə olunur. Miqrasiya formaları müxtəlif amillər, məsələn, motivlər, aidiyyəti olanların hüquqi vəziyyəti və ya müddəti ilə fərqlənə bilər. Bəzi ümumi şəkildə istifadə olunan daimi, müvəqqəti, gündəlik miqrant kateqoriyalarını aşağıdakı kimi müəyyənləşdirmək olar:

- Müvəqqəti əmək miqrantları (həmçinin qonaq işçilər kimi tanınır) və yüksək ixtisaslı, biznes mühacirləri, yaxud transmilli korporasiyaların və beynəlxalq təşkilatların daxili əmək bazarlarında hərəkət edən peşəkarlar; - Qeyri-qanuni (və ya sənədsiz, icazəsiz) miqrantlar və zəruri sənədləri, icazələri olmadan ölkəyə daxil olanlar;
- Zorakı miqrantlar: qaçqınlar, sığınacaq axtaran şəxslər və ya silahlı münaqişələr və ya ekoloji fəlakətlər kimi xarici amillərə görə köç etmək məcburiyyətində olan insanlar;
- Ailə üzvləri, eyni zamanda artıq köçmüş olan yaxın qohumlarına qoşulanlar;
- Geri qayıdan miqrantlar: başqa ölkədə bir müddət qaldıqdan sonra öz ölkələrinə qayıdan insanlar [2, s.94].

Müxtəlif qaynaqlardan olan məlumatlara görə, işçi miqrantların çoxalması sayəsində Sumqayıt şəhərinə yerli büdcədən başqa (bu şəhər Ümumittifaq sosialist şəhərləri tikintisinin mühüm obyekti olduğundan) keçmiş SSRİ-nin büdcə fondundan da ona əlavə vəsait ayrılmışdı. Yalnız 1952-1954-cü illərdə şəhərin sənaye müəssisələri və sosial-mədəni sahələrinin tikintisinə 20 mln. 800 min rubl sərf olunmuşdu. 1953-1954-cü illərdə şəhərdə bir doğum evi, 3 uşaq bağçası və 400 nəfərlik bir orta məktəb üçün bina tikilmişdi. Lakin şəhərin heç də bütün tikinti təşkilatları və müəssisələri ayrılmış məbləğdən tam istifadə etməmişdi. Təkcə 1952-ci ildə tikinti işlərinə görə ayrılmış vəsaitin 190,9 min rublu istifadə edilməmiş qalmışdı.1953-cü il avqustun 27-də şəhər sovetinin sessiyasında şəhərdə genişlənən inşaat-tikinti və digər sahələrdə ciddi dönüş əldə edildiyi qeyd olunmuşdu. 1953-cü ildə şəhərdə 26 min 300 m2 mənzil sahəsi tikilməsi planlaşdırılmışdı. On-

dan 1160 m2 İstilik Elektrik Mərkəzinin tikintisinin genişləndirilməsinə; 25140 m2Boru-Prokat, 29 min 30 m2 isə Alüminium zavodlarının fəhlə və qulluqçuları üçün mənzil tikintisi nəzərdə tutulmuşdu. Lakin Şəhər Tikinti İdarəsinin səhlənkarlığı üzündən bunun cəmi 60-70% həyata keçirilmişdir. Bundan əlavə, şəhərdə 847 min rubl həcmində şəxsi tikinti işləri görülmüşdü[2, s.94].

Həm də daimi miqrantların işlə təminatı nəticəsində 1950-1954-cü illərdə şəhərdə 78 min kv.metr mənzil sahəsi tikilib istifadəyə verilmişdi. 1954-cü ildəisə Sumqayıtda onlarla yaşayış evi, 2 böyük orta məktəb binası, 2 uşaq bağçası və körpələr evi, yeməkxanalar, poçt-teleqraf şöbəsi, əmanət kassası, nümunəvi fotoşəkilçi, bərbərxana, qəhvəxana, kitab mağazası, modalar atelyesi, musiqi məktəbi, mebel mağazası, qastronom, ayaqqabı mağazası və s. tikilmişdi. Yalnız 1954-cü ildə şəhərin nəqliyyat yollarına və səkilərinə – 125 min kv.metrlik sahəyə asfalt döşənmiş, on minlərlə ağac və kol əkilmişdi.1954-cü ilin sonunda şəhərdə ən böyük bina sayılan mədəniyyət evi və 2 zavod klubunun tikintisinə başlanılmışdı. İki məktəb binası və xəstəxana şəhərciyinin, həmçinin bir sıra uşaq tərbiyə müəssisələri üçün tikilən binalarda inşaat işləri sürətlə aparılmışdı. Şəhərin sənaye müəssisələrinə gedən yolun hər iki tərəfində – 2 km-lik ərazidə yaşıl şam ağacları və kolluqlar şəhərdə əməkçi miqrantların istirahətini yaxşı təşkil etmək üçün xüsusi əhəmiyyətə malik idi [1, s.57].

Bundan başqa 1984-cü ildə şəhərdə daha 3 yeni mədəniyyət evi tikilmişdi. Əməkçi miqrant briqadaları isə 1985-ci ildə 40 min kv.metr mənzil sahəsi olan yaşayış evlərini tikib istifadəyə verəcəklərini bildirmişdilər. Bu isə təqribən 2 və 3 otaqlı 1100-1200 mənzil demək idi. Evlərin yeni texniki üsulla tikilməsi nəzərdə tutulmuşdu. Yeni evlərin tikilməsində iri bloklardan və böyük dəmir-beton hissələrindən daha geniş istifadə edilməsi də planlaşdırılmışdı. 1985-ci ildə hər birində 350 yerlik tamaşa salonu, bundan əlavə, 800 yerlik mədəniyyət sarayı tikilmişdi.

Həmin ilin əvvəlində şəhərin inşaatçılar qəsəbəsində həmçinin 2 min yerlik stadion və 10 min nəfərlik Sumqayıt şəhər stadionunun tikilməsinə başlanılmışdı. Bunlardan başqa kolxoz bazarı, 150 çarpayılıq xəstəxana, yeni orta məktəb binası, iri hamam, camaşırxana kombinatı, inşaatçı kadrlar hazırlamaq üçün sənət məktəbinin tikilib istifadəyə verilməsi, yollara və səkilərə 100 min m2 asfalt döşənməsi, 50 mindən artıq ağac və kol əkilməsi nəzərdə tutulmuşdu [7, s.3].

Çağdaş dövrdə qaçqınlar, sığınacaq axtaran şəxslər və məcburi köçkünlər beynəlxalq hüquqa əsasən xüsusi mühafizə olunurlar. BMT QAK bu qrupları aşağıdakı kimi təyin edir. Qaçqınirqi, dini, milliyyət, müəyyən bir sosial qrupun üzvlüyü və ya siyasi fikirlər səbəbindən təqib olunma qorxusu olduğuna görə, öz ölkəsinə qayıtmaq iqtidarında deyildir. Sığınacaq axtaran şəxslər beynəlxalq qoruma istəyən və rəsmi qaçqın statusuna dair iddiaları hələ təyin olunmayan şəxslərdir. Məcburi köçkünlər silahlı münaqişənin, ümumiləşdirilmiş şiddət vəziyyətinin, insan hüquqları pozuntularının, təbii və ya insan tərəfindən törədilmiş fəlakətlərinin qarşısını almaq üçün və ya onların nəticələri ilə əlaqədar, öz evlərindən və ya yaşayış yerlərindən qaçmaq və ya tərk etmək məcburiyyətində qalmış, lakin beynəlxalq səviyyədə tanınmış sərhədləri keçməmiş insanlardır. Məsələn buraya, 1988- ci ildən başlayaraq Ermənistan respublikasının ərazisindən – öz ata-baba torpaqlarından qovulan 200 mindən artıq azərbaycanlı, 50 mindən çox Axısqa türkü, Qarabağın ərazisindən zorakılıqla çıxarılmış azərbaycanlı qaçqın və məcburi köçkünləri aid etmək olar [3, s.199-204]. 1988- ci ildə Ermənistan SSR ərazisindən qovulan azərbaycanlıların 18330 nəfəri Sumqayıta pənah gətirmişdir. Ermənistan SSR-nin 20 rayonundan Sumqayıta 3030 ailə məcburi miqrasiya etmişdir [6, s.188].

Yeri gəlmişkən əsasən məcburi köçkün və qaçqınlar gündəlik, müvəqqəti, daimi olaraq miqrasiyanın formalarını təşkil etməklə müxtəlif tərkibə malikdir. Şəhərdən-şəhərə miqrasiya formasını tərkib baxımından araşdırarkən buraya ailə, gənclər, beyin köçü, qadınların cinsi istismara məruz qalması, uşaqların övladlığa götürülməsi kimi və s. daimi, müvəqqəti, gündəlik köç etmə formalarını daxil etmək olar. Daimi və müvəqqəti miqrasiyanın növlərini universal tərkib və məzmun baxımından sosial, siyasi və mədəni olmaqla, üç baza tərkibinə ayırmaq olar. Birincisi, sosial miqrasiya, bura məişət amilini qeyd etmək olar. İkincisi, siyasi miqrasiya, bura xalqların köç etmələri, müharibələr nəticəsində yaranan miqrasiyalar (qaçqınların miqrasiyası), sərhədlər- ətrafı miqrasiya, mühacirlərin köçü amilini qeyd etmək olar. Üçüncü, mədəni əsaslı miqrasiya isə daha çox mədəni amillərə və adət-ənənələrə əsaslanır. Məsələn, yeni adətlər (Qərb mədəniyyə-

ti) şərtləri altında yaşamaq istəyən şəxsləri buna nümunə göstərmək olar. Miqrasiya tarixən ilk gəlmələrlə yerli əhali, sonrakı gəlmələrlə ilk gəlmələr arasında müəyyən problemlərin yaranmasının əsaslarını meydana gətirir. Məsələn, Amerikaya XIX əsrdə yeni gələnlərin axını Amerikada doğulanların müəyyən fraksiyaları arasında, başlıca olaraq, anqlo-saksonprotestant əhali arasında anti-immiqrant hissini oyatdı. Yeni gələnlər iş yerləri üçün tez-tez arzuolunmaz rəqib təəssüratı bağışlayırdılar. Bu baxımdan çoxlu sayda katoliklər, xüsusilə irlandiyalılar dini inanclarına görə diskriminasiyaya məruz qalırdılar [8,s.131]. Məhz həmin dövrlərdən etibarən beynəlxalq daimi miqrasiya geniş vüsət almağa başladı. Genişlənməni şərtləndirən amillər sırasına hərbi qarşıdurmalar, iqtisadi və sosial qeyri-sabitliyin yaranması da öz təsirini göstərirdi. Həm məcburi (daimi), həm də könüllü (müvəqqəti) miqrasiyanın genişlənməsinə informasiya texnologiyalarının aktiv inkişafı da kömək edirdi[13, s.16].

Gündəlik, müntəzəm miqrasiya dedikdə əhalinin bir yaşayış məntəqəsindən (yaşayış yerindən) digərinə - işləmək və ya təhsil almaqüçün gediş-gəlişinə verilən şərti bir addır. Gündəlik miqrasiya istehsal məkanı ilə insanların yaşayış yeri arasındakı uyğunsuzluğun nəticəsidir. Gündəlik miqrasiya xüsusilə böyük şəhərlərin, şəhər aqlomerasiyalarının meqapolislərin şəhərətrafı ərazilərində inkişaf etsə də, lakin ona əhali miqrasiyası deyilmir.

Gündəlik miqrasiya müasir nəqliyyatın inkişafı nəticəsində, insanların iş yerlərindən uzaqda yaşamalarına imkan verdiyi şəhərlərdə baş verir. XIX əsrə qədər insanların çoxu iş yerlərinə yaxın məsafədə yaşayırdı. Gündəlik miqrasiyanın meydana gəlməsi insanların həyat tərzinə böyük təsir göstərməklə, şəhərlərin böyüməsinə imkan verdi və şəhərətrafı ərazilərin çiçəklənməsinə səbəb oldu.Eyni zamanda, bu miqrasiya kütləvi motorizasiyaya, sıx vaxtlarda tıxac problemlərinə, dayanacaqların lüzumsuz olmasına, tullantıların artmasına, şəhər və şəhərətrafı mühitin pozulması ilə əlaqəli bir çox yeni problem yaradır. Məhz bu baxımdan Sumqayıtda havanın çirklənməsində şəhər avtonəqliyyatı az rol oynamır. 1992-ci ildə şəhərdə olan 12 min avtomobil atmosferə ildə 26 min ton zəhərləyici maddə buraxırdı. Bu nisbətlə müqayisədə indi təxminən şəhərdə olan 30 mindən artıq avtomobil ildə havaya 70-75 min ton zəhərləyici maddə buraxır [2, s.199].

Gündəlik miqrasiya Sumqayıt şəhər aqlomerasiyalarının formalaşması üçün əsas mexanizmdir, şəhərin ərazisinin böyüməsi və şəhərətrafı ərazinin hərəkətverici qüvvəsidir. Gündəlik köçmə intensiv şəkildə şəhərin inkişafına təsir edir ki, bu da öz növbəsində şəhərin iqtisadi potensialına və nəqliyyatın inkişafına təkan verir. Bu baxımdan şəhərin avtomobil nəqliyyatı ilə yük daşınması, yük dövriyyəsi, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının inkişaf dinamikasını statistik göstəricilərdə görmək mümkündür. Nəqliyyatla bağlı aşağıdakı cədvəldə Sumqayıt şəhərinin statistik göstəriciləri 2005-2015-ci illərin nəşri əsasında tərtib edilmişdir [10 , s.61].

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Avtomobil nəqliyyatı ilə yük daşınması, min tonlarla | 1739 | 2589 | 2794 | 3006 | 3186 | 3274 | 3434 |
| Yük dövriyyəsi, min ton/ km | 172,8 | 232,7 | 262,4 | 281,3 | 298,2 | 308,2 | 323,6 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması, min nəfər | 57430 | 75176 | 80814 | 86633 | 92611 | 97528 | 103867 |
| Sərnişin dövriyyəsi | 1038,4 | 1424,3 | 1515,3 | 1609 | 1720,6 | 1801,2 | 1920,1 |
| Avtomobil nəqliyyatı ilə sərnişin dövriyyəsi | 1138 | 1424 | 1518 | 1609,5 | 1720,6 | 1801,2 | 1920,1 |
| Avtomobillərin cəmi,sayı, ədədlə | 17433 | 23525 | 25072 | 29666 | 35310 | 39134 | 40888 |

Sumqayıtda nəqliyyatın inkişafı Bakı-Sumqayıt arasında "şəhərdən-şəhərə" olan gündəlik miqrasiyanın genişlənməsinə, şəhərətrafı bölgələrdə yaşayış sahələrinin inkişafına və klassik yaşayış sahələrinin meydana gəlməsinə səbəb olur. Eyni zamanda, etnomədəni mühit güclü şəkildə qütblənmiş və mərkəz ətrafdan kəskin şəkildə fərqlənməkdədir. Digər tərəfdən gündəlik miqrasiya periferik, yəni mərkəzdən uzaq yerlərin formalaşmasına və etnomədəni durumun fərqli şəkildə inkişafına təsir edir.

Gündəlik əmək miqrasiyası, mədəni, istirahət və işgüzar səfərlərlə yanaşı, əhalinin ərazi hərəkətliliyinin ümumi bir fenomenliyinin xüsusi vəziyyətidir. Gündəlik miqrasiya məskunlaşmanı təmin etməklə yanaşı, iş yerini dəyişməklə istənilən müddət ərzində ölkə, bölgə və yaşayış məntəqələri arasında ərazi

hərəkətliliyini təmin edir [5, s.20]. Sumqayıt şəhərindən fərqli olaraq, Ukraynada şəhərlərarası miqrasiya axınlarının əsas hissəsi bölgələrarası gediş-gəliş vasitəsilə həyata keçirilir. Burada kənd yerlərindən şəhərlərə yönəldilən axınlar üstünlük təşkil edir. 1968-1975-ci illər üçün bölgədaxili gediş-gəliş orta hesabla Ukrayna şəhər əhalisinin miqrasiya artımının 4/3hissəsini təşkil edirdi [12,s.57]. Bölgələrdən gələn miqrantlar şəhərdə nəqliyyat tıxaclarına və həddindən artıq yük rejiminin olmasına şərait yaradır ki, bu da öz növbəsində şəhərin inkişafına öz mənfi təsirini göstərir. Nəqliyyat məhdudiyyətləri, əmlak qiymətlərində artım və bəzi iş yerlərinin şəhər mərkəzindən çıxarılması, şəhərdən kənar yaşayış yerlərində infrastrukturun inkişafına səbəb olur. Şəhərətrafı ərazilərdən işə gedə bilməməyiniz və mənzillərin bahalaşması şəhərdəki binaların sıxlaşmasına və artmasına, şəhərətrafı ərazilərin "canlanmasına" səbəb olur. Sosial və mülkiyyət ayrılması davam edir, lakin bu artıq müəyyən bir sahənin mərkəzə yaxınlığı ilə deyil, digər amillərlə müəyyən edilir [11, s.56].

Şəhərdə aqlomerasiyanın inkişafının ilkin mərhələlərində, gündəlik miqrasiya köçü əsasən ənənəvi yaşayış yerlərindən və peyk şəhərlərdənyönəldilirdi. Şəhərətrafı ərazilərin, o cümlədən Saray, Corat, Ceyranbatan, H.Z. Tağıyev adına qəsəbələrinin böyüməsi, orada infrastrukturun inkişafı, əhalinin artması, iqtisadi ixtisaslaşması, peyk şəhərinin özünü əməkçi miqrantlarla təmin etməsi, tərsinə yaxud əks axını da meydana çıxarır. İşlə bağlı miqrasiyanın əhalinin qəsəbələrarası mədəni-məişət və istirahətlə bağlı miqrasiyadan fərqi, əməkçi miqrantın şəxsi tələbatından irəli gəlməsindədir[11, s.56].

Şəhərə gediş-gəlişlə bağlı aparılan araşdırmalara görə, 2009-cı ildə Sumqayıtdan hər gün 800-1000 nəfər insan işləmək və ya təhsil almaq üçün Bakıya gəlirdi. Bu baxımdan əhalini səciyyələndirən ən mühüm göstəricilər içərisində onun ərazi üzrə məskunlaşması mühüm yer tutur. Əhalinin məskunlaşmasının əsas problemlərindən biri onun şəhər və kəndlər üzrə yerləşməsi, yəni ümumi əhali içərisində şəhər və kənd əhalisinin payının müəyyənləşdirilməsilə əlaqədardır[9, s.6].

Belə ki, Sumqayıtın aqlomerasiyasında ümumi ticarət dövriyyəsində kənd əhalisinin gündəlik miqrasiyası xeyli artmışdır. Bunu heyvandarlıq məhsullarının dinamik inkişafında və Sumqayıt şəhərinin statistik göstəricilərində görmək mümkündür [10, s.60].

| Heyvandarlıq məhsullarının istehsalı | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş şəkildə), tonla | 68 | 146 | 179 | 173 | 192 | 163 |
| Süd, tonla | 594 | 807 | 1184 | 1205 | 1215 | 1209 |
| Yumurta, min ədəd | 72 | 1099 | 6931 | 9325 | 1971 | 1501 |
| Yun, tonla | 4 | 5 | 5 | 6 | 3 | 3 |
| Quşların sayı ədədlə | 20000 | 54000 | 52250 | 42000 | 35000 | 40100 |

Beləliklə, bu gün də Sumqayıt şəhəri daimi, müvəqqəti, gündəlik köç mərkəzi kimi özünün əvvəlki qaydada tranzit köçü ehtiva edən baza trayektorik xüsusiyyətlərini saxlayır. Məsələn, tədqiq edilən şəhərdən paytaxta, bölgələrə, ətraf qəsəbələrə əvvəlki illərdə olduğu kimi, bu gün də köç prosesləri davam etməkdədir. Klassik mənbə mərkəzi olan paytaxtdan və ətraf rayonlardan bölgəyə köç prosesləri yenə də mövcuddur. Eləcə də Sumqayıt şəhərindən digər bölgələrə köç edənlər (əks axın və başqa ölkələrə gedənlər) çoxalmaqdadır. Son zamanlar şəhərdən paytaxta və xarici ölkələrə köç edənlərin sayı artmaqdadır.

**Açar sözlər:** *Sumqayıt, miqrant, şəhər, miqrasiya, proses, əhali.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Alıyev H.A. Sumqayıt şəhərinin sosial-iqtisadi və ictimai-siyasi tarixi. Bakı, Elm və təhsil nəşriyyatı, 2011, 284 s.*

*2. Alıyev H.A. Sumqayıt şəhərinin tarixi.Bakı, Elm və təhsil nəşriyyatı, 2011, 544 s.*

*3. Əliyev H.Ə. Müstəqillik yollarında. II cild, Bakı, Azərnəşr, 1997, 564 s.*

*4. http: // migration. gov.az "Respublika" qəz.18 dekabr 2012-ci il*

*5. Хорев Б.С. Основные сдвиги в расселении населения в СССР и некоторые актуальные проблемы миграционной политики. В кн.: Народонаселение (прикладная демография). М., Мысль, 1973. 189 с.*

*6. Məmmədov R.S., Sadıqov H.Ş. Sumqayıt: tarixdən səhifələr(1930-2000). Sumqayıt: "Zərdabi" nəşriyyat-poliqrafiya MMC, 2010, 240 s.*

*7. Nəsibov A. Təzə şəhər (Sumqayıt şəhəri haqqında) // "Kommunist" qəz., 1955, 29 yanvar, s.3*

*8. Nəsibov E. M. Miqrasiyanın əsasları. Miqra-*

*siologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I kitab.Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2014, 240 səh.*

*9. Статистика населения с основами демографии. М., Высшая школа, 1990, 298 с.*

*10. Sumqayıt şəhərinin statistik göstəriciləri (2005-2015). Sumqayıt, 2016, 79 s.*

*11. Таборисская И.М. Маятниковая миграция населения (теория, методолигия, практика). Москва, Статистика, 1979, 176 с.*

*12. Таборисская И.М. Маятниковая миграция: сущность, функции, тенденции развития. В кн.: Экономическая география. Л., 1975. 235 с.*

*13. Веретевская, Анна Вячеславовна. Мультикультурализм, которого не было: анализ европейских практик политической интеграции этнокультурных меньшинств.Москва: МГИМО-Университет, 2018, 182 с.*

## РЕЗЮМЕ

**Гюльнар Гамид гызы Баширова**
***Диссертант Института Археологии, Этнографии и Антропологии НАН Азербайджана***
***e-mail: gulnar.bsirova@mail.ru***

### О некоторых формах массовых передвижений населения

В настоящей статье автор, на основе материалов, существующих в азербайджанской и российской научной литературе по этнологии, рассматривает вопросы о различных формах передвижения населения. В ходе исследований затронуты также различные стороны состояния современной всемирной миграции, предприняты попытки определения различных миграционных категорий, а также анализированы истоки, ход характерные особенности и самые значительные результаты миграционных процессов в городе Сумгаит.

В конце статьи автор отмечает, что в настоящее время в городе Сумгаит наблюдается не только переселения из различных регионов в Сумгаит но и обратный процесс возвращения части мигрантов в свои прежние места проживания.

**Ключевые слова:** *Сумгаит, мигрант, город, миграция, процесс, население.*

**Gulnar Hamid qizi Bashirova**
***PhD student of the Institute of Archeology Ethnography and Anthropology of ANAS***
***e-mail: gulnar.bsirova@mail.ru***

## SUMMARY

### On some forms of the mass movements of the population

The current article deals with forms of population movements on the basis of information available in both Azerbaijani and Russian scientific literature on various ethnologies. In the course of the study, various aspects of the state of modern world migration were touched upon, various categories of migration were attempted, as well as resources, course, characteristic features and most important results of migration processes in Sumgayit City were analyzed.

At the end of the article, the author notes that in the modern period there is not only migration from different regions to Sumgayit, but also the reverse process - the return of a part of migrants to their previous places of residence.

**Key words:** *Sumgayit, migrant, city, miqration, process, population.*

# İqtisadiyyat

UOT 338.532.4

## AZƏRBAYCANIN AQRAR-ƏRZAQ BAZARI: MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**NİZAMİ QAFAROV**
*Azərbaycan Kooperasiya Univesiteti*
*"Aqrar sahənin və sənayenin iqtisadiyyatı" kafedrası iqtisad elmləri namizədi, dosent*

*E-mail: qafarovnizami@mail.ru*

**Giriş**

Qiymət bazar münasibətləri sistemində mərkəzi yer tutan, satıcı və alıcının əks iqtisadi maraqlarını tarazlaşdıran, tələb və təklifi uyğunlaşdıran iqtisadi kateqoriyadır. Bazar iqtisadiyyatının əsas həlqələrindən biri olan qiymətqoyma təkcə çevik alət deyil, həm də idarəetmənin mühüm rıçaqıdır.

Qiymətqoyma mexanizmi müxtəlif növ bazarlarla bağlıdır, ona görə də tədqiqatın məqsədindən çıxış edərək, ərzaq bazarının qida qiymətləri mühiti kimi xarakterini, xüsusiyyətlərini, ölkənin ərzaq bazarının inkişafının makroiqtisadi problemlərini aydınlaşdırmağa, ərzaq bazarının dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə ehtiyac var.

**1. Bazar mexanizminin elementləri: tələb, təklif, qiymət və rəqabət**

Tələb və təklif bazarın ən mühüm və bir-birindən asılı elementləri olub, maddi nemətlərin istehsalı ilə istehlakı arasında daimi əlaqəni təmin edir.

Bazar mexanizminin özəlliyi ondan ibarətdir ki, onun hər bir elementi tələb və təklifə təsir edən əsas alət olan qiymətlə sıx bağlıdır və müvafiq olaraq bazar iştirakçılarının maraqlarını ifadə edir və onların bazarda davranışını müəyyən edir. Digər tərəfdən, qiymət tələb və təklifin təsiri altında eyni vaxtda formalaşır. Dünya şöhrətli iqtisadçı A.Marşallın obrazlı müqayisəsinə görə, tələb və təklif eyni qayçının iki dilinə bənzəyir. Onlar ancaq birlikdə mövcuddurlar və onların qarşılıqlı əlaqəsi bazarın fəaliyyətini təmin edir [1].

A.Marşalın müqayisəsini davam etdirsək, qiyməti ətrafında və qayçı bıçaqlarının hərəkət etdiyi çubuqla müqayisə etmək olar [2]. Əslində, bazarın fəaliyyət mexanizmləri yalnız tələb, təklif və qiymətlərin qarşılıqlı təsirində tam şəkildə üzə çıxır.

Tələb və təklifin dinamik qarşılıqlı əlaqəsi həmişə iki nəticədən birinə malikdir - ya tələb və təklif tarazlaşdırıldıqda və artıqlıq və ya çatışmazlıq olmadığı halda bazar tarazlıqda olur, ya da tələb təklifi üstələyən və çatışmazlıq olduqda bazar balanssız olur, yaxud təklif tələbi üstələdikdə və bazar mallarla doyduqda.

Tələb, təklif və qiymətlərin bazar qarşılıqlı əlaqəsi qiymət mexanizminin həm istehsal xərcləri, həm də tələbin miqyasını və intensivliyini müəyyən edən istehlakçı üstünlükləri ilə əlaqəsini aydın şəkildə göstərir. Buna görə də tarazlıq qiyməti həm istehsal tərəfində olan amilləri, həm də istehlak sahəsində fəaliyyət göstərən amilləri tam nəzərə alır. Bütün bazar münasibətləri sisteminin özəyini təşkil edən qiymətin mahiyyəti budur [3; 4].

Rəqabət tələb və təklifi tarazlaşdıran və bazar iştirakçılarının qarşılıqlı əlaqəsini təmin edən bazar mexanizminin elementidir. "Müasir bazar mexanizminin mərkəzində rəqabət təkcə ona görə deyil ki, onun miqyası son onilliklərdə eksponent olaraq artıb. Əsas odur ki, rəqabət bazarın məhdud mülkiyyəti, onun ayrılmaz xüsusiyyətidir" [5].

Klassik iqtisadi nəzəriyyənin nümayəndəsi A.Smit rəqabəti ayrı-ayrı satıcılar və alıcıların müvafiq olaraq daha sərfəli satış və alış üçün bazarda rəqabət apardıqları davranış kateqoriyası kimi şərh edirdi. Rəqabət bazarın iştirakçılarının fəaliyyətini əlaqələndirən eyni "görünməz əli"dir [6].

Rəqabət tələb və təklifin qarşılıqlı təsirini təmin edən və bazar qiymətlərini tarazlaşdıran qüvvə kimi çıxış edir. Satıcılar və alıcılar arasında rəqabət nəticəsində homojen malların ümumi qiyməti və tələb və təklif əyrilərinin müəyyən bir növü müəyyən edilir. Rəqabət bazar qiymət mexanizminin işləməsini təmin edir.

Rəqabət və onun əsasında formalaşan münasibətlər genetik elementdir, bazar sisteminin əlamətidir. Rəqabətin mövcudluğu və ya olmaması, hər şeydən əvvəl, bazar sisteminin özünün mövcudluğu və ya olmaması deməkdir. Rəqabət bazarın, onun tərkib parametrlərinin kortəbii özünütənzimləmə qüvvəsidir [7].

Yuxarıdakıları ümumiləşdirərək qeyd edirik ki, bazar daim təkmilləşən və inkişafı bütün komponentlərdən, o cümlədən müxtəlif bazar strukturla-

rından asılı olan dinamik bir orqanizmdir.

**2. Ərzaq bazarında iqtisadi münasibətlərin mahiyyəti və əsas fərqləndirici xüsusiyyətləri**

Bazar mürəkkəb struktura malikdir və iqtisadiyyatın bütün sahələrini əhatə edir. İstehlak bazarı fəaliyyət göstərən bazarın tərkib hissəsidir (istehsal vasitələri, əmək, maliyyə, informasiya və s. bazarlarla yanaşı). O, istehsal və istehlak proseslərini əlaqələndirir, əmtəə satışını stimullaşdırır, bununla da maksimum mənfəət əldə etməklə istehlakçı tələbatını ödəyir və istehsalçıların səmərəliliyini artırır, istehlakçıların gəlirlərini onların alıcılıq qabiliyyəti ilə əlaqələndirir, regionlar və iqtisadiyyatın sektorları arasında mübadiləni tənzimləyir, istehsalçıların fərdi xərclərinin sosial xərclərə nisbətini müəyyən edən imkanlar yaradır.

İstehlak bazarının strukturlaşdırılmasına dair elmi baxışların müxtəlifliyinə baxmayaraq [8], bütün müəlliflər bir məsələdə həmfikirdirlər: istehlak bazarı – mürəkkəb yüksək təşkil olunmuş sistem olub, burada xüsusi yeri ərzaq bazarı tutur.

Ərzaq bazarı sosial ehtiyacları ödəmək və onun bütün subyektləri tərəfindən funksiyalarının rol və əhəmiyyətinə uyğun gəlir əldə etmək məqsədi ilə ərzaq məhsullarının istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı üçün iqtisadi münasibətlər məcmusudur [9].

Ərzaq bazarında iqtisadi münasibətlərin mahiyyəti bir tərəfdən xərcləri ödəmək, digər tərəfdən ehtiyacları ödəmək ehtiyacından ibarətdir və onun vasitəsilə qida sənayesinə təsir və bu əks əlaqə həlledicidir, çünki o, məhsulların çeşidini və onun həcmini formalaşdırır, istehsal və emal sənayesində tələb olunan resursların miqdarını müəyyən edir.

Ərzaq bazarı ərzaq məhsullarının istehsalını və sərbəst hərəkətini təmin etmək üçün bazar iştirakçıları arasında qarşılıqlı fəaliyyət sahəsidir. Ərzaq bazarının subyektləri bütün mülkiyyət formalı kənd təsərrüfatı məhsulları istehsalçıları, emal müəssisələri, topdan və pərakəndə ticarət müəssisələri, istehlakçılardır. Başqa sözlə, ərzaq bazarının subyektlərinə iqtisadiyyatın aqrar sektorunun bütün müəssisələri, kiçik fərdi istehsalçılar, ticarət və istehlakçılar, yəni tələb və təklifi müəyyən edən bütün bazar agentləri daxildir.

Ərzaq bazarını digər bazarlardan fərqləndirən əsas fərqləndirici xüsusiyyətlər arasında aşağıdakıları qeyd etmək olar.

1. Qida bazarı ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində həlledici əhəmiyyətə malikdir. Kənd təsərrüfatı məhsullarının dayanıqlı istehsalı, müxtəlif çeşidli ərzaq məhsullarının ritmik istehsalı, əhalinin fasiləsiz və ucuz ərzaq məhsulları ilə təminatı milli təsərrüfat kompleksinin iqtisadi təhlükəsizliyinin kompleks kompleksinin elementləri və cəmiyyətdə sosial gərginliyin azaldılması amilidir.

2. Ərzaq bazarı bazarların resurs tipinə (hər hansı digər resurslar bazarı kimi: enerji, torpaq, əmək, investisiya, xammal və s.) aiddir. Bununla belə, qeyd etmək lazımdır ki, bütün bazar resurslarından iqtisadi inkişaf üçün bütün böyük əhəmiyyətinə baxmayaraq, yalnız ikisi - ərzaq bazarı və əmək bazarı təkcə iqtisadi deyil, hər şeydən əvvəl sosial əhəmiyyət kəsb edir. Belə bazarların istənilən tədqiqi onların sosial-iqtisadi əhəmiyyəti baxımından aparılmalıdır. Bu yanaşma bizə ərzaq bazarını təsərrüfat subyektlərinin ərzaq məhsullarının istehsalı, mübadiləsi, bölüşdürülməsi və istehlakı ilə bağlı sosial-iqtisadi münasibətlər sistemi kimi müəyyən etməyə imkan verir. Sonuncular bu bazarın obyektidir və orada əmtəə kimi çıxış edirlər, baxmayaraq ki, bu əmtəələrin istehlaka (məhsuldar və şəxsi) hazırlıq dərəcəsinin fərqli ola biləcəyi açıq-aydın görünür. Bu fakt tədqiqat prosesində onun bəzi seqmentlərinin (bazarın ayrı-ayrı nisbətən müstəqil alt bazarlara bölünməsi) vurğulanmasını qaçınılmaz edir, tələb və təklif, qiymətlər, rəqabət mühiti, tarazlıq istəyi və s. onlara müxtəlif üsullarla quraşdırıla bilər [10].

3. Qidalanma ən mühüm insan ehtiyacı kimi, hətta digər xərclər hesabına da prioritetdir. Gəlirlərin kəskin azalması və ya qiymətlərin kəskin artması halında istehlakı azaltmaq yalnız insan fiziologiyası ilə müəyyən edilmiş nisbətən dar çərçivələrdə mümkündür. Digər tərəfdən, gəlirlərin kəskin artması və ya qiymətlərin aşağı düşməsi ilə, xüsusilə spesifik və ekzotik məhsullar istisna olmaqla, ərzağa tələbin artması da yenə fizioloji maneələrə görə kifayət qədər məhdud ola bilər.

İqtisadiyyatda bu, tələbin nisbətən qeyri-elastik və mühafizəkar olması deməkdir (müxtəlif tədqiqatlarda istər gəlir, istərsə də qiymətlər baxımından ərzaq məhsullarına tələbin elastiklik əmsalı birdən azdır [11]).

Onu da vurğulamaq lazımdır ki, insanın həyati, fizioloji ehtiyaclarını ödəmək qabiliyyəti yüksək olduğuna görə, qidaya olan tələbat aşağı elastiklik

ilə xarakterizə olunsa da, eyni zamanda - müəyyən bir məhsul qrupu daxilində qida onların qida mübadiləsinin xüsusiyyətlərinə görə yüksək elastikliyə malikdir.

4. Təklifə, xüsusən də kənd təsərrüfatı istehsalına gəlincə, onun kənd təsərrüfatı məhsullarının xüsusiyyətlərinə görə öz xüsusiyyətləri vardır. Kənd təsərrüfatı istehsalı məhsulların həcminə, keyfiyyətinə, istehlak xassələrinə əhəmiyyətli dərəcədə təsir edən təbii-iqlim və təbii-bioloji amillərin təsiri altında inkişaf etdirilir. Əksər kənd təsərrüfatı bazarları istehsalın başlanması ilə faktiki istehsal arasındakı vaxt dövrü ilə xarakterizə olunur. Bir çox kənd təsərrüfatı məhsullarının bazarları mövsümi xarakter daşıyır, tələb və təklif baxımından fərqlidir. Kənd təsərrüfatı məhsullarının spesifik xüsusiyyəti yeni məhsulların tədarükünün seleksiya və genetikanın uğurundan əhəmiyyətli dərəcədə asılı olmasıdır. Bəzi kənd təsərrüfatı məhsulları həcmli, daşınma qabiliyyəti azdır, tez xarab olur, bu da xeyli əlavə xərc tələb edir.

5. Kənd təsərrüfatı istehsalı nisbətən mühafizəkar və inertial sahədir. Əkin dövriyyəsi, mal-qaranın yavaş dəyişməsi, onun məhsuldarlığı, çoxillik bitkilər - bütün bunlar istehsalın bioloji təbiəti ilə bağlıdır ki, bu da hava şəraitindən çox asılıdır. Beynəlxalq miqyasda orta illik istehsal artımı 3% kifayət qədər yüksək hesab olunur. Beynəlxalq Qida Siyasəti İnstitutunun hesablamalarına görə, XXI əsrin ilk iki onilliyi üçün dünya kənd təsərrüfatının orta illik artımı 1,7% olacaq. Digər tərəfdən, həm ABŞ-ın, həm də Aİ-nin təcrübəsinin göstərdiyi kimi, xüsusilə elmi-texniki tərəqqi şəraitində inkişafın ətalətini nəzərə alsaq, hətta bəzi sənaye sahələrində istehsalı azaltmaq da çox çətindir. Ümumiyyətlə, kənd təsərrüfatı aşağı elastikliyə malik sahədir [11].

Beləliklə, bazarda aşağı elastik komponentlərin iki əsas növü mövcuddur - tələb və təklif. Onlar nisbətən kiçik qiymət dalğalanmaları və xarici ticarət hesabına müəyyən dərəcədə tarazlaşdırıla bilər. Lakin tələb və təklifin avtomatik qüvvələri hesabına bazarın özünün sabitləşmək imkanları çox məhduddur, o, dar çərçivələrdən kənara çıxa bilmir, çünki bazarın iki aşağı elastik komponenti – yalnız tələb və təklif qiymətləri yüksək elastik səviyyədədir. Nəticədə ərzaq bazarının dövlət tərəfindən tənzimlənməsinə ehtiyac yaranıb.

6. Bu bazarın sosial əhəmiyyəti idarəetmənin bütün səviyyələrində onun tənzimlənməsinin prioritetini müəyyən edərək, iqtisadi əhəmiyyətini artırır və saxlayır.

**3. Ərzaq bazarının vəziyyətinin təhlili metodologiyası**

Sosial yönümlü iqtisadiyyata malik iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi dövlətin bazara və orada qiymətqoymaya müxtəlif tənzimləyici təsir üsullarının tətbiqi üzrə zəngin, toplanmış təcrübədən xəbər verir. Belə üsullara, ilk növbədə, ərzaq bazarına əmtəə və monetar müdaxilələr, intervensiya və ya ipoteka qiymətləri ilə həyata keçirilən alışlar, istehsalçılara güzəştli kreditlər, vergi güzəştləri və s. daxidir.

Bununla belə, bazarın tənzimlənməsinin praktiki təcrübəsinin sübut etdiyi əsas problem, müvafiq seqmentdə nəzəri cəhətdən mümkün tarazlığın olmasına baxmayaraq, qiymət tarazlığını qurmaqla tələb və təklifin tarazlığının təmin edilməsidir. Hər iki ekstremal halda belə disbalans məhsul istehsalçılarının və ya istehlakçılarının gəlirlərinin itirilməsinə, onların həyat səviyyəsinin aşağı düşməsinə, cəmiyyətdə sosial gərginliyin kəskinləşməsinə və s. səbəb olur.

Yuxarıda göstərilənlərə əlavə olaraq, ərzaq bazarı onu digər əmtəə bazarlarından fərqləndirən spesifik xüsusiyyətlərə malikdir və fikrimizcə, bunlar arasında aşağıdakıları ayırd edə bilərik:

- bazar insanın prioritet, həyati, fizioloji ehtiyaclarını ödəyir;
- bazara çıxarılan mallar müştərilərin müxtəlif tələbatlarını ödəmək iqtidarındadır ki, bu da digər bazarlarla müqayisədə ərzaq məhsullarının çeşidinin genişlənməsinə səbəb olur;
- qida məhsullarının özünəməxsus xüsusiyyətləri vardır, yəni: istehsalın müəyyən mövsümiliyi; tez-tez kifayət qədər məhdud ömrü və satış; ayrı-ayrı malların bir-birini əvəz edə bilməsi və bir-birini tamamlaması;
- ərzaq məhsullarına tələb və təklif kifayət qədər böyükdür;
- bazar şəraiti əsasən əhalinin real gəlirlərindən, aqrar-sənaye kompleksinin iqtisadi potensialından asılıdır; kənd təsərrüfatı istehsalının səviyyəsi, emal sənayesinin inkişafı və s.;
- ərzaq bazarının mexanizmində alıcı və satıcıdan başqa tələb və təklifin əlaqəsini təmin edən xeyli sayda vasitəçi əlaqələr də daxildir;

- bazar həm qiymət, həm də qeyri-qiymət rəqabəti ilə xarakterizə olunur;
- müəyyən məhsul qruplarından bir çox mallar zəruri mallardır ki, bu da bazarın dövlət tənzimlənməsinin mövcudluğunu müəyyən edir.

Ərzaq bazarının iqtisadi spesifikliyi ehtiyacların iyerarxiyası, yüksək yerlilik və muxtariyyət dərəcəsi, onun mallarının istehlakının institusional və struktur sabitliyi, aşağı qiymət elastikliyi və makro və mikro səviyyədə strateji əhəmiyyəti ilə müəyyən edilir. Ərzaq bazarının rolu və dinamikası onun həcmi, açıqlığı, dolğunluğu, özünütəminatlılığı, ixracyönümlülük, idxaldan asılılıq, təhlükəsizlik, iqtisadi sistemin genişləndirilmiş təkrar istehsalı üçün zəruri olan istiqamətdə artım və inkişaf perspektivləri problemlərinin həllindən asılıdır.

Ərzaq bazarı bir-biri ilə əlaqəli və bir-birindən asılı olan bir çox elementdən ibarət bir sistem hesab edilə bilər və buna görə də onun vəziyyəti bu sistemə xas olan parametrlərin qiymətləri toplusu ilə müəyyən edilir.

Metodoloji baxımdan ərzaq bazarının vəziyyətinin təhlili konkret tarixi xarakter daşımalı, inkişafın təhlili isə müəyyən parametrlərin dəyərlərinin dinamikasını əks etdirməlidir. Üstəlik, parametrlərdəki bütün dəyişikliklər (onların qiymətləri, aqreqatları) inkişaf hesab edilmir, yalnız istiqamət, qanunauyğunluq və dönməzlik kimi xassələrin mövcudluğu inkişafda mövcud və ya proqnozlaşdırılan dəyişiklikləri nəzərdən keçirməyə əsas verir [12].

**4. Azərbaycanda aqrar-ərzaq bazarının mövcud vəziyyətinin təhlili**

Ərzaq bazarının hazırkı vəziyyətini xarakterizə edən müəyyən parametrlərin dəyərləri məhsuldar qüvvələr və istehsal münasibətləri arasındakı əlaqənin nəticəsidir, sonuncular köklü dəyişikliklərə məruz qalmışdır. Məhz mülkiyyət münasibətlərinin transformasiyası nəticəsində istehsal münasibətlərinin dəyişməsi aqrar-ərzaq sektorunda çoxsaylı struktur dəyişikliklərinə - nisbətlərin dəyişməsinə səbəb olmuşdur: bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının həcmi arasında; təsərrüfatların kateqoriyaları üzrə kənd təsərrüfatı məhsullarının həcmləri arasında; kənd təsərrüfatında istehlak edilən resursların qiymətləri ilə kənd təsərrüfatı xammalının qiymətləri arasında və s.

Belə ki, 1990-cı ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyərinin 63,7%-ni bitkiçilik təşkil edirdisə, 2020-ci ildə onun xüsusi çəkisi 47,8%-ə enmişdir. 1990-cı ildə kənd təsərrüfatı müəssisələri ümumi məhsulun 60,8 faizini, şəxsi təsərrüfatlar isə 30,2 faizini istehsal etmişlərsə, 2020-ci ildə bu rəqəmlər müvafiq olaraq 9,9 faiz və 90,1 faiz təşkil etmişdir [13].

Bununla belə, ərzaq bazarının vəziyyətini xarakterizə etmək üçün ərzaq məhsullarının istehsalı (daxili təklif) və istehlak (tələb) göstəriciləri ən böyük əhəmiyyət kəsb edir (Cədvəl 1).

**Cədvəl 1**

**2020-ci ildə Azərbaycanda adambaşına əsas ərzaq məhsullarının istehsalı (daxili təklif) və istehlakı (tələbi), kq**

| Qida məhsulları | İstehsal | Rasional norma | Faktiki istehlak | İstehsal (%): | |
|---|---|---|---|---|---|
| | | | | istehlak dərəcələri | faktiki istehlak |
| Ət və ət məhsulları (kəsilmiş çəkidə) | 35 | 31,5 | 41 | 111,1 | 85,4 |
| Süd və süd məhsulları | 220 | 232,3 | 258 | 94,7 | 85,3 |
| Yumurta, əd. | 191 | 153 | 175 | 124,8 | 109,1 |
| Çörək və çörək məhsulları (una çevirməklə) | 182 | 126,1 | 193 | 144,3 | 94,3 |
| Kartof | 104 | 50,6 | 83 | 205,5 | 125,3 |
| Tərəvəz və bostan bitkiləri | 219 | 96,9 | 172 | 226,0 | 127,3 |
| Meyvə və giləmeyvə | 87,4 | 45,9 | 99 | 190,4 | 88,3 |
İnnovativ sahibkarlığın inkişafı zərurəti aşağıdakı amillərlə bağlıdır ki, bunlara istehsalın inkişaf amillərinin intensivləşməsi, yeni innovativ texnologiyanın tətbiqinin səmərəliliyinin artırılmasında elmin həlledici rolu, innovativ texnologiyaların xidmət müddətinin əhəmiyyətli dərəcədə azalması, risklərin mövcud olması və s. daxildir [3]. Bazar iqtisadiyyatının hazırkı şəraitində innovativ sahibkarlığın inkişafı aşağıdakı amillərdən asılıdır: innovasiyaya istehlakçı tələbatı, yerli iqtisadiyyatın inkişaf etmiş elmi-texniki potensialının olması, vençur kapitalı firmalarının və innovasiyaları maliyyələşdirən investorların fəaliyyəti, risklərlə əlaqəli fəaliyyətlər. İnnovativ müəssisənin formasının seçimi isə aşağıdakı amillərdən asılıdır: şəxsi üstünlük, fəaliyyət sahəsi, vəsaitin mövcudluğu və s. Hər bir innovativ fəaliyyət növbəti amillərə əsaslanan sahibkarlıq fəaliyyətidir: 1) yeni ideyaların axtarışı (yeni məhsuldan başlayaraq yeni strukturla bitən) və onların qiymətləndirilməsi; 2) zəruri resursların axtarışı; 3) müəssisənin yaradılması və idarə edilməsi; 4) pul mənfəətinin əldə edilməsi və əldə edilən nəticədən şəxsi məmnunluq və s. Ancaq eyni zamanda, heç bir sahibkarlıq innovativ deyil, yalnız innovativ məhsulun istehsalı, istifadəsi və ya yayılması nəticəsində sahibkarlıq mənfəəti əldə etməyə imkan verən sahibkarlıq fəaliyyətidir. İnnovativ fəaliyyət göstərən müəssisə və firmalar innovativ sahibkarlığın subyektləri adlanır. Kiçik innovativ firmalar iqtisadiyyatın yeni yaranan sektorlarında yeni bazar seqmentləri açan, yeni sənaye sahələrini inkişaf etdirən, bilik intensivliyini və istehsalın rəqabət qabiliyyətini artıran və bununla da yeni texnoloji strukturların formalaşmasına töhfə verən texnoloji liderlərdir. Belə firmalar innovativ sahibkarlığın əsasını təşkil edir. Ümumiyyətlə, innovasiya sahibkarlığı dövlət iqtisadiyyatının inkişafında əsas amildir. Sahibkar-innovator isə müasir dövlətin və bütövlükdə cəmiyyətin sosial-iqtisadi sistemində əsas fiqurdur. Alimlər arasında innovasiya sahibkarlığı anlayışı ilə bağlı yekdil fikir yoxdur. Bəzi müəlliflərin fikrincə, innovasiya sahibkarlığı bir prosesdir, digərləri üçün fəaliyyət növüdür, bəziləri üçün davranış xüsusiyyətidir [4, s. 89].

Qeyd edək ki, innovasiya sahibkarlığının inkişafı Azərbaycan üçün də aktual vəzifələrdən biridir. İnnnovasiya sahibkarlığının inkişafı dövlətin innovasiya siyasətinin əsasını təşkil edir. Azərbaycanda innovasiya sahibkarlığının inkişafı bilik iqtisadiyyatının inkişafına güclü təkan verir. Müasir dövrdə Azərbaycanda bilik iqtisadiyyatını innovasiyalarsız təsəvvür etmək mümkün deyil. Beynəlxalq rəqabətin artması və dünya iqtisadiyyatının qloballaşması şəraitində iqtisadi artımın və onların mütərəqqi inkişafının yeni istiqamətləri formalaşır ki, bu da bilavasitə cəmiyyətin inkişafının əsasına çevrilən bilik və innovasiyalardan istifadədən asılıdır. Bir çox yerli və beynəlxalq ekspertlərin proqnozlarına görə, cəmiyyətimizin inkişaf perspektivləri bir insanla, yəni onun istehsal etdiyi, bölüşdüyü və istifadə etdiyi biliklər, intellektual kapital və kadrların artan səriştəsi ilə əlaqələndiriləcəkdir. Müasir iqtisadiyyatda bilik istehsalın səmərəliliyini artıra və iqtisadi artımı təmin edə bilən qeyri-maddi aktivə çevrilir. Bilik iqtisadiyyatına keçid bütün dünya birliyi üçün ən aktual problemdir. Onun əsas istiqamətləri aşağıdakı kimi texnologiyalarla təmsil olunur: alternativ enerji texnologiyaları; nanotexnologiya; qlobal telekommunikasiya və

informasiya şəbəkələri; biotexnologiya; koqnitiv süni intellekt sistemləri və s. Bilik ətraf aləmdəki hadisələrin mahiyyətinə nüfuz etmək üçün insanın zehni fəaliyyətinin məhsuludur [5, s.24].

Bilik iqtisadiyyatında innovasiyalar elm və texnikanın məqsədyönlü inkişafı nəticəsində əldə edilən bilik və informasiya axınlarına əsaslanır. Bilik iqtisadiyyatında iqtisadi inkişafın məzmunu təkcə sıçrayışlı elmi işlərin tətbiqindən və ya prinsipcə yeni məhsul növlərinin və sənaye sahələrinin yaradılmasından deyil, həm də artım xarakterindən ibarətdir. Onun əsas xüsusiyyəti innovasiyaya əsaslanan ekstensiv inkişafdan intensiv inkişafa keçiddir. Bilik iqtisadiyyatında iqtisadi artımın innovativ əsaslarının formalaşdırılması və həyata keçirilməsi bu istiqamətlərə yönəldilməlidir: 1) əhalinin yüksək həyat keyfiyyətinin təmin edilməsi; 2) kadrların peşəkarlıq və təhsil səviyyəsinin yüksəldilməsi, insan kapitalından səmərəli istifadə edilməsi, yüksək texnologiyalı istehsalatlarda məşğul olanların xüsusi çəkisinin artması və 3) ayrı-ayrı sahibkarlıq subyektlərinin və bütövlükdə milli iqtisadiyyatın dünya bazarında rəqabət qabiliyyətinin gücləndirilməsi proseslərinin intensivləşdirilməsi. Eyni zamanda, mövcud xüsusiyyətlərindən və inkişaf elementlərindən yanaşdıqda, bilik iqtisadiyyatının bir qrup spesifik xüsusiyyətlərini qeyd etmək mümkündür:

1. Bilik iqtisadiyyatının inkişafının təməli və səriştəli intellektual mütəxəssislərin formalaşmasına töhfə verən platforma kimi təhsil sektorunun inkişafı. Bilik iqtisadiyyatının formalaşması və inkişafı ilə bütövlükdə təhsil sisteminə tələblər əhəmiyyətli dərəcədə artır, təhsil institutu cəmiyyətin iqtisadi və sosial inkişafında əsas məqama çevrilir. İnsanın təhsil sistemində əldə etdiyi biliklər indi daim təkmilləşməni, yenilənməyi, təkmilləşməyi tələb edən əsasdır. Yəni daimi və davamlı olaraq peşəkar inkişafa, əlavə təhsilə, peşəkar kompetensiyaların inkişafına ehtiyac var.

2. Bilik iqtisadiyyatının mərkəzi sütunları olan elm və texnikanın inkişafı. Texnologiyaların sürətləndirilmiş yenilənməsi və tədqiqat və istehsalat dövrünün müddətinin azaldılması yüksək keyfiyyətli elmi-tədqiqat işlərinin aparılmasını və tədqiqatlar nəticəsində əldə edilən nəticələrin kommersiyalaşdırılmasını zəruri edir. Yeni biliklərin əsas təchizatçısı, ilk növbədə, nəticələri ictimai xarakter daşıyan və bütün maraqlı istifadəçilər üçün açıq olan fundamental elmdir. Fundamental tədqiqatlar zamanı əldə edilən biliklərdən müxtəlif elm sahələrinin alimləri tərəfindən geniş istifadə olunur. İnformasiya texnologiyalarının inkişafı sayəsində biliklər sürətlə və geniş yayılır.

3. Milli innovasiya sisteminin elementi kimi elm, təhsil və sahibkarlığın inteqrasiyası. Bunun nəticəsində təhsil müəssisələrinin strukturunda elmi-tədqiqat laboratoriyaları, müştərək laboratoriyalar, inkubatorlar, innovasiyalarla inteqrasiya olunmuş texnoparklar, texnologiya transfer mərkəzləri kimi strukturlar yaradılır. Onların məqsədi elmi nailiyyətlərin kommersiyalaşdırılması və praktiki tətbiqidir. İnnovativ strukturların yaradılması tədris prosesində fənlərarası qarşılıqlı əlaqəni həyata keçirməyə imkan verir.

4. Qloballaşma və beynəlmiləlləşmə. Yeni elmi biliklərin əldə edilməsi və istifadəsi tədqiqat və inkişaf işlərinin beynəlmiləlləşməsi və qloballaşmasının əsas elementidir. Yeni biliklərin mənimsənilməsi yüksək texnologiyaların qabaqcıl dünya bazarlarına çıxarılması və yüksək texnologiyalı məhsulların ən qabaqcıl istehlakçıları ilə sıx əlaqələrin qurulması ilə stimullaşdırılır.

5. İqtisadiyyatın intellektual sahələrində məşğulluğun artımında əks olunan əməyin intellektuallaşdırılması. Cəmiyyətdə ixtiraçı, yaradıcı və yüksək intellektli mütəxəssislərin dəyəri artır. Bu, əmək fəaliyyətində peşəkar fəaliyyətin müxtəlif aspektlərində qeyri-standart innovativ yanaşmalar və həllər tələb edən "qeyri-səlis" strukturlu çoxlu sayda vəzifələrin görünməsi ilə əlaqədardır.

Beləliklə, biliklər iqtisadiyyatının yuxarıda göstərilən spesifik xüsusiyyətləri iqtisadi inkişafın yeni modelinin formalaşması ilə ayrılmaz şəkildə bağlıdır. Bilik iqtisadiyyatının inkişafında subyektlər arasında birbaşa əlaqə yaradan və daimi məlumat və bilik mübadiləsini yaradan şəbəkələr nəzəriyyəsi xüsusi yer tutur. Şəbəkə iqtisadiyyatının tendensiyaları təhsil komponentinin (yüksək ixtisaslı səriştəli kadrların hazırlanması üçün əsas kimi), akademik elmin (yeni biliklər mənbəyi kimi) və istehsalın inteqrasiyasını təmin edən universitetlərin formalaşmasında özünü daha aydın şəkildə göstərməlidir. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında qeyd olunur ki, ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçid insan kapitalının adekvat inkişafına əsaslanmalıdır [6]. İnnovasiya mühiti həm insan kapitalının, həm də bilik iqtisadiyyatının inkişafı üçün yaxşı zəmin yaradır. Azər-

baycanda elmlə iqtisadiyyat arasında əlaqənin gücləndirilməsi 2009-cu il 4 may tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"da da öz əksini tapıb. Bu strategiya dünya elminin inkişafına və ölkənin mühüm sosial-mədəni məsələlərinin həllinə uyğun olaraq elmi tədqiqatların prioritetlərini, biliyə əsaslanan yeni tip iqtisadiyyatın formalaşdırılmasını, elmin idarə edilməsi sisteminin müasirləşdirilməsini, elmi tədqiqatların prioritetlərini, infrastrukturun, elmi müəssisələrin və elmin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsini, elmdə fasiləsizliyin təmin edilməsini, elm və texnikanın inkişaf etdirilməsi sahəsində dövlət siyasətinin əsas istiqaməti üzrə yüksək səviyyəli ixtisaslı kadrların hazırlanmasını, Azərbaycan elminin beynəlxalq elmi məkana inteqrasiyasını müəyyən edir [7].

Bilik iqtisadiyyatının yaranması biliyin istehsal amili kimi rolunun artması və onun ixtisasa, kadr hazırlığına, təşkilinə və innovasiyaya əhəmiyyətli təsiri ilə xarakterizə olunur. Bilik iqtisadiyyatının inkişafında insan kapitalının rolu müstəsna əhəmiyyət kəsb edir. İnsan potensialı ölkənin iqtisadi potensialının vacib tərkib hissəsi, cəmiyyətin isə ən zəruri resursu kimi çıxış edir. İnsan potensialı kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malikdir. Keyfiyyət xüsusiyyətlərinə onu formalaşdıran və məhsuldarlığını artırmağa imkan verən təhsil, sağlamlıq, peşəkarlıq kimi xüsusiyyətlər daxildir. Kəmiyyət xüsusiyyətlərinə isə doğum, ölüm və miqrasiya kimi xüsusiyyətlər daxildir. İnsan kapitalını formalaşdıran insan potensialına investisiya qoyuluşunun davamlılığıdır [8, s.48].

İnsan potensialının inkişafı aşağıdakı sistemli transformasiyaları əhatə edir: əmək və insan resurslarının rəqabət qabiliyyətinin artırılması; əhalinin həyat səviyyəsinin və sosial mühitinin yüksəldilməsi. Qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan vətəndaşlarının həyatını yaxşılaşdırmağa yönəlmiş milli layihələr hazırlanır və həyata keçirilir. Dövlət istehlak bərabərliyini deyil, imkan bərabərliyini, ilk növbədə təhsil sahəsinə, fərdin təhlükəsizliyinə, siyasi və vətəndaş hüquqlarına riayət olunmasına zəmanət verən sağlamlığın qorunması üçün zəruri minimum ehtiyacların ödənilməsini təmin etməli, eyni zamanda bunun üçün məsuliyyət daşımalıdır. İnsan inkişafı konsepsiyası iqtisadi artım və insan inkişafı arasında optimal əlaqəyə nail olmağın yollarını təklif edir: səhiyyəyə, peşə hazırlığına investisiyaların artırılması, insan qabiliyyətlərinin reallaşdırılmasına və onun sərvətin istehsalı və bölüşdürülməsində iştirakına şərait yaradılması; gəlirin və kapitalın daha ədalətli bölgüsünə nail olmaq, insanın inkişafı və onun qabiliyyətlərinin reallaşdırılması üçün maddi zəmin təmin etmək; sosial xərclərin ehtiyatlı balansına, sosial sahənin iqtisadi bazasının möhkəmləndirilməsinə nail olmaq; imkanları bu və ya digər səbəbdən məhdud olan əhalinin qruplarına xüsusi diqqət yetirməklə, siyasi, sosial və iqtisadi sahələrdə öz seçimlərini həyata keçirmək imkanlarını genişləndirmək.

Bu gün Azərbaycanda təkcə texnologiyaya deyil, həm də insanın məhsuldar gücünün keyfiyyətcə artımına investisiyalar qoyulur. İnsanın məhsuldar gücünün keyfiyyətcə artımı əsasən nemətlərin istehlakı səviyyəsindən asılıdır. Nemətlərin istehlak səviyyəsi insanın inkişaf xərclərinin tərkib hissələri əsasında müəyyən edilir.

İnsanın inkişaf xərclərinin tərkib hissələrini nəzərdən keçirmək üçün aşağıdakı şəkilə diqqət yetirək (şəkil 1).




**Şəkil 1. İnsan inkişafının əsas xərc elementləri**

Adambaşına düşən gəlirlərin, xərclərin və ev təsərrüfatlarının istehlak modellərindəki dəyişikliklərin hərtərəfli təhlili malların istehlakındakı dəyişikliklərin daha aydın mənzərəsini yaradır. Görünür ki, Azərbaycanda ev təsərrüfatlarının istehlak göstəricilərində ciddi dəyişiklik yoxdur. Ərzaq məhsullarına çəkilən xərclərin xüsusi çəkisinin bir qədər artması ilə bu xərclərin əhalinin ümumi xərclərində xüsusi çəkisinin davamlı azalma tendensiyası müşahidə olunur (cədvəl), bu da insan kapitalının keyfiyyətinin yaxşılaşdığını göstərir. Qeyri-ərzaq mallarına və xidmətlərə xərclərin payının artması, bir qayda olaraq, cari istehlakın bu seqmentində

daha çox çeşid və keyfiyyətdən xəbər verir.

**Cədvəl 1**

**Ev təsərrüfatlarında adambaşına düşən orta aylıq istehlak xərcləri, manatla**

| Göstəricilər: | **2010** | **2015** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|
| İstehlak xərcləri, cəmi | 147,4 | 245,55 | 286,02 | 298,4 | 297,8 |
| Ərzaq məhsullarına | 71,1 | 99,40 | 119,65 | 123,8 | 129,2 |
| Alkoqollu içkilərə | 0,8 | 1,28 | 1,57 | 1,6 | 1,6 |
| Tütün məmulatlarına | 1,7 | 2,57 | 4,07 | 4,3 | 4,4 |
| Paltar və ayaqqabıya | 10,4 | 16,91 | 18,22 | 18,4 | 19,0 |
| Su, işıq, qaz və digər yanacaq növlərinə | 9,9 | 18,18 | 21,66 | 22,6 | 23,5 |
| Ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa | 10,1 | 23,17 | 25,15 | 25,6 | 24,9 |
| Səhiyyə xidmətlərinə | 5,4 | 12,02 | 13,77 | 14,4 | 14,8 |
| Nəqliyyat xərclərinə | 8,: | 15,31 | 17,65 | 19,0 | 19,6 |
| Rabitə xərclərinə | 3,9 | 8,18 | 9,24 | 9,7 | 9,9 |
| İstirahət və mədəniyyət xərclərinə | 4,7 | 10,92 | 12,00 | 12,7 | 10,5 |
| Təhsil xərclərinə | 2,2 | 4,82 | 5,22 | 5,5 | 4,9 |
| Mehmanxana, kafe, restoran və yeməkxanaya | 12,6 | 21,52 | 24,54 | 26,8 | 21,5 |
| Digər mal və xidmətlərə | 5,8 | 11,27 | 13,28 | 14,0 | 14,0 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.*

Cədvəl məlumatlarından göründüyü kimi, 2020-ci ildə ev təsərrüfatlarında adambaşına düşən orta aylıq istehlak xərcləri 297,8 manat təşkil etmişdir ki, bunun da 4,9 manatı və yaxud 1,6%-i təhsil xərclərinin payına düşür. Xərclərin əsas hissəsi ərzaq məhsullarının istehlakına düşür.

Dövlət büdcəsindən isə təhsilə 2020-ci ildə 2774,3 milyon manat xərc ayrılıb ki, bu da ümumi büdcə xərclərinin 10,5%-ni təşkil edir. (Şəkil 2.)

Dövlət büdcəsindən elmin maliyyələşdirilməsinə də müəyyən xərclər çəkilmişdir. Belə ki, 2020-ci ildə elmə çəkilən xərclər 143,6 milyon manat olmuşdur ki, bu da ümumi büdcə xərclərinin 0,54%-ni təşkil edir. Elmə çəkilən xərclərin ÜDM-də xüsusi çəkisi isə 0,2% olmuşdur. Bu rəqəmlər müvafiq olaraq 2010-cu ildə 92,8 milyon manat; 0,79%; 0,22%, 2015-ci ildə 113,2 milyon manat; 0,64%; 0,21%, 2019-cu ildə isə 122,3 milyon manat; 0,5%; 0,15% təşkil etmişdir.

Göründüyü kimi, dövlət büdcəsindən həm təhsilə, həm elmə ayrılan xərclərin həcmi davamlı olaraq artırılmışdır. Bu da bilik iqtisadiyyatının inkişafı baxımından əhəmiyyətlidir.

Azərbaycan dövləti innovasiya sahibkarlığının inkişafı üçün insan kapitalının, təhsilin inkişafına dəstək verir. Ölkəmiz bu sahədə ciddi islahatlar aparır. Hazırda insan kapitalının formalaşmasında

**Şəkil 2. Büdcə xərcləri ilə təhsil xərclərinin müqayisəli təhlili, milyon manat (ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib)**



mühüm rola malik olan təhsilin inkişaf etdirilməsi istiqamətində dövlət proqramları uğurla həyata keçirilir. Reallaşdırılan dövlət proqramları təhsil sahəsində keyfiyyət baxımından həm yeni inkişaf meyillərinin, həm də yüksək nəticələrin əldə edilməsinə şərait yaradır. Şübhəsiz ki, bu, ölkəmizin milli insan potensialının kəmiyyət və keyfiyyət baxımından inkişafına və təkmilləşdirilməsinə mühüm töhfə verir. Ona görə də bilik iqtisadiyyatına keçid prosesini sürətləndirmək məqsədilə ali təhsil, elmi-tədqiqat institutları və sənaye birlikləri ilə əməkdaşlığı gücləndirmək lazımdır. Belə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi innovasiya sahibkarlığının inkişafı üçün əhəmiyyətli olduğunu demək olar. Qeyd edək ki, yeni biliklərin yaradıldığı və onun yayılması prosesinin başlandığı yerlərdə, yəni elm və təhsil sahəsinə effektiv şəkildə investisiya qoyulmalıdır. Elm, təhsil və infrastruktur kimi sahələrə investisiya qoyulmasında dövlətin rolu aktiv olmalıdır.

## YEKUN

Beləliklə, yuxarıda qeyd olunanlar bilik iqtisadiyyatının innovasiya sahibkarlığının inkişafı üçün ən perspektivli sahələrdən biri olduğunu təsdiq etməyə imkan verir. Azərbaycanda bilik iqtisadiyyatının inkişafı üçün onun rəqabətqabiliyyətliliyi artırılmalıdır. Bilik iqtisadiyyatının rəqabətqabiliyyəti təkcə biliklərin yaradılması və yayılmasından deyil, həm də onların tətbiqindən, daha doğrusu, elmi-texniki işlərin kommersiyalaşdırılmasından asılıdır ki, bu da təhsil, elm və sahibkarlığın inteqrasiyası olmadan mümkün deyil. Azərbaycanda bilik iqtisadiyyatının inkişafı iqtisadi artım və rifah üçün mühüm amillərə, o cümlədən innovasiya sahibkarlığının inkişaf amilinə çevrilməlidir.

Yaxın perspektivdə bilik iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətlərində bir sıra məsələlərə və amillərə daha çox önəm verilməlidir:

- əlverişli investisiya mühitinin yaradılması və xüsusilə yüksək texnologiyalı sənaye sahələrinə investisiyaların cəlb edilməsi;
- iqtisadi artımı qidalandıran ən mühüm resurs kimi elm və texnologiyanın inkişafı;
- innovasiyaları və əmək məhsuldarlığında artımı təşviq etmək məqsədilə bütün təsərrüfat subyektləri üçün rəqabət şəraitinin yaradılması və dəstəklənməsi;
- sürətlə dəyişən şəraitə uyğunlaşa bilən və yaranan riskləri idarə etmək bacarıqlarına malik işçi qüvvəsinin formalaşdırılması;
- ilk növbədə, dövlət idarəçiliyi sahəsində çevik institusional mühitin stimullaşdırılması və s.

**Açar sözlər:** *bilik iqtisadiyyatı, innovativ sahibkarlıq, bilik iqtisadiyyatının infrastruktur, bilik iqtisadiyyatının yaradılması problemləri, bilik iqtisadiyyatının inkişaf perspektivləri, bilik iqtisadiyyatında innovativ sahibkarlığın rolu, elm və texnologiyalar.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Омуралиева, С.Ш. Теоретические основы инновационного предпринимательства / С.Ш. Омуралиева // Ежеквартальный научно-информационный журнал "Экономический вестник". – 2018. – № 1. – с. 17-19.*

*2. Qasımov, İ.H., Cəbiyev F.A. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017, 183 s.*

*3. İbrahimov, E. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsində innovasiyaların rolu. “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” mövzusunda Respublika elmi konfransının materialları. Naxçıvan, 29 fevral 2020, s.62-64.*

*4. Палкина, М.В. Инновационное предпринимательство: понятие, сущность и специфика // Вестник ВСГУТУ. – 2016. – № 1(58). – с. 89-96.*

*5. Глухов, В.В., Васецкая Н.О. Проблемы модернизации и перехода к инновационной экономике Проблемы современной экономики, N 2 (70), 2019, s.22-25.*

*6. Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012*

*7. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya”. Bakı, 4 may 2009.*

*8. Muradov, A.N. Bilik iqtisadiyyati quruculuğunda insan kapitalinin roluna dair nəzəri mülahizələr. Peşə təhsili və insan kapitalı, 2018, cild 1, №4, 47-52.*

**РЕЗЮМЕ**

**НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ИННОВАТИВНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В РАСШИРЕНИИ ЭКОНОМИКИ ЗНАНИЙ В АЗЕРБАЙДЖАНЕ**

В статье исследованы направления развития инновативного предпринимательства в расширении экономики знаний в Азербайджане. С этой целью рассмотрены основные элементы и компоненты по формированию и развитию экономики знаний путём усиления повышения эффективности инновационного предпринимательства. Анализированы современные реалии и возможности участия субъектов инновационного предпринимательства в процессах развития экономики знаний в стране. Обоснована необходимость повышения роли научно-исследовательских организаций, университетов и промышленных предприятий в процессах развития экономики знаний. Подготовлены рекомендации и даны предложения по развитию экономики знаний и повышение роли инновационного предпринимательства в этих процессах.

**Ключевые слова:** *экономика знания, инновативное предпринимательство, инфраструктура экономики знаний, проблемы создания экономики знаний, перспективы развития экономики знаний, роль инновативного предпринимательства в экономики знаний, наука и технологии.*

**SUMMARY**

**DEVELOPMENT DIRECTIONS OF INNOVATIVE ENTREPRENEURSHIP IN EXPANDING THE KNOWLEDGE ECONOMY IN AZERBAIJAN**

The article investigates the development of innovative entrepreneurship in expanding the knowledge economy in Azerbaijan. To this end, the main elements and components for the formation and development of the knowledge economy by increasing the efficiency of innovative entrepreneurship are considered. The article also analyzes modern realities and opportunities for the participation of innovative businesses in the development of the knowledge economy in the country. The need to increase the role of research organizations, universities and industrial enterprises in the development of the knowledge economy is justified too. Recommendations and suggestions were made for the development of the knowledge economy and increasing the role of innovative entrepreneurship in these processes.

**Keywords:** *knowledge economy, innovative entrepreneurship, infrastructure of knowledge economy, problems of creation of knowledge economy, development prospects of knowledge economy, role of innovative entrepreneurship in knowledge economy, science and technologies.*

UOT: 338.246.025.2:338.33

# QLOBAL REGİONAL ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ EV TƏSƏRRÜFATLARININ İNKİŞAF MƏSƏLƏLƏRİ

**SAMİDDİN QASIMOV**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*

*E-poçt: qsamiddin@mail.ru*

Müasir dövrdə ev təsərrüfatının üzvləri, adətən, birgə yaşamaları və öz məişətlərini birgə qurmaqları ilə fərqlənirlər. Digər tərəfdən, insan iqtisadi "varlıq" olmazdan əvvəl sosial "varlıq" kimi özünü ifadə etməkdədir, onların normal yaşayış, məişət şəraitinin yaradılmasına can atması qanunauyğun proses kimi diqqət çəkir. Eyni zamanda, insanların birgə yaşaması və məişət şəraitini yüksək səviyyədə formalaşdırılması, ilk növbədə sosial tələblərin mövcudluğundan yaranır. Bunlarla bərabər, sosial ehtiyacların araşdırılması burada təsir amillərinin qruplaşdırılmasına və onların təsir dərəcələrinin müxtəlif konfiqurasiyalar halında hansı ifadələrlə xarakterizə olunmaları haqda fikir yaratmaqdan ibarətdir. Yəni, bu istiqamətdə tədqiqatların reallaşdırılması bir qrup amillərə daha çox diqqət yetirilməsini şərtləndirir: 1) Ev təsərrüfatının daxili şəraiti və tələbatı əsasında yaranan sosial ehtiyaclar, başqa sözlə ailə üzvlərinin sayı, onların yaş-cins, təhsil səviyyəsi tərkibi, müxtəlif ev əşyaları ilə təmin olunma reallığı və başqaları; 2) Ev təsərrüfatlarından kənar amillərin təsiri nəticəsində formalaşan bir sıra sosial ehtiyaclar, o cümlədən təbii-iqlim şəraiti, regional xüsusiyyətlər və s.

Qeyd edək ki, sosial ehtiyacların araşdırılması və "sosial ehtiyaclar – onların qarşılanması üzrə iqtisadi imkanlar" kontekstində, baxılması daim artmaqda, öz keyfiyyət və kəmiyyət parametrlərini yüksəltməkdə olan birinci komponentin qarşılanması məqsədilə iqtisadi imkanların yüksəldilməsi istiqamətində tədbirləri vacib edir. Başqa bir məsələ isə ondan ibarətdir ki, formalaşan bu mühitdə ev təsərrüfatı üzvlərinin təsərrüfatı birgə aparmaları, öz öhdələrinə düşən işləri layiqincə yerinə yetirmələri, qarşılıqlı kömək, yardım kimi işlərdə öz fəallıqlarını göstərmələri vacib hesab olunur [1]. Belə ki, fəaliyyət zamanı "irəliyə doğru" atılan hər bir addım təsərrüfat sahibi olan evin (ailənin), onu təşkil edən fərdlərin hər birinin istər sosial, istərsə də iqtisadi həyatında özünün müsbət nəticələrini təcəssüm edəcəkdir [2]. Bunlarla yanaşı, ev təsərrüfatını ifadə edən hadisə və proseslər təkcə sosial qrupa aidiyyatı ilə fərqlənmir [3]. Burada eyni zamanda iqtisadi hadisə və proseslər böyük xüsusi çəki ilə seçilməkdədir ki, bu da həmin subyekti formalaşdıran fərd və ailələrin fəaliyyəti haqqında informasiyanı özündə ehtiva edir: 1) Məşğulluğu ifadə edən fəaliyyətdən xəbər verir; 2) Əmək bilik və fərdişlərinin artırılmasında yeni "üfüqlər" açır; 3) Təsərrüfatın mübadilə məkanlarında fəal iştirakçı sifətilə təmsil olunmasına şərait yaradır; 4) Maliyyə qaynağı funksiyasını yerinə yetirir; 5) Təchizat və tədarük proseslərinin baş verməsini, zəruri infrastruktur elementlərinin yaradılmasını zəruri edir; 6) İstehlakçı cəmiyyəti ilə geniş əlaqələrin yaranmasında mühüm əhəmiyyət kəsb edir; 7) Fərd və ailələrin yaşam tərzinə, onların məişətinin qurulmasına təsir edir; 8) İstehsal proseslərinin təşkilində, yeni məhsul növlərinin mənimsənilməsində öz sözünü demiş olur və s. Bunlara əsasən qeyd etmək olar ki, iqtisadi hadisə və proseslər ailə təsərrüfatlarının həyat tərzində, onun sosial mühitinin formalaşmasında mühüm əhəmiyyət daşıyırlar [4]. Bunlarla bərabər, ev təsərrüfatları müxtəlif istiqamətlərdə iqtisadi fəallıq göstərməklə, həm də sahibkarlıq fəaliyyətinə öz töhfələrini vermək potensialına malikdir [5]. Amma, bunun üçün bu təsərrüfatların iqtisadi fəallığının stimullaşdırılması, biznes fəaliyyəti ilə bağlı tələb olunan resurslara əlçatanlığın təmin olunması, müvafiq şəraitin yaradılması vacibdir [6]. Ev təsərrüfatlarının maddi-texniki bazasının gücləndirilməsi, xüsusilə kənd rayonlarında istehsal və fermer təsərrüfatlarının inkişafına imkan verən infrastruktur elementlərinin formalaşdırılması diqqət mərkəzində saxlanılmalıdır [7].

Fərdi təsərrüfatçılıq subyektləri olmaqla, onlar eyni zamanda bəhs olunan sahədəki fəaliyyətini müvafiq iqtisadi resursların mövcudluğu üzərində qurmaqdadırlar. İstənilən təsərrüfatçılıq subyekti kimi, ev təsərrüfatları da öz fəaliyyətini çoxsaylı və müxtəlifnövlü iqtisadi resuslar əsasında, onların

aktiv istifadə dövriyyəsinə cəlb edilməsi yollu ilə təşkil etməlidirlər. Bu baxımdan ilk yeri torpaq resursları tutur. Məhs bu əsasda təsərrüfat subyektinin ixtisaslaşma istiqaməti müəyyənləşdirilməli, onun məhsullarının növ-çeşid etibarı ilə hansı arealı əhatə etməsinə aydınlıq gətirilməli, onun mərhələliyi və digər xüsusiyyətləri haqqında düşüncələr sistemləşdirilməlidir.

Qeyd edək ki, ev təsərrüfatlarının malik olduğu torpaq resursları strateji əhəmiyyət daşıyır və bu resurslara növbətililəri aid etmək mümkündür: 1) aparılmış torpaq islahatları nəticəsində verilmiş sahələr; 2) sonradan alqı-satqı yolu ilə təsərrüfat tərəfindən əldə edilmiş sahələr; 3) yerli bələdiyyələrdən icarə və s. yolla onlara verilmiş sahələr; 4) eyni ərazidə yaşayan fərd və ya ailələrdən razılaşma əsasında istehsal fəaliyyətini həyata keçirmək məqsədilə alınmış torpaqlar və s. Bu qəbildən olan sahələrin istifadəsi onların təbii yer quruluşu, yerləşdiyi ərazilərin iqlim şəraiti, keyfiyyəti və digər parametrləri nəzərə alınmalıdır. Baxılan məsələlərin diqqətdə saxlanılması ev təsərrüfatları tərəfindən istehsalın təşkili və idarə edilməsində özünün müsbət təsirini göstərə bilər. Bunlarla bərabər, torpaq resursları ilə yanaşı ev təsərrüfatları üçün müəyyən həcmdə pul-dövriyyə vəsaitlərinə, texniki vasitələrə imkanlara, işçi qüvvəsinə və digər resurslara malik olmaq mühüm məsələlər kimi qiymətləndirilməlidir [8]. Qeyd olunan resursların adı çəkilən subyektlərin fəaliyyətinin təşkili və həyata keçirilməsində özünəməxsus rol oynaması obyektiv olaraq qəbul edilməlidir. Eyni zamanda, maliyyə resurslarının formalaşdırılmasında olan problemləri həll etmək lazım gəlir və bu növbətililərlə izah olunur: 1) Maliyyə resursları ilə təminolunmada çatışmayan hissənin yaranması baş verir. Əgər təsərrüfat vahidi ancaq öz maliyyə imkanları çərçivəsində fəaliyyətini təmin etmək istəyirsə, bu zaman ya nəzərdə tutulan istehsal həcmlərinə kəsirlə əməl olunacaq, ya tərkibi formalaşdıracaq köməkçi elementlərdən istifadə səviyyəsi aşağı düşəcək, yaxud da istehsal proqramı üzrə çatışmayan komponentlərin banklar və ya bank olmayan maliyyə təşkilatları, digər subyektlər tərəfindən borc vəsaitləri formasında qarşılanması üzrə addımlar atılacaq ki, bu da adətən yüksək faizlər qarşılığında mümkün olur. Bəhs olunan vəziyyət isə ev təsərrüfatının borc öhdəliyini artırmaqla yanaşı hasil eilən məhsulun maya dəyərininin artması ilə və istehsal olunmuş məhsulların mübadilə məkanlarında qiymət amili baxımından rəqabət qabiliyyətliliyinin azalması ilə müşahidə olunmaqdadır və 2) Ev təsərrüfatlarının maliyyə resurslarının çatışmayan hissəsi üzrə dövlət dəstəyinin göstərilməsi tələb olunur. Həm hökumət, həm də müxtəlif aidiyyatı mərkəzi idarəetmə orqanları tərəfindən istər texniki və maliyyə yardımı, istərsə də nizamlama və sair fəaliyyətlə əlaqədar öz işlərini icra etməkdədirlər ki, bunların da əksəriyyətinin təməlini formalaşdıran elementlərdən biri maliyyə dəstəyidir. Bu isə ev təsərrüfatlarının maliyyə yükünün azaldılmasına gətirib çıxarmaqda önəmli rol oynaya bilər [9]. Başqa bir məqam, ev təsərrüfatlarının fəaliyyətinin həyata keçirilməsində istehlak bazarlarında müstəqil qərarların qəbul edilməsi kimi funksiya mühüm rol oynamaqdadır. Bizə görə, qeyd olunan məsələnin iki aspektdə baxılması məqsədəuyğundur:
1) mübadilə məkanlarında istehsal olunmuş əmtəəlik məhsulla bağlı bütün qərarların müstəqil şəkildə qəbul olunması və 2) öz istehlakının mühüm komponentləri olan xammal, ehtiyat hissələri, texniki vasitələrin əldə olunması üzrə sərbəst şəkildə qərarların qəbul edilməsi. Birinci halda, özü-özlüyündə bir istehsal fazasının başa çatmasından və növbətisi üzrə yeni mərhələyə keçiddən söhbət gedir. Belə ki, ölkəmizdə bazar münasibətlərinin iştirakçıları özləri üçün daha yaxşı səmərəli fəaliyyəti təmin etmək üçün səylər göstərirlər. Digər tərəfdən, ətraf mühitə uyğunlaşma qaydasında hərəkət etmək və bu istiqamətdə rastlaşdıqları problemlərdən çətinliklərdən çıxış yolları tapmağa məcburdurlar. Bununla belə, hər bir sahibkarlıq fəaliyyətinin yekunlaşması digər şərtlərlə yanaşı, daha çox xüsusi maliyyə vəsaitlərinə malik olmanı şərtləndirir. Bundan əlavə, bu proseslərdə həm istehsalın xüsusiyyətləri ilə birbaşa əlaqəli olan, istərsə də ümumilikdə təsərrüfatın idarə edilməsi ilə əlaqədar atılan yenilikçi, təkmilləşdirici və transformativ addımaları nəzərə almaq zəruridir [10]. Bundan əlavə, yeni istehsal sahələrinin mənimsənilməsi yeni mərhələlərin tətbiqini, fərqli ixtisaslı peşəkarlardan istifadəni, maliyyə resurlarından istifadənin dəyişməsini, uyğun texniki vasitələrin əldə olunmasını və digər şərtlərin tətbiqini tələb edə bilər ki, bu amillər də öz növbəsində idarəetmənin təşkili və həyata keçirilməsində dəyi-

şikliklərin baş verməsinə birbaşa və ya dolayı yolla təsir etmək imkanına malikdir. Ölkədə aparılan təsərrüfatçılıq sistemində yenilənmələrə səbəb olan islahatlar da idarəetmə sisteminin daha mütərəqqi təməllər üzrə formalaşmasında mühüm rol oynayacaqdır. Ev təsərrüfatlarının icra etdiyi funksiyalar içərisində özünün tələbat istiqamətlərinin ödənilməsi yolunda mövcud addımların atılması xüsusi əhəmiyyəti ilə seçilməkdədir. Belə ki, ev təsərrüfatı məhsulların istehsalı və reallaşdırılması, işlərin görülməsi, xidmətlərin göstərilməsi kimi fəaliyyətlə məşğul olduğu üçün iqtisadi vahid hesab olunmaqdadır [11]. Bundan başqa, həmin istiqamətlər üzrə istehsal və digər iqtisadi ehtiyacların ödənilməsi probleminin həlli lazımdır. Digər tərəfdən isə, ev təsərrüfatı ailələrin özünüifadə forması kimi qəbul edilməkdədir ki, bu da öz növbəsində sosial xarakterli ehtiyacların mövcudluğuna diqqətin yönəldilməsini şərtləndirir. Bu amillər nöqteyi-nəzərindən, yaranmış vəziyyətə sistemli yanaşmanı tələb etməklə bərabər, ehtiyac qrupları arasında optimal nisbətlərin qorunması zərurəti də ortaya çıxır. Dünya təcrübəsindən yanaşsaq, ev təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi özü ilə yeni iş yerlərinin yaradılması imkanlarını formalaşdırır. Yeni istehsal sahəsi özündə müsbət və mənfi istiqamətləri ilə təzahür edən çoxsaylı problemləri, məsələn, istehsalın ümumi və çeşid ifadəsinin genişlənməsi və onun nəticələrinin reallaşdırılması üçün bazarların imkanlarının qiymətləndirilməsi, yeni texniki imkanlarından istifadə və onların dəyərinin möcvud malyyə resurslarına uyğunluğu və s. formalaşdırmış olur. Amma, iqtisadi fəal insanın iqtisadi vahidlə yanaşı çoxsaylı qeyri-iqtisadi ehtiyacları olan sosial fərd olması da diqqətdən yayınmamalıdır. Bu baxımdan bəlli ixtisasa, sənət-peşə imkanlarına və gəlir mənbəyinə malik olma üzvlər tərəfindən fəaliyyət zamanı daha məhsuldar nümayiş etdirmələri ilə yanaşı, daha çox gəlir əldə etmələrinə və ehtiyacların yüksək səviyyədə ödənilməsinə də imkan verir.

Qeyd edək ki, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı ilə bağlı qəbul edilən qərarlar sırasında ev təsərrüfatları formasında fəaliyyətin təşəkkülü və genişləndirilməsi intensiv şəkildə təşkil olunmaqdadır və bu istiqamətdə nümunəvi regional model formalaşdırılmışdır [12]. Digər tərəfdən, Naxçıvanda olan təbii və iqtisadi resurslardan, xüsusilə perspektivli iqtisadiyyat sahələrindən, məsələn aqrar sektorun imkanlarından səmərəli istifadə olunmasında ev təsərrüfatlarının rolunu artırmaq mümkündür. Bu bütövlükdə Naxçıvan Muxtar Respublikasında aqrar sektorun inkişafında yeni perspektivlər formalaşdıra bilər [13]. Qeyd olunan prinsiplər əsasında aparılan işlərin icrasında çoxsaylı məqsədli dövlət və regional proqramların qəbulu mümkün olmuşdur ki, onlardan biri də icrası davam etməkdə olan özünüməşğulluq proqramlarıdır [14]. Azərbaycanda hər il dövlət büdcəsindən bu tədbirlər üçün məqsədli maliyyə vəsaitləri ayrılır. Özünəməşğulluq və bu qəbildən olan müvafiq proqramların əsas məqsədi – əmək qabiliyyətli insanların iş yerlərinin formalaşdırılması və onların işlə təmin edilməsi, gəlir mənbələrinin yaradılması, həyat şəraitinin yüksəldilməsindən ibarətdir. Bu kimi məqsədli proqramların və tədbirlərin həyata keçirilməsi nəticəsində adətən işsiz insanların işlə təminatında daha yüksək nəticələr əldə etmək mümkün olur və bununla da işsiz kimi qeydiyyatda olanların və ya qeydiyyata düşməyib işsiz qalanların dövlət himayəsinə ehtiyac qalmır, əmtəə bolluğunun yaradılmasına yeni töhfələr verilir və əhalinin iqtisadi fəallığı təmin olunur. Eyni zamanda, özünüməşğulluq proqramlarının icrası zamanı ev təsərrüfatlarının imkanları haqqında dolğun informasiya toplanılmalı, icra olunacaq "layihənin" iqtisadi əsaslandırılması həyata keçirilməli və maliyyə smetası dəqiq hesablanmalıdır. Həmin işlərin nəticəsi kimi yeni istehsal sahələrinin təşkili, mövcud olanlarının imkanlarının isə genişləndirilməsi və yaxud xidmət sahəsinin ya-adılması, təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi mümkünləşər. Bundan əlavə, ev təsərrüfatlarının fəaliyyətinin təşəkkülü və inkişaf etdirilməsi özü ilə onları təşkil edən ailələrin maddi rifah halının yaxşılaşdırılması əsasında insanların sosial, mədəni və digər ehtiyaclarının ödənilmə dərəcəsinin yüksəldilməsi istiqamətlərində də mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan bu məsələlər bir sıra spesifik cəhətlərlə özünü büruzə verməkdədir: 1) fəaliyyət göstərən təsərrüfatın öz işlərini "ətraf iqtisadi və sosial mühitin", iqlim, torpaq quruluşu, coğrafi, ixtisaslaşma və digər amillərin nəzərə almaqla aparması; 2) təsərrüfatların gəlirliliyinə təsir edən amillərin sistemli və kompleks şəkildə

öyrənilməsi, onların müxtəlif situasiyalar üzrə təsir dərəcələrinin müəyyənləşdirilməsi; 3) mütərəqqi düşüncə və fikirlərin, elmi nailiyyətlərin səmərəli, optimal tətbiqi nəticəsində daha yüksək gəlirlilik səviyyəsinin təmin edilməsi; 4) işləyən ev təsərrüfatı üzvlərinin, o cümlədən qadınların əməyinin qiymətləndirilməsində fərqli yanaşmanın tətbiqi; 5) gəlirlərin istehlaka: istər fərdi, istərsə də ümumtəsərrüfat təyinatlı yönəldilən hissəsinin planlı, əsaslandırılmış şəkildə istifadə olunması [15]. Digər tərəfdən, ölkə və onun regionlarında əmtəə bolluğunun və xidmətlərin məqbul səviyyəsinin yaradılmasında müxtəlif strukturlarla yanaşı ev təsərrüfatlarının üzərinə də məsul vəzifələr düşür. Xüsusilə, regionun iqtisadi inkişafının sürətləndirilməsində və onların rəqabət qabiliyyətinin artırılmasında ev təsərrüfatlarının səmərəli funksiyaları diqqət çəkir [16]. Eyni zamanda, həmin subyektlər öz istehsallarını kortəbii, müxtəlif amillərin imkan və təsirlərini nəzərə almadan qura və həyata keçirə bilməzlər. Məsələn, sənətkarlıqla məşğul olan subyektlər üçün əkinəyararlı torpaqların keyfiyyəti əsas götürülməsə də, eyni fikir bitkiçilik sahəsi üzrə ixtisaslaşan ailə kəndli təsərrüfatları ilə bağlı ifadə oluna bilməz. Çünki, torpağın keyfiyyət ifadələri digər istehsal komponentləri ilə yanaşı, "məhsulverimi" ifadəsində mühüm rol oynamaqdadır.

## YEKUN

Beləliklə, aparılan tədqiqatlardan bu nəticəyə gəlmək olar ki, ev təsərrüfatlarının qlobal dəyişkiliklərdən irəli gələn inkişaf səmtləri və şərtləri nəzərə alınmaqla, daha konseptual şəkildə dəyərləndirmək, onların regional iqtisadi inkişaf proseslərində rolunun artırılması tədbirləri görümək müasir dövrün aktual məsələlərinə çevrilməkdədir və bununla əlaqədar bir sıra amillər nəzərə alınmalıdır:

– ev təsərrüfatlarının müasir qlobal şəraitdə inkişaf perspektivlərinin daha obyektiv qiymətləndirilməsi meyarları işlənilməli və işlək mexanizmlərin yaradılması üçün statistik bazanın obyektiv reallıqlar əsasında formalaşdırılması təmin edilməlidir:

– regionlarda ev təsərrüfatlarının səmərəliliyinin artırılması və regionların sosial-iqtisadi inkişafında onların rolunun genişləndirilməsi məqsədilə xüsusi fəaliyyət proqramları və strategiyaları işlənməli, çevik və əsaslandırılmış mexanizmlər tətbiq olunmalıdır;

– ev təsərrüfatlarının sahibkarlıq fəaliyyətində rolunun artırılması, regionun iqtisadi fəallıq potensialından səmərəli istifadə edilməsində daha yüksək nəticələrin əldə olunması üçün, bu qəbildən olan təsərrüfatlara məsləhət xidmətlərinin, maliyyə və hüquqi dəstək mexanizmlərinin göstərilməsi tədbirlərinin sistemli və ardıcıl şəkildə həyata keçirilməsinə ehtiyac vardır və s.

**Açar sözlər:** *qlobal iqtisadi çağırışlar, ev təsərrüfatları, regional inkişaf prioritetləri, ev təsərrüfatlarının regional inkişafda rolu, ev təsərrüfatlarının inkişaf istiqamətləri, ev təsərrüfatlarının inkişaf problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Краснова, О.М. Домашние хозяйства в современной экономической системе. Дисс. канд. экон. наук. Казань, 1999. – 205 с.*

*2. Əlirazyev, Ə.Q., Əlirzayeva, T.Ə. Əhali gəlirləri və istehlakın maliyyə mexanizmi. – Bakı: 2007, – 252 s.*

*3. Алагаджиева, З.М. Семья как субъект общественной жизнедеятельности. – М: Статистика, 2006, – 380 с.*

*4. Şirəliyev, A.İ., Mahmudov, C.İ. İqtisadi artım və sosial tərəqqi. Naxçıvan: İdeya, 2012, 146 s.*

*5. Абчук, В.А. Основы предпринимательства.– М.: «Вига-Пресс», 2005, 442 с.*

*6. Алексеева, М.М. Планирование деятельности фирм. М.: Финансы и статистика, 2011, – 611 с.*

*7. Рыбакова, О.М., Гирбасова, Е.М. Система национальных счетов для сектора домашних хозяйств // Международный бухгалтерский учет. 2018. № 11. с.89-95.*

*8. Шлякова, О.А. Экономика домашнего хозяйства. Саратов, СГУ, издательства «Саратовский источник»; 2012. – 43 с.*

*9. Balayeva, E.Ə. İqtisadi təhlükəsizlik və inkişafın maliyyə problemləri. Bakı: Elm, 2011, 311 s.*

*10. Nuriyev, Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı: Avropa, 2017, 240 s.*

*11. Mahmudov, C.İ. Biznes: əsaslar, təşkili və idarə edilməsi. Bakı: Nurlan, 2011, 272s.*

*12. Əhmədov, N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və*

*təhsil. 2010, 148 s.*

*13. Bağırov, M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344 s.*

*14. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*15. Abdullayeva, R.A. Sosial sferanın iqtisadiyyatı. Bakı: Asiya, 2009, 415 s.*

*16. Qasımov, S.H. Regionun iqtisadi inkişafının fəallaşdırılmasında və rəqabətqabiliyyətliliyin yüksəldilməsində ev təsərrüfatlarının rolu. 17-18 oktyabr 2017-ci ildə Sumqayıt Dövlət Universitetində "İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları" mövzusunda keçirilən Respublika Elmi Konfransının materialları. Sumqayıt: 2017. s.134-135.*

## РЕЗЮМЕ

## ПРОБЛЕМЫ РАЗВИТИЯ ДОМАШНИХ ХОЗЯЙСТВ В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ РЕГИОНАЛЬНЫХ ВЫЗОВОВ

В статье исследуются проблемы развития домашних хозяйств в контексте глобальных региональных вызовов в нынешних условиях. С этой целью анализированы проблемы, мешающие развитию домашних хозяйств в постпандемическом периоде. Дана значимость влияния экономической активности предпринимательства на развитие домашних хозяйств в региональном контексте. Рассмотрены главные факторы, ускоряющие развитие инвестиционных потоков в бюджеты домашних хозяйств. Обобщены специфические черты деятельности домашних хозяйств в условиях современных глобальных вызовов. Даны предложения и рекомендации по проблемам развития домашних хозяйств в региональном аспекте.

**Ключевые слова:** *глобальные экономические вызовы, домашние хозяйства приоритеты регионального развития, роль домашних хозяйств в региональном развитии, направления развития домашних хозяйств, проблемы развития домашних хозяйств.*

## SUMMARY

## PROBLEMS OF DEVELOPMENT OF HOUSEHOLDS IN THE CONTEXT OF GLOBAL REGIONAL CHALLENGES

The problems of development of households in the context of global and regional challenges in the current period are considered in the article. Problems impeding the post-pandemic development of households are analyzed for this purpose. The significance of the impact of economic activity of entrepreneurship on development of households in the regional context is given then. The main factors accelerating the development of investment flows to households' budgets are considered too. The specific characteristics of household activity in the context of modern global challenges are summarized. Suggestions and recommendations on the problems of household development in the regional aspect are given in end of the article.

**Keywords:** *global economic challenges, households' regional development priorities, the role of households in regional development, household development directions, and household development issues.*

UOT: 332.1:336.71:336.77

# AZƏRBAYCANIN REGİONLARINDA BANK-KREDİT MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN GÜCLƏNDİRİLMƏSİ YOLLARI

**RÜFƏT BAXŞƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
*E-mail: rufat.bakhshaliyev@bk.ru*

Azərbaycanda iqtisadi artım problemlərinin həlli və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün səmərəli alətlərin, metodların və yanaşmaların axtarışında səylərin cəmlənməsi tələb olunur. Bu problemlərin həllində maliyyə sektoru böyük əhəmiyyət kəsb edir. Azərbaycanın və onun regionlarının sosial-iqtisadi inkişafının səmərəliliyi əsasən maliyyə sektorunun ona təsiri ilə müəyyən edilir. İqtisadiyyatın bütün subyektlərini maliyyə resursları ilə təmin etmədən onun inkişafı mümkün deyil.

Müasir şəraitdə regionlarda iqtisadi fəaliyyətin müxtəlif sahələri arasında maliyyə resurslarının vasitəçisi kimi bank-kredit müəssisələrinin rolu artır. Bu, daim dəyişən xarici amillərin təsiri altında müəssisə və təşkilatların fəaliyyət göstərməsi üçün şəraitin genişlənməsi və mürəkkəbləşməsi tendensiyaları ilə əlaqədardır. Digər tərəfdən, ölkənin maliyyə sektorunda regional bank-kredit müəssisələrinin mövqeyinin müəyyən edilməsi problemi son dərəcə aktualdır. Azərbaycan Respublikasının təsis qurumlarının iqtisadiyyatının real sektorunun inkişafında, habelə müəssisələrin və fiziki şəxslərin yerli bank məhsullarına tələbatının ödənilməsində regional bank-kredit müəssisələrinin rolunu qiymətləndirməmək olmaz. Regional proqramların həyata keçirilməsində iştirak edən, ərazinin resurs bazasının yaradılmasına və bütövlükdə region iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitin yaradılmasına töhfə verən regional bank-kredit müəssisələrinin inkişafı iqtisadi inkişafın vacib şərti kimi müəyyən edilir.

Regionlarda iqtisadi fəaliyyətin bir çox sahələrinin vəziyyəti bank-kredit müəssisələrinin maliyyə vasitəçisi funksiyasını nə dərəcədə səmərəli yerinə yetirməsindən asılıdır. Öz resursları hesabına fəaliyyət göstərən sənaye müəssisəsindən fərqli olaraq, bank-kredit müəssisələri əsasən başqalarının pulu hesabına fəaliyyət göstərir və bu pulları geri qaytarma əsasında toplayır. Qeyd etmək lazımdır ki, bank-kredit müəssisələri səmərəli fəaliyyət şəraitində reginların iqtisadiyyatının inkişafına faydalı təsir göstərmək iqtidarındadır. Bank-kredit müəssisələrinin stabil işləməsi regional səviyyədə investisiya proseslərini aktivləşdirir, regionun istehsal, kənd təsərrüfatı və tikinti potensialını inkişaf etdirir, infrastruktur obyektlərinin istifadəyə verilməsinə şərait yaradır. Bununla da regionların sosial-iqtisadi inkişafı təmin edilir və vətəndaşların həyat keyfiyyəti yaxşılaşır [1, s.120]. Qeyd edilənlərə əsaslanaraq deyə bilərik ki, regionlarda bank-kredit təşkilatlarının rolunun gücləndirilməsi problemlərinin öyrənilməsi aktual elmi vəzifədir.

Regional bank-kredit müəssisələri regional maliyyə sisteminin mərkəzi elementidir. Regional bank-kredit müəssisələri iqtisadi artımın mühərrikləridir. Burada bütün pul vəsaitlərinin hərəkəti ərazinin subyektlərinin iqtisadi fəaliyyəti sferasında dövr edir. Onların sərmayələri əsasında yerli sənayeyə uzunmüddətli perspektivdə real və mümkün yardım göstərmək imkanı var. Müasir şəraitdə bu son dərəcə vacibdir. Region iqtisadiyyatının inkişaf xüsusiyyətlərini bilmək bank-kredit müəssisələrinə ərazi daxilində fəaliyyət göstərən digər müəssisələrlə müqayisədə rəqabət üstünlüyü verir.

İqtisadi artım tempinin qorunub saxlanılması və daxili bazarda rəqabətqabiliyyətli məhsul istehsalının, milli sərvətin yaradılmasının, cəmiyyətin inkişafının və ölkənin və hər bir regionun ayrı-ayrılıqda həyat səviyyəsinin yüksəldilməsinin şərtlərindən biri də bank-kredit təşkilatlarının sabit və səmərəli fəaliyyətidir. Bu baxımdan regionların bank-kredit müəssisələrinin fəaliyyətinin iqtisadiyyatın real sektoru ilə əlaqəli xüsusiyyətlərinin də müəyyən edilməsi aktual məsələlərdən biridir. Ən ümumi formada regional bank-kredit müəssisələrinin iqtisadi rolu onun funksional əlaqələrindən ibarətdir. Bir tərəfdən, bank-kredit müəssisələrinin maliyyə vasitəçiliyi bütün təsərrüfat subyektləri arasında yaranan iqtisadi qarşılıqlı əlaqə proseslərinin tərkib hissəsidir. Digər tərəfdən, bank-kredit müəssisələri iqtisadi sistemin investisiya fəaliyyətinin əsas subyekti kimi çıxış edir, maliyyə resurslarını istiqamətləndirir, iqtisadiyyatın kapital artıq olan sektorların-

dan investisiya kapitalı olmayan sektorlara yönəldir [2, s.383].

Qeyd edək ki, bank-kredit müəssisələri tez-tez cari likvidliyin tənzimlənməsinə və spekulyativ ticarətə diqqət yetirirlər. Regionların iqtisadi potensialına və reproduktiv imkanlarına təsir edən amillərin qiymətləndirilməsi sübut edir ki, bank-kredit müəssisələrinin əsas məqsədi əksər hallarda öz inkişafıdır. Real iqtisadiyyatda və bank-kredit sektorunda mülkiyyətin strukturu, sənaye istehsalının və bank-kredit təşkilatlarının kapitalının təmərküzləşməsi və mərkəzləşdirilməsi arasında əlaqənin təhlili iqtisadiyyatın real və maliyyə sektorlarının əlaqəli inkişafının öyrənilməsinə zəmin yaratmışdır. Regional bank-kredit müəssisələrinin inkişaf konsepsiyası regionun məqsədyönlü və səmərəli sosial-iqtisadi inkişafının təmin edilməsini nəzərə almalıdır. Regionda bank-kredit sektorunun inkişafını xarakterizə edən kəmiyyət və keyfiyyət parametrləri iqtisadi inkişafın miqyasından və keyfiyyətindən asılıdır. Regional ümumi iqtisadi vəziyyətin göstəricilərinin dinamikası, öz növbəsində, bank-kredit müəssisələrinin əsas xüsusiyyətlərini müəyyənləşdirir. Hazırda Azərbaycanda bank-kredit müəssisələri əmtəə və maliyyə bazarlarını dövlətin daxili və xarici bazarının bütün iştirakçılarının qarşılıqlı əlaqə dairəsinə daxil edən müasir güclü inkişaf sisteminə malikdir. Belə müasir şəraitdə təşkilati-hüquqi mülkiyyət forması kimi bank-kredit müəssisələri uğurlu biznesin formalaşmasında mühüm rol oynayır. Bu gün bank-kredit müəssisələrinin çoxlu müxtəlif formaları mövcuddur. Belə formalardan biri kommersiya banklarıdır.

Azərbaycanın regionlarında bank-kredit müəssisəsi kimi kommersiya banklarının xüsusi rolu vardır. Müasir kommersiya bankları öz potensial istehlakçılarını geniş çeşiddə bank məhsulları, xidmətləri və texnologiyaları ilə təmin edən universal kredit təşkilatlarıdır. Kommersiya bankı təşkilati, iqtisadi və sosial sistemlərin ən mürəkkəb növünə aiddir. Bir tərəfdən, bank xidmətləri bazarında əməliyyatların keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan informasiya texnologiyalarını daim yeniləməli olan konkret maliyyə institutudur. Digər tərəfdən, bank kütləvi müştəri xidmətinə yönəlmiş istehsal sisteminin əsas xüsusiyyətlərinə malikdir.

Kommersiya bankları regional bank-kredit müəssisələri kimi bir sıra funksiyaları yerinə yetirirlər: 1) regionun investisiya siyasətinin həyata keçirilməsi üçün regional və qeyri-regional mənbələrdən maliyyə vəsaitlərinin toplanması; 2) büdcə, bank və digər mənbələr hesabına həyata keçirilməsi təklif olunan layihələrin ekspertizası; 3) yerli sənayenin yüksək səmərəli investisiya layihələrinin, o cümlədən məhsulların regiondan kənarda istehsalı və təchizatının güzəştli maliyyələşdirilməsi və kreditləşdirilməsi; 4) yerli müəssisələrə kredit verilməsi; 5) qeyri-rezident maliyyə təşkilatlarından cəlb edilmiş kreditlərə zəmanət verməklə iqtisadiyyatın yerli sektorunun investisiya və digər layihələrinin dəstəklənməsi və 6) müəssisələrin restrukturizasiyası və inkişafı, kredit resurslarının cəlb edilməsi, səhm və istiqrazların buraxılması ilə bağlı məsləhətlərin verilməsi. Kommersiya bankları tərəfindən kredit mexanizminin bütün elementlərindən məqsədəuyğun və səmərəli istifadə edilməsi üçün özlərinin müvafiq kredit siyasəti işlənib hazırlanır. Bu, bütövlükdə bütün bankın uğurlu işindən və onun gələcək inkişafından çox asılıdır. Kommersiya bankının kredit siyasəti real iqtisadi fərziyyələrə və kredit potensialının mənbələrinə əsaslanır. Kredit siyasəti sahəsində əsas strateji məsələlər kreditlərin həcmi və formasının müəyyən edilməsi, qısa və uzunmüddətli kreditlər arasında əlaqənin yaradılması, kredit portfeli və vəsaitlərin qaytarılması üzrə maliyyə məlumatlarının təhlili prosesidir. Kredit siyasətini uğurlu həyata keçirmək üçün kommersiya bankların kredit vəsaitlərinin daxil olmasına təsir edən bütün amillərin uçotunu aparmalıdır. Bu baxımdan, kredit xətlərinin inkişafı ilə bağlı bankın siyasətinin effektivliyinə təsir edən əsas amilləri nəzərə almaq lazımdır.

Digər tərəfdən, kommersiya banklarının kredit portfelini, xüsusən də onun kredit siyasətini təhlil edərkən aşağıdakılar tələb olunur: 1) kommersiya banklarına nəzarətin gücləndirilməsinə, bank aktivlərinin və kredit portfelinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirmək lazımdır; 2) kommersiya bankları borcalanların maliyyə vəziyyətini müəyyən etməlidir və 3) kommersiya banklarının kredit siyasətinin əsas istiqaməti kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin göstərilməsi, o cümlədən investisiya məqsədləri üçün uzunmüddətli kreditlərin həcminin genişləndirilməsi, ilkin

kapitalın toplanması olmalıdır [3, s.445].

Bunlarla yanaşı, bank-kredit müəssisələrinin iqtisadiyyata təsiri funksiyaların həyata keçirilməsi nəticəsində təşkilatların və əhalinin müvəqqəti pul vəsaitlərinin cəlb edilməsi və toplanması, hüquqi və fiziki şəxslərin kreditləşdirilməsi, bank sisteminin fəaliyyətinin təmin edilməsi prosesləri baş verir. Bank-kredit müəssisələri daha çox sadə və genişləndirilmiş təkrar istehsal prosesinin fasiləsizliyini təmin etmək məqsədilə həm müəssisələrin dövriyyə kapitalının formalaşma mənbələrindən biri kimi, həm də onların əsas fondlarının yenilənməsi məqsədilə uzunmüddətli investisiya mənbəyi kimi çıxış edir. Belə iştirakın dərəcəsi və dəyəri regionların ÜDM-in artım tempinə birbaşa təsir göstərir [4, s.1032].

Regionlarda bank-kredit müəssisələri kapitallarının köməyi ilə regional iqtisadiyyata təsir göstərə bilir [5]. Bu təsirin səmərəliliyi növbəti prinsiplər əsasında təmin edilə bilər: 1) Regional bank-kredit sisteminin real iqtisadiyyatın ehtiyaclarına cavab verməsini nəzərdə tutan adekvatlıq prinsipi, yəni təcrübədə bu, idarəetmənin hər iki səviyyəsində qəbul edilmiş qaydaların iqtisadiyyatdakı real proseslərə uyğunluğu deməkdir və 2) Funksional tamlıq prinsipi bank-kredit sisteminin inkişafının istənilən mərhələsində onun normal fəaliyyətini təmin etmək üçün bütün elementlərin mövcudluğunun zəruriliyinə əsaslanır. Təcrübədə bu prinsipin həyata keçirilməsi həm universal, həm də ixtisaslaşmış bankların, eləcə də bank olmayan kredit təşkilatlarının optimal nisbəti deməkdir [6, s.1156].

Bank-kredit müəssisələri fəaliyyəti zamanı çoxlu sayda müxtəlif xarakterli amillərin təsirinə məruz qalır. Bu amillərin təhlili təkcə onların keyfiyyət vəziyyətini qiymətləndirməyə deyil, həm də böhran vəziyyətlərinin yaranmasının qarşısını almağa, bununla da davamlı inkişafı təmin etməyə imkan verir. Müxtəlif iqtisad yönümlü elmi ədəbiyyatlarda bank-kredit müəssisələrinin sabitliyinə təsir edən amillərin təsnifatı məsələləri kifayət qədər geniş şəkildə öyrənilmiş, lakin bu problemin müəyyən aspektləri üzrə müzakirələr hələ başa çatdırılmamışdır. Bank-kredit müəssisələrinin davamlı inkişafının müəyyən edilmiş müxtəlif amillərində onların xarici və daxili amillərə bölünməsi üstünlük təşkil edir. Bu amillər arasında xarici amillər xüsusilə əhəmiyyətlidir. Xarici amillər qrupuna, bir qayda olaraq, bank-kredit müəssisələrinin fəaliyyətinin xarici mühitini müəyyən edən amillər daxildir. Məsələn: iqtisadiyyatın vəziyyəti və onun inkişaf səviyyəsi, pul dövriyyəsinin vəziyyəti və inkişaf səviyyəsi; normativ-hüquqi baza; iqtisadiyyatın sahə istiqaməti; ÜDM-in həcmi; dövlət sektorunun iqtisadiyyatda payı; yerli malların rəqabət qabiliyyəti; ölkənin sənaye potensialı; ölkədəki siyasi sabitlik və s.

Son 10-15 ildə ölkəmiz müstəqil və dayanıqlı bank sistemi formalaşdırmağa nail olub və bu sahədə mühüm uğurlar əldə edilib. Bank sektorunun rəqabət qabiliyyəti əksər beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilib. Azərbaycanda dövlət banklarının sayı minimuma endirilib və güclü kommersiya bankları şəbəkəsi formalaşıb [7, s.276]. Həmin bank şəbəkələrinin regionlarda da inkişaf etdirilməsi ölkə qarşısında qoyulan əsas vəzifələrdəndir.

İqtisadi vəziyyət sabitləşdikcə, spekulyativ maliyyə alətlərinin rentabelliyi azaldıqca, milli şirkətlərin və əhalinin kredit qabiliyyəti artdıqca bank kreditləşməsinin genişlənməsi, kredit məhsullarının, forma və üsullarının yeni növlərinin tətbiqi baş verir.

Qeyd edək ki, 2020-ci ildə iqtisadiyyata kredit qoyuluşlarının həcmi 14530,5 milyon manat təşkil edib ki, bu da 2017-ci illə müqayisədə 23,6%, 2018-ci illə müqayisədə isə 11,6% artmışdır. Lakin COVİD-19 pandemiyasının yayılması bir çox kiçik və orta müəssisələrin fəaliyyətinin məhdudlaşdırılmasına gətirib çıxarmışdır ki, məhz bunun da nəticəsində 2019-cu illə nisbətən iqtisadiyyata kredit qoyuluşlarının həcmində 5,3% azalma müşahidə olunmuşdur. İqtisadiyyata kredit qoyuluşlarının 83,0%-ni uzunmüddətli, 17,0%-ni isə qısamüdətli qoyuluşlar təşkil edir. 2020-ci ildə iqtisadiyyata kredit qoyuluşlarının 2776,5 milyon manatı və yaxud 19,1%-i dövlət banklarının, 11380,5 milyon manatı və yaxud 78,3%-i özəl bankların, 373,4 milyon manatı və yaxud 2,6%-i isə bank olmayan kredit təşkilatlarının payına düşür. 2020-ci illə müqayisədə bankların sayı əvvəlki illərə nisbətən azalıb [8]. Həmin ildə ölkədə fəaliyyət göstərən bankların sayı 26 olub ki, bunun da 2-si dövlət, 24-ü isə özəl banklardır. Bank filiallarının sayı 455, çalışan işçilərin sayı isə 18708 nəfər olmuşdur. Bankların,

onların filiallarının sayının azalmasına baxmayaraq, nağd vəsaitlərinin həcmində müşahidə olunmuşdur. Bu artım 2018-ci ilə nisbətən 12,3%, 2019-cu ilə nisbətən isə 0,1% təşkil etmişdir. 2020-ci ildə bankların kredit portfeli 14157,0 milyon manat olmuşdur ki, bunun da 59,9%-ni biznes kreditləri, 25,9%-ni istehlak kreditləri, 14,2%-ni isə ipoteka kreditləri təşkil edir [9].

Bank-kredit müəssisələrinin ölkə iqtisadiyyatının inkişafında rolu artmaqda davam edir. Regionlarda fəaliyyət göstərən bank-kredit müəssisələrinin və onların filiallarının regional səviyyədə iqtisadiyyatın maliyyələşdirilməsi və kreditləşdirilməsində rolunun daha da artırılması zəruridir. Qeyd etmək lazımdır ki, regional bank-kredit müəssisələri və onların filial şəbəkələri mərkəzdən bölgələrə vəsaitlərin əsas ötürücüləri kimi çıxış edirlər. Ona görə də hesab edirik ki, bu bank-kredit müəssisələri real sektorda işlərini daha da gücləndirməlidirlər. Belə ki, bu onların maraqlarına cavab verir, yerli müəssisə və təşkilatların investisiya aktivliyini artırır, onlarla uzunmüddətli perspektivdə əməkdaşlığın əsasını müəyyən edir. Bu cür tədbirlər maliyyə təminatı baxımından regional bank-kredit müəssisələrinin və onların filiallarının mərkəzdən asılılığını azaldır [10, s.76].

Regional struktur-sahə xüsusiyyətləri və regionlararası maliyyə münasibətlərinin xüsusiyyətləri regionda bank-kredit müəssisələrinin müştəri kütləsinin formalaşmasına və onların bank əməliyyatlarını həyata keçirmə imkanlarına böyük təsir göstərir. Belə ki, regionun iqtisadiyyatının real və bank-kredit sektorları dialektik şəkildə qarşılıqlı əlaqədədir və bu qarşılıqlı əlaqə münasibətlərin xüsusiyyətlərini açır.

Azərbaycanın regionlarında bank-kredit müəssisələri ilə sənaye müəssisələri arasında qarşılıqlı fəaliyyətin, o cümlədən sənaye müəssisələrinin kreditləşdirilməsinin həcminin artırılması baxımından aktivləşdirilməsi üçün həmin bank-kredit müəssisələrinə xüsusi statusun verilməsi vacibdir. Azərbaycan Respublikasının regionlarının sənaye inkişafının gücləndirilməsinin mühüm istiqamətləri sənaye və innovasiya klasterlərinin yaradılması, habelə xüsusi iqtisadi zonaların, qabaqcıl inkişaf ərazilərinin yaradılmasıdır. Bu baxımdan bank-kredit müəssisələrinin rolu danılmazdır. Belə sahələrə verilən kreditlərin həcminin məqsədyönlü şəkildə artırılması bu ərazilərin region iqtisadiyyatı üçün artım nöqtələrinə çevrilməsində mühüm stimul ola bilər. Azərbaycanın bank-kredit müəssisələrinin regional sosial və iqtisadi inkişaf proqramlarında bu cür kredit qoyuluşlarını dəstəkləməyə yönəlmiş tədbirlərin də nəzərdə tutulması məqsədəuyğundur. Eyni zamanda, regional müəssisələrin bank-kredit dəstəyinin təmin edilməsində mühüm rol nizamnamə kapitalında dövlətin iştirak etdiyi banklara həvalə edilməlidir ki, bu da dövlət səviyyəsində proqram sənədlərində öz əksini tapmalıdır. İri sənaye müəssisələrinin, o cümlədən şəhər yaradan müəssisələrin əsas kreditorları rolunu məhz belə bank-kredit müəssisələrinə həvalə etmək lazımdır.

İnkişaf bankları da Azərbaycanın regionlarında sosial-iqtisadi inkişafının dəstəklənməsində mühüm rol oynaya bilər. Bu halda təkcə regional deyil, həm də Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafını dəstəkləmək məqsədilə vəsait cəlb etmək üçün beynəlxalq inkişaf bankları ilə əməkdaşlıq intensivləşdirilməlidir. Dünya təcrübəsinin göstərdiyi kimi, bank-kredit müəssisələri kiçik və orta sahibkarlığın, eləcə də iri regional sənaye tikinti layihələrinin dəstəklənməsində mühüm rol oynaya bilər. Bank-kredit müəssisələrinin müasir çağırışlara cavab vermək üçün çevik strukturunun olması da zəruridir. Dünya ölkələri daxilində və xaricində hər bir bazar uğrunda mübarizə daha da sərtləşib ki, bu da bank-kredit müəssisələrindən lazımi əlavə resurslar tələb edir [11, s.262]. Bu problem Azərbaycan üçün də xarakterikdir.

## YEKUN

Bütün bunlar regionların sosial-iqtisadi inkişafında bank-kredit müəssisələrinin rolunun gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Regionlarda bank-kredit müəssisələrinin rolunun gücləndirilməsi üçün aşağıdakı tədbirlər görülməlidir:

- Regionların sosial-iqtisadi siyasətinin problemlərini həll etmək və zərərsizliyi və rentabelliyi təmin etmək, cəmiyyətin maraqlarını nəzərə almaq lazımdır. Bu istiqamətdə regionlarda milli layihələrin büdcə vəsaiti hesabına deyil, bank-kredit təşkilatlarının vəsaitləri hesabına həyata keçirilməsi məqsədəuyğundur. Ona görə də regionalrada

bank-kredit müəssisələri öz missiyasını həyata keçirməyə kömək edən qanunla müəyyən edilmiş funksiyalara malik olmalıdır;

- Regionlarda kommersiya bankları xidmət sahələrini dəqiq müəyyən etməlidir. Məsələn, kredit verilərkən onun sferası, ilk növbədə, rayonun sosial-iqtisadi inkişafını müəyyən edən obyektlər müəyyən edilməlidir;
- Regional bank-kredit müəssisələri maliyyə resursları çatışmazlığı ilə üzləşən yerli sənaye sahələrini dəstəkləməyə, yerli kiçik və orta biznesə dəstək verməyə, o cümlədən regionda milli layihələrin həyata keçirilməsinə diqqət yetirməlidir;
- Yerli səviyyədə qanunvericiliklə regional bank-kredit təşkilatlarının müştəriləri üçün prosedur və tələblər hazırlanmalıdır;
- Bank-kredit müəssisələrinin yenidən maliyyələşdirilməsi, real sektorun kreditləşdirilməsi təcrübəsi genişləndirilməlidir;
- Fəaliyyətdə olan əmanətlərin sığortalanması mexanizmi təkmilləşdirilməlidir;
- Girov probleminin həlli üçün lizinq kreditləşməsi hərtərəfli genişləndirilməlidir və s.

**Açar sözlər:** *bank, kredit, bank-kredit müəssisələri, regionlar, bank-kredit xidmətləri, regionların sosial-iqtisadi inkişafında bank-kredit müəssisələrinin rolu.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Магомедова, Н.Ю. Участие банковского сектора РД в кредитовании экономики региона // Пути повышения финансовой стабильности регионов Северного Кавказа: взгляд молодых ученых: Материалы IV Всероссийской научно-практической конференции студентов, аспирантов и молодых преподавателей, Махачкала, 30 октября 2019 года, с. 119-125.*

*2. Корощенко, Н.А., Мишина Н.М., Симонова И.В. Роль региональных коммерческих банков в развитии регионов // Молодой ученый. — 2016. — № 1 (105). – с. 381-385.*

*3. Махсудалиев, З.О., Абдухалилов Ж.Б. Кредитная политика коммерческих банков // Инновации. Наука. Образование, – 2020, № 16, –с. 442-446.*

*4. Софронова, В.В. Роль банковской системы в кредитовании экономики региона // Финансы и кредит, 2018, т. 24, № 5, с. 1031-1045.*

*5. Панов, А.Н. Роль и место коммерческих банков в экономике регионов // Молодой ученый., 2017, № 21 (155), с. 226-229 .*

*6. Четверикова, Е.А., Бибикова Е.А., Валинурова А.А. Методика оценки финансовой устойчивости региональной банковской системы. Финансы и кредит, 2017, т. 23, вып. 20, с. 1154–1172.*

*7. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.*

*8. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2017, 752 s.*

*9. Maliyyə bazarlarının iştirakçıları haqqında ümumi məlumat. https://uploads.cbar.az/assets/11fab8102e18766ab4ed45056.pdf.*

*10. Kamilov, A. Azərbaycanda bank kapitalının real sektorun maliyyələşdirlməsinə cəlb edilməsi yolları. İpək yolu, №2, 2017, s.72-79.*

*11. Исаева, П.Г., Османова С.М. Структура коммерческого банка и организационные основы его деятельности // Азимут научных исследований: экономика и управление, 2020, Т. 9, № 2(31), с. 262-264.*

## РЕЗЮМЕ

## ПУТИ УСИЛЕНИЯ ДЕЯТЕЛЬНОСТИ БАНКОВСКО-КРЕДИТНЫХ ПРЕДПРИЯТИЙ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНА

В статье исследуются пути усиления деятельности банковско-кредитных предприятий в регионах Азербайджана. Рассмотрена сущность социально-экономического развития регионов и роль банковско-кредитных предприятий в усилении экономической активности в них. Обоснована необходимость притока доступных финансово-кредитных ресурсов в регионах страны с целью реализации приоритетных направлений развития предпринимательства и бизнес-среды. Анализирована роль и функции банковско-кредитных предприятий в региональном аспекте и расширение деятельности в рамках развития

банковско-кредитной инфраструктуры. Даны предложения и рекомендации по усилению функций банковско-кредитных предприятий в регионах в ближайшей перспективе.

**Ключевые слова:** *банк, кредит, банковско-кредитные предприятия, регионы, банковско-кредитные услуги, роль банковско-кредитных предприятий в социально-экономическом развитии региона.*

## SUMMARY

## WAYS OF STRENGTHENING THE ACTIVITY OF BANKING AND CREDIT ENTERPRISES IN THE REGIONS OF AZERBAIJAN

Ways to strengthen the activities of banking and credit enterprises in the regions of Azerbaijan are investigated in the article. The essence of socio-economic development of regions and the role of banking and credit enterprises in strengthening economic activity are considered too. The need of the additional financial and credit resources for the regions of the country are justified in order to implement priority areas for the development of entrepreneurship and the business environment. The role and functions of banking and credit enterprises in the regional aspect and the expansion of activities within the framework of the development of banking and credit infrastructure are analyzed. Proposals and recommendations to strengthen the functions of banking and credit enterprises in the regions in the near future are given at the end of the article.

**Keywords:** *bank, credit, banking and credit enterprises, regions, banking and credit services, role of banking and credit enterprises in the socio-economic development of the region.*

UOT 336.01/02; 339.7.01

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANIN VALYUTA SİYASƏTİNİN VƏZİFƏLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

**MƏHƏMMƏD MUXTAROV**
*UNEC-in Zaqatala filialında müəllim,*
*UNEC dissertantı*

*E-mail: muxtarov.mehemmed93@gmail.com*

## GİRİŞ

Valyuta bütün bütün dünya ölkələrində, habelə Azərbaycanda xarici ticarətə, kapital miqrasiyasına, mənfəətin investisiyalara çevrilməsinə, subsidiya və kreditlərə, elmi-texniki mübadilələrə, turizmə, dövlət və özəl pul köçürmələrinə xidmət edir. Valyuta münasibətlərinin xarakteri beynəlxalq iqtisadi münasibətlərin vəziyyətindən asılıdır.

Ölkələr arasında valyuta münasibətlərini tənzimləmək üçün valyuta sisteminin sabit olması mütləqdir. Valyuta sistemi iqtisadi həyatın beynəlmiləlləşməsi və dünya bazarının inkişafı əsasında formalaşan, beynəlxalq müqavilələrdə və dövlət-hüquq normalarında öz əksini tapmış pul münasibətlərinin məcmusudur.

Valyuta sisteminə iki nöqteyi-nəzərdən baxmaq olar. Birincisi, bu, ölkələr arasında iqtisadi əlaqələrin dərinləşməsi nəticəsində yaranmış obyektiv reallıqdır. İkincisi, bu obyektiv reallıq hüquq normalarında, təsisatlarda və beynəlxalq müqavilələrdə dərk olunur və öz əksini tapır. Bu mənada pul sisteminin yaradılması məqsədyönlü fəaliyyət kimi qiymətləndirilə bilər.

Ölkənin əsas iqtisadi məqsədini əhalinin məşğulluğunun təmin edilməsi, istehsalın artırılması, qiymət sabitliyinin qorunması, tədiyyə balansının yaradılması, resurslardan tam istifadə edilməsi kimi sadalamaq olar.

Yuxarıda qeyd olunan əsas iqtisadi məqsədlərə çatmaqda təhsilin keyfiyyəti, ölkənin siyasi, mədəni və iqtisadi strukturu, hökumətlərin həyata keçirdiyi pul və fiskal siyasətlər də bu amillərin təsirində mühüm rol oynayır.

Pul siyasətinin həyata keçirilməsinə cavabdeh olan Mərkəzi Bank ölkənin iqtisadi hədəflərini və hökumətin həyata keçirdiyi digər siyasətləri nəzərə almaqla pul siyasətinin əsas hədəflərini müəyyən etməyə çalışır.

## ƏSAS HİSSƏ

Azərbaycanda valyuta sistemi bir tərəfdən valyuta münasibətlərini, digər tərəfdən isə mübadilə mexanizmini əks etdirir. Buraya fiziki və hüquqi şəxslər, firmalar arasında gündəlik münasibətlər, valyuta bazarları, beynəlxalq hesablaşmalar, kredit və valyuta əməliyyatları daxildir. Valyuta mexanizmi bu normaları milli və beynəlxalq səviyyədə əks etdirən hüquqi normaları və alətləri birləşdirir.

Pul siyasəti bazar iqtisadiyyatının tənzimlənməsi sistemində mühüm rol oynayır. Pul siyasəti hökumətin cari və strateji məqsədlərinə uyğun olaraq qlobal iqtisadi münasibətlər sistemində iqtisadiyyatın daxili və xarici dinamikasını təmin etmək, müəyyən beynəlxalq ödənişləri həyata keçirmək üçün həyata keçirilən tədbirlər silsiləsi deməkdir.

Valyuta siyasəti hüquqi cəhətdən daxili və xarici valyuta ilə ticarətin hüquqi qaydaları, habelə ölkələr arasında valyuta məzənnələri ilə bağlı ikitərəfli və çoxtərəfli müqavilələr məcmusu olan Valyuta Qanunu ilə tənzimlənir [1, s. 100 – 101].

Son 10 ildə milli iqtisadiyyatda müşahidə olunan makroiqtisadi sabitlik, xarici ticarət əlaqələrinin dinamik inkişafı və iqtisadi islahat prosedurları Azərbaycanın digər ölkələrlə əlaqələrində müsbət tendensiyanın formalaşmasını və BKB ilə inteqrasiyanın güclənməsini təmin etmişdir.

**Şəkil 1.1. Azərbaycanda valyuta sisteminin əsas elementləri.**



***Mənbə: https://kommersiya934.weebly.com/uploads/4/0/3/0/40302507/-_metn-_beynelxalq_valyuta_munasibetleri.pdf – beynəlxalq valyuta sistemi 2021.***

Valyuta sisteminin düzgün çalışması üçün əsas vasitələrdən biri də Azərbaycan ixracının digər əsas mənbəyi neft-qaz sektoruna aid olan kənd təsərrüfatı, balıqçılıq və kimya sənayesinin məhsullarıdır.

İqtisadiyyatın bu sahələrinin gələcək inkişafı və malların ixrac potensialının artırılması xarici və daxili kapitalın cəlb edilməsindən, xarici bazarlara çıxarılan malların davamlılığından asılıdır.

Yaxın vaxtlarda milli valyutanın məzənnəsində ciddi dəyişiklik olmasa da, yerli maşın, avadanlıq və mühüm istehlak mallarına tələbatın yüksək olması gələcəkdə belə məhsulların idxalının artmasına səbəb olacaqdır .

Avtomobil və avadanlıqlar əsasən daxili investisiyalar hesabına mal idxalının mühüm hissəsini təşkil edən müasir infrastruktur layihələrinin (nəqliyyat, su, rabitə, turizm və s.) və beynəlxalq neft-qaz layihələrinin həyata keçirilməsi hesabına idxal olunur.

Eyni zamanda, qeyd etmək lazımdır ki, ortamüddətli perspektivdə idxal olunan malların əhəmiyyətli bir hissəsi əvvəlki illərdə olduğu kimi əhali tərəfindən idxal edilir.

Bundan əlavə, milli valyuta sistemindəki mənfi tendensiyalar regional və qlobal pul sistemlərinə mənfi təsir göstərə bilər və regional pul sistemində aparılan islahatlar həm milli pul sistemində, həm də ümumilikdə qlobal pul sistemində əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər.

İstənilən valyuta sisteminin baza elementi valyutadır. Valyuta pulun yeni forması deyil, biznesin aparılmasının xüsusi üsuludur. Bu halda milli valyutaya beynəlxalq ticarət, kredit, ödəniş və hesablaşma əməliyyatları daxildir [2, s. 88 – 89].

Azərbaycan valyuta məzənnəsi beynəlxalq iqtisadi münasibətlərə böyük təsir göstərir [4]:

a) Valyuta məzənnəsi istənilən ölkənin istehsalçılarına məhsulun maya dəyərini dünya qiymətləriylə müqayisə etməyə imkan verir və buna görə də xarici iqtisadi əlaqələrin həyata keçirilməsində aparıcı rol oynayır və təsərrüfat fəaliyyətinin maliyyə göstəricilərini qiymətləndirməyə imkan verir.

b) Valyuta məzənnəsi ölkənin iqtisadi vəziyyətinə birbaşa təsir göstərir və bu, tədiyyə balansında olduqca əhəmiyyətlidir.

c) Valyuta məzənnəsi Azərbaycanın, habelə hansısa digər bir ölkənin istehsalı nəticələrinin ölkələr arasında yenidən bölüşdürülməsinə təsir edir, ona görə də tez-tez qeyd olunduğu regionda müxtəlif ölkələrin maraqları toqquşur və zaman-zaman konfliktlər yaranır ki, bu da ölkələr arasında müvafiq qərarların qəbul edilməsini tələb edir.

Valyuta bazarı xarici valyutanın və müxtəlif pul dəyərlərinin alqı-satqısı nəticəsində yaranan sabit iqtisadi və təşkilati münasibətlər sistemidir. Valyuta bazarında müxtəlif iqtisadiyyatlar arasında münasibətlər sistemi qurulmuşdur [2, s. 56].

Valyuta bazarının əsas subyektləri transmilli banklar, kommersiya bankları, kommersiya və sənaye şirkətləri, mərkəzi banklar, birjalar, beynəlxalq və regional təşkilatlar, fiziki şəxslər və s.

Dünya iqtisadiyyatının beynəlmiləlləşməsi, beynəlxalq borc kapitalı bazarının inkişafı və rabitə vasitələrinin təkmilləşdirilməsi nəticəsində beynəlxalq (regional və dünya) valyuta bazarı formalaşmışdır.

Bu bazarlar milli valyuta bazarından fərqli olan bir sıra xüsusiyyətlərə malikdir. Belə bazarlarda pul məhdudiyyəti yoxdur. Burada bir çox razılaşmalar həyata keçirilib və dünya iqtisadiyyatının bütün ölkələri bu hərəkətə qoşulub [2, s. 32].

Bir qayda olaraq, intervensiyalar üçün rəsmi valyuta ehtiyatlarından istifadə olunur. Valyuta ehtiyatlarının səviyyəsinin dəyişməsi dövlətin məzənnənin formalaşmasına nə dərəcədə müdaxilə etməsinin göstəricisi ola bilər [2, s. 134 - 135].

Mərkəzi bankın müdaxiləsinin əhatə dairəsi ümumiyyətlə məxfi hesab edilir və hökumətin görülən tədbirlərin effektivliyini təmin etmək üçün öz hərəkətlərini gizli saxlamaq səylərini əks etdirir.

Ümumiyyətlə, rəsmi müdaxilə müxtəlif yollarla həyata keçirilə bilər. Bu zaman birja (açıq üsul) və ya banklararası bazar (qapalı üsul) istifadə edilə bilər. Bu, ticarət brokeri və ya birbaşa bank vasitəsilə edilə bilər.

Rəsmi ehtiyatlarla yanaşı, qısamüddətli borclanma və birja ticarəti də müdaxilə üçün maliyyə mənbələri ola bilər. Xüsusi müdaxilə strategiyası hökumətin ümumi iqtisadi strategiyası, habelə mərkəzi bankın valyuta bazarındakı mövqeyinin xüsusiyyətləri ilə müəyyən edilir.

Milli valyutanın məzənnəsindəki artım rəsmi məzənnə bərabərliyi səviyyəsindən yüksəkdir. Öz növbəsində, amortizasiya olunmuş məzənnə, kapital əmsalından aşağı olan rəsmi məzənnədir.

Xarici qiymətlər daxili bazardakı qiymətlərdən daha sürətlə qalxırsa, lakin inflyasiya səviyyəsinə görə məzənnə fərqdən aşağı düşürsə, bu, məzənnənin qalxması deməkdir. Bu halda milli malların ixracı daha çox olacaqdır [3, s. 129 – 130].

Azərbaycanda daxili valyuta sisteminin təkmilləşdirilməsi baxımından qeyd edə bilərik ki, bəzən əməliyyatın kommersiya və ya maliyyə olmasından asılı olaraq valyuta bazarının müxtəlif iştirakçıları üçün fərqli məzənnə sistemi müəyyən edilir [4].

Ticarət üçün adətən rəsmi məzənnə istifadə olunur. Pul köçürmələri ilə bağlı hərraclarda bazar məzənnəsindən istifadə edilir, ticarətin məzənnəsi adətən azalır [3, s. 45].

Milli valyutanı süni şəkildə ucuzlaşdıran ölkələrdə iqtisadiyyatda canlanma müşahidə olunur ki, bu da ixracın rəqabət qabiliyyətinin artması ilə bağlıdır [1, s. 29]].

Bununla belə gələcəkdə Azərbaycanda resursların idarələr arasında və sektorlar arasında yenidən bölüşdürülməsinə məhdudiyyətlər arta, milli gəlirin böyük bir hissəsi istehlakın azalması səbəbindən istehsal sektoruna yönələ, ölkədə istehlak qiymətlərinin artmasıyla həyat səviyyəsinin pisləşə bilər.

Valyuta məzənnəsinin süni dəyəri milli iqtisadiyyata mənfi təsir göstərir. Ona görə də bu halda iqtisadiyyat birtərəfli qaydada inkişaf etməyə başlayacaq və ölkə iqtisadiyyatı bir və ya bir neçə iqtisadi sektordan asılı olacaqdır.

## NƏTİCƏ

Pul siyasətinin həyata keçirilməsində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün müəyyən vasitələr mövcuddur. Bu məqsədlərə çatmaq üçün istifadə olunacaq vasitələr ölkələrin inkişaf səviyyəsindən asılı olaraq həmişə müzakirə mövzusu olmuşdur.

Valyuta siyasətininəsas vasitələri; açıq bazar əməliyyatları, yenidən diskont siyasəti, məcburi ehtiyat normaları, seçmə pul siyasətinin tətbiqi üsulları və onların iqtisadiyyata təsiri baxımından da fərqlənir.

Azərbaycanın, habelə digər inkişaf etmiş ölkələrin pul siyasətinin bir çox alətlərindən istifadə etmək imkanı olsa da, az inkişaf etmiş və ya müstəqilliyini yenicə əldə etmiş ölkələrdə pul və kapital bazarları yetərincə inkişaf etmədiyinə görə, pul siyasətinin bütün alətlərindən istifadə etmək məqsədəuyğun hesab edilmir [4].

Bu ölkələrdə böhran dövründə və ya bankların kredit yaratma imkanlarına təsir etmək baxımından pul siyasətinin qanuni ehtiyat norması siyasətindən istifadə etmək daha effektiv üsuldur.

Bundan əlavə, seçmə pul siyasəti ilə inkişaf etdirilməsi arzu olunan sektorlar üçün uyğun faizlə kredit imkanlarının yaradılması iqtisadi inkişafa təsir edəcək digər pul siyasəti aləti kimi istifadə edilə bilər.

1990-cı illərdən sonra müstəqilliyini əldə edən Azərbaycan ölkədə iqtisadi sabitliyi təmin etmək üçün bir çox yeni qurumlar yaratmağa başlamışdır. Onlardan biri də Mərkəzi Bank idi.

Azərbaycan Mərkəzi Bankı 1992-ci ildə yaradılmış və ilk illərdəki təcrübəsi uğurlu olmasa da, sonrakı illərdə həyata keçirdiyi pul siyasəti ilə nisbi sabitliyini qoruyub saxlaya bilmişdir.

Eyni zamanda Azərbaycanda həyata keçirilən pul-kredit siyasəti ilə kommersiya banklarının etibarlılığı artırılmış və əhalinin bu banklara qarşı inamsızlıq problemləri aradan qaldırılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Efsun A.S. Dünyada para sistemi ve çevik para yatırımı. İstanbul yayınları, İstanbul, 2019, 300 s.

2. Əhmədov E. K. Valyuta sistemi. Maarif, Bakı, 2018, 432 s.

3. Quliyev K.M. Azərbaycanda daxili valyuta sistemi. Qanun, Bakı, 2018, 342 s.

4. https://cdn-acikogretim.istanbul.edu.tr/auzef-content/si/12/index.html – döviz piyasası 2021.

5. https://kommersiya934.weebly.com/uploads/4/0/3/0/40302507/-_metn-_beynelxalq_valyuta_munasibetleri.pdf – beynəlxalq valyuta sistemi 2021.

6. https://www.cbsl.gov.lk/en/financial-system/financial-markets/domestic-foreign-exchange-market – financial market 2021.

7. https://static.president.az/pdf/38542.pdf – Azərbaycan Strateji Yol Xəritəsi 2021.

8. https://dergipark.org.tr/tr/download/article-file/802276 – Azerbaycanda para siyaseti 2021.

9. https://dergipark.org.tr/tr/pub/gopsbad/is-

sue/48562/616657 – Para politikası 2021.

**XÜLASƏ**

Kapitalın ixracı, əmtəə və xidmətlərin beynəlxalq ticarəti, elmi-texniki əməkdaşlıq dünya iqtisadi münasibətlərinin subyektləri arasında qarşılıqlı pul tələblərinin və öhdəliklərinin yaranmasına səbəb olur.

XX əsrin ortalarından başlayaraq bütün dünyada, habelə Azərbaycanda valyuta münasibətləri öz inkişafında yeni mərhələyə qədəm qoymuşdur.

İqtisadiyyatın beynəlmiləlləşməsi və qloballaşması ölkələr arasında ticarət-iqtisadi mübadilənin inkişafına, valyuta münasibətlərinin inkişafına səbəb olmuşdur. Valyutaların sabitliyi, onların bir-birinə olan icazə verilən hədləri və ehtiyat valyutalar dünya iqtisadiyyatında mühüm problemlərə çevrilmişdir.

Azərbaycanın digər ölkələrlə iqtisadi əlaqələrinin rəvan həyata keçirilməsi üçün səmərəli pul mexanizminin yaradılması beynəlxalq maliyyə fəaliyyətinin mərkəzi vəzifəsinə çevrilmişdir.

Bu baxımdan ölkəmizdə daxili valyuta sisteminin düzgün şəkildə müəyyən strategiyalara uyğun olaraq təkmilləşdirilməsi tərəfimizdən olduqca vacib hesab edilir.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, valyuta siyasəti, valyuta siyasətinin təkmilləşdirilməsi, müasir dövr.*

**SUMMARY**

The export of capital, international trade in goods and services, and scientific and technical cooperation give rise to mutual monetary demands and obligations between the subjects of world economic relations.

Since the middle of the twentieth century, currency relations around the world, as well as in Azerbaijan, have entered a new stage in their development.

The internationalization and globalization of the economy has led to the development of trade and economic exchange between the countries, the development of currency relations. The stability of currencies, their permissible limits and reserve currencies have become important problems in the world economy.

The creation of an effective monetary mechanism for the smooth implementation of Azerbaijan's economic relations with other countries has become a central task of international financial activity.

From this point of view, it is very important for us to improve the domestic monetary system in our country in accordance with certain strategies.

**Keywords:** *Azerbaijan's economy, currency policy, improvement of currency policy, modern period.*

**РЕЗЮМЕ**

Экспорт капитала, международная торговля товарами и услугами, научно-техническое сотрудничество приводят к возникновению взаимных денежных требований и обязательств между субъектами мирохозяйственных связей. С середины XX века валютные отношения во всем мире, а также в Азербайджане вступили в новый этап своего развития.

Интернационализация и глобализация экономики привели к развитию торгово-экономического обмена между странами, развитию валютных отношений. Стабильность валют, их допустимые пределы и резервные валюты стали важными проблемами в мировой экономике.

Создание эффективного денежно-кредитного механизма для беспрепятственного осуществления экономических отношений Азербайджана с другими странами стало центральной задачей международной финансовой деятельности.

С этой точки зрения для нас очень важно совершенствовать внутреннюю денежную систему в нашей стране в соответствии с определенными стратегиями.

**Ключевые слова:** *Экономика Азербайджана, валютная политика, совершенствование валютной политики, современный период.*

UOT: 332.122: 336.61

# AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATINDA MALİYYƏ-KREDİT MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**MÜŞFİQ TÜKANOV**
*Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı*

*E-mail: mushvig.tukanov@bk.ru*

Müasir dövrdə və qlobal iqtisadi təhdidlərin artdığı bir şəraitdə Azərbaycanda kənd təsərrüfatı dövlətin prioritet iqtisadiyyat sahələrindən biri kimi çıxış edir. Kənd təsərrüfatı dövlətin əsas dəstək sahələrindən biri olmaqla yanaşı, həm də məşğulluq kimi problemin həllində və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsində önəmli rol oynayır. Buna görə də, kənd təsərrüfatının inkişafına dövlət tərəfindən daim dəstək mexanizmləri tətbiq olunur. Belə ki, dəstək həm iri fermer təsərrüfatlarına, həm də kənd təsərrüfatının bütün seqmentlərindəki təsərrüfatlara verilir. Bundan əlavə, aqrar-sənaye istehsalı problemlərinin həlli daha çox kənd təsərrüfatının maliyyə-kredit mexanizminin inkişaf dərəcəsi ilə müəyyən edilir ki, bu da nisbətən yüksək səviyyədə dövlət dəstəyinə malik olmalı və sahənin xüsusiyyətlərini nəzərə almalıdır [1, s. 358].

Məlumdur ki, maliyyə-kredit mexanizmi əsasən kənd təsərrüfatının, digər əlaqəli sahələrin və kəndin sosial sferasının maliyyə təminatına yönəldilir ki, bu da fondların formalaşdırılması və istifadəsini əhatə edir və təsərrüfat subyektləri arasında münasibətləri tənzimləyir. Bundan əlavə, bu sahədə büdcədənkənar mənbələrdən istifadə ən məqsədəuyğun hesab olunur. Aqrar sahədə mühüm rol oynayan kredit sistemi dövriyyə vəsaitlərinin tamamlanması və geniş təkrar istehsalın davam etdirilməsi üçün faizli kreditlər vasitəsilə pul vəsaitlərinin hərəkətinin təmin edilməsini nəzərdə tutur. Eyni zamanda bu sistemlər vasitəsilə müxtəlif mülkiyyətdə olan təsərrüfat subyektləri arasında iqtisadi münasibətlər formalaşır [2, s. 112]. Ona görə də kənd təsərrüfatının maliyyə-kredit mexanizminin bu və ya digər elementlərinin öyrənilməsi və təkmilləşdirilməsi aktual problemlərdən biridir [3, s. 189]. Qlobal transformasiyalar gücləndikcə, ərzaq bazarlarının qloballaşması və iri transmilli korporasiyaların inkişafı şəraitində investisiya fəaliyyətini gücləndirməklə, kənd yerlərinin inkişafında regional təsərrüfat subyektlərinin rolu əhəmiyyətli dərəcədə artır. Bununla əlaqədar olaraq kənd yerlərinin investisiya fəallığının artırılması üsullarının öyrənilməsi, ərzaq istehsalının texniki cəhətdən təkmilləşdirilməsi, inflyasiya və əsas kapitalın daim köhnəlməsi zamanı maliyyə resurslarının mövcudluğunun təmin edilməsi məqsədilə sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaradılması aktuallaşır [4, s. 89]. Qeyd edək ki, Azərbaycanda son illərdə kənd təsərrüfatında investisiya fəallığını artırmaq üçün dövlət səviyyəsində bir sıra təsirli tədbirlər həyata keçirilmiş, dövlət dəstəyi mexanizmlərindən istifadə edilmişdir. Habelə kənd yerlərində sənaye və sosial infrastruktur obyektlərinin modernləşdirilməsi və tikintisi üzrə ən mühüm layihələrin investisiyalaşdırılması həyata keçirilmişdir. Bu qeyd edilən vəzifələr "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsində öz əksini tapmışdır [5].

Şəkil 1-də 2010-2020-ci illərdə Azərbaycan iqtisadiyyatına, o cümlədən, kənd, meşə və balıqçılıq təsərrüfatlarına yönəldilən investisiya qoyuluşlarının həcmi müqayisəli şəkildə verilmişdir.




**Şəkil 1. Azərbaycan iqtisadiyyatına, o cümlədən, kənd, meşə və balıqçılıq təsərrüfatlarına yönəldilən investisiya qoyuluşlarının həcmi, mln. manat, 2010-2020-ci illər**
***Mənbə: ARDSK məllumatları əsasında müəllif tərəfindən tərtib edilib.***

Şəkil 1-dən görünür ki, Azərbaycanda kənd, meşə və balıqçılıq təsərrüfatlarına yönəldilən in-

vestisiya qoyuluşlarının həcmi ümumi investisiya qoyuluşlarında çox kiçik rəqəmlərlə ifadə olunur. Belə ki, kənd, meşə və balıqçılıq təsərrüfatlarına yönəldilən investisiya qoyuluşlarının ümumi investisiya qoyuluşlarında xüsusi çəkisi 2010-cu ildə 4,4%, 2015-ci ildə 2,2%, 2019-cu ildə 4,2%, 2020-ci ildə isə 3,0% təşkil edib [6].

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının strateji sektoru kimi kənd təsərrüfatı müvafiq kredit təminatı tələb edir [7, s. 21]. Bu sahəyə investisiyaların artırılması rəqabətqabiliyyətli aqrar-sənaye istehsalının formalaşmasına kömək edəcək və bütövlükdə ölkənin ərzaq təhlükəsizliyi problemini həll edəcəkdir. Müasir iqtisadi şəraitdə dövlət siyasətinin ölkənin iqtisadi inkişafına təsirinin stimullaşdırıcı tədbirlərinin rolu artır ki, bunun da əsasını kənd təsərrüfatı müəssisələrinin bank kreditləşməsinin səmərəli mexanizminin formalaşdırılması təşkil edir. Kənd təsərrüfatı müəssisələrinin bank kreditləşməsi mexanizminin formalaşmasında maliyyə-kredit siyasəti mühüm rol oynayır. Kənd təsərrüfatı istehsalçılarının kredit resurslarına çıxış imkanlarının artırılması onların fəaliyyətinin inkişafı yolunda qarşıya qoyulan vəzifələrdən biridir. Hazırda aqrar sahədə səmərəli kreditləşmə mexanizmlərinin inkişafı kənd təsərrüfatı istehsalçılarını maliyyə resursları ilə təminatı problemlərini həll etməyə imkan verir. Kənd təsərrüfatına bank dəstəyinə obyektiv ehtiyac bir sıra səbəblərlə bağlıdır ki, bunlardan da başlıcası bu sahə istehsalının spesifikliyi, sənaye ilə mal mübadiləsində qeyri-ekvivalentlik, sənayenin inkişafındakı mənfi tendensiyaların aradan qaldırılmasıdır. Bu şəraitdə müəssisələrin maliyyə dövriyyəsinə kredit vəsaitlərinin vaxtında daxil olması qarşıya qoyulan məqsədlərə çatmağı xeyli sürətləndirir, resurs bazasını artırır, biznesin inkişafına töhfə verir.

Cədvəl 1-də 2013-2021-ci illərdə Azərbaycanın iqtisadiyyat sahələrinə cəmi, o cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna kredit qoyuluşunun göstəriciləri təhlil olunmuşdur.

**Cədvəl 1**

**Azərbaycanın iqtisadiyyat sahələrinə cəmi, o cümlədən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoruna kredit qoyuluşunun göstəriciləri (2013-2021-ci illər)**

| İllər | Cəmi | O cümlədən, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru | |
|---|---|---|---|
| | | Cəmi, milyon manat | Xüsusi çəkisi, % |
| 2013 | 15422,9 | 733,3 | 4,8 |
| 2014 | 18542,6 | 847,3 | 4,6 |
| 2015 | 21730,4 | 508,1 | 2,3 |
| 2016 | 16444,6 | 441,3 | 2,7 |
| 2017 | 11757,8 | 429,2 | 3,7 |
| 2018 | 13020,3 | 470,0 | 3,6 |
| 2019 | 15298,2 | 543,4 | 3,6 |
| 2020 | 14530,4 | 566,2 | 3,9 |
| 2021 | 17119,8 | 591,7 | 3,5 |

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik bülleteni. Bakı, 12-2021, 77 s.*

Cədvəl 1-dən göründüyü kimi iqtisadiyyatın sahələri üzrə kredit qoyuluşlarının həcmi 2021-ci ildə 17119,8 milyon manat təşkil etmişdir ki, bunun da 591,7 milyon manatı və yaxud 3,5%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun payına düşür. Tədqiq olunan dövrlərə baxsaq, görərik ki, bu sektora ən çox 2014-cü ildə 847,3 milyon manat kredit yönəldilmişdir ki, bu da ümumi kredit qoyuluşlarının 4,6%-ni təşkil etmişdir.

Cədvəl 2-də isə Azərbaycanda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlərin dinmaikası.

**Cədvəl 2**

**Azərbaycanda kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlərin dinmaikası, mln manat, 2017-2021-ci illər**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Cəmi kredit qoyuluşu** | **407,5** | **423,4** | **485,1** | **531,3** | **563,2** |
| dövlət mülkiyyətli müəssisələr | 0,2 | 0,0 | 0,2 | 0,2 | 0,0 |
| xüsusi müəssisələr | 407,3 | 423,4 | 484,9 | 531,1 | 563,2 |
| **Qısamüddətli kreditlər** | **25,7** | **17,8** | **16,6** | **36,5** | **34,9** |
| dövlət mülkiyyətli müəssisələr | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| xüsusi müəssisələr | 25,7 | 17,8 | 16,6 | 36,5 | 34,9 |
| **Uzunmüddətli kreditlər** | **381,9** | **405,6** | **468,5** | **494,7** | **528,3** |
| dövlət mülkiyyətli müəssisələr | 0,2 | 0,0 | 0,2 | 0,2 | 0,0 |
| xüsusi müəssisələr | 381,7 | 405,6 | 468,3 | 494,6 | 528,3 |

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik bülleteni. Bakı, 12-2021, 77 s.*

Cədvəl 2-nin təhlilindən baxsaq, 2021-ci ildə kənd, meşə və balıqçılıq təsərrüfatlarında fəaliyyət

göstərən hüquqi şəxslərə 563,2 milyon manat kredit verilmişdir ki, bu da ümumi kredit qoyuluşlarının 95,2%-ni təşkil edir. Hüququ şəxslərə verilən kreditlərin 528,3 milyon manatı və yaxud 93,8%-i uzunmüddətli, 34,9 milyon manatı və yaxud 6,2%-i qısamüddətlidir.

Müasir reallıqlar nəzərə alınmaqla, kənd təsərrüfatı təşkilatlarının dayanıqlı fəaliyyətinə nail olmaq və onların əlverişli maliyyə vəziyyətini saxlamaq üçün, fikrimizcə, kənd təsərrüfatının kredit sisteminin dövlət tərəfindən daha fəal dəstəklənməsi və tənzimlənməsi zəruridir. Faktorinq maliyyə bazarında kifayət qədər uyğun xidmət növüdür. Alıcıların öhdəliklərinin yenidən maliyyələşdirilməsi məqsədi ilə alternativ maliyyə mənbəyi kimi girov (sığorta, girov, bank zəmanəti) və əvvəlki illərin yüksək göstəriciləri tələb olunur ki, bu da kreditlə müqayisədə vacib şərtlərdən biridir. Çox vaxt faktorinq kreditlə müqayisə edilir. Lakin faktorinq və bank krediti fərqli xarakter daşıyır və təchizatçıların müxtəlif ehtiyaclarına xidmət edir. Kredit təciliyi ilə xarakterizə olunur, yəni müqavilədə müəyyən edilmiş konkret müddətə verilir. Bundan əlavə, kreditin alınması proseduru təşkilatın keçmişdəki uğurlarına əsaslanır. Faktorinq maliyyələşdirməsi, əksinə, təşkilatın gələcək nailiyyətlərinə diqqət yetirir və kreditdən fərqli olaraq girova ehtiyac duymur. Faktorinq perspektivli maliyyə alətidir. Təşkilatların, o cümlədən kənd təsərrüfatı istehsalçılarının fəaliyyəti zamanı çox vaxt dövriyyə vəsaitlərinin çatışmazlığı yaranır ki, bu da həmişə kreditlə ödənilə bilmir. Faktorinq bu xidmətin istehlakçısı olan müəssisənin balansının likvidliyini artırır və debitor borclarını nağd pula çevirir [8, s. 151]. Faktorinqin kredit və digər mümkün maliyyə alətləri üzərində aşkar üstünlüklərinə baxmayaraq, çatışmazlıqları müəyyən etmək mümkündür. Ən əsası onun yüksək qiymətidir.

Faktorinqlə yanaşı, kənd təsərrüfatının maliyyə-kreit mexanizmlərindən biri kimi lizinq çıxış edir. Kənd təsərrüfatı sektorunda lizinq aqrar-sənaye müəssisələrinin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirən və yeni keyfiyyət səviyyəsinə qaldıran, maddi-texniki bazanın inkişafına geniş miqyaslı investisiyaların qoyulmasına imkan verən, özünü təcrübədə təsdiq etmiş maliyyə-kredit alətidir. Dünya təcrübəsi göstərir ki, lizinq əsas kapitala investisiyaların maliyyələşdirilməsinin kifayət qədər səmərəli mexanizmidir. Lizinq aqrar sektorun modernləşdirilməsini sürətləndirmək üçün əsas maliyyə alətidir. Bu gün lizinq kənd təsərrüfatında adi kredit resursu ilə müqayisədə getdikcə populyarlaşır. Lizinq modernləşdirməni səmərəli şəkildə həyata keçirməyə imkan verir, hətta başlanğıc kapitalı olmadıqda belə müəssisənin əsas fondlarının inkişafına əsaslı vəsait qoyuluşlarının həcmini artırır [9, s. 147]. Onun əhəmiyyətli üstünlüklərindən yalnız bütün lizinq iştirakçılarının fəaliyyəti rəqabət prinsipləri üzərində qurulduğu halda tam istifadə oluna bilər.

Azərbaycanda kənd təsərrüfatında lizinqin əhəmiyyətini daha aydın olaraq şəkilk 2-də görə bilərik.




**Şəkil 2. "Aqrolizinq" ASC tərəfindən kənd təsərrüfatı istehsalçılarına lizinq yolu ilə verilmiş və satılmış kənd təsərrüfatı texnikası və avadanlıqlarının dəyəri, mln. manat, 2010-2020-ci illər**

Şəkil 2-dən göründüyü kimi, tədqiq oluna dövrlərdə "Aqrolizinq" ASC tərəfindən lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş və satılmış maşın və avadanlıqların həcmi artmışdır. Belə ki, 2010-cu ildə bu rəqəm 28,5 milyon manat təşkil etmişdir ki, 2014-cü ildə həmin rəqəm artıq 95,1 milyon manata çatmışdır. Lakin 2015-ci ildə yenidən aşağı düşmüşdür. Bunun əsas səbəbini 2015-ci ildə milli valyutamızın 2 dəfə devalvasiyası ilə də əlaqələndirmək olar. Lakin 2016-cı ildən etibarəm yenidən lizinq yolu ilə verilmiş və satılmış avadanlıqların dəyəri artmağa başlamışdır. "Aqrolizinq" ASC tərəfindən lizinq yolu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş və satılmış maşın və avadanlıqların dəyəri 2017-ci ildə 269,4 milyon manat olmaqla özünün bütün dövrlər ərzində ən yüksək həddinə çatmışdır. Kənd təsərrüfatında lizinqin dövlət dəstəyinə xüsusi diqqət yetirilməlidir.

Çünki o, ölkəmizdə iqtisadiyyatın inkişafı və ərzaq təhlükəsizliyi üçün katalizatorlardan biridir. Kənd təsərrüfatı müəssisələrində lizinqindən istifadənin səmərəliliyinə təsir edən mühüm aspektlərdən biri onun biznes fəaliyyətlərində istifadəsinə dair birbaşa qərarın qəbul edilməsidir.

Bunlarla bərabər, dövlət-özəl tərəfdaşlıq kənd təsərrüfatının maliyyə-kredit mexanizminin əsas tərkib hissələrindən biri hesab oluna bilər. Bu qarşılıqlı əlaqə metoduna maraq həm yerli, həm də xarici təcrübədə geniş tədqiq olunur. Əksər alimlər onun tətbiqinin effektivliyini və sənayenin inkişaf perspektivləri baxımından yüksək potensialını sübut etmişlər. Tədqiqatçıların fikrincə, dövlət-özəl tərəfdaşlıq risklərin təsirini azalda və müsbət nəticələr əldə edilməsinə gətirib çıxarar.

Digər tərəfdən, kənd təsərrüfatlarının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsində maliyyə-kredit kredit təşkilatlarının rolunu unutmamaq lazımdır. Kənd təsərrüfatı müəssisələrinin maliyyələşdirilməsində iştirak edən maliyyə-kredit təşkilatları bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər riskli istehsal, aşağı investisiya cəlbediciliyi, investisiyaların mövsümiliyi, kapital dövriyyəsinin ləng və natamam olması, investisiya layihələrinin uzunmüddətli həyata keçirilməsi və borc mənbələrindən güclü asılılıq şəraitində formalaşır. Kənd təsərrüfatının fasiləsiz maliyyələşməsi üçün xüsusi mənbələr yoxdur. Kənd təsərrüfatı sahəsinin istehsal etdiyi məhsulların əksəriyyəti xammaldır və bunun üçün daşınma, tədarük, saxlama və emal tələb olunur. Bu xüsusiyyətlər kənd təsərrüfatı müəssisələrinin davamlı şəkildə maliyyələşdirilməsinə şərait yaradılmasını, aqrar-sənaye kompleksində maliyyə-kredit infrastrukturunun səmərəli idarə olunmasını zəruri edir [10, s. 77]. Maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin prioriteti ondan ibarətdir ki, o, təkcə kənd təsərrüfatı subyektlərinin maliyyələşdirilməsi və kreditlərin verilməsi üçün şəraitin yaradılmasını təmin etmir, həm də sənaye, sosial, ticarət, informasiya sahələrinin inkişafı üçün maliyyə bazası yaradır.

## YEKUN

Beləliklə, Azərbaycanın aqrar-sənaye kompleksində maliyyə-kredit mexanizmindən istifadənin səmərəliliyini və bütövlükdə kənd təsərrüfatı sənayesinin investisiya cəlbediciliyini artıqmaq yaxın perspektivdə strateji fəaliyyət istiqamətləri kimi diqqət çəkirlər. Kənd təsərrüfatının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi üzrə tədbirlərin yekun məqsədi bu sahənin maddi-texniki bazasını yaxşılaşdırmaqdan, mənfəətliliyini artırmaqdan və son nəticədə ölkənin və onun əhalisinin təhlükəsiz ərzaq məhsulları ilə təminatını yaxşılaşdırmaqdan ibarətdir. Bu qeyd deyilənlərə əsasən, kənd təsərrüfatının maliyyə-kredit mexanizminə növbətilərin daxil edilməsini vacib hesab edirik:

- kənd təsərrüfatı istehsalçılarının büdcə, kredit, vergi güzəştləri və sığortanın tətbiqi tədbirləri həvəsləndirici xarakter daşımalı və məqsədyönlü olmalıdır;
- kənd təsərrüfatı istehsalının innovasiyaların inkişafına, sivil bazar münasibətlərinin formalaşmasına həssaslığı təmin edilməlidir;
- müasir texnologiyanın, elmi-texniki məhsulların əldə edilməsi və həyata keçirilməsi üçün subsidiyalardan istifadə edilməlidir;
- elmin, texnologiyanın, innovasiya layihələrinin inkişafı üçün kapital qoyuluşları maliyyələşdirilməlidir və s.

**Açar sözlər:** *kənd təsərrüfatı sektoru, maliyyə, kredit, faktorinq, lizinq, subsidiya, güzəştli kreditlər, dövlət dəstəyi mexanizmləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Булацева Ф.А. Финансово-кредитный механизм обеспечения устойчивого развития АПК // Известия Горского государственного аграрного университета. – 2012. – Т. 49. – № 3. – С. 358-360.*

*2. Huseynov T.F. Directions for improving the financial and budgetary mechanism in the formation of large agricultural enterprises. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 2 (32), s.107-118.*

*3. Манжосова И.Б. Международный опыт государственного регулирования процесса инвестирования в сельском хозяйстве // Вестник Института дружбы народов Кавказа. Экономические науки, 2014, № 4(32), с. 189-197.*

*4. Дибиров А.А. Роль инвестиций в сельское хозяйство в развитии сельских территорий. Инновации, 2019, № 9 (251), с.89-97.*

*5. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair" Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016, 177 s.*

*6. Azərbaycanın statistik göstəriciləri. Statistik*

*тәстиә, Bakı, 2021, 752 s.*

*7. Михайлова Н.С. Финансово-кредитный механизм поддержки и развития сельскохозяйственных товаропроизводителей // Вектор экономики. – 2018. – № 2(20). – С. 21.*

*8. Надеждина С.Д., Сандаков А.А. Факторинг как форма рефинансирования дебиторской задолженности сельхозтоваропроизводителей. Вестник Алтайского государственного аграрного университета, 2015, № 7 (129), с.148-153.*

*9. Грибушенкова В.А. Лизинг как эффективный механизм государственной поддержки отрасли АПК. Этап: экономическая теория, анализ, практика. – 2016. – №6. с.134-148.*

*10. Dadaşov Ə. İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsində maliyyə institutlarının rolu və əhəmiyyəti. İpək yolu, №.2, 2019, s.70-80.*

**РЕЗЮМЕ**

**Направления совершенствования финансово-кредитных механизмов в сельском хозяйстве Азербайджана**

В статье исследованы актуальные проблемы совершенствования финансово-кредитного механизма в сфере сельского хозяйства в Азербайджане. С этой целью раскрыта сущность и значимость сельского хозяйства в экономике Азербайджана и его роль в усилении продовольственной безопасности страны. Анализированы основные элементы и инструментарии финансово-кредитных механизмов в сельском хозяйстве. Рассмотрены возможности максимального совершенствования существующих финансово-кредитных механизмов и повышение их эффективности. Отмечена необходимость обеспечения доступности финансово-кредитных механизмов для сельскохозяйственных производителей и субъектов перерабатывающих предприятий. Подготовлены рекомендации и даны предложения по усилению финансово-кредитных механизмов в сельском хозяйстве в Азербайджане в современных условиях.

**Ключевые слова:** *сектор сельского хозяйства, финансы, кредит, факторинг, лизинг, субсидия, льготные кредиты, механизмы государственной поддержки.*

**SUMMARY**

**DIRECTIONS OF IMPROVEMENT OF FINANCIAL AND CREDIT MECHANISMS IN THE FIELD OF AGRICULTURE IN AZERBAIJAN**

The article analyzes the current problems of improving the financial and credit mechanism in the field of agriculture in Azerbaijan. Therefore, the essence and importance of agriculture in the economy of Azerbaijan, the role of strengthening the country's food security are considered. The main elements and tools of financial and credit mechanisms in agriculture are analyzed. Opportunities to maximize the improvement of existing financial and credit mechanisms and increase their efficiency are considered. The need to ensure access to financial and credit mechanisms for agricultural producers and processing enterprises is noted. Recommendations and proposals were made to strengthen financial and credit mechanisms in agriculture in Azerbaijan in modern conditions.

**Keywords:** *agricultural sector, finance, credit, factoring, leasing, subsidies, soft loans, state support mechanisms.*

UOT: 330.101.541

# İNFLYASİYA PROSESLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

**ZAKİR NƏCƏFOV**
*Bakı Avrasiya Universitetinin "Regionşünaslıq və iqtisadiyyat fakültəsi"nin magistrantı*

*E-mail: zakir.necefov@gmail.com*

XX əsrin 70-ci illərin ortalarından kapitalizm cəmiyyətində yaşayan təsərrüfat çətinlikləri Keyns nəzəri sxemlərinə və onların əsasında təklif olunan praktiki məsləhətlərə etibarlı kəskin sarsıtdı. Qərb iqtisadi təfəkküründə "mühafizəkar dalğa" daha böyük mövqe əldə etməyə başladı. Buraya monetarizm, klassik mühafizəkar və yeni klassik məktəb aiddir. Bu məktəblərin nümayəndələri kapitalist iqtisadiyyatının əsas problemlərini müxtəlif cür təhlil edirlər. Bir-birinə daha yaxın neoklassik təhlilin ümumi müddəalarına əsaslanan monetarizm və klassik mühafizəkar istiqamətdir. Yeni klassik iqtisadiyyat riyazi aparatı geniş istifadə edən, daha abstrakt nəzəriyyə kimi təqdim olunur. Mühafizəkar iqtisadi konsepsiyalar çərçivəsində mərkəzi yeri monetarizm tutur. Bu məktəb pul nəzəriyyəsinin işlənib hazırlmanması sahəsində keçmiş tarixi ənənələri davam etdirir. "Pul əhəmiyyətə malikdir" - mühüm şüarını irəli sürərək monetaristlər pulu sadəcə mühüm iqtisadi amil kimi deyil, iqtisadi sistemin ümumi vəziyyətini və təkrar istehsal prosesinin bütün gedişini müəyyən edən xalq təsərrüfatı kompleksinin əsas mərkəzi elementi kimi şərh edirlər. Ümumiyyətlə, monetarist doktrinasının təhlili çox mürəkkəbdir. Çətinliklər bu məktəbin nümayəndələrinin baxışlarının təkamülü, onların ayrı-ayrı məsələlər üzrə mövqelərini dəyişməsi, xüsusilə diqqət yetirilən məsələlərin yerinin dəyişilməsi və s. ilə meydana çıxır. Monetarist nəzəriyyənin tarixi mənşəyini izləyərək, onu qeyd edə bilərik ki, o, əsas ideyalarını uzun müddət ərzində pul və qiymətlərin səviyyəsi arasındakı əlaqənin izah olunması üçün istifadə edilən pulun kəmiyyət nəzəriyyəsi əsasında meydana çıxmışdır. Pulun kəmiyyət nəzəriyyəsi bütün istehsal amillərinin tam istifadəsi zamanı, onun çərçivəsi daxilində müasir rəqabət və qiymətlərin tam elastikliyi şərtlərinin, bazarın tarazlaşdırılmasının avtomatik mexanizmini yaradan, iqtisadiyyatın klassik modelinin mühüm tərkib hissəsi kimi çıxış edirdi. Klassik sxemin mərkəzi hissəsi əmtəə bazarlarında tələbin təkliflə tam üst-üstə düşməsini iddia edən J.B.Seyin reallaşma nəzəriyyəsi idi [1]. Bu bazar disproposiyalarını, əmtəələrin təkrar istehsalını, iqtisadi böhranlarını və s. qeyri-mümkün edir. Mühüm xarakterik xüsusiyyət kimi biz "klassik dixotomiya" adlandırılan iqtisadi sistemin bir-birindən asılı olmayan iki: "real" və "pul" sektorlarına bölünməsini göstərə bilərik. Birincidə öz təbii-maddi formasında ictimai məhsul yaradılır, ikincisi isə əmtəə qiymətlərinin səviyyəsini müəyyən edir. Pul bu sistemdə təkrar astehsala münasibətdə neytral rol oynayır, yalnız əmtəə kütləsinin hərəkətinin "qarşısını alma" roluna çevrilir. Öz müasirləri iqtisadçılardan fərqli olaraq, Keyns gəlir, məşğulluq, tələb, təklif, əmanətlər, investisiyalar kimi bölmələrin arasındakı əlaqələrin xarakterinin araşdırılmasına diqqət yetirirdi [2]. Onun axtarışlarının məqsədi iqtisadi inkişafa təsir göstərən müxtəlif dəyişən kəmiyyətlərin necə olunduğunu təyin etməkdən ibarət idi. Keynsə görə iqtisadiyyatın fəaliyyət göstərməsinin əsas amili, iki aspektdə çıxış edən milli gəlirin həcmidir. Bu aspektlər aşağıdakılardır: 1) Cəmiyyətin bütün alıcılıq qabiliyyətinin mənbəyi kimi məcmu gəlir və 2) Müəssisələrin xərclərinin istehsalın genişlənməsinə gedən hissəsi, yəni sahibkarların mənfəət cəhdinə uyğun olaraq xərclərin bu hissəsi nə qədər çox olarsa, milli gəlir də bir o qədər çox olar. Təklifin avtomatik olaraq tələbi əmələ gətirməsi haqda Seyin tezisi ilə rastlaşmayaraq, Keyns səmərəli tələb və onun komponentləri olan istehlak və yığımı, eləcə də bu komponentlərin hərəkətini müəyyən edən amillər problemini önə çəkdi. Səmərəli tələbi aşağıdakı düstur ilə göstərmək olar: C + I + Q, burada – C – istehlak; t- istehsalatda investisiyalar; Q – dövlət xərcləri. Maliyələşdirilməni büdcənin hesabına həyatakeçirməyi təklif edən Keyns istehlakdan çəkinmə, qənaətçillik prinsipinə qarşı Keyns öz fikrana qoydu: qənaətcillik təşəbssükarlıq mövcud ola bilmədiyi fikrini irəli sürürdü. Məhsulun reallaşması üçün tələbin əmələ gəlməsi zərurəti haqqında Keynsin fikri qərb iqtisadi fikrinin sonrakı

inkişafında üstünlük təşkil etməyə başladı və s.

Qeyd edək ki, fiskal və monetar siyasətinin dövlətin pul resursları ilə əsas qarşılıqlı təsir zonası büdcə kəsirinin maliyyələşdirilməsi və pul-kredit sferasının idarə olunmasıdır [3]. Fiskal kəsirin inflyasiyanın səviyyəsinə və istehsalın artım tempinə təsiri təkcə onun ölçülərindən yox, həm də onun necə maliyyələşdirilməsindən də aslıdır. Dövlətin büdcə kəsirini maliyyələşdirilməsinin dörd alternativ mənbəyi mövcuddur: 1) Daxili bazardı xüsusi sektor tərəfindən borc istiqrazlarının alışı; 2) Xarici borclar; 3) Dövlətin borc istiqrazlarının mütləq yerləşdirilməsi və 4) Respublikanın Milli Bankından vəsaitlərin köçürülməsi. İqtisadiyyata makroiqtisadi təsirin əsas aləti pul təklifinin tənzimlənməsi, yaxud müəyyən vergi sistemi və məcmu dövlət xərclərinin səviyyəsini nəzərdə tutan fiskal və monetar siyasətidir. Monetar siyasətin əsas tərkib hissəsi kimi dövlətin maliyə bazarında pul təklifini tənzimlənməsi və təsərrüfat subyektlərinə kredit şərtləri çıxış edir. Monetar və fiskal siyasətlərdəki dəyişikliklər həm birbaşa istehsalçılara, həm də dolayı yolla əsas məhsul istehlakçı kimi əhaliyə təsir göstərir.

Belə bi şəraitdə həm inflyasiyanın kəskin artımı və faiz dərəcəsinin real səviyyəsinin aşağı düşməsi, həm də milli pul vahidinin kursunun dəyərinin aşağı düşməsi ekspansiv monetar siyasətin nəticəsidir [4]. Bu amillər beynəlxalq iqtisadi münasibətlərə birbaşa təsir göstərir. Milli pul vahidinin kursunun aşağı düşməsinin təsiri altında ölkəyə xarici investisiya axını həcminin azalması baş verir. Bu öz növbəsində xarici valyutaya tələbin artmasına və müvafiq olaraq milli pul vahidinin dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır. Belə şəraitdə dövlətin ixrac imkanları da genişlənir. Makroiqtisadi nöqteyi-nəzərindən inflyasiyanın artmasına iki əsas amil təsir edir; iqtisadiyyatın öz potensialını demək olar ki, tam istifadəsi nöqtəsinə yaxınlaşdığı şəraitdə məcmu tələbin məcmu təklifi üstələməsi və istehsal xərclərinin yüksək templə yüksəlməsi şəraiti yaradır [5].

İnfilyasiya mürəkkəb sosial-iqtisadi hadisə olub, bir ölkənin iqtisadiyyatında ciddi problem kimi qarşıya çıxır. O, iqtisadiyyatda hər hansı bir səbəbdən yaranan və davam edən bərabərsizliyin göstəricisidir. İnfilyasiya bilavasitə kağız pulun hərəkəti ilə bağlı olan və yaranan bir prosesdir. Onun təsiri təkcə bu sahədə deyil, iqtisadiyyatın başqa sahələrində, xüsusilə də istehsal və istehlak dairəsində də mənfi nəticələrə səbəb olur. Bu inflyasiyanın həddindən artıq mürəkkəb, ziddiyyətli və dinamik bir proses olmasını göstərir. İnfilyasiyanın mövcudluğunu və səviyyəsini müəyyən etmək üçün ən mühüm və daha əyani göstəricisi qiymət indeksidir. Qiymət indeksi əmtəə və xidmətlərin qiymətlərinin müəyyən dövrlərdə nisbətini xarakterizə edən göstəricisidir. Qiymət indeksinin aşağıdakı növləri vardır: 1) istehlak şeylərinin qiymət indeksi istehlak məhsulları və xidmətlərinin qiymətinin dəyişməsini ölçmək üçün istifadə olunur; 2) istehsalçılarının topdansatış qiymət indeksi əmtəələrin pərakəndə satışa daxil olanadək qiymətlərinin dəyişməsini ifadə edir; 3) nominal milli məhsulun real milli məhsula nisbəti, başqa sözlə, real ümumi milli məhsul göstəricisi, bu indeks daha universal olub, istehlak şeyləri indeksindən fərqli olaraq bütün məhsulların qiymətinin dəyişməsini ifadə edir. Qiymət indeksi müxtəlif üsullarla hesablanır. Adətən qiymət indeksi baza və cari qiymtələr arasındakı nisbətin 100-ə vurulması yolu ilə hesablanır. Bir qayda olaraq bazis ilinin qiyməti 100 qəbul edilir. Mövcud inflyasiyanın sürətini müəyyən etmək üçün cari ilin qiymət indeksindən bazis ilinin qiymət indeksi çıxılır və bazis ilinin qiymət indeksinə bölünüb sonra 100-ə vurulur. Məsələn, əgər 2019-cu ildə istehlak qiymətləri indeksi 119,9% (2020-ci ildə isə 103,7% olarsa) 1997-ci ildə inflyasiya sürəti – X 100 = -13,5% olacaqdır. Yəni 2020-ci ildə inflyasiyanın sürəti 2019-cu illə müqayisədə 13,5% aşağı düşmüşdür. Bundan başqa, inflyasiyanı kəmiyyətcə ölçmək üçün iqtisadi ədəbiyyatlarda, “70 qayda”sı deyilən üsuldan da istifadə edilir. Bu göstəricinin köməyi ilə inflyasiya sürətinin ikiqat artması üçün bir neçə il lazım gəldiyini müəyyən etmək olur. Bunun üçün 70 rəqəmini inflyasiyanın orta illik səviyyəsinə bölürlər. Məsələn, əgər inflyasiyanın orta illik sürəti 5% olarsa, bu zaman 12 il lazımdır ki, inflyasiya iki dəfə artsın. İnfilyasiyanın səviyyəsi başqa göstəricilərlə də xarakterizə oluna bilər. Məsələn, ən mühüm qida məhsulları üzrə qiymət indeksi, ayrı-ayrı əmtəə növləri üzrə pərakəndə qiymətlər indeksi, istehlak məhsulları və xidmətlərin qiymətinin hərəkətini xarakterizə edən həyat səviyyəsi indeksi və s. İnfilyasiyanın artım sürətindən asılı olaraq üç əsas növünü fərqləndirirlər: mülayim, sürətli və ifrat (hi-

per) inflyasiya. Mülayim inflyasiyada qiymətlərin artım sürəti il ərzində nisbətən az, təxmini 10%-ə qədər təşkil edir. İnfilyasiyanın ən ağır və idarə oluna bilməyən növü ifrat (hiper) inflyasiyadır. Bu inflyasiya növündə qiymətlər faizlə yox, dəfələrlə artdığı üçün pul öz funksiyasını yerinə yetirə bilmir. Onun alıcılıq qabiliyyəti o qədər aşağı düşür ki, puldan istifadə əmtəəyə keçir, əhali və istehsalçılar barter alqı-satqısından istefadə etməyə üstünlük verirlər. İstehsal təşkil oluna bilmir və kəskin aşağı düşür, təklif azalır. Əmək haqqı pul formasında ödənilə bilmədikdə natural formada ödəmə tətbiq olunur. Xarakterinə görə inflyasiya gözlənilən və qəfil ola bilər. Gözlənilən inflyasiya zamanı o qabaqcadan nəzərə alınır və proqnozlaşdırılır. Məsələn, istehsalçılar öz məhsullarının qiymətlərini inflyasiyaya uyğun olaraq qaldırırlar, kredit idarələri faiz dərəcəsini, borc verənlər isə alacaqları borcun həcmini artırırlar. Əhali də qiymətlərin artmasına uyğunlaşaraq öz istehlaklarını yaxşılaşdırmağa çalışırlar. Nəticədə gözlənilən inflyasiya zamanı onun nəticələrini yumşaltmaq, mülayimləşdirmək mümkün olur. Qəfil inflyasiyada qiymətlərin 10% qalxdığı bir şəraitdə də iqtisadi vəziyyət əhəmiyyətli dərəcədə pisləşir. İfrat (hiper) inflyasiya zamanı isə iqtisadiyyatın bütün sahələri iflic vəziyyətinə düşür. İnfilyasiya prosesi hiper istiqamətdə inkişaf edir: açıq və gizli formada.

Qeyd edək ki, Azərbaycanda inflyasiyanın yaranmasının səbəbləri və onun qiymətləndirilməsi obyektiv yanaşmanı şərtləndirir [6]. Belə ki, Azərbaycanda bank sistemi hökumət tərəfindən dayanıqlı iqtisadi inkişaf siyasətini tətbiq etməyə xidəmt edir və bu məqsədlə səmərəli pul və valyuta siyasəti həyata keçirir. Azərbaycanda monetar və maliyyə stabilliyi siyasətin prioritet istiqamətləri iqtisadi inkişaf və inkişafın əsas şərti qəbul olunan makroiqtisadi stabilliyin təminatına, bank sektorunda maliyyə stabilliyinin qorunmasına və kredit-maliyyə institutsional bazanın güclənməsinə istqamətlənib. Bu məqsədlərə çatmaq üçün Mərkəzi Bank pul siyasəti və bank nəzarətinin strateji çərçivəsinin davamlı təkmilləşdirilməsi üzərində işləri davam etdirir, özəlliklə makroiqtisadi siyasətin əlaqələrdirilməsinin daha da dərinləşməsinə müvafiq köməklik verir. Hazırda həyata keçirilən pul siyaəti nəticəsində maliyyə sabitliyi qorunub saxlanılmış, maliyyə sisteminin institutsional inkişafı davam etdirilmiş, maliyyə xidmətlərinə çıxış xidmətlərinə çıxış imkanları artırmaqdadır [7].

Son illər Azərbaycanda maliyyə sisteminin formalaşması və təkmilləşdirilməsində dövlətin rolu getdikcə güclənir və bu zaman qarşıya qlobal maliyyə böhranının təsirinin başa çatmadığı hazırkı dövrdə ölkənin maliyyə stabilliyinin və təhlükəsizliyinin təmin edilməsi, makroiqtisadi, vergi və pul siyasətinin qarşılıqlı üzvi əlaqədə həyata keçirilməsi, büdcə sektorunun restruktizasiyası və büdcə planlaşdırılması metodlarının daha səmərəli tətbiqi, büdcə gəlirlərinə və xərclərinə nəzarətin effektliyinin yüksəldilməsi və s. kimi mühüm vəzifələr irəli sürülür. Mərkəzi Bankın məzənnə siyasəti valyuta bazarında tarazlığın təmin olunmasına və manatın məzənnəsinin sabitliyinə yönəlib[8]. Tədiyyə balansının profisiti manatın məzənnəsinə təsir edən başlıca makroiqtisadi amilidir [9]. Yeni maliyyə böhranlarının olmaması və ya ola biləcək böhranların dərinləşməsi baxımından optimal pul siyasəti tətbiqində görülə biləcək tədbirlər aşağıdakılar ola bilər:

- makroiqtisadiyyatda nizam, etibar və sabitliyi təmin edəcək islahatlar mütləq həyata keçirilməlidir;
- maliyyə və pul nizamını təmin edəcək ciddi konstitutsiya qanunları qəbul olunmalıdır;
- bu mövzuda Maastrisit müqaviləsində olan büdcə kəsirlərinin nisbəti 3% keçməyəcəyi bənzər bir qanunun yer alması maliyyə intizamı və maliyyə cavabdehlik əxlaqı üçün vacib görülür;
- yüksək faiz siyasətinin və bunun nəticəsi olan zəif iqtisadiyyatdan xilas olmanın əsaslarından biri əhalinin ehtiyacdan əlavə borclanmasının qarşısının alınmasıdır;
- vergi sistemində tərəfsizlik, saəlik, ümumilli, sabitlik, təsir etmə qanunları çərçivəsində radikal bir şəkildə yenidən nizamlanmalıdır;
- üzən məzənnə sistemi valyuta bazarlarında yaranacaq spekulyativ hücumlara qarşı, bir qalxan vəzifəsini yerinə yetirir. Üzən məzənnə sisteminin bu əməliyyatı sürdürə bilməsi üçün uzun dönəmdə faiz və valyuta məzənnəsinin inkişafının möhkəm bir səthə oturdulması lazımdır.

Perspektivdə Mərkəzi Bankın monetar siyasətinin əsas məqsədi illik qiymət artımını təkrəqəmli səviyyədə qorunmasını təmin etəmkdir. İnfilyasiyanın aşağı rəqəmlərdə saxlanması alıcılıq qabiliyyətli tələbin qarşılanmasında,

fiziki və hüquqi şəxslərin pul vəsaitlərinin real dəyərinin qorunmasında, faiz stavkaların minimum səviyyədə saxlamaq və manatın real kursunun rəqabətli olmasında əsas faktordur. Dünya təcrübəsi göstərir ki, inflyasiyanın aşağı olduğu və inflyasiya gözləmələrinin aşağı səviyyədə "lövbər saldığı" ölkələrdə qiymətlərin şoklara reaksiyası, o cümlədən məzənnə tərəddüdləri, daha az olur [10]. Belə şəraitdə Mərkəzi Bank daha yumşaq pul-kredit siyasətini həyata keçirə bilər. Büna görə də bizə elə siyasət lazımdır ki, o, inflyasiyanın azalmasına səbəb olsun. Cari şəraitdə aşağı inflyasiyanı hədəfləyən çox yumşaq pul və valyuta siyasəti sosial stabilliyə və iqtisadiyyatın inkişafına təhlükə yaradaraq onun daha da sürətlənməsinə və sonralar yüksək səviyyədə möhkəmlənməsinə gətirib çıxara bilər.

Azərbaycanda valyuta bazarında sabitliyin qorunması və inflyasiyanın hədəf səviyyəsində saxlanılması makroiqtisadi sabitliyin təminatında mühüm rol oynamışdır. İnfilyasiya hədəfinə nail olmaq üçün pul siyasətinin aralıq hədəfləri olaraq məzənnə, pul təklifi və faiz dərəcələrindən qərarların transmissiya xüsusiyyətləri nəzərə alınmaqla istifadə edilir. 2017-ci ildən etibarən Azərbaycan üzən valyuta məzənnəsi rejimini tətbiq edir. Əslində bu məzənnə siyasətinin əməliyyat oriyentirindən istifadədən və valyuta intervensiyaların aparılmasından imtina edilməsi deməkdir. Lakin ümumilikdə dünya təcrübəsi göstərir ki, inflyasiya tragetləşdirilməsi pul siyasətinin ən müasir rejimidir və məhz bu rejimin gələcəyi var. Bu, ilk növbədə Azərbaycana da aiddir. İnfilyasiyanın aşağı səviyyədə stabilləşməsi uğurlu institutsional islahat oldu və onun başa çatması gələcək illərə makroiqtisadi stabillik üçün ilkin şərtlər yaratmağa imkan verəcək. Azərbaycanda perspektivdə pul siyasətinin prioritet məqsədini milli valyutaya güvən və etimadın əsas qarantisi olan sabitliyi təşkil edəcəkdir. İnfilyasiyaya təsir imkanlarını gücləndirmək istiqamətində islahatlar davam etdiriləcəkdir.

2020-2021-ci illərdə həyatda keçirilən səmərəli monetar və prudensial siyasət ölkədə makroiqtisadi və maliyyə sabitliyini təmin etməyə imkan vermiş, bu istiqamətdə cari ilə müəyyən edilmiş başlıca hədəflərə nail olunmuşdur. Aşağı inflyasiya, milli valyutanın ardıcıllıq qabiliyyətinin qorunması, maliyyə sektorunun bütün seqmentlərində sabitlik və inkişaf cari ilin başlıca nəticələrindəndir. 2021-ci ildə milli iqtisadiyyatda makroiqtisadi sabitliyin daha da dərinləşməsi, iqtisadi artım trayektoriyasınaqayıdış və iş yerlərinin bərpası, bu hədəflərin reallaşdırılması üçün ölkədə həyata keçirilən makroiqtisadi siyasətin effektli koordinasiyası diqət mərkəzində olacaqdır. Maliyyə sabitliyinin qorunması, 15 sektorun seqmentlərində inkişaf və dərin islahatlar, maliyyə dərinliyinin və inklüzivliyinin yüksəldilməsi növbəti ilə maliyyə siyasətinin başlıca prioritetləri kimi müəyyənləşdirilmişdir.

## YEKUN

Beləliklə, ölkədə inflyasiya proseslərinin səmərəli idarə olunması məqsədilə davamlı təhlillərin aparılması və mövcud situasiyanın qiymətləndirilməsi vacib şərtlərdəndir:

- orta və uzunmuddətli dövdə pul siyasəti rejiminin təkmilləşdirilməsi məqsədilə faiz dərəcələri nəzərə alınan lövbərlərdən biri seçilə bilər;
- faiz dərəcələrinin lövbər qismində seçilməsi pul siyasətinin iqtisadiyata ötürücülüyünü yüksəltməklə, qiymət və maliyyə sabitliyinin daha səmərəli təmin edilməsinə imkan verər;
- inflyasiyanın aşağı səviyyədə saxlanılması məqsədilə davamlı tədbirlər görülməli və milli valyutanın - manatın məzənnəsinin sabitliyinin qorunması prioritetlik təşkil etməlidir;
- bank sektorunda maliyyə sabitliyinin təminatı mexanizmi gücləndirilməli və inflyasiya hədəfi çərçivəsində iqtisadiyyatın pula tələbatının ödənilməsi məsələləri tarazlaşdırılmalı, inflyasiya proseslərinə səbəb olan amillərin müəyyənləşdirilməsi və adekvat tədbirlərin görülməsi vacibdir .

**Açar sözlər:** *inflyasiya, inflyasiya proseslərinin təhlili, inflyasiya proseslərin qiyməndirilməsi, bank, maliyyə, pul-kredit siyasəti.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Keynes, J.M. General Theory of Employment, Interest and Money / J.M.Keynes. – Stellar Editions; 2014. – 169 p.*

*2. Say, J.-B. Traité d'économie politique / J.-B. Say – 1803. – Paris: Calmann-Lévy Éditeur.- Les fondateurs. – 572 p.*

*3. Добрынин, А.И., Журавлева, Г.П. Общая*

*экономическаятеория: Учеб. пособие .СПб.: Питер, 2014.*

*4. Quliyev, T.Ə., İnflyasiyanın anatomiyası, Bakı-2006.*

*5. Kərimov, E., Qasımov, B. İqtisadi nəzəriyyə. Bakı, 2014.*

*6. Məmmədov, Z.F. Azərbaycan Respublikasında pul-kredit siyasətinin başlıca istiqamətləri"// Pul-kredit münasibətlərinin təkmilləşdirilməsinin elmi-praktiki problemləri. Z.F. Məmmədov. – Bakı. AZDİİ. -24-25 noyabr 1999.*

*7. Məmmədov, Z.F. Qlobal çağırışlar kontekstində MB fəaliyyətində dəyişikliklər və məqsədlər. Müasir elmi aktual problemləri.// Z.F.Məmmədov. Lənkəran – 2016. s.178-180.*

*8. Vəliyev, C.R. Pul siyasətinin qiymət sabitliyinin təminatında rolu// "Urbanizasiya və sənayeləşdirmə şəraitində biomüxtəlifliyin qorunması" mövzusunda beynəlxalq elmi-praktik konfrans. C.R.Vəliyev. -Gəncə. -2017. s. 105-107.*

*9. Vəliyev, C.R. Azərbaycanda yeni iqtisadi mərhələdə valyuta siyasətinin məqsəd və vəzifələri //"Müasir təbiət və iqtisadiyyat elmlərinin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans. C.R.Vəliyev Gəncə. 04-05 may 2018, s. 189-192.*

*10. Həsənov, R.T. İqtisadi siyasət: metodologiya və praktika, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2014.*

## РЕЗЮМЕ

### Актуальные вопросы анализа и оценки инфляционных процессов

В статье исследованы актуальные вопросы анализа и оценки инфляционных процессов. Раскрыта сущность и значимость теорий и теоретических подходов ряда представителей классической экономической школы и современности. Анализированы процессы, обуславливающие возникновение инфляционных процессов и их особенности. Рассмотрены критерии и актуальные механизмы обуздания инфляционных процессов. Исследовано современное состояние и подходы денежно-кредитной политики и инфляционных процессов в Азербайджане. Подготовлены рекомендации и даны предложения по противодействию инфляционным процессам, а так же по сбалансированию денежно-кредитной и финансовой стабильности стране.

**Ключевые слова:** *инфляция, анализ инфляционных процессов, оценка инфляционных процессов, банк, финансы, денежно-кредитная политика.*

## SUMMARY

### Current issues of analysis and evaluation of inflationary processes

The main issues of analysis and estimation of inflationary processes are considered in the article. The essence and significance of theories and theoretical approaches of a number of representatives of the classical economic school and modernity are analyzed. Processes causing inflationary processes and their peculiarities are investigated. Criteria and actual mechanisms of inflation processes curbing are considered. The current state and approaches of monetary policy and inflationary processes in Azerbaijan are revealed too. Recommendations and proposals to counter inflationary processes, as well as to balance monetary and financial stability in the country are given in the end of the article.

**Keywords:** *inflation, analysis of inflationary processes, assessment of inflationary processes, bank, finance, monetary policy.*

UOT 338

# REGIONAL SOCIO-ECONOMIC DEVELOPMENT: PROBLEMS AND REALITIES

**NARGIZ AGALAROVA**
*Azerbaijan State University of Economics doctoral student*

*E-mail: nargiz@mail.ru*

**Introduction**

Not only developing but also developed countries pursue different policies, especially in terms of regional development, while ensuring such economic development and growth. One of the most important tools in implementing this policy is incentive laws. An incentive system that embraces changing conditions and is able to adapt immediately to change is especially important for developing countries to adapt to the development process and changes at the international level.

To date, Azerbaijan also implements incentive programs for some regional activities to accelerate economic development. But for some reason, the differences in socio-economic development, especially between the regions, are still noticeable.

For many years, various incentive programs have been implemented in our country to open new investment areas and create new jobs in regions with slow economic development. From time to time, the population is dissatisfied with the fact that socio-economic incentive programs implemented by the state are not always fully and transparently implemented by local executive authorities.

For example, farmers in different regions often complain about the lack of sufficient water resources for their farms. In return, the inefficiency of local executive bodies forces the population to block the road and protest and attract the attention of the relevant authorities.

It seems that the biggest obstacle to regional growth is not global water shortages, but local bureaucratic obstacles. Such cases also cast a shadow over the state's development policy.

Economic stimulus programs put forward by the state to ensure regional development are generally designed to make certain economic activities faster and healthier. They are provided with either material or non-material state support.

For example, if farmers have irrigation problems, local authorities are instructed to drill artesian and subartesian wells. Or if there is a need to increase the production of any product in a region, the state creates opportunities for agriculture in the form of quality seeds, fertilizers and subsidies.

Although the incentives are different, the goal is the same: to direct resources to areas that are considered more efficient and useful for the country's or regional economy. In general, the main issue that needs to be taken into account in these incentive measures is to achieve the goals set by the state by encouraging the local population to the necessary areas of economic development.

Today, the most important issue is to fully control the process in order to eliminate the obstacles to regional socio-economic goals. For many years, the state has been implementing incentive programs, both materially and spiritually, to ensure regional development. Along with subsidies, fertilizers and seed support, tax rates in agriculture have also been reduced to a minimum. The importance of tax incentives in stimulating economic development has proven itself in many areas. Especially in our regions, where unemployment is high and incomes are low, tax exemptions in the economic sphere encourage people to start farming again.

One of the important points is that the population is not sufficiently informed about the state's promotion programs. For example, if a person wants to start a business in the city with a certain amount of money, he has to pay income, profit, value added tax and other taxes in full and on time. However, if a person wants to establish a small farm in one of the districts with a certain amount of money, in addition to the financial support of the state, he gets a chance to benefit from many tax benefits.

At present, agricultural producers in Azerbaijan are exempt from other taxes except land tax. This law was first adopted in 2001 and was intended to be implemented for 5 years. However, the discount package will be valid until 2024, with four extensions. That is, according to the current legislation, agricultural producers are exempted from paying profit, income, value added tax, tax under the

simplified system and property tax on the facilities used in the process of operation. In addition, the income of legal entities engaged in the production of agricultural products from this activity is exempt from income tax. Legal entities and individuals operating in the agricultural sector are also exempt from property taxes.

In addition, according to the "Rules for subsidizing agricultural production" approved by Presidential Decree No. 759 of June 27, 2019, each year in the field of crop production by regions and crops, crop and seed ratios, seed and seed quotas and sowing needs It was decided to determine. Thus, subsidies are paid to farmers every year for the cultivation of various crops in different regions. These subsidies include hazelnuts, corn, sunflowers, soybeans, millet, sorghum for fodder, potatoes, wheat and alfalfa. At the same time, subsidies have been set for the establishment of 6 types of orchards.

Livestock is one of the most supported sectors in the regional development support program. It is known that dairy farming is practiced in our country. Therefore, farmers are offered subsidies in the livestock sector. According to the animal subsidy, 100 manat is set for each healthy calf born as a result of artificial insemination of local animals. Bee subsidy is set at 10 manat per calendar year for each bee family they keep for beekeeping farmers. This subsidy is expected to be provided by 2023.

In addition, cocoon farmers are given a cocoon subsidy of 5 manat per kilogram of cocoon produced and delivered to the supplier.

The application form for all these subsidies is conducted in a completely electronic form through the Electronic Agricultural Information System - Subsidy Information System (ECTIS-SIS).

Today, the main factor determining the development of our regions is that they are not isolated from the country's overall socio-economic development strategy. The development of regions in Azerbaijan is considered an important part of the country's sustainable socio-economic development strategy. As a result of this approach, separate state programs for regional development are being developed and implemented. These programs, which have been successfully implemented since 2004, are being implemented one after another. Currently, the 4th state program on regional development is being implemented.

The main purpose of the “State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan in 2019-2023” approved by the Decree No. 500 of the President of Azerbaijan Ilham Aliyev dated January 29, 2019 is to to continue in the coming years, as well as to further improve infrastructure and social services, increase employment and material well-being of the local population.

In general, at least 17 billion manat will be spent on the implementation of the "State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan in 2019-2023", of which 4.6 billion manat will be invested in projects currently being implemented and being prepared by the private sector. will be put in the form of. At the same time, the state is expected to invest about 13 billion manat.

Funds for the development of regions in Azerbaijan are not allocated only within the framework of state programs. Since 2004, more than 4.5 billion manat has been allocated for socio-economic development projects in the regions. However, at the same time, millions of manats were allocated for the development of districts and cities at the expense of the President, and the allocation of these funds also played an important role in the social development of the regions.

By the way, Ilham Aliyev, who was elected President in 2003, promised to work for the development of the regions and spare no effort to do so.

Not forgetting this promise, President Ilham Aliyev, speaking at a conference on the results of the implementation of the State Program on Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan in 2014-2018, recalled that the Azerbaijani economy has developed at a record pace over the past 15 years. "The program adopted five years ago has been exceeded. All the tasks we have set for the last five years have been fulfilled. The third program is very important. This program has given us a new impetus to the reforms and work done in previous years in the regions." As you know, the adoption of programs for socio-economic development of the regions of Azerbaijan was one of the promises I made on the eve of the presidential elections in 2003. At that time, I said thatIf the people of Azerbaijan trust me, first of all, I will be engaged in the development of the regions, I will

spare no effort to solve the problems in the regions."

At present, 35 cities and districts across the country are not funded from the budget. Next year, the number of these districts will increase. Along with the capital Baku, Ganja, Sumgayit, Lankaran, Sheki, Yevlakh, Naftalan, Mingachevir and Shirvan, Agjabadi, Agsu, Astara, Beylagan, Jalilabad, Dashkasan, Goychay, Goygol, Hajigabul, Khachmaz, Ismayilli, Kurdamir, Gazakh, Gazakh, Gabala and Shamkir districts also have names. In general, next year, 39 cities and districts will be able to provide themselves with local revenues without receiving funding from the state budget.

During the period of implementation of state programs in 2004-2018, the gross domestic product increased 3.3 times, including 2.8 times in the non-oil sector, 2.6 times in industry and 1.7 times in agriculture. As a result of targeted measures taken during this period, more than 2 million new jobs and more than 100,000 enterprises were created in the country, with 1.5 million permanent, unemployment fell by 5 percent and poverty by 5.1 percent. The large-scale work carried out within the framework of state programs has laid a solid foundation for the development of the regions in the coming years.

According to experts, economic reforms in Azerbaijan are aimed at raising the level of socio-economic development of the regions, efficient use of labor resources, development of local and foreign entrepreneurship, various sectors of the economy. According to them, the State Program "Socio-economic development of the regions in 2004-2008" can be considered the first step in this direction. However, it is not right to accept this program as a solution to the general regional development issues of the republic. The main directions in the regional development of Azerbaijan should be identified, and such centers should form the basis of the regional development strategy of the republic.

As a result of the correct identification of these areas, the development of the regions already has a significant share in the socio-economic development of the country as a whole.

However, it should not be overlooked that the attraction of investment in these areas is very important for the development of the regions. Because the work done in the field of investment promotion has a positive impact on the development of the regions. As a result of the successful implementation of the investment promotion mechanism, about 400 projects have been promoted so far and 3.4 billion manat has been invested in the country's economy. As a result, more than 16,000 new jobs have been created.

Serious work is also being done in the regions to create agro-parks and large farms, which are important for agriculture, in order to create jobs and provide employment.

It is no coincidence that one of the main successful results of the implementation of state programs for socio-economic development of the regions is the creation of new jobs. Thus, 2.3 million new jobs were created in the country from 2004 to 2019, including the previous period.

**Conclusion above**

As noted, incentive programs are implemented in many areas of agriculture in our country. It should be noted that this system is implemented in different ways depending on the level of development of countries. But in all cases, it is an issue that directly affects the regional imbalance. These incentives are the most important tools to ensure that economic activity is focused on specific regions and to reduce inter-regional development disparities. The point is that in addition to all these incentives that the state is implementing, incentive programs generally require a team effort. The responsibility to be a team falls on the relevant ministries, local executive bodies and municipalities.

**LITERATURE**

*1. Armstrong N., Taylor J. (2013) Regional economics and policy, Harvester Wheatsheaf, p. 397*

*2. Balchin P., Sykora L. (2019) Regional Policy and Planning in Europe, London, Routledge, p. 273*

*3. Folmer H. (2016), Regional economic policy, Dordrech, Martinus Nijhoff Publishers, p. 270*

*4. Kahraman Arslan (2015), Regional Planning and Regional Development Agencies, Istanbul University of Commerce Journal of Social Sciences, № 7, Istanbul, p. 275- 294 2.*

*5. Nihal Kargı (2019), Developments in Regional Approach Approaches, International Journal of Economic and Administrative Studies, № 3, p. 19-40*

*6. Арженовский И. (2019) "Regional market:*

*reproductive aspect", Nizhny Novgorod, p.111 66*

*7. Ahmedov AN, Gadzhiev EM, Zamanov ZA (2010) International tourism, Baku, p. 139*

*8. Dolyatovsky V. (2014), "Foreign experience of complex development of regions", Regional, № 3, Moscow, p. 12*

*9. Kalashnikova T. (2019) "Economic and geographical zoning", Moscow, Moscow State University, p. 56*

## SUMMARY

It is clear from the article that Today, no country can escape the consequences of globalization. One of the inevitable consequences of globalization is the gradual disappearance of economic borders between countries. Therefore, countries are becoming increasingly interdependent. In such a world, building a development plan that ensures economic balance within the country has become a priority for every country.The regions have a new face in the true sense of the word. The work has created conditions for increasing the development potential of the regions, improving the business and investment climate, infrastructure, utilities, improving the welfare of the population and strengthening environmental security. is not isolated. The development of regions in Azerbaijan is considered an important part of the country's sustainable socio-economic development strategy.

**Key words:** *Region, state, globalization, economy*

**Ağalarova Nərgiz Akif**
***Azərbaycan Dövlət İqtisad Universteti, doktorant***

**Regional sosial-iqtisadi inkişaf: problemlər və reallıqlar**

## XÜLASƏ

Məqalədən aydın olur ki, bu gün heç bir ölkə qloballaşmadan və onun nəticələrindən qaça bilmir. Qloballaşmanın qaçılmaz nəticələrindən biri də ölkələr arasındakı iqtisadi sərhədlərin getdikcə ortadan qalxmasıdır. Buna görə də ölkələr getdikcə bir-birindən asılı vəziyyətə düşür. Belə bir dünyada ölkə daxilində iqtisadi tarazlığı təmin edən inkişaf planını qurmaq hər bir ölkə üçün prioritet məsələyə çevrilib. Regionlar sözün əsl mənasında yeni bir simaya malik olublar. Aparılan işlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb.Bu gün regionlarımızın inkişafını şərtləndirən əsas amil odur ki, onlar ölkənin ümumilikdə həyata keçirilən sosial-iqtisadi inkişafı strategiyasından təcrid edilmir. Azərbaycanda regionların inkişafına ölkənin davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılır.

**Açar sözlər:** *Region, dövlət, qloballaşma, iqtisadiyyat*

**Агаларова Наргиз Акиф**
***Азербайджанский Государственный Экономический Университет, докторант***

**Региональное социально-экономическое развитие: проблемы и реалии**

## РЕЗЮМЕ

Из статьи видно, что сегодня ни одна страна не может избежать последствий глобализации. Одним из неизбежных последствий глобализации является постепенное исчезновение экономических границ между странами. Поэтому страны становятся все более взаимозависимыми. В таком мире построение плана развития, обеспечивающего экономический баланс внутри страны, стало приоритетом для каждой страны. У регионов новое лицо в прямом смысле этого слова. В ходе работы созданы условия для повышения потенциала развития регионов, улучшения делового и инвестиционного климата, инфраструктуры, ЖКХ, повышения благосостояния населения и укрепления экологической безопасности. Развитие регионов в Азербайджане считается важной частью стратегии устойчивого социально-экономического развития страны.

**Ключевые слова:** *Регион, государство, глобализация, экономика.*

UOT 330.341.1:62

# İNNOVASİYA EKOSİSTEMİNDƏ DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİ

**PƏRVANƏ İSMAYILOVA**
*UNEC-in Zaqatala filialında müəllim,*
*UNEC doktorantı*
*E-mail: parvana.mammadazada@mail.ru*

İnnovasiya müasir, dəyişən, yenilənən dünyanın əsas inkişaf amillərindən biridir. Tarix boyu ölkələrin inkişaf tendensiyalarına baxsaq görərik ki, illər ərzində dünyada inkişafa meyillilik göstərən ölkələrin əsas keçdikləri yol innovasiyaların, yeniliklərin, texnologiyaların kəşfi və tətbiqi ilə bağlıdır. Bu aspektdən müasir dövrdə də, tarix boyunca da dövlətlər innovasiya siyasətini işləyib hazırlamışdır ki, həm dünya bazarında əhəmiyyətli mövqe tuta bilsinlər, həm də rəqabətqabiliyyətli məhsul və xidmətlər istehsal edərək dünya reytinqlərində ilk pillələrdə ola bilsinlər. Müxtəlif dövlətlər innovasiya siyasətini hazırlayarkən özünəməxsus metod, strategiya və taktikalardan istifadə edir.

Dövlətin innovasiya siyasəti innovasiya ekosistemini formalaşdıran, innovasiyanın tətbiqini təşviq edən klasterlərin formalaşmasını əhatə etməlidir. İnnovasiya ekosisteminin tərkibində əsas yer tutan dövlət bu sahədə olan marağı, hədəfi, həmçinin sahibkarlıq subyektlərini təşviq etməklə innovasiya proseslərində iştirakını təmin etməsi, həm də cəmiyyət üçün innovasiyanın yaratdığı dəyəri, istehlakçı üçün innovasiya fəaliyyətinin nəticəsindən əldə edəcəyi üstünlükləri bir çərçivədə toplayan geniş spektrli mühitdir.

İnkişaf etmiş ölkələrdə dövlətin innovasiya siyasətinin məqsədi kimi firmaların texnologiya absorbiyası tutumunu (Technological Absorptive Capacity) daha da artırmaq olduğunu qeyd etmək olar [1]. Bu firmaların daxili imkanları hesabına yeni bilik və texnologiyaları ortaya çıxarmaq qabiliyyətidir ki, dövlət üçün bu potensialın aşkar edilməsi və üzə çıxarılması vacib amildir. Firmaların yeni bilik və texnologiyaları tətbiq etmələrinin əsas səbəblərindən dəyişən və yenilənən dünyada rəqabətqabiliyyətli məhsul və ya xidmət istehsal etmək, loyal müştəri qrupu formalaşdırmaq və qoruyub saxlamağı bacarmaq, dolayı yolla gəlirlərini artırmağa çalışmaqdan ibarətdir ki, ölkədə hər-hansı bir özəl sektor nümayəndəsinin gəlirlərinin artması dövlətin həm iqtisadi gücünün artmasına, həm ölkə üzrə istehsal olunan məhsulların həcminin artmasına, həmçinin dövlət büdcəsinə birbaşa və dolayı yolla gəlirlərin təmin edilməsində, işsizliyin azalıb, məşğulluğun artmasında, iqtisadiyyatın diversifikasiyalaşmasında əhəmiyyətli rol oynayır. Lakin istisna deyildir ki, texnoloji innovasiyaların tətbiqi ölkə üzrə insan əməyindən istifadəni azaldır və texnologiyalar daha çox məhsuldarlıqla firmalara fayda vermiş olur. Burada qeyd etmək lazımdır ki, innovasiyaların tətbiqi təhsil sahəsində də dəyişiklikləri zəruri və labüd edir, yəni innovasiyalar özüylə birlikdə insan kapitalını da yetişdirir, formalaşdırır, tələbata uyğun yeni ixtisaslar, yeni bilik və bacarıqlar əldə etmək zərurəti meydana çıxır. Deməli, firmaların daxili güclərindən istifadə etməklə innovasiya mühitinin formalaşmasına şərait yaratmaqla dövlət özünün gücünü artırmış olur.

Dövlətin innovasiyayönümlü nəticələr əldə etməsi bir sıra daxili və xarici faktorlardan asılıdır (Şəkil 1). Bu təsnifata aid olan faktorların hər biri firmaların innovasiya tətbiqi üçün stimullaşdıran, təşviq edən amillər sırasına aiddir. Yeni məhsulun ərsəyə gəlməsi üçün lazım olan daxili amillər, yəni – ideyanın formalaşması, ideyanın tətbiqi üçün bilik və bacarıqların, insan kapitalının olması, maliyyə resurslarının və uyğun infrastrukturun olması, həmçinin firmadan asılı olmayan xarici faktorlar da vardır ki, bunlar instutisional çərçivədə sektorda olan lisenziya, sertifikasiya, standartlar və digərlərini misal göstərmək olar. Xarici faktorlar daha çox dövlətin yaratdığı instutisional və bürokratik çərçivədir ki, firmaların sonrakı inkişafında və innovativ məhsul istehsalında əhəmiyyətli rol oynayır.




**Şəkil 1. İnnovasiyayönümlü nəticələr əldə edilməsinə təsir göstərən faktorlar. Mənbə [1].**

İnkişaf etmiş ölkələrdə dövlətin innovasiya siyasətinin qurulmasında əsas məqsədlərdən digəri ümumi “innovasiya ekosistemi”nin qurulmasıdır [1]. İnnovasiya ekosisteminin qurulması bu sistem üçün maraqlı tərəflərin (stakeholder) başqa sözlə aktorların bir çevrənin ətrafında toplaşması və əsas məqsədi ölkənin innovativ iqtisadiyyatının inkişaf etdirilməsidir [2]. Qeyd edilən maraqlı tərəflər təklifi təmin edən, tələbi təmin edən və dəstəkləyici aktorlardır ki, dövlətin siyasəti bunların hər üçünü müdafiə və təşviq etməlidir. Bu məqsədlə ölkədə milli innovasiya sistemi qurulmalıdır ki, orada məqsəd yuxarıda qeyd edildiyi kimi, texnoloji istehsalın və rəqabətqabiliyyətli məhsullarının həcmini artırmaqdır.

Milli innovasiya sisteminin formalaşmasında bir sıra tələblər yerinə yetirilməlidir [3]:

• İnnovasiya siyasətinin formalaşdırılmasına sistemli yanaşma;

• ərazilərin xüsusiyyətlərini nəzərə alan və inteqrasiya edilə bilən regional innovasiya sistemlərinin sərbəst formalaşdırılması;

• fundamental elmlərin, ali təhsilin və yüksək texnologiyaya əsaslanan sənayenin inkişaf prioritetlərinin müəyyənləşdirilməsi;

• mənbələri konkret göstərilməklə ehtiyatların prioritet istiqamətlərdə cəmləşdirilməsi.

Dövlət innovasiya siyasətini işləyərkən çoxşaxəli formada strateji yanaşmalardan istifadə etməlidir. Bunlara uyğun qiymət strategiyasının işlənib hazırlanması, vençur maliyyələşmə üçün şəraitin qurulması, bank və bank olmayan kredit təşkilatlarından kommersiyalaşma prosesinin icrası, İEÖ-lərin təcrübəsindən istifadə etməklə strategiyaların qurulması və s. aiddir.




**Şəkil 2. Dövlətin innovasiya siyasəti və innovasiya proseslərinin formalaşmasına strateji yanaşmalar. Mənbə [4].**

Dünya üzrə ölkələrin innovasiyaya meyilliyini, innovativ məhsul istehsalını, çəkilən xərcləri və digər amilləri nəzərə almaqla aparılan tətqiqatların nəticəsi olaraq Qlobal İnnovasiya İndeksi (GİI) hazırlanır ki, bu indeksin nəticəsində ölkələrin nə qədər innovativ inkişafda olduqlarını görmək, müqayisə etmək mümkündür. 2021-ci ildə 132 iqtisadiyyat üzrə apardığı tətqiqatların nəticəsini toplamış QİI iqtisadiyyatların innovasiya gəlirlərini təhlil etməklə yüksək gəlirli, yuxarı orta gəlirli, aşağı orta gəlirli və aşağı gəlirli iqtisadiyyatlara ayırmış, indeksə görə ilk beşlikdə İsveçrə (2017-ci ildən bəri 1-cidir), İsveç (2017-ci ildən bəri yalnız 2018-ci ildə 3-cü yerdə olmuşdur), ABŞ, Böyük Britaniya, Koreya Respublikası (2020-ci ildə 11-ci yerdə olsa da, 2021-ci ildə top beşliyə düşə bilib.) qərar tutmuşdur. 2021-ci ildə Fransa və Çin də ilk 15-likdə yəni, 11-ci və 12-ci yerlərə çatmışdır, halbuki əvvəlki illərdə 15-liyə belə düşə bilmirdilər.

QİI-də innovasiya fəaliyyətində aparılan təhlillər 7 istiqamət üzrə aparılır, bunlar da bazarın təkmilləşməsi, institusional mühit, yaradıcı innovativ məhsullar, infrastruktur, insan kapitalı, biznesin təkmilləşməsi, bilik və texnoloji məhsullardır. Azərbaycanın bu göstərilən istiqamətlərdə QİI-də tutduğu mövqe Cədvəl 1.də verilmişdir. Burada Azərbaycanda innovasiyanın ən güclü istiqaməti bazarın təkmilləşməsi, ən zəifi isə texnoloji məhsullar istehsalıdır.

**Cədvəl 1. Azərbaycanın QİI-də sahə və istiqamətlər üzrə tutduğu pillələr**

| № | Sahə və istiqamətlər | Pillə |
|---|---|---|
| 1 | Bazarın təkmilləşməsi | 36 |
| 2 | İnstutisional mühit | 58 |
| 3 | İnnovativ məhsullar | 67 |
| 4 | İnfrastruktur | 88 |
| 5 | İnsan kapitalı | 89 |
| 6 | Biznesin təkmilləşməsi | 92 |
| 7 | Bilik və texnoloji məhsullar | 115 |

*Mənbə: https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2021/az.pdf*

Ölkə üzrə innovasiyaların inkişaf tempi innovasiya fəaliyyətinə çəkilən xərclər və əldə olunan məhsulların dəyəri ilə müqayisə edilməklə ölçülür [5]. Azərbaycanda 2015-2020-ci illərdə innovasiya fəaliyyətinə çəkilən xərclərlə innovasiyayönümlü

istehsalının müqayisəli təhlili qrafik 1-də verilmişdir. Qrafikdə də göründüyü kimi, 2015-ci ildə ölkə üzrə innovasiyalara çəkilən xərclərin miqdarı 35.179 mln manat olmasına baxmayaraq, həmin ildə innovasiya məhsulunun həcmi 1.5 mln manat olmuşdur ki, bu da il ərzində çəkilən xərclərin 4.3%-ni təşkil edir. Qeyd etmək lazımdır ki, 2015-ci ildə çəkilən xərclərin 34.779 mln manatı müəssisələrin öz vəsaitləri hesabına, geri qalan məbləği isə sair mənbələr hesabına ödənmişdir. Ümumilikdə 2015-2020-ci illərdə çəkilən xərclərin böyük hissəsi müəssisələrin öz vəsaitləri hesabına icra olunmuş, dövlət büdcəsi mənbəsindən istifadə edilməmişdir. 2016-cı ildə isə innovasiya fəaliyyətinə çəkilən xərclərin məbləği həmin il üzrə innovasiya məhsulunun həcmindən aşağı olmuş və bu da 2015-ci ildə çəkilən xərclərin bəzi nəticələrinin 2016-cı ildə özünü göstərdiyi qənaətinə gəlməyə imkan verir. 2017-ci ildə isə hər iki indeks bir-birinə yaxın rəqəmlər nümayiş etdirmişdir ki, bu qeyd olunan beş il ərzində innovasiya fəaliyyətinə çəkilən xərclərin ən aşağı məbləğ olduğunu göstərir.




**Qrafik 1. Azərbaycanda 2015-2020-ci illərdə innovasiya fəaliyyətinə çəkilən xərclərin miqdarı və innovasiya məhsulunun həcmi**
*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

Təhlil olunan periodda innovasiya fəaliyyətinə çəkilən ən yüksək xərc məbləği 2019-cu ildə izlənir ki, bu da 48.037 mln manatdır. Lakin həmin ildə də çəkilən xərcə nəzərən istehsal olunan innovasiya məhsulunun həcmi xərclərin 53.3%-ni təşkil edir. QİI-də də Azərbaycan innovativ məhsul istehsalına çəkilən xərclərə və əldə olunan dəyərə görə Cədvəl 2-dəki kimi sıralanır.

**Cədvəl 2. 2019-2021-ci illərdə Azərbaycanın QİI-də sıralaması**

*Mənbə: https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2021/az.pdf*

| İllər | QİI | İnnovasiyaya çəkilən xərclər | İnnovasiya məhsulu |
|---|---|---|---|
| 2021 | 80 | 74 | 91 |
| 2020 | 82 | 76 | 86 |
| 2019 | 84 | 77 | 90 |

Qrafik 1-in davamı olaraq innovasiya fəaliyyətinə çəkilən xərclərin innovasiya növləri üzrə təsnifatı Qrafik 2-də verilmişdir. Bildiyimiz kimi innovasiya fəaliyyətləri 4 növdə (məhsul, proses, marketinq və təşkilati) təsnifləşdirilir ki, Azərbaycanda bunların ikisinə yönələn xərclərin məbləği üstünlük təşkil edir.




**Qrafik 2. 2015-2020-ci illərdə Azərbaycanda innovasiya fəaliyyətinə çəkilən xərclərin innovasiya növləri üzrə təsnifatı**
*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

Aparılan təhlillər göstərir ki, dövlət istər maliyyə cəhətdən, istər yumşaq sahibkarlıq mühiti yaradılması, bilik və bacarıqların tətbiqi üçün əngəllərin olmadığı mühiti qurmaqla iqtisadiyyatın diversifikasiyalaşmasına, məhsulların yaratdığı dəyərin multiplikasiya effektinin çox olmasına şərait yaratmış olur. Ölkədə sahibkarlıq mühiti, elmi-tətqiqat mərkəzləri ekosistem altında fəaliyyət göstərmədikləri halda dünya bazarına çıxara biləcək məhsul və xidmətlərin istehsalı mümkünsüzdür. Dövlət bu ekosistemdə katalizator rolunu oynamalıdır.

**Nəticə**

Ölkədə davamlı iqtisadi inkişafa nail olmaq üçün iqtisadiyyatın diversifikasiyalaşmasına, münbit investisiya mühitinin yaradılmasına və effektiv

innovasiya fəaliyyətinin qurulmasına ehtiyac vardır. Bu fəaliyyətin qurulması üçün dövlət dəstəkləyici mövqedən çıxış edərək sahibkarlıq mühitini stimullaşdırmalı, texnoloji məhsulların istehsalında maraqlı olmalıdır.

Dünya üzrə ölkələri və Azərbaycanı təhlil etdikdə görürük ki, Azərbaycanda innovasiya mühitinin qurulması üçün dövlətin gördüyü tədbirlər kifayət qədər olsa da, hələ qənaətbəxş səviyyədə deyil və bu səbəbdən innovasiya fəaliyyətinə çəkilən xərclər əksər hallarda müəssisələrin öz hesablarına olur. Müəssisənin böyüklüyü onun innovasiya fəaliyyətində iştirakını təmin edəcək amildir. Deməli, dövlət maliyyəsi olmadıqda kiçik və orta sahibkarlıq subyektləri də innovasiyadan çəkinirlər. Belə olmaması üçün dövlət daima yeni strategiyalar işləməli, uyğun maliyyə mühiti, ixracın asanlaşması, təhsil elm-tətqiqat sahələrinə dəstək proqramları hazırlamalı, universitetləri texnoloji məhsullar yaratmağa təşviq etməli, universitetlərlə sənayenin əməkdaşlığının qurulmasına çalışmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Kənan Aslanlı, Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları, Sahibkarlığa və bazar iqtisadiyyatının inkişafına yardım fondu, Bakı – 2017*

*2. Technology and Innovation Report 2015. Fostering Innovation Policies for Industrial Development. UNCTAD 2015, (səh.22-25)*

*3. Cavid Bəhman oğlu Babayev, Milli innovasiya sistemi: Mövcud vəziyyət və inkişaf, Azərbaycan Elm Assosiasiyası, 2019 №8/47, ISSN 2663-4619*

*4. Lalə Mahmudova, Dövlətin innovasiya siyasəti və innovasiya proseslərinin formalaşmasına strateji yanaşmalar, Geostrategiya jurnalı, №1, 2019*

*5. A.Yavuz, M.Albeni, G.Kaya, Ulusal inovasyon politikaları ve kamu harcamaları: Çeşitli ülkeler üzerine bir karşılaştırma, 2009*

*6. Əzizova G.A. Dövlətin investisiya-innovasiya siyasəti, Bakı-2012*

*7. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu – İnnovasiya fəaliyyəti haqqında stimullaşdırıcı mexanizmlər, Bakı-2017*

*8. https://www.wipo.int/edocs/pubdocs/en/wipo_pub_gii_2021_exec.pdf*

*9. Dövlət Statistika Komitəsinin məcmuələri*


## XÜLASƏ


Müasir dövrün rəqabət mühitində XXI əsrin iqtisadi dinamikasına nəzər yetirdiyimizdə innovasiyanın hər kəs (dövlət, firma, istehlakçı, ETİ və s.) üçün labüd olduğunu görürük. Təbii ki, iqtisadi böyüməni surətləndirən bu zərurət qarşısında dövlətlər də etinasız qalmamalıdır. Tətqiqatın əsas məqsədi dövlətin innovasiya tətbiqi üçün yaratdığı mühiti, innovasiya iqtisadiyyatının qurulması üçün nəzərə alınmalı amilləri, innovasiya ekosistemində dövlətin rolunu müəyyənləşdirməkdir. Tətqiqat işi müqayisəli və statistik təhlil, məntiqi ümumiləşdirmə kimi tətqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tətqiqatda İEÖ-lərin təcrübəsi, QİI (Qlobal İnnovasiya İndeksi)-nin nəticələri əsasında Azərbaycanın innovasiyaya meyilliliyi sistemləşdirilərək kompleks araşdırılmışdır. Tətqiqatın əhəmiyyəti burada toplanmış müqayisəli təhlil və nəzəri biliklər əsasında Azərbaycanda yaradılmış innovasiya mühitini görmək və əldə olunmuş nəticələr və təkliflərlə mühiti yaxşılaşdırmaqdan ibarətdir. Tətqiqatın məhdudiyyətləri daha geniş praktiki informasiya tələb etməsidir. Tətqiqatın praktiki əhəmiyyəti dövlətin innovasiya fəaliyyətini stimullaşdırmaq və sahibkarlıq subyektlərini, elmi-tətqiqat mərkəzlərini təşviq etməklə ölkədə innovasiya ekosisteminin yaradılmasını dəstəkləməkdir. Bu spektrdə ölçülməsi zəruri olan əsas amillərdən biri də dövlətin innovasiya fəaliyyəti üçün büdcədən ayıra biləcəyi hissələr və innovativ məhsulların dəyəri arasında balansı müəyyənləşdirməkdir.



**Açar sözlər:** *innovasiya, innovasiya ekosistemi, dövlətin innovasiya syasəti, QİI.*


## SUMMARY


When we look at the economic dynamics of the XXI century in the competitive environment of modern times, we see that innovation seems essential for everyone (government, firm, consumer, SRI, etc.). Natually, states should not ignore this necesity which accelerates economic growth. The main purpose of the research is to determine the environment created by the state for innovation, the factors to be taken into account to build an innovation economy, the role of the state in the innovation ecosystem. The assignment was fulfilled on the basis of research methods such as comparative and statistical analysis, logical generalization. In the study

investigates Azerbaijan's propensity to innovate based on the experience of DC-s and the results of the GII (Global Innovation Index). The importance of the research consist of to see the innovation environment created in Azerbaijan on the basis of comparative analysis and theoretical knowledge gathered here and to improve the environment with the results and proposals obtained. The limitations of the study are that it requires more practical data. The practical significance of the research is to stimulate the state's innovation activity and support the creation of an innovation ecosystem in the country by promoting entrepreneurship subjects and research centers. One of the main factors that need to be measured in this spectrum is to determine the balance between the parts that the state can allocate from the budget for innovation activities and the value of innovative products.

**Key words:** *innovation, innovation ecosystem, state innovation policy, GII*

## РЕЗЮМЕ

Когда мы смотрим на экономическую динамику XXI века в конкурентной среде современности, мы видим, что инновации нужны всем (государству, компании, потребителю и т. д.). Конечно, перед лицом этой потребности, ускоряющей экономический рост, государства не должны ее игнорировать. Основная цель исследования - определить среду, создаваемую государством для инноваций, факторы, которые необходимо учитывать при построении инновационной экономики, роль государства в инновационной экосистеме. Исследование проводилось на основе таких методов исследования, как сравнительный и статистический анализ, логическое обобщение. В исследовании систематизирована инновационная склонность Азербайджана на основе опыта РРС и результатов Глобального инновационного индекса. Важность исследования заключается в том, чтобы на основе сравнительного анализа и собранных здесь теоретических знаний увидеть инновационную среду, созданную в Азербайджане, и улучшить среду с помощью полученных результатов и предложений. Ограничения исследования заключаются в том, что оно требует больше практической информации. Практическая значимость исследования заключается в стимулировании инновационной деятельности государства и поддержке создания инновационной экосистемы в стране путем развития предпринимательства и исследовательских центров. Одним из основных факторов, который необходимо измерить в этом спектре, является определение баланса между частями, которые государство может выделить из бюджета на инновационную деятельность, и стоимостью инновационной продукции.

**Ключевые слова:** *инновации, инновационная экосистема, государственная инновационная политика, ГИИ.*

UOT 338
005-027.21

# İDARƏETMƏ UÇOTUNUN MAHİYYƏTİ, ONUN MƏQSƏD VƏ FUNKSİYALARI

**RİYAD BAĞIROV**
*Bakı Biznes Universiteti, doktorant*

*E-posta: baghirov.riad@gmail.com*

## Giriş

Həm xarici, həm də yerli alimlərin işi strateji idarəetmə uçotunun konsepsiyasının və mahiyyətinin öyrənilməsinə həsr edilmişdir. Bu konsepsiyanın təriflərinin təhlili strateji idarəetmə uçotunun aşağıdakı kimi qəbul edildiyi qənaətinə gəlməyə imkan verir:

1) idarəetmə uçotunun forması [2];

2) menecerləri idarəetmə qərarlarının qəbulu üçün zəruri məlumatlarla təmin edən informasiya sistemi. Bu, daxili və xarici, maliyyə və qeyri-maliyyə məlumatlarından istifadə edərək uzunmüddətli qərarların qəbulu üçün əsas təşkil edən mühasibat təcrübəsidir [4];

3) istifadəçilər tərəfindən tələb olunan məlumatların toplanması və qeydiyyatı üçün proses və ya sistem [5].

Strateji idarəetmə uçotunun tərifinə və məzmununa yanaşmaların müxtəlifliyini nəzərə alaraq işdə aşağıdakı vəzifələr qarşıya qoyulur: strateji idarəetmə uçotu anlayışının proses yanaşması nöqteyi-nəzərindən aydınlaşdırılması; strateji idarəetmə uçotu prosesinin əsas elementlərini xarakterizə etmək; müxtəlif idarəetmə səviyyələrinə münasibətdə strateji idarəetmə uçotunun tapşırıqlar dairəsini və informasiya sistemini müəyyən etmək; strateji idarəetmə uçotu prosesinin alt-prosesləri arasında əlaqələr sistemini təqdim edir.

## Əsas hissə

Bazar münasibətlərinin inkişafı ilə təşkilatın fəaliyyəti zamanı planlaşdırma, nəzarət və qərarların qəbulu metodologiyasının təkmilləşdirilməsi zəruri olur. İdarəetmə və ya istehsal uçotu bu anlayışları ehtiva edir.

“İdarəetmə uçotu” termini 60-cı illərdə informasiya-iqtisadi ədəbiyyatda menecerlərin keyfiyyətli informasiya ilə təmin edilməsinin vacibliyi dərk olunduğu zaman yaranmağa başladı. Bundan əvvəl “istehsal uçotu” termini geniş şəkildə işlənib hazırlanmışdı.

İdarəetmə uçotu idarəetmə prosesini uçot prosesi ilə əlaqələndirir. İdarəetmə uçotu hər hansı obyektləri idarə etmək üçün zəruri olan məlumatların müəyyən edilməsi, ölçülməsi, toplanması, sistemləşdirilməsi, təhlili, şərhi və ötürülməsidir. [13, s. 321] Daxili mühasibat uçotu idarəetmə uçotunun sinonimidir. İstehsal uçotunun əsas məqsədi, C. T. Horngren və J. Fosterə görə, mal və xidmətlərin maya dəyərinin hesablanmasıdır. Onların fikrincə, bu mövqelərdən baxsaq, deyə bilərik ki, “istehsal uçotu idarəetmə uçotu üstəgəl maliyyə uçotunun kiçik bir hissəsidir”. [1, s.11]

Amerikalı professor Q.N.Harrison qeyd edir ki, keçmişdə istehsal uçotu ilə müqayisədə idarəetmə uçotu şirkətin və digər subyektlərin fəaliyyətində ikinci dərəcəli rol oynayırdı. Lakin sonradan o, mühasibat uçotu sistemində mühüm yer tutdu və müəssisənin idarə edilməsi üçün məlumatların verilməsi ilə əlaqədar olaraq, daxili uçot sistemini özündə birləşdirdi. [2]

İstehsalın uçotu istehsal məsrəfləri haqqında sistemləşdirilmiş məlumatların qeydiyyatı, toplanması, istifadəsi və istehsal xərclərinin hesablanması prosesini əks etdirir.

Mövzunun məzmunu iki qrupa birləşdirilə bilən çoxsaylı obyektləri ilə açılır:

1) müəssisənin təsərrüfat fəaliyyəti prosesində insanların ağlabatan əməyini təmin edən istehsal ehtiyatları;

2) birlikdə müəssisənin istehsal fəaliyyətini təşkil edən biznes prosesləri və onların nəticələri.

Xarici iqtisadçılar (B.Needles, G. Anderson, D. Koldwell) idarəetmə uçotunun mahiyyətini məsrəflərin uçotu və kommunikasiya sisteminin təhlili kimi qiymətləndirirlər. [5]

Optimal idarəetmə sisteminin əsasını xarakterizə edən uçot məlumatlarının üç sahəsi vardır. [5, s. 22]

Birinci istiqamət istehsal uçotudur, onun əsas məqsədi məhsulların (işlərin, xidmətlərin) maya dəyərini hesablamaq üçün istehsal xərcləri və satışdan gözlənilən mənfəət haqqında mühasibat məlumatlarını əldə etmək / toplamaqdır.

İkinci istiqamət menecerlərə qarşıdan gələn is-

tehsal xərclərini planlaşdırmaq, nəticələrin proqnozlaşdırılması və təhlili, habelə idarəetmə qərarlarının qəbulu üçün məlumat verməkdir. Bu, real maya dəyəri məlumatından və xərc hesabatından istifadə etməklə həyata keçirilə bilər.

Üçüncü istiqamət mənşə mərkəzləri üzrə xərclərə nəzarət etmək üçün məsuliyyət mərkəzlərinin və xərc mərkəzlərinin yaradılmasıdır.

Beləliklə, müəssisənin təsərrüfatdaxili idarə edilməsi üçün idarəetmə və istehsal uçotunun qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı aydın olur.

İdarəetmə uçotu sisteminin formalaşması və tətbiqi zərurəti bazar konyukturasının mürəkkəbliyi və yeni məlumatların fərqliliyinin idarəetmə prosesinə təsiri ilə əlaqədardır.

İstehsal uçotu əsasında idarəetmə uçotu menecerlər üçün operativ, taktiki və strateji qərarlar qəbul etmək üçün informasiya bazalarını hazırlayır. Strateji qərarlar qəbul etmək üçün etimadnamələrlə yanaşı, xüsusi tədqiqatlar zamanı əldə edilən məlumatlar da lazımdır. Bundan əlavə, idarəetmə uçotunda köhnəlmə, əsas vəsaitlərin hərəkəti, onlardan istifadəyə nəzarət, tövlələrdə ehtiyatların hərəkəti, hazır məhsulların buraxılması və s. məlumatlar da daxil edilməlidir.

İdarəetmə uçotunun mahiyyətini başa düşmək bizə bu tip uçotun yerinə yetirdiyi funksiyaların idarəetmə funksiyalarından asılılığını müəyyən etməyə imkan verir. İdarəetmə dövrləri adətən planlaşdırma, monitorinq, qiymətləndirmə, birbaşa təşkilati iş, daxili ünsiyyət və həvəsləndirmədən ibarətdir. [1, s.31]

Planlaşdırma, gələcəkdə görülə biləcək fəaliyyət variantlarını təsvir etmək prosesidir. Buraya məqsəd qoyuluşu; tapşırıqların formalaşdırılması; qarşıya qoyulan məqsədə çatmaq üçün problemlərin həlli yollarını tapmaq; alternativ hərəkətlər üçün variantların seçimi daxildir.

Bu mərhələdə rəhbər smeta və onun həyata keçirilməsinin ehtimal olunan mənbələri haqqında məlumat əldə etməlidir. Yaxşı yazılmış planlar o qədər çevik olmalıdır ki, müəyyən istehsal vəziyyətlərində rəhbərə onları dəyişdirməyə imkan versin. [4]

Planlar qısamüddətli və ya uzunmüddətli ola bilər. Uzunmüddətli planda müəssisənin 3-5 il üçün inkişafı üzrə administrasiyanın proqnozu təqdim olunur. O, hazırda və ya yaxın gələcəkdə administrasiya tərəfindən həyata keçiriləcək tədbirlər kompleksini nəzərdə tutur. Beləliklə, kapital qoyuluşlarına investisiya qoyuluşu, yeni məhsulların yaradılması və inkişafı məsələləri həll olunur, çünki istehsal olunan məhsulların çeşidinin dəyişməsi müəssisəni mənfəətin azalması riskindən sığortalayır. [4]

Kontrol - rəhbər, menecer tərəfindən planların yerinə yetirilməsinə nəzarətdir. Buraya obyektin vəziyyətinin ölçülməsi daxildir: faktiki nəticələrin planlaşdırılanlarla müqayisəsi; planların yerinə yetirilə bilməyəcəyi aydınlaşdıqda onlara yenidən baxılması; planlaşdırılandan kənarlaşmaların müəyyən edilməsi və tənzimlənməsi daxildir. Nəzarət planlaşdırma ilə o qədər sıx bağlıdır ki, normal işdə ikisi arasında heç bir xətt çəkilmir. İstənilən idarəetmə qərarı idarəetmənin planlaşdırılması və nəzarət sisteminin tam qarşılıqlı əlaqədə olduğu qiymətləndirməyə əsaslanır. [6, s.189]

İdarəetmənin bu mərhələsində menecer, obyektin faktiki vəziyyətinin kəmiyyət ölçmələrinin nəticələrinin verildiyi ifaçıların hesabatları şəklində məlumatlara malikdir. Çox vaxt hesabatda faktiki və büdcə nəticələrinin müqayisəsi, həmçinin fərqlər göstərilir. Bu, liderə diqqəti mənfi proseslərə yönəltməyə və gələcəkdə həll edilməli olan problemləri müəyyən etməyə imkan verir. Məsələn, bəzi müştərilərə məhsul təqdim etmək öhdəliklərinə yenidən baxılması və s. [4]

Qiymətləndirmə bütün qərar qəbuletmə sisteminin təhlili prosesi kimi başa düşülür. Bu zaman qarşıya qoyulan məqsədə nail olunub-olmaması (əks əlaqə) müəyyən edilir və kənarlaşmaların səbəbləri aydınlaşdırılır: planlaşdırma nöqsanları; əməliyyat qərarlarının artmasına səbəb olan suboptimal tədbirlər toplusu; nəzarət sisteminin idarəetmə tələblərinə uyğun gəlməməsi; səhv hədəf seçmək və s.

Təşkilati iş məqsədlərin praktiki həyata keçirilməsi üçün nəzərdə tutulmuş müəssisənin təşkilati strukturunun yaradılması (şöbələr, bürolar, qruplar, bölmələr və s.); icraçılar arasında vəzifələrin bölüşdürülməsi; müxtəlif idarəetmə səviyyələrini birləşdirən daxili informasiya əlaqələri əsasında ifaçıların hərəkətlərinin əlaqələndirilməsi; xətti və qeyri-xətti əlaqələrdən istifadə edərək rabitə kanallarının yaradılmasından ibarətdir. [6, s.174]

Strateji idarəetmə uçotu təşkilatda istifadə olunan və ya həyata keçirilməsi planlaşdırılan biznes strategiyaları kontekstində nəzərdən keçirilməlidir. Strateji idarəetmə uçotu təşkilatın müştərilər, rəqiblər və təchizatçılarla müqayisədə əldə etdiyi nəti-

cələr haqqında maliyyə məlumatları təqdim edir.

Strateji idarəetmə uçotu təşkilatın fəaliyyət göstərdiyi bazarlar, müəssisənin xərclərinin strukturu və bir neçə dövr ərzində rəqiblərin məsrəfləri haqqında yalnız maliyyə baxımından məlumatların təqdim edilməsi və təhlili sistemidir [21].

Strateji idarəetmə uçotu idarəetmə uçotunun bir istiqamətidir ki, onun məqsədi təşkilatın xarici mühitinin təhlili nəticəsində əldə edilən məlumatlar əsasında strateji idarəetmə qərarlarının qəbul edilməsidir [9].

Strateji idarəetmə uçotu strategiyanın formalaşdırılması və həyata keçirilməsi məqsədilə müəssisənin və onun rəqiblərinin fəaliyyəti haqqında məlumatların toplanması və təhlili prosesidir [7].

Strateji idarəetmə uçotu, müəssisəyə bazarda rəqabət üstünlükləri əldə etməyə və saxlamağa imkan verən effektiv strateji idarəetmə qərarlarının qəbul edilməsi üçün layihə menecerlərinə layihə, onun xarici və daxili mühiti haqqında tam məlumat verən strateji idarəetmənin funksiyalarından biridir.

İdarəetmə funksiyaları və onların effektivliyini təmin edən məlumatlar idarəetmə uçotunun funksiyalarını formalaşdırmağa imkan verir:

1) cari planlaşdırma, idarəetmə ox səviyyələri, nəzarət və operativ idarəetmə qərarlarının qəbulu üçün zəruri olan məlumatları təmin etmək;

2) idarəetmə səviyyələri ilə eyni səviyyəli müxtəlif struktur bölmələri arasında daxili əlaqə vasitəsi kimi xidmət edən informasiyanın formalaşması;

3) məqsədə çatmaqda daxili bölmələrin və bütövlükdə müəssisənin fəaliyyətinin nəticələrinin operativ nəzarəti və qiymətləndirilməsi;

4) fəaliyyətin faktiki nəticələrinin təhlili və qiymətləndirilməsi əsasında müəssisənin və gələcəyin inkişafının uzunmüddətli planlaşdırılması və əlaqələndirilməsi.

## Yekun

Strateji idarəetmə uçotu idarəetmə uçotunun bir növüdür, burada həm müəssisəyə təsir edən xarici biznes mühitinin amillərinin təhlilinə, həm də müəssisənin daxili mühitindəki amillərin uçotu və təhlilinə diqqət yetirilir [3].

Elmi və xüsusi ədəbiyyat mənbələrinin təhlili əsasında aşağıdakı nəticələrə gəlmək olar:

• strateji idarəetmə uçotu, ilk növbədə informasiya sistemidir;

• strateji idarəetmə qərarlarının qəbulu prosesinin həyata keçirilməsində strateji idarəetmə uçotunun böyük əhəmiyyəti vardır;

• strateji idarəetmə uçotu sistemi təşkilatın həm daxili, həm də xarici mühitini xarakterizə edən məlumatları təmin edir və təhlil edir;

• bəzi müəlliflər hesab edirlər ki, strateji idarəetmə uçotunun məqsədi yalnız nisbi maliyyə məlumatlarını təqdim etmək və təhlil etməkdir; müasir şəraitin tələblərinə cavab verən digərləri hesab edirlər ki, qeyri-maliyyə məlumatları da araşdırılmalı və nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Абушова Е.Е., Сулоева С.Б. Методы и модели современного стратегического анализа. // В кн.: Научно-технические ведомости СПбГПУ, 1(187) / 2014. СПб.: Изд-во СПбПУ, 2014, С. 165-176*

*2. Аткинсон Э., Банкер Р., Каплан Р., Янг М. Управленческие учет, 3-е издание.: Пер. с англ. М.: Издательский дом «Вильямс», 2007. 880 с.*

*3. и калькулирование себестоимости в нефтяной компании», г. Москва, 2007 год.*

*4. Changli D.F., Himatulin D.I. "On the management of production costs at the enterprise", 2009.*

*5. Илышева Н.Н., Юрьева Л.В. Идентификация стратегического управленческого учета в холдинговых структурах: принципы организации и информационная инфраструктура // Все для бухгалтера. 2009. No 10. URL: https://www.law-mix.ru/bux/20522*

*6. Керимов В.Э., Комарова Н.Н., Епифанов А.А. «Организация управленческого учета по системе директ-костинг», г. Москва, 2012 год.*

*7. Козлова Е.П., Парашутин Н.В., Бабченко Т.Н., Галанина Е.Н. «Бухгалтерский учет», Г. Москва, Финансы и статистика, 2007 год.*

## XÜLASƏ

Bazar münasibətlərinə əsaslanan yeni iqtisadi sistemin formalaşması idarəetmədə, nəzarətdə, mühasibat uçotunun təhlilinin forma və üsullarında keyfiyyət dəyişikliklərini tələb edir. Müasir iqtisadi şəraitdə müəssisələr xarici mühitdəki daimi dəyişikliklərə vaxtında və adekvat reaksiya verməli və onların inkişafı strategiyasını formalaşdırmalıdırlar. Strateji idarəetmənin effektivliyi əsasən onun informasiya təminatı ilə müəyyən edilir ki, bu da qarşıya

qoyulan məqsədlərə nail olmaq üçün lazımi idarəetmə qərarlarını hazırlamağa imkan verir. Strateji idarəetmənin informasiya təminatı strateji idarəetmə uçotudur, məqsədi strateji idarəetmənin əsas funksiyalarının: planlaşdırma, təşkili, təhlili, nəzarəti və tənzimləməsinin tam dövrünün həyata keçirilməsi üçün məlumat yaratmaqdır. Strateji idarəetmə uçotu strategiyanın həyata keçirilməsi zamanı nəyin, necə, necə və kimin üçün baş verəcəyi haqqında məlumatın formalaşmasına yönəlmişdir . Ümumilikdə idarəetmə uçotunun predmeti bütün istehsalın idarə edilməsi dövrü prosesində olan obyektlərin məcmusudur.

**Açar sözlər:** *Müəssisə, uçot, strateji, iqtisadi*

**The essence of management accounting, its goals and functions**

**SUMMARY**

The formation of a new economic system based on market relations requires qualitative changes in the forms and methods of management, control, and analysis of accounting. In today's economic environment, enterprises must respond in a timely and adequate manner to constant changes in the external environment and formulate their development strategies. The effectiveness of strategic management is mainly determined by its information provision, which allows you to develop the necessary management decisions to achieve the set goals. Strategic management information support is strategic management accounting, the purpose of which is to generate information for the full implementation of the main functions of strategic management: planning, organization, analysis, control and regulation. Strategic management accounting focuses on the formation of information about what, how, how and for whom will occur during the implementation of the strategy. In general, the subject of management accounting is a set of objects in the process of managing the entire production cycle.

**Keywords:** *Enterprise, accounting, strategic, economic.*

**Сущность управленческого учета, его цели и функции**

**РЕЗЮМЕ**

Формирование новой экономической системы, основанной на рыночных отношениях, требует качественных изменений в формах и методах управления, контроля и анализа учета. В современных экономических условиях предприятия должны своевременно и адекватно реагировать на постоянные изменения внешней среды и формировать стратегию своего развития. Эффективность стратегического управления в основном определяется его информационным обеспечением, позволяющим вырабатывать необходимые управленческие решения для достижения поставленных целей. Информационное обеспечение стратегического управления представляет собой стратегический управленческий учет, целью которого является формирование информации для полноценной реализации основных функций стратегического управления: планирования, организации, анализа, контроля и регулирования. Стратегический управленческий учет направлен на формирование информации о том, что, как, как и для кого будет происходить в ходе реализации стратегии. В общем случае предметом управленческого учета является совокупность объектов, находящихся в процессе управления всем производственным циклом.

**Ключевые слова:** *Предприятие, бухгалтерский учет, стратегический, экономический.*

UOT 339.9

# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB OLUNMASI

**ASİF ZEYNALOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: zeynalov.asif01@gmail.com*

**Giriş**

Azərbaycan iqtisadiyyatının milli gəlir artımını böyük ölçüdə təbii ehtiyatlar üzərində qurmaması və iqtisadiyyatda müxtəlif sahələr üzrə ixtisaslaşması ölkədə davamlı iqtisadi artımın gələcəyi baxımından son dərəcə vacibdir.

Qeyri-neft sahələrinə qoyulan investisiyaların artmasına baxmayaraq, BVF ölkədə enerji sektoru istisna olmaqla, biznes sektorlarının hələ də kifayət qədər zəif göründüyünü vurğulayır. Xüsusən də ölkədə hüquq sisteminin inkişaf etməməsi, rəqabət şəraitinə maneələr və maliyyə sistemində yaşanan problemlər qeyri-neft yataqlarının işlənilməsi qarşısında duran ən böyük problemlərdir. Odur ki, ölkədə özəl sektor investisiyalarının artırılması, dövlət inhisarının qırılması, azad bazarın dirçəldilməsi, rəqabət problemlərinin aradan qaldırılması və insan kapitalının inkişafı üçün daha dərin islahatlara ehtiyac var.

**Beynəlxalq Valyuta Fondu.** Beynəlxalq Valyuta Fondu (BVF) 190 ölkədən ibarət təşkilatdır və qlobal pul əməkdaşlığını inkişaf etdirmək, maliyyə sabitliyini təmin etmək, beynəlxalq ticarəti asanlaşdırmaq, yüksək məşğulluğu və davamlı iqtisadi artımı təşviq etmək və bütün dünyada yoxsulluğu azaltmaq üçün çalışır.

1991-ci ilin dekabrı Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan da daxil olmaqla iyirmi keçmiş kommunist ölkə tezliklə BVF-yə qoşulur və bu, 1960-cı illərdən bəri onun üzvlüyünün ən böyük genişlənməsidir. Fond onlara siyasətlə bağlı məsləhətlər, texniki yardım və maliyyə dəstəyi ilə mərkəzləşdirilmiş planlaşdırılmış iqtisadiyyatlardan bazara əsaslanan iqtisadiyyatlara keçidi idarə etməkdə kömək etməklə mərkəz rol oynayır [6].

Qloballaşma prosesinin sürətləndiyi müasir dünyada bu prosesə mühüm töhfələr verən beynəlxalq təşkilatlardan biri olan BVF-nin Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasət sayəsində iqtisadi sabitlik təmin edilib. Beynəlxalq neft şirkətləri və kredit təşkilatlarının ayırdığı resurslarla müxtəlif sahələrə, xüsusən də neft sahəsinə geniş investisiyalar qoyulmuşdur. BVF-nin həyata keçirdiyi fiskal və monetar siyasətlər nəticəsində iqtisadiyyatda nikbin atmosfer yaranıb, iqtisadi məlumatlarda irəliləyişlər müşahidə olunub.

Dünya valyuta sisteminin tənzimlənməsi və inkişaf etməmiş ölkələrə münasibətdə siyasətin müəyyən edilməsi çərçivəsində BVF son 30 ildə Azərbaycanla mühüm əməkdaşlıq və kredit proqramları həyata keçirmiş və bunun nəticəsində ölkə iqtisadiyyatına mühüm müsbət töhfələr verilmişdir [1].

20 iyul 2021-ci il tarixində Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurası Azərbaycanın IV Maddə üzrə məsləhətləşmə hesabatının nəzərdən keçirilməsini yekunlaşdırıb. Müqavilə Maddələrinin IV Maddəsinə əsasən, BVF beynəlxalq valyuta sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün öz üzvlərinin iqtisadi, maliyyə və məzənnə siyasətlərinə nəzarəti həyata keçirmək mandatına malikdir. BVF-nin bu cür siyasətləri qiymətləndirməsi hər bir üzv ölkənin ümumi iqtisadi vəziyyətinin və siyasət strategiyasının hərtərəfli təhlilini nəzərdə tutur. BVF iqtisadçıları məlumat toplamaq və təhlil etmək və hökumət və mərkəzi bank rəsmiləri ilə müzakirələr aparmaq üçün adətən ildə bir dəfə üzv ölkəyə səfər edirlər. Qayıdandan sonra işçi heyəti BVF-nin İdarə Heyətinin müzakirəsinə hesabat təqdim edir. Şuranın fikirləri daha sonra ümumiləşdirilir və ölkə hakimiyyətinə ötürülür [6].

BVF kvotaya əsaslanan bir qurumdur. Kvotalar BVF-nin maliyyə və idarəetmə strukturunun tikinti bloklarıdır. Ayrı-ayrı üzv ölkənin kvotası onun dünya iqtisadiyyatındakı nisbi mövqeyini geniş şəkildə əks etdirir. Kvotalar BVF-nin hesab vahidi olan Xüsusi Borclanma Hüquqlarında (The Special Drawing Right, SDR) ifadə edilir.

Kvota düsturu üzvlərin dünya iqtisadiyyatında nisbi mövqeyini qiymətləndirməyə kömək etmək üçün istifadə olunur və o, kvota artımlarının bölüşdürülməsində rəhbərlik rolunu oynaya bilər. Hazırkı formula 2008-ci ildə razılaşdırılıb:

(0,50 * ÜDM + 0,30 * Açıqlıq + 0,15 * Dəyişkənlik + 0,05 * Ehtiyatlar ) sıxılma əmsalı

BVF-nin öz üzvlərinə güzəştsiz şərtlərlə kreditləri üçün resurslar üzv ölkələr tərəfindən, ilk növbədə, onların kvotalarının ödənilməsi yolu ilə təmin edilir. Çoxtərəfli və ikitərəfli borclanma kvota resurslarına müvəqqəti əlavə təmin etməklə müvafiq olaraq ikinci və üçüncü müdafiə xətti rolunu oynayır. Bu borc vəsaitləri qlobal iqtisadi böhran zamanı BVF-yə üzv ölkələri dəstəkləməkdə mühüm rol oynamışdır. BVF-nin təxminən 973 milyard SDR həcmində hazırkı ümumi resursları likvidlik buferini kənara qoyduqdan və kredit vermək üçün yalnız güclü xarici mövqeyə malik üzvlərin resurslarından istifadə edildiyini nəzərə alsaq, təxminən 707 milyard SDR (təxminən 1 trilyon ABŞ dolları) həcmində kredit vermək qabiliyyətinə çevrilir.

**Cədvəl 1. Azərbaycan üçün BVF-nin kvotası (2021-ci il)**

| | |
|---|---|
| Xüsusi Borc Hüquqları (SDR) | 471,09 milyon |
| Kvota (SDR) | 391,7 milyon |

*Mənbə: Internatıonal Monetary Fund, www.imf.org, 2021*

**Avropa Yenidənqurma və İnkişaf Bankı.** Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin məlumatlarına əsasən, Azərbaycan 1992-ci il sentyabrın 25-də Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB) üzv olmuşdur. O vaxtdan bəri 22 layihə üçün bank kreditlər alıb. Bu kreditlərin 600 milyon dolları özəl sektora, 479 milyon dolları isə dövlət investisiyalarının maliyyələşdirilməsinə ayrılıb. AYİB "Erkən Keçid İqtisadiyyatları" təşəbbüsü çərçivəsində məşğul olduğu Azərbaycanın enerji sektorunu dəstəkləməklə yanaşı, iqtisadiyyatın sektoral diversifikasiyasına da öz töhfəsini verir.

AYİB-in Azərbaycanda ən mühüm fəaliyyət istiqamətlərindən biri də KOM-lara maliyyə dəstəyi verən proqramdır. Bu proqram çərçivəsində Azərbaycan banklarına kreditlər verilir və bu kreditlər KOS-lara verilir. 11 aprel 2006-cı il tarixində AzəriQazBank-a verilən 2 milyon dollarlıq kreditlə proqram çərçivəsində bankların sayı 4-ə yüksəldi. Digər banklar Azərdəmiryolbank, Bank of Baku və Respublika Bankdır [7].

**Asiya İnkişaf Bankı.** Azərbaycan 1999-cu ildə Asiya İnkişaf Bankının (AİB) üzvü olmuşdur. Bu günə qədər AİB Azərbaycanda daşqınların nəticələrinin aradan qaldırılması, şəhərlərin su təchizatı və tullantı sularının təmizlənməsi, Şərq-Qərb avtomobil yolunun modernləşdirilməsi və Masallı-Astara avtomobil yolunun təmiri ilə bağlı 4 layihəyə ümumilikdə 202 milyon ABŞ dolları məbləğində kredit ayırıb. Bu kreditlərdən əlavə, AİB-in Azərbaycana ayırdığı ümumi məbləği 10,5 milyon dollar olan 20 texniki dəstək qrantı var.

Azərbaycan hökuməti artımı xarici borclanmadan çox birbaşa xarici investisiyalar hesabına maliyyələşdirməyə üstünlük verir və bu, ümumi dövlət borc yükünün nəzarətdə saxlanılmasını təmin edir.

**Cədvəl 2. Azərbaycan Respublikasının xarici dövlət borcu barədə məlumat (milyon ABŞ dolları)**

| İllər | Birbaşa xarici dövlət borcu | Dövlət müəssisələri tərəfindən cəlb edilmiş xarici borclara verilmiş dövlət zəmanətləri üzrə şərti öhdəliklər | Ümumilikdə |
|---|---|---|---|
| 01.07.2021 | 7839 | 764.4 | 8603.4 |
| 01.07.2020 | 8213.2 | 745 | 8958.2 |
| 01.07.2019 | - | - | 8920 |

*Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyi, http://maliyye.gov.az/static/ məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı ölkə iqtisadiyyatının stimullaşdırılmasına, qeyri-neft sektorunun inkişafına töhvə vermişdir. Beynəlxalq maliyyə təşkilatları bugünə qədər Azərbaycana böyük miqdarda maliyyə vəsaitləri ayıraraq bir sıra mühüm layihələrin həyata keçirilməsini təmin etmişdir.

**Cədvəl 3. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı layihələri (milyon ABŞ dolları)**

| Layihənin adı | Məqsədi | Borcalan; İcraçı akentlik | Öhdəlik məbləği | Ümumi dəyəri |
|---|---|---|---|---|
| Regional Əlaqə və İnkişaf Layihəsi | Təhlükəsiz, səmərəli və iqlimə davamlı nəqliyyat əlaqəsini təmin etmək və Salyan-Biləsuvar yol dəhlizi boyunca bazara əlçatanlığı yaxşılaşdırmaq | Maliyyə Nazirliyi; Dövlət Avtomobil Yolları Agentliyi | 65 | 95.88 |
| Məhkəmə Xidmətləri və Ağıllı İnfrastruktur Layihəsi | Seçilmiş ədliyyə xidmətlərinin təqdim edilməsinin əlçatanlığını, şəffaflığını və səmərəliliyini artırmaq | Nazirlər Kabineti; Ədliyyə Nazirliyi | 150 | 270 |
| Məşğulluğa Dəstək Layihəsi | Həssas insanların məşğulluğa çıxışını yaxşılaşdırmaq | AR; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 100 | 100 |
| Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Təkmilləşdirilməsi Layihəsi | Sanitariya və fitosantiya xidmətlərini, seçilmiş dəyər zəncirlərini gücləndirməklə və aqrobiznes müəssisələrinə maliyyə xidmətləri göstərməklə kənd təsərrüfatı istehsalçılarının bazarlara çıxışını asanlaşdırmaq | AR; Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 34.50 | 53.25 |

*Mənbə: Dünya Bankı, https://projects.worldbank.org/, 2021 məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

**Açar sözlər:** *II Qarabağ müharibəsi, beynəlxalq maliyyə təşkilatları.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Aliyev S., (2004), Uluslararası Para Fonu ve bir geçiş ekonomisi olarak Azerbaycan ile ilişkileri. Hacettepe Üniversitesi, 146 s.*

*2. Arif Acaloğlu, (2020), Karabağ: Başlangıçtan Günümüze Sorunlar ve Çözümler. Belt & Road Initiative Quarterly, Cilt 2, Sayı 1, s 76-93*

*3. Asiya İnkişaf Bankı, www.adb.org*

*4. Azərbaycan Respublikası Maliyyə Nazirliyi, http://maliyye.gov.az/static/*

*5. Azərbaycan Respublikası Mərkəzi Bankı, www.cbar.az*

*6. Beynəlxalq Valyuta Fondu, www.imf.org*

*7. DEİK, (2013), Azerbaycan ülke bülteni. Türk-Azerbaycan iş konseyi, İstanbul, 34 s*

*8. Güven Delice, (2012), Azerbaycan'da Finansal Yapı ve Politikalar. T.C. Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı, Avrasya etüdleri, 41/1, s 95-144*

*9. https://www.ifc.org/wps/wcm/connect/corp_ext_content/ifc_external_corporate_site/home*

*10. Hülya Kınık, (2021), Karabağ savaşı ile yeniden dirilen Azerbaycan: 2020. Karadeniz: 2020 gelişmeleri ışığında bölgesel değerlendirmeler, Karadeniz Teknik Üniversitesi strateji araştırmalar merkezi, s 51-77*

*11. İdil Tunçer Kılavuz, (2017), Dağlık Karabağ Müzakerelerinin Geleceği. T.C. Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı, Avrasya etüdleri, 52/2, s 51-78*

*12. Sabuhi Hüseynov, (2009), Bağımsızlık sonrası Azerbaycan ve Dünya Bankası ilişkileri. T.C. İstanbul Üniversitesi, 101 s*

*13. Vefa Kurban, (2021), Soğuk savaş sonrası sosyal, ekonomik ve siyasal gelişmeler bağlamında Güney Kafkasya. İksad yayın evi, İzmir, 628 s*

## ПРИВЛЕЧЕНИЕ МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ ОРГАНИЗАЦИЙ ДЛЯ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ВЫПУСКАЕМЫХ РЕГИОНОВ

### РЕЗЮМЕ

Конкурентоспособность экономики прямо пропорциональна тому, что она имеет мощную финансовую инфраструктуру, обеспечивающую эффективность ее финансовой деятельности. Существует тесная связь между силой и эффективностью финансового сектора и развитием макроэкономического и реального секторов. Развитие финансовых систем и международная интеграция могут помочь получить доступ к иностранному капиталу и стимулировать экономический рост.

2020 год стал годом важных событий как для Азербайджана, так и для всего мира. Эпидемия коронавируса (COVID-19), разразившаяся в китайском городе Ухань в январе 2020 года и признанная Всемирной организацией здравоохранения глобальной пандемией, также

переросла в глобальный экономический кризис.

К обсуждению экономических аспектов эпидемии добавилось влияние резкого падения цен на нефть. В этом контексте, наряду с экономическими проблемами, вызванными эпидемией, исторически снижающееся снижение цен на нефть в экономике оказало значительное влияние на Азербайджан, который является основным двигателем добычи и экспорта нефти и природного газа.

Также важнейшим событием с точки зрения внешней политики Азербайджана в 2020 году является операция по освобождению оккупированных территорий Азербайджана, которая началась 27 сентября и продолжалась 44 дня. Вторая карабахская война, длившаяся с 27 сентября по 10 ноября 2020 года, является результатом проблемы, которая почти 30 лет не решалась дипломатическим путем и привела к превосходящим успехам азербайджанской армии.

В этом исследовании рассматривается то, что произошло в экономике страны в 2020 году, экономический анализ освобожденных земель Азербайджана и возрождение международных финансовых ресурсов.

**Ключевые слова:** *II карабахская война, международные финансовые организации.*

## INVOLVING INTERNATIONAL FINANCIAL ORGANIZATIONS TO ENSURE THE ECONOMIC DEVELOPMENT OF THE RELEASED REGIONS

### SUMMARY

The competitiveness of the economy is directly proportional to the fact that it has a strong financial infrastructure that ensures the efficiency of its financial activities. There is a close relationship between the strength and performance of the financial sector and the development of the macroeconomic and real sectors. The development of financial systems and international integration can help access foreign capital and stimulate economic growth.

2020 was a year of important events for Azerbaijan, as well as all over the world. The Coronavirus (COVID-19) epidemic, which broke out in Wuhan, China in January 2020 and was recognized by the World Health Organization as a global pandemic, has also turned into a global economic crisis.

The impact of the sharp drop in oil prices was added to the discussions on the economic dimension of the epidemic. In this context, along with the economic problems caused by the epidemic, the historically declining decline in oil prices in the economy has had a significant impact on Azerbaijan, which is a major driver of oil and natural gas production and exports.

Also, the most important event in terms of Azerbaijan's foreign policy in 2020 is the operation to liberate the occupied territories of Azerbaijan, which began on September 27 and lasted 44 days. The Second Karabakh War, which lasted from September 27 to November 10, 2020, is the result of a problem that has not been resolved through diplomacy for nearly 30 years and has resulted in the superior success of the Azerbaijani army.

This study examines what happened in the country's economy in 2020, the economic analysis of Azerbaijan's liberated lands and the revival of international financial resources.

**Keywords:** *II Karabakh war, international financial organizations.*

UOT 339.9

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİYALI VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDAKI GÖZLƏNİLƏN ROLU

**AYNUR MƏMMƏDOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*E-mail: aynur.mammadova01@gmail.com*

**Giriş**

2020-ci il Azərbaycan tarixi üçün çox böyük önəm daşıyır. Sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən 44 günlük müharibə nəticəsində Azərbaycan öz doğma tarixi torpaqlarını 30 il sonra geri aldı. Bu 30 illik müddətdə ermənilər torpaqlarımızı vəhşicəsinə dağıtmış, heykəlləri, məscidləri məhv etmişdir. Bununla da qalmayıb müharibə zamanı Gəncədə, Bərdədə və Tərtərdə günahsız, dinc əhalini qətlə yetirmiş, yaşayış yerləri ermənilər tərəfindən dağıdılmışdır. Ermənilər tərəfindən edilən bu cinayət xalqımızın başına ilk dəfədir gəlmir. 1992-ci ildə Qaradağlıda, Xocalıda, Ağdabanda, Ballıqayada, 1993-cü ildə Başlıbeldə də bu cinayətlər törədilmiş, azyaşlı uşaqlar, qocalar, qadınlar qətlə yetirilmişdir [9].

Sentyabrın 27-də Azərbaycan ordusu tərəfindən Qarabağda başladılan uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabr ayının 7-nə qədər 4 şəhər, 3 qəsəbə və 215 kənd düşməndən geri alınmışdır. Daha sonar Cəbrayıl şəhəri və rayonun 79 kəndi, Füzuli şəhəri və rayonun 36 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 47 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 22 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 26 kəndi, Xocalının 2 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad edilmişdir. Noyabrın 8-i Şuşa, həmin ayın 10-da imzalanan üç tərəfili bəyannə ilə isə dekbarın 1-nə kimi Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana geri qaytarılmışdır [3].

Torpaqlarımız azad edildikdən sonra əsas qarşıda duran məsələ həmin topaqların bərpa edilməsi, iqtisadi potensiallarının ortaya çıxarılması, və iqtisadiyyatımızın inkişafında yerlərini möhkəmləndirməkdir. Çünki işğaldan azad olunmuş ərazilər Azərbaycanın gözüdür, təbii sərvətləri ilə, münbit torpaqlarıyla, tarixi incəsənət keçmişi ilə məşhurdurlar. Buna görə də həmin ərazilərin potensialı çox yüksəkdir. İşğalçılar 30 il ərzində ərazilərdə çox şeyi məhv etməsinə baxmayaraq, bu torpaqların hər bir qarışı, dövlətimizin, bizim sərvətimizdir. Gözoxşayan təbiəti, yeraltı və yerüstü sərvətləri ilə Qarabağın, bütövlükdə işğaldan azad edilmiş torpaqların iqtisadiyyatımıza məhəng dividentlər gətirəcəyi məlumdur, şübhəsizdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası, inkişafı ilə bağlı dövlət tərəfindən reallaşdırılan tədbirlər və qeyd olunan rayonların iqtisadi potensialı ölkəyə, ən çox da qeyri-neft sektoruna yeni yerli və həmçinin xarici investisiyaların cəlb olunmasına şərait yaradacaqdır. Düşməndən azad edilmiş rayonların bərpası və inkişafı ilə bağlı optimallaşdırılmış və kompaktlaşdırılmış yaaşmanı təmin etməsi bir neçə mərhələnin ardıcıl olaraq həyata keçirilməsi ilə reallaşdırılması nəzərdə tutulur. Birinci mərhələ idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlər isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir. Ayrılıqda hər bir rayonumuzun təbii ehtiyatları, həmçinin iqtisadiyyat sahələri, nəqliyyat qovşaqlarına, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və tikintisinə başlanılmış avtomobil, dəmir yollarına məsafəsi nəzərə alınaraq onların profili, ixtisaslaşması nəzərdə tutulub [5].

**Əsas hissə**

Birinci növbədə işğaldan azad edilmiş torpaqların dirçəldilməsi üçün tədbirlər görürlməsi əsas nüans idi ki, bununla bağlı Prezident İlham Əliyev bir sıra mühüm qərarlar qəbul etdi. Prezident "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli fərmanı izmaladı. Fərmanda yer tutan əsas məsələ, işğaldan azad olunmuş torpaqların bərpası, gələcəkdə proqnozlaşdırılan inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin öz doğma torpaqlarına geri qayıtması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməsidir [4].

Rayonların yenidən bölgüsünün həyata keçirilməsi təkcə bu torpaqların tarixi adlarının bərpa olunması baxımından deyil, həmçinin iqtisadi ixtisaslaşmanın, səmərəli investisiya siyasətinin həyata keçirilməsi istiqamətində də əhəmiyyətlidir. İqtisadi zonaların düzgün, bütöv, hərtərəfli inkişafı ölkəmizin iqtisadiyyatına və xalqımızın rifah səviyyəsinə öz təsirini göstərəcəkdir.

İşğaldan azad olnmuş ərazilərin iqtisadi potensialı ilə bağlı Milli Məclisin deputatı Vüqar Bayramovun fikirlərinə görə, yeni ərazi bölgüsü Qarabağın, bütövlükdə işğaldan azad edilmiş ərazilərimizin iqtisadi potensialından səmərəli, daha optimal, geniş istifadə edilməsinə şərait yaradacaqdır. Şərqi Zəngəzur dəhlizi ilə NMR və Türkiyəyə çıxış imkanı əldə edəcək. Bu onu gösərir ki, strateji, coğrafi baxımdan şərqi Zəngəzur iqtisadi rayonun böyük əhəmiyyətə malikdir. Yeni rayon bölgüsü Azərbaycanda iqtisadi inkişafın sistemliyi və dayanıqlığını təmin etmək baxımından vacib olmaqla yanaşı, həm də işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialından daha yaxından və geniş şəkildə istifadəyə imkan verəcək. Beləliklə, işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafa daha qısa zamanda nail olunmasına səbəb olacaq [1].

Düşmən işğalından azad edilmiş ərazilərin bərpası ilə bağlı Strateji Fəaliyyət Planı çərçivəsində infrastrukturların yenidən qurulmasına dair layihələrin həyata keçirilməsinə başlanıb. Bərpa və yenidənqurma işləri zamanı kiçik kəndlərin birləşdirilməsi, yenilənmiş yaşayış zonaları salınması planlaşdırılır. Ərazilərin bərpası ilə bağlı geniş müzakirə mövzuna çevrilən kiçik ərazilərin birləşdirilməsi məsələsi ilə bağlı artıq yekun bir qərara gəlinmişdir.

Lakin Kəlbəcər və Laçın kimi dağıq relyefə malik olan ərazilər bu hazırlanmış plana nə qədər uyğundur? Adı çəkilən rayonlarda bərpa və inkişaf üçün planlaşdırılan layihələrdə qeyd olunan iki mühüm məsələ diqqət çəkir ki, bunlardan birincisi rayonlararası yol infrastrukturunun planlaşdırılmış formada yenidən qurulması, ikincisi isə kiçik kəndlərin birləşdirilməsidir. Bərpa və yenidənqurma planında görüldüyü kimi bu hər iki rayonu bir-birinə bağlayan və respublikanın digər bölgələri ilə əlaqəsini təmin edəcək yolların tikintisinə xüsusi önəm veriləcək, kiçik kəndlər birləşdiriləcək, yol və digər kommunikasiyalara yaxın ərazilərdə yerləşən kəndlər öz yerində qalacaq, 124 kənddən yalnız 56-sı yenidən qurulacaqdır [7].

Azərbaycanın yüksək iqtisadi potensiala malik olan və ən yüksək dağ rayonu olan Kəlbəcərdə kənd təsərrüfatının bərpası mərhələlər şəklində reallaşdırılması planlaşdırılır. 30 illik işğaldan sonrakı Kəlbəcər də daxil olmaqla digər rayonlara baxdıqda görürük ki, yarımköçəri heyvandarlıq, əkinçilik fəaliyyətlərinə xeyli ziyan dəymişdir. Lakin rayonların gözəl iqlimi və təbiəti kənd təsərrüfatının yenidən bərpasına və inkişafına imkan yaradacaqdır. Kənd təsərrüfatı və turizm sektorlarının kəsişməsindən meydana gələn xidmət sahəsi olan aqroturizm üçün isə Kəlbəcər ən əlverişli bölgələrdən hesab olunur. 2020ci ildən sonra yəni, Kəlbəcər işğaldan azad edildikdən sonra bu torpaqlar üçün yeni bir mərhələ başlayır [2].

İqtisadi potensial daşıyan bir istiqamət isə tunel və yol tikintiləridir. Gəncədən Kəlbəcərə çəkilən yol bu bərpa planının bir hissəsidir. Əgər Murovdan tunel tikintisi reallaşdırılsa, bu Kəlbəcərin qərb rayonları ilə əlaqəsisinin güclənməsinə səbəb olduğu kimi, ikinci ən böyük şəhəri olan Gəncədən Kəlbəcərə 2 saatlıq yol məsafəsi ilə çatmaq mümkün olacaq. Əlbətdə ki, bu tikinti böyük xərc tələb edir, lakin Kəlbəcər kimi dağlıq relyefə malik olan bir rayonun ikinci ən böyük şəhər arasında gediş-gəlişin bu qədər asanlaşmasının iqtisadi səmərəsi ilə müqayisə etsək, bunun qazancının daha böyük olacağı ortaya çıxır [6].

Kəlbəcərdə bərpasının böyük bir iqtisadi inkişafa təsiri olacaq istiqamətlərdən biri də, İstisu qəsəbəsinin planlı şəkildə bərpasıdır. “İstisu” kurortu kimi, eyni zamanda mineral sudoldurma zavodunun böyük miqyasda bərpası, işğaldan azad olunmuş torpaqların yenidən qurulması ilə əlaqədar olan tədbirlərin tərkibinə daxil edilməlidir. Çünki bu ərazilərdə, iqtisadi potensialından lazımi formada istifadə edilməklə həmin ərazilərdə geniş iş potensialı yaratmaq, bu yerlərdən böyük gəlir əldə etməklə iqtisadiyyatın inkişafına təkan vermək mümkündür [10].

Murov yolu üzərində tunelin tikilməsi, daha sürrətli daşımaçılıq deməkdir, çünki tunel Gəncə ilə Kəlbəcər arasında həm rahat, həm də qısa yol mənasını daşıyır, bu da Kəlbəcərdə istehsal olunan məhsulların ölkənin daxili bazarlarına daşınması-

nın asanlaşması deməkdir. Bu gün yük maşınları gün ərzində Kəlbəcərdən Gəncəyə sadəcə bir dəfə gəlib-gedirsə, əgər tunel tikilsə iki-üç reys etmək olacaqdır. Bunla da bir tərəfdən daşınma xərcləri azalır, digər tərəfdən də daşınılan məhsulun həcmi və sürrəti artırılmış olur.

Şəhərin bərpası həm turizm baxımından cəlbedici olması, həm də yaşayışın asanlaşması üçün mütləq planlı şəkildə aparılmalıdır. Bu məsələdə inkişaf etmiş Avropa ölkələrinin, məsələn, İsveçrənin şəhərsalma planlarından faydalanmaq olar. Rayon mərkəzində dağıdılmış evlərin bərpasına xüsusi nəzarət olunmalıdır ki, şəhərin arxitekturasına zərər verilməsin.

Digər bir iqtisadi potensial qızıl ya və digər təbii ehtiyatların olması ilə əlaqədəardır. Kəlbəcər və Laçın rayonun xüsusilə xarici investorları cəlb edəcək imkanları mövcuddur. Kəlbəcərin xarici investorlar cəlbedici potensiyalı yüksəkdir. Qeyri-neft sektoru sahəsində qızıl ölkəyə xarici valyuta gətirən əsas üç məhsuldan birini təşkil edir. Həmçinin pandemiya qızılın nə qədər etibarlı aktivlərdən olduğunu göstərdi. Zəngilan və Kəlbəcər rayonlarının potensialından səmərəli istifadə Azərbaycanın növbəti dövrdə qızıl ixracını daha da artıracaq. Həmçinin, Laçında aqrar, sənaye və turizm sahələrini inkişaf etdirmək mümkün olacaq. Rayon xüsusilə civə yataqları ilə zəngindir və bölgədə tikinti-inşaat sektoru üçün əhəmiyyətli hesab edilən xammal bazası mövcuddur [8].

**Açar sözlər:** *iqtisadi potensial, Qarabağ, iqtisadi inkişaf, azad olunan ərazilər.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. http://dashkesen-ih.gov.az/news/1243.html 12.07.2021*

*2. http://ikisahil.az/post/241805-kelbecerin-kend-teserrufatinin-berpasi-video 19.08.2021*

*3. http://www.aztv.az/az/news/10250/isgaldan-azad-olunmus-seher-qesebe-ve-kendlerimizin-siyahisi, 2021*

*4. https://aircenter.az/uploads/files/orxan%20 tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJtaWHaocTaeYUSK3yfc mart, 2020*

*5. https://asiya.az/26720-ishgaldan-azad-olunmush-erazilerin-berpasi-ve-inkishafi-azerbaycan-hokumetinin-priotetidir.html, 08.12.2021*

*6. https://corp.ady.az/media/xeberler/isgaldan-azad-olunmus-erazilerde-demir-yolu-infrastrukturu-yeniden-qurulur 21.10.2021*

*7. https://fed.az/az/qarabag/kelbecerin-de-berpa-plani-hazirdir-124-kendden-56-si-qalacaq-115075 18.09.2021*

*8. https://report.az/daxili-siyaset/prezident-ilham-eliyev-ve-birinci-xanim-mehriban-eliyeva-kelbecer-ve-lacin-rayonlarinda-olublar/ 17.08.2021*

*9. https://yeniazerbaycan.com/SonXeber_ e80744_az.html 18.03.2021*

*10. https://yenixeber.org/manset/120783-kelbecerin-berpa-plani-.html, 2021*

## ЭКОНОМИЧЕСКИЙ ПОТЕНЦИАЛ ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЙ АЗЕРБАЙДЖАНА И ЕГО ПРЕДПОЛАГАЕМАЯ РОЛЬ В РАЗВИТИИ ЭКОНОМИКИ СТРАНЫ

### РЕЗЮМЕ

Новые военно-политические и экономические реалии сложились в Азербайджане после 44-дневной Второй карабахской войны, длившейся с 27 сентября по 10 ноября 2020 года, явившейся исторической победой над армянскими сепаратистами и почти на 30 лет освободившей наши оккупированные территории от врага. и большинство вопросов, требующих решения в социально-экономической сфере. За эти годы были разграблены природные богатства наших земель, разрушены музеи, мечети, статуи и поселения. Сегодня основной задачей, стоящей перед нашим государством, является обеспечение развития экономики за счет реализации проектов восстановления и реконструкции освобожденных территорий, развития предпринимательства, сельского хозяйства, сферы услуг, автотранспорта, экономического потенциала этих регионов. С этой целью уже год начаты работы по восстановлению дорог, исторических памятников населенных пунктов. В частности, уже началась реклассификация

районов, объединение малых сел, оценка предпринимательских и инвестиционных возможностей. Главная цель – восстановить жизнь в этих краях, вернуть людей на родные земли, повысить благосостояние и ликвидировать ущерб, нанесенный этим землям на долгие годы.

Əslində, bu böhran dövründə şirkətlərin ən təcili ehtiyacı nağd pul əldə etmək və əməliyyat xərclərini azaltmaqdır. Bu kritik ehtiyaclar dərhal faizsiz kreditlər və ya pul qrantları kimi tədbirlərlə və sabit əməliyyat xərclərinin ödənilməsinin dayandırılması və ya təxirə salınması kimi tədbirlərlə dəstəklənə bilər. Biznes fəaliyyəti ilə bağlı bürokratik tələblər minimuma endirilməlidir. Görüləcək bu cür tədbirlər müəssisələrə kadrları saxlamağa kömək etmək üçün çox vacibdir. Digər tərəfdən, əmək haqqı, təlim, məhsuldarlığın yüksəldilməsi və yeni məhsul və xidmətlərin inkişafı üçün qrantlar ixtisarların qarşısını almağa kömək edə bilər. Yerli səviyyədə qiymətləndirmə proqramları bizneslərə yerli şəraiti anlamağa və istehsal və biznes şəbəkələrinə daha effektiv qoşulmağa kömək edə bilər. Rəqəmsal platformalar yerli bazarlara daha yaxşı baxmaq üçün məlumat və məlumatların qarışdırılmasında xüsusilə effektiv ola bilər. Ölkələr Covid-19-un iqtisadi və sosial nəticələrinə nəzarət etmək üçün mübarizə apararkən, sosial və iqtisadi imkanları ilə yanaşı, iqlim dəyişikliyi və ətraf mühit faktorları da narahatlıq mənbəyi olmağa davam edir (Wen, Kozak, 2020: 30). Mümkün olduqda, stimullaşdırıcı tədbirlərin iqlim və ətraf mühitin məqsədləri ilə daha geniş şəkildə uyğunlaşdırılması və ya ən azı bu cür tədbirlərin mövcud problemləri daha da gücləndirməməsi və ya kəskinləşdirməməsini təmin etmək üçün səylər göstərilməlidir. Ümumiyyətlə, bizneslərə dəstək innovasiya səylərinin və mövcud istehsal potensialının davam etdirilməsinə töhfə verə bilər, belə bir vaxtda depressiv fəaliyyət bir çox şirkətləri kadr hazırlığı xərclərini azaltmağa səbəb ola bilər. Bu, qısamüddətli şokların uzunmüddətli böyümə potensialına vura biləcəyi zərəri minimuma endirməyə kömək edə bilər.

Covid-19 səbəbilə iqtisadi böhran indi xəstəliyin özü kimi sürətlə yayılmağa başlayıb. Covid-19-un yayılmasına nəzarət etmək üçün bir çox ölkədə karantin tədbirləri görülür, bu vəziyyət müəssisələrə və işçilərə sosial və iqtisadi cəhətdən dərindən təsir edir. Əslində, BƏT kimi beynəlxalq təşkilatların Covid-19-un qlobal əmək dünyasına təsiri ilə bağlı ilk qiymətləndirmələri təsirlərin geniş miqyasda olacağı və milyonlarla insanı işsizliyə, qeyri-məşğulluğa və işləyən yoxsulluğa sürükləyəcəyidir. Bu səbəbdən müəssisələri, iş yerlərində çalışanları qorumaq, məşğulluğu və iqtisadiyyatı stimullaşdırmaq, iş yerlərini və gəlirləri dəstəkləmək üçün qəti, əlaqələndirilmiş və təcili müdaxilələr edilməlidir [10].

**Açar sözlər:** *COVİD-19, iqtisadi böhran, sahibkarlıq, tendensiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Kırpık, G. (2020). "Örgütsel Davranış Çalışmalarında Yeni Kavramlar: Google Akademik (2019) ve SCI (2020) Veri Tabanlarına Yönelik Sistematik Literatür Taraması", Örgütsel Davranış Üzerine Güncel Çalışmalar (Ed. Müjdat Avcı ve Ergün Kara). İstanbul: Hiperyayın.*

*2. Lahtinen, S. (2020). Reframing the Role of Companies in Sustainability- Toward business sustainability transitions. The Faculty of Management and Business of Tampere University, https://trepo.tuni.fi/bitstream/handle/10024/121641/978-952-03-1559-7.pdf?sequence=5&isAllowed=y 01.06.2020*

*3. Nguyen, N. (2020). Thematic analysis of the effects of COVID-19 on Vietnamese micro-entrepreneurs in the service business in Finland. https://www.theseus.fi/handle/10024/340094 A. D.: 30.05.2020*

*4. Qasim, M. and Alavandi, T.S.S. (2020). Exploring Adult Education& Employee Motivation: A Reiteration of Theoretical Perspective. The Place Names Society of India, Volume 40, Issue 60, 1723-1733.*

*5. Sengupta, G. and Bose, P. (2020). Preparing for Post COVID-19 Sustainable Supply Chain. International Journal of Management, IT & Engineering, Vol. 10, Issue 05, 200-209.*

*6. Shen, E. (2020). Global Virus of the Digital Village COVID-19 and Senism. Eurasian Journal of Researches in Social and Economics, 7 (3), 176-204.*

*7. Ting, H., Ling, J. and Cheah, J. H. (2020). Editorial: It Will Go Away!? Pandemic Crisis and Business in Asia. Asian Journal of Business Research, Volume 10, Issue 1, pp 1-7. DOI: 10.14707/ajbr.190072*

*8. Wangila, F. (2020). Organizational Cyber-Security Measures during COVID-19 Epidemic. International Journal of Innovative Science and Reserach Technology, Volume 5, Issue 3, 1340-1341.*

*9. Wen, J., Kozak, M. (2020). COVID-19: potential effects on Chinese citizens" lifestyle and travel. Tourism Review, Vol. ahead-of-print No. Ahead-of-print. https://doi.org/10.1108/TR-03-2020-0110 A. D.: 30.05.2020*

*10. Yap, J. (2020). Average to Aces: Sharing Lives, Living Better Lives. books.google.com https://books.google.com.tr/books?hl=tr&lr 01.06.2020Willig, C. (2008). A Phenomenological Investigation of Taking Part in „Extreme Sports". Journal of Health Psychology. Vol. 13, No. 5, 690-702.*

## ИЗУЧЕНИЕ ПОСЛЕДСТВИЙ ПАНДЕМИИ COVID-19 В БИЗНЕС-СРЕДЕ

**РЕЗЮМЕ**

Как изменятся или изменятся в будущем условия труда в связи с пандемией COVID-19 — один из важнейших вопросов, обсуждаемых в настоящее время на международном уровне с помощью научных исследований, телевизионных программ, газетных репортажей, онлайн-встреч и подобных исследований. Цель этого исследования — определить влияние глобальной пандемии COVID-19 на бизнес-среду или то, как она может повлиять на будущее. В этом контексте был проведен качественный анализ с помощью онлайн-обзоров и публикаций из научных кругов, средств массовой информации и делового мира. Во время обзора литературы применялись критерии включения и исключения. Используя академические исследования, новости, мнения и предложения, была проведена индуктивная оценка того, как человеческие ресурсы были или могут быть затронуты. Наряду с пандемией COVID-19 выдвигались «домашняя работа», «оплачиваемый или неоплачиваемый отпуск», «безработица», «банкротство предприятий», «проблемы трудовых мигрантов» и другие проблемы.

Мир переживает нетипичный экономический кризис, который отличается от экономических кризисов, с которыми он сталкивался в прошлом. Основное отличие этого кризиса от предыдущих кризисов в том, что он вызван пандемией COVID-19, которая является непосредственной причиной здоровья, препятствующей физической активности людей, жизни, труду и труду в целом. Из-за быстрого распространения эпидемии и стремительного роста числа заражений многие страны впервые столкнулись с проблемами в системе здравоохранения. Быстрое распространение и сила вируса COVID-19 (его способность выживать в течение длительного времени, не прикрепляясь к живому организму) привели к ряду инфекций и смертей, которые сначала вызвали некоторые экономические трудности, но за короткий период время.

**Ключевые слова:** *COVID-19, экономический кризис, предпринимательство, тренды.*

## STUDY OF THE EFFECTS OF THE COVID-19 PANDEMEMY IN THE BUSINESS ENVIRONMENT

**SUMMARY**

How working conditions will change or will change in the future in connection with the COVID-19 pandemic is one of the most important issues currently being discussed at the international level through scientific research, television programs, newspaper reports, online meetings and similar research. The aim of this study is to determine the impact of the global COVID-19 pandemic on the business environment or how it may affect the future. In this context, qualitative analysis has been conducted through online reviews and publications from academia, the media and the business world. Criteria for inclusion and exclusion were applied during the literature review. Using academic research, news, opinions, and suggestions, it was inductively assessed how human resources were or could be affected. Along with the COVID-19 pandemic, "homework", "paid or unpaid leave", "unemployment", "bankruptcy of enterprises", "problems of migrant workers" and other problems were put forward.

The world is experiencing an atypical economic crisis that is different from the economic crises it has faced in the past. The main difference of this crisis from previous crises is that it is caused by the COVID-19 pandemic, which is a direct cause of health, preventing the physical activity of people, life, work and labor in general. Due to the rapid spread of the epidemic and the rapid increase in the number of infections, many countries first experienced problems in the health care system. The rapid spread and strength of the COVID-19 virus (its ability to survive for a long time without being attached to a living organism) has led to a number of infections and deaths that initially caused some economic constraints, but in a short period of time.

**Keywords:** *COVID-19, economic crisis, entrepreneurship, trends.*

UOT 658.1521.153

# AZƏRBAYCANDA BÜDCƏDƏNKƏNAR FONDLARIN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**SƏBİNƏ DADAŞOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: sabina.dadashova.98@mail.ru*

**Giriş**

Mövcud iqtisadi reallıqlar bir tərəfdən maliyyə ehtiyatları kimi nəzərdən keçirilə bilən, digər tərəfdən büdcə prosesinin iştirakçıları olan büdcədənkənar fondların fəaliyyətinə daha ciddi diqqət yetirməyi tələb edir. Çox vaxt büdcədənkənar fondlardan vəsaitlərin istifadəsi böhran dövründə əldə edilməmiş büdcə gəlirlərini doldurmağa, maliyyə bazarlarını sabitləşdirməyə, dövlət kredit sistemində məqbul likvidlik səviyyəsini təmin etməyə, bərpa etməyə imkan verən yeganə mümkün antiböhran vasitəsi olaraq qalır.

Büdcədənkənar fondların yaradılmasında əsas məqsəd mümkün qədər çox pul cəlb etmək və onu sosial və iqtisadi məsələlərin həllinə yönəltməkdir. Büdcədənkənar fondlar dövlət maliyyə sisteminin mühüm tərkib hissəsidir. Dövlət və yerli səviyyədə büdcədənkənar fondlar yaradıla bilər. Büdcədənkənar fondlar xüsusi nağd pul formasıdır və bu fondlar üçün fondların yaradılması və istifadəsi üçün xüsusi sistem mövcuddur.

**Əsas hissə**

Büdcə hökumətin təxmin edilən gəlirləri və xərcləri, o cümlədən icra və qanunvericilik orqanlarının rolları arasında balansı göstərən sənəddir.

Hökumətlər büdcədənkənar fondlar vasitəsilə iqtisadi sabitliyi qorumağa çalışırlar. Fond, müəyyən bir hesabda toplanaraq xərclənə bilən, müəyyən bir məqsəd üçün istifadə oluna bilən və lazım gəldikdə istifadə edilə bilən pul kimi müəyyən edilə bilər.

"Büdcədənkənar fond" anlayışını ilk dəfə A.Rozanov işlətmiş, o, büdcədənkənar fondları dövlət investisiya fondları kimi müəyyən etmiş və ənənəvi dövlət pensiya fondlarından olan büdcədənkənar fondlarla pul siyasətinin həyata keçirilməsində istifadə olunan valyuta ehtiyatları arasındakı funksional fərqlərə diqqəti cəlb etmişdir. O qeyd edib ki, iqtisadiyyatda elə bir proses var ki, büdcədənkənar fond menecerləri, istər mərkəzi banklar, istərsə də milli hökumətlər, ənənəvi hökumət ehtiyatlarının idarə edilməsindən büdcədənkənar fondların idarə edilməsinə keçirlər. Eyni zamanda, büdcədənkənar fondlara müəyyən öhdəliklər qoyulmur və qızıl-valyuta ehtiyatlarından və ya dövlət pensiya fondlarından fərqli olaraq, onların vəsaitləri risk profili yüksək olan aktivlərə yatırılır [12].

Büdcədənkənar fondlar təkrar istehsal prosesinin inkişafına aşağıdakı kimi təsir göstərə bilər:

- sərbəst vəsaitləri dövlət qiymətli kağızlarına investisiya etmək və bununla da müəssisələri lazımi maliyyə mənbələri ilə təmin etmək;
- sahibkarlıq fəaliyyətinin inkişafına təsir göstərmək;
- büdcədənkənar fondlar maliyyə bazarında həm investor, həm də iştirakçı kimi çıxış edə bilər [8, s.242].

Büdcədənkənar fondlar aşağıdakı mühüm vəzifələri həll etmək üçün yaradılır:

- iqtisadiyyatın prioritet sahələrinə əlavə vəsaitlərin verilməsi;
- əhaliyə sosial xidmətin genişləndirilməsi [9, s.356].

Dövlət büdcədənkənar fondlarının yaradılması ilk növbədə maliyyə resurslarından daha səmərəli istifadə etmək, eləcə də sosial tədbirlərin uğurla həyata keçirilməsi üçün zəruridir. Büdcədənkənar fondlar dövlət maliyyəsinin həlqələrindən biridir.

Büdcədənkənar fondlar maliyyə sisteminin tərkib hissəsi kimi bir sıra xüsusiyyətlərə malikdir:

- Büdcədənkənar fondlar planlaşdırılmalı və müəyyən hədəflərə malik olmalıdır;
- Büdcədənkənar fondların vəsaitləri dövlət xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunmalıdır;
- Hüquqi və fiziki şəxslərin icbari ödənişləri hesabına formalaşır;
- Fondlara sığorta haqları və onların ödənilməsindən yaranan münasibətlər ödəniş xarakteri daşıyır, yığımların dərəcələri dövlət tərəfindən müəyyən edilir və icbaridir;
- Vəsaitlər dövlətə məxsusdur, digər büdcələrə, habelə digər fondlara daxil edilmir və qanunla

bilavasitə nəzərdə tutulmayan məqsədlər üçün geri qaytarıla bilməz [11, s.130].

Azərbaycan Respublikasında mövcud olan əsasən üç büdcədənkənar fond vardır: 1) Azərbaycan Respublikası Dövlət Neft Fondu; 2) Dövlət Sosial Müdafiə Fondu; 3) İşsizlikdən Sığorta Fondu.

Neft Fondu 29 dekabr 1999-cu ildə BVF və Dünya Bankının dəstəyi ilə yaradılmışdır. ARDNF-in məqsədi ölkənin neft gəlirlərini səmərəli idarə etmək və ölkənin inkişafı, xüsusilə prioritet sosial-iqtisadi layihələrin həyata keçirilməsi üçün istifadə etməkdir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il üzrə gəlir mənbələri və xərc istiqamətləri aşağıdakı cədvəldə verilmişdir:

**Cədvəl 1.**

**ARDNF-nin 2021-ci il üzrə gəlir mənbələri və xərc istiqamətləri**

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogen-lərin satışından əldə edilən xalis gəlirlər | 6 439 325,7 | Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 12 200 000,0 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 4 146,3 | "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 20 533,6 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 21 930,0 | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 28 901,9 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər | 776 050,0 | | |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilərin ödədikləri bonuslar | 759 717.1 | | |
| | Cəmi | **8 001 169,1** | Cəmi | **12 249 435,5** |

***Mənbə: https://www.oilfund.az/fund/documents/fund-budget/73***

Cədvəldən göründüyü kimi ARDNF-nin gəlir mənbələrində əsas yeri karbohidrogen ehtiyatlarının satışı nəticəsində əldə edilən xalis gəlirlər tutur. Dövlət büdcəsinə transfertlərin yuxarı həddi isə xərc istiqamətlərində əsas yer tutur.

Dövlət Neft Fondunun 2022-ci il üzrə gəlirləri 10 589,7 mln. manat, xərcləri isə 12 784,5 mln. manat proqnozlaşdırılır. Fondun dövlət büdcəsinə etdiyi transfert isə 12,71 mlrd. manat təşkil edəcəkdir.

Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə 24 iyun 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmişdir. DSMF məcburi dövlət sosial sığortasının yığılmasını, müavinətlərin, kompensasiyaların, təqaüdlərin, pensiyaların ödənilməsini və bir sıra sosial tədbirlərin həyata keçirilməsini təmin edən orqandır.

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il üzrə gəlir mənbələri aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 2.**

**DSMF-nin 2021-ci il üzrə gəlir mənbələri**

| | **Gəlirlərin mənbələri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | **3 502 499 210,0** |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 183 982 341,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 161 452 137,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 2 157 064 732,0 |
| 2. | Sair gəlirlər, cəmi | **12 000 000,0** |
| 3. | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | **1 631 530 950,0** |

***Mənbə: "Dövlət sosial müdafiə fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 dekabr 2020-ci il.***

Cədvəldən göründüyü kimi məcburi dövlət sosial sığorta haqları üzrə daxil olan vəsaitlər, xüsusilə də qeyri-büdcə sektorundan daxilolmalar Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində daha çox paya malikdir.

**Cədvəl 3.**
**DSMF-nin 2021-ci il üzrə xərc istiqamətləri**

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər üzrə xərclər | **5 004 790 000,0** |
| 1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 4 880 040 000,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri | 124 750 000,0 |
| 2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | **20 500 000,0** |
| 3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | **32 580 000,0** |
| 4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | **87 500 160,0** |
| 5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | **60 000,0** |
| 6. | Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixində imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri | **600 000,0** |

***Mənbə: "Dövlət sosial müdafiə fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu.***

Cədvələ baxdıqda görürük ki, DSMF-nin 2021-ci il üzrə xərc istiqamətlərində əhaliyə ödənişin edilməsi ilə bağlı olan xərclər,xüsusilə də əmək pensiyasının ödənilməsi ilə əlaqədar olan xərclər fondun digər xərcləri ilə müqayisədə xeyli çoxdur.

Dövlət Sosial Müdafiə Fondunun 2021-ci ildə gəlirləri və xərcləri 5 146 030 160,0 manat, xərcləri isə 5 146 030 160,0 manat olmuşdur.

DSMF-nin 2022-ci ildə isə gəlirləri və xərcləri 5 306 770 072,0 manat məbləğində nəzərdə tutulub. Fondun məcburi dövlət sosial sığorta haqlarından əldə edəcəyi gəlirlər 4 148 202 903,0 manat və qeyri-büdcə sektorundan əldə edəcəyi gəlirlər isə 2 438 772 700,0 manat olacaqdır.

"İşsizlikdən sığorta haqqında" Qanun 30 iyun 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul olunmuşdur. Bu qanun işsizlikdən sığortanın təşkilati, hüquqi, həm də iqtisadi əsaslarını müəyyən edir və işsizlikdən sığortanın subyektləri arasında olan münasibətləri tənzimləyir.

İşsizlikdən sığorta fondunun 2021-ci il üzrə gəlir mənbələri aşağıdakılardır:

• İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi: - 120 000 000,0 manat

- büdcədən maliyyələşən təşkilatlar üzrə - 16 771 559,0 manat
- büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə - 16 771 559,0 manat
- qeyri-büdcə sektoru üzrə - 86 456 882,0 manat

• Sair gəlirlər - 30 000,0 manat

• 2020-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti - 37 739 146,0 manat [6].

Göründüyü kimi İşsizlikdən sığorta fondunda əsas gəlir mənbəyi qeyri-büdcə sektorunda işləyən fiziki və hüquqi şəxslərin ödədiyi haqlardır.

Aşağıda İşsizlikdən sığorta fondunun 2021-ci il üzrə xərc istiqamətləri verilmişdir:

- İşsizliyə görə sığorta ödənişləri - 13 000 000,0 manat
- Özünüməşğulluq tədbirlərinin təşkili - 68 774 200,0 manat
- Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri - 41 994 946,0 manat
- Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri - 15 000 000,0 manat
- Digər xərclər - 19 000 000,0 manat [6].

Göründüyü kimi İşsizlikdən sığorta fondunun əsas xərc istiqaməti özünüməşğulluq ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün sərf edilən xərclərdir.

Bu fondun 2021-ci ildə gəlirləri və xərcləri 157 769 146,0 manat olmuşdur. 2022-ci ildə isə fondun gəlirləri və xərcləri 180 375 536,0 manat olacaqdır.

## NƏTİCƏ

Məqalədə Azərbaycanda büdcədənkənar fondların idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri araşdırılarkən belə nəticəyə gəldik ki, büdcədənkənar fondlar maliyyə sistemində xüsusi

rol oynayır. Büdcədənkənar fondlar mərkəzi və ya yerli icra hakimiyyəti orqanları tərəfindən yaradıla bilən, hüquqi, maliyyə və təşkilati cəhətdən ayrıca fond ola bilər, onun vəsaitləri bərpa olunmayan təbii ehtiyatların ixracından, büdcənin qeyri-resurs profisitindən, büdcəyə artıq daxil olmuş vəsaitlərdən formalaşa bilər.

Məqalədə Azərbaycanda üç büdcədənkənar fondun olduğu bir daha qeyd edildi. Bu fondların hər birinin yaradılma məqsədləri fərqlidir. Büdcədənkənar fondlar bir neçə normativ-hüquqi aktlar əsasında tənzimlənir. Onların gəlir mənbələri və xərc istiqamətləri də müxtəlifdir.

ARDNF-nin 2021-ci il üzrə gəlir və xərclərinə baxdıqda fondun büdcə kəsrinin 4 248,3 mln. manat olduğunu deyə bilərik. Fondun 2021 və 2022-ci illər üzrə gəlir və xərclərini müqayisə etdikdə bu nəticəyə gəlirik ki, gəlirlərin 2021-ci ilə nəzərən 25 885,3 mln. manat və ya 32,35%, xərclərin isə 535 mln. manat və ya 4,37% artacağı proqnozlaşdırılır.

Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərcləri isə 2022-ci ildə 3,12% artacaqdır. Cari ildə olduğu kimi gələn ildə də DSMF-nin gəlir mənbələrində məcburi dövlət sosial sığorta haqlarından, xüsusilə də qeyri-büdcə sektorundan əldə edilən gəlirlər, xərc istiqamətlərində isə əhaliyə ödənişlə bağlı xərclər, xüsusilə də əmək pensiyalarının ödənilməsi ilə bağlı xərclər əsas yer tutacaqdır. Qeyd etdiyimiz digər iki fondda olduğu kimi gələn il İşsizlikdən sığorta fondunun da gəlir və xərclərində artım olacaqdır və bu artım 14,33%-ə bərabərdir.

Büdcədənkənar dövlət sosial fondları qanunvericilik orqanları tərəfindən təsdiq edilmiş vəsaitlər haqqında qaydalara və ya mövcud qanunvericiliyə uyğun olaraq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş qaydalara uyğun fəaliyyət göstərir. Büdcədənkənar fondların vəsaitlərinin istifadə olunmasında nəzarət sistemini gücləndirməklə fondların idarə olunmasını daha da təkmilləşdirmək olar.

**Açar sözlər:** *büdcədənkənar fondlar, maliyyə ehtiyatları, idarəetmə, iqtisadi inkişaf, fondların müxtəlifliyi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 2 iyul 2002-ci il.*

*2. "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 dekabr 2000-ci il.*

*3. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında" Əsasnamə, Bakı şəhəri, 24 iyun 2016-cı il.*

*4. "Dövlət sosial müdafiə fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 dekabr 2020-ci il.*

*5. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 30 iyun 2017-ci il.*

*6. "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" Aərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 dekabr 2020-ci il.*

*7. Babazadə, İ. (2019). Dövlət büdcəsinin xərcləri üzrə nəzarətin təşkilinin beynəlxalq təcrübəsi. Azərbaycanın Vergi Jurnalı, 71-84.*

*8. Novruzov, N.A. Hüseynov X.Ə. (2007). Maliyyə. Ali məktəblər üçün dərslik. Bakı, Kooperasiya, 464.*

*9. Novruzov, N. və İbrahimov, E. (2012). Büdcə sistemi, Bakı, Adiloğlu, 472.*

*10. Александрович, В.Е. (2015). Повышение эффективности управления суверенными фондами в Российской Федерации. Диссертация на соискание ученой степени кандидата экономических наук Москва, 191.*

*11. Керимли, Н.И. (2016). Правовое регулирование внебюджетных фондов и их место в финансовой системе, ЭКОНОМИЧЕСКИЕ И ЮРИДИЧЕСКИЕ НАУКИ. Финансы и налогообложение, № 6, 130-134.*

*12. Rozanov, A. (2005). Who holds the wealth of nations? A. Rozanov Central Banking Journal. Volume XV. № 4, 52-57.*

*13. https://www.sosial.gov.az/*

*14. https://www.oilfund.az/fund/documents/fund-budget/73*

## DIRECTIONS FOR IMPROVING THE MANAGEMENT OF EXTRABUDGETARY FUNDS IN AZERBAIJAN


### SUMMARY

The article examines the directions of improving the management of extra-budgetary funds in Azerbaijan. Extra-budgetary funds have a number of advantages. Replenishment of extra-budgetary funds' revenues earlier than the budget allows the budget to play the role of a creditor if there is a positive balance in the fund. The article notes the purpose for which extra-budgetary funds were created, the sources from which they are formed, the role of the country in the financial system, and how the funds affect the development of the reproduction process. Then the sources of income and expenditures of extra-budgetary funds are touched upon. Revenues and expenditures of extra-budgetary funds for the current and next year were compared. The main purpose of the article is to study the problems of improving the management of extra-budgetary funds and extra-budgetary funds in Azerbaijan in order to determine the parameters of the availability of budget and extra-budgetary funds in the structure of the country's legislature. From this point of view, the problems of management and operation of extra-budgetary funds as one of the important links of the financial system are of great importance.


**Keywords:** *extra-budgetary funds, financial resources, management, economic development, diversity of funds.*

## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ ВНЕБЮДЖЕТНЫМИ ФОНДАМИ В АЗЕРБАЙДЖАНЕ


### РЕЗЮМЕ

В статье рассматриваются направления совершенствования управления внебюджетными фондами в Азербайджане. Внебюджетные фонды имеют ряд преимуществ. Пополнение доходов внебюджетных фондов раньше бюджета позволяет бюджету играть роль кредитора при положительном сальдо фонда. В статье отмечается, с какой целью были созданы внебюджетные фонды, источники, из которых они формируются, роль страны в финансовой системе и то, как средства влияют на развитие воспроизводственного процесса. Затем затрагиваются источники доходов и расходов внебюджетных фондов. Сопоставлены доходы и расходы внебюджетных фондов за текущий и следующий год. Основной целью статьи является исследование проблем совершенствования управления внебюджетными фондами и внебюджетными фондами в Азербайджане с целью определения параметров наличия бюджетных и внебюджетных средств в структуре законодательной власти страны. В связи с этим актуальны проблемы управления и функционирования внебюджетных фондов как одного из важных звеньев финансовой системы.


**Ключевые слова:** *внебюджетные фонды, финансовые ресурсы, управление, экономическое развитие, разнообразие фондов.*

UOT 332.122

# ANALYSIS OF THE CURRENT ECONOMIC SITUATION IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN

**ELDAR NABIZADE**
*Azerbaijan State Economic University, master*

*E-mail: nabizade.eldar01@gmail.com*

**Introduction**

The territory of the Nagorno-Karabakh Autonomous Region, established on November 7, 1923, was 4,400 square kilometers in 1988 and had a population of 180,200. 48% of the population was urban, and 52% were rural. In 1923, the population was 158,000, of which 4% (7,000 people) were urban and 96% (151,000) rural. The Nagorno-Karabakh Autonomous Region has historically produced agricultural and many industrial products. In 1980-1988, 41.9-74.1 thousand kilowatt-hours of electricity were the main industrial products, 780-1136 thousand lighting parts for fluorescent lamps, 6.3-10.1 thousand tons of lime for construction, 94-131 tons of wild silk amounted to 98-1113 thousand pieces [6]. Tons of spun silk, 14.9-16.5 million meters of solid silk fabric, 4181-4515 thousand pairs of shoes, 885-936 tons of animal fat, 652-1018 tons of fat cow, sheep cheese, 631-1946 thousand twigs of grapes. Moreover, 44-94 thousand branches produced cognac. By the end of 1987, there were 81 agricultural enterprises and inter-farm enterprises and enterprises in the district. In general, in 1987, the sown area decreased by 31.4 percent or 27.7 thousand hectares compared to 1960 and decreased to 60.5 thousand hectares, of which 22.7 thousand were grain fields [7, p.96].

According to statistics, the USSR produced 19.6 cents of tobacco, 76 cents of potatoes, 164 cents of vegetables, 31.3 cents of fruits, 82.5 cents of grapes, 66 cents of animal feed, and 21.3 quintals of grain per hectare in Nagorno-Karabakh. The highest grain production in the Nagorno-Karabakh region in 1965-1987 was 1976-1980 (average 61.8 thousand tons), 1981-1985 (average 64.4 thousand tons), and 1985-1987 (68.2 thousand tons). Tons). In 1987, 48.3 thousand tons of grain were produced. On average, 0.4 thousand tons of tobacco, 9.5 thousand tons of potatoes, 11.2 thousand tons of vegetables, 0.5 thousand tons of animal feed, 7.5 thousand tons of fruits, 71.9 thousand tons of grapes were produced in the same year. Fruit and berry fields planted in 1987 were 3139 hectares. In the same year, the productivity of one hectare of mulberry fields was 31.3 quintals, and the average total fruit and berry production was 7.5 thousand tons. In 1987, vineyards were planted on 11.3 thousand hectares, and the total yield was 71.9 thousand tons with 82.5 quintals per hectare. In 1988, the former USSR created fertile conditions for livestock and poultry farms in Nagorno-Karabakh, as well as 95.6 thousand head of cattle in some industries, agriculture, crop production, horticulture, and viticulture. There were 264.4 thousand sheep and goats, 240.9 thousand birds. During this period, 11.3 thousand tons of meat, 57.5 thousand tons of milk, 32.6 thousand tons of eggs, 584 thousand tons of wool were produced. In 1987, the volume of state orders for agricultural products was 10.6 thousand tons of grain, 0.3 thousand tons of potatoes, 5.2 thousand tons of vegetables, 1.2 thousand tons of sunflowers, 68.8 thousand tons of grapes. Live weight was 12.3 thousand tons for cattle and poultry, 32.1 thousand tons for milk and dairy products, 11.2 million eggs, 283 tons of wool, 136 tons of cocoons. During that period, except for Nagorno-Karabakh, 97.4 thousand tons of grain were produced in the occupied territories of the Republic of Azerbaijan. Three thousand tons of this grain was produced in Lachin, 1000 tons in Kalbajar, 30100 tons in Aghdam, 31900 tons in Fizuli, 2010000 tons in Jabrayil, 6700 tons in Gubadli, 4600 tons in Zangilan region. Despite the lack of large farms with modern irrigation systems in Nagorno-Karabakh and the liberation of regions with an average grain production potential of more than 190,000 tons, the Armenian Minister of Agriculture said that the annual amount of grain produced in occupied Azerbaijan is 150,000 tons. She admitted that he was transferred. It is essential to assess the existing potential of the region, including the statistics of the former USSR, taking into account the development of many new areas, along with traditional areas, in the socio-economic projects to be developed in the Karabakh region [8, p.96].

Although viticulture and winemaking, traditional fields, historically existed in Azerbaijan 5-7 thousand years ago, commercial development began in the early 19th century.

In 1913, there were 26,500 hectares of vineyards in the country. Wine production was 400,000 hl. In 1931, the first state enterprise for the production and sale of wine was established. The leading development of viticulture in Azerbaijan, known for its many local grape varieties, dates back to the second half of the twentieth century. In 1969, there were only 50,000 hectares of vineyards in the country, 60-70 percent sparse. About 230,000 tons of products were produced during the season. The State Committee for Viticulture and Enology was established as the largest agro-industrial complex quickly. It included 256 specialized state farms, including 97 state farms, eight primary processing, and 10 recycling enterprises. 132,000 workers, specialists, and servants worked in this field alone. New vineyards were planted on 20,000-22,000 hectares every year. In 1984, vineyards in Azerbaijan reached 284,000 hectares, yielding 100 quintals per hectare and productivity of 2.1 million tons. The country annually produces more than 60 wine brands, 70.7 million decalitres of wine, and 11.6 million decisions of cognac, and exports 230,000-250,000 tons of table grapes. In 1984, Azerbaijan ranked first in the Union for grape production. However, due to the anti-alcohol campaign launched by the former Soviet Union in the mid-1980s, relations in Azerbaijan were destroyed, the economy was severely damaged, and the people were deprived of income [5].

Since the second half of the 1990s, favorable conditions have been created for the revival of viticulture in Azerbaijan, and appropriate measures have been taken in this direction. Thus, the Law of the Republic of Azerbaijan "On Viticulture and Enology" in 2002, the State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan (2004-2008), "2008-2015" also provides for such measures. Important documents such as "State Program on the reliable food supply of the population of the Republic of Azerbaijan in 2008-2015", "State Program on Poverty Reduction and Sustainable Development in the Republic of Azerbaijan for 2008-2015", "State Program on Socio-Economic Development of Regions" Approval of the 2009-2013 "State Program on the Development of Viticulture in the Republic of Azerbaijan for 2012-2020" marked a turning point in the development of viticulture. Reforms in the country and state support for entrepreneurship have increased interest in viticulture in the regions. The allocation of 20.7 million manats in loans by the National Fund for Entrepreneurship Support to 113 projects, the construction of 1,500 hectares of vineyards in Ganja-Gazakh, Jalilabad, Salyan, and other regions is a practical result of measures taken in this direction. Azerbaijan exports most of its wines, competing with wine producers in world markets [9].

Due to the high population growth rate in the People's Republic of China, the demand for wine products in this country is proliferating. Advertising with a reasonable marketing strategy, choosing the right distributor, detailed information on China's import and export procedures, meeting with local and foreign competitors in the Chinese market, domestic distribution channels, large-scale propaganda campaigns, necessary financial and government support, fast access to both quantity and quality can. In this context, the Trade and Information Center of the Azerbaijan Export and Investment Promotion Foundation (AZPROMO) has analyzed the Chinese wine market as the largest export market in Asia, identifying the challenges ahead. At the end of 2016, Azerbaijani wine producers could promote their products in this country. The analysis shows that although countries with small populations have high per capita consumption potential, the market size is often petite due to the small population. For example, although Singapore is the world's largest country in terms of per capita income, its market size is limited due to its small population compared to other Asian countries. Instead, the Singapore market has great potential in terms of value due to this feature [1].

On the other hand, India's Gross Domestic Product (GDP) per capita is low, while most of the population (by volume) promises excellent sales potential. However, in most cases, these factors are strongly influenced by cultural and economic factors. Thus, while wine consumption is high in the major cities of these countries, and wine consumption is high in the main cities of these countries, most people living in suburban areas have a limited understanding of wine. Moreover, in Asian countries with high tourism (such as Singapore and Hong Kong), wine is consumed more by tourists than by locals, and these issues should be taken into account by local producers.

Nevertheless, about 230,000 tons of products were produced during the season. The State Committee for Viticulture and Enology was established as the largest agro-industrial complex in a short time. It included 256 specialized state farms, including 97 state farms, eight primary processing, and 10 recycling enterprises. 132,000 workers, specialists, and servants worked in this field alone. New vineyards

were planted on 20,000-22,000 hectares every year. In 1984, vineyards in Azerbaijan reached 284,000 hectares, yielding 100 quintals per hectare and productivity 2.1 million tons. The country annually produces more than 60 wine brands, 70.7 million decalitres of wine, and 11.6 million decisions of cognac, and exports 230,000-250,000 tons of table grapes. In 1984, Azerbaijan ranked first in the Union for grape production [4].

Research shows that the Republic of Azerbaijan's construction and landscaping work in these areas will double the high potential of large farms with modern irrigation systems on agricultural lands will double the country's average annual yield of 1.3-1.5 million tons of wheat. Years and will reduce imports in the future. It means meeting the food and agricultural needs of more than 2 million people. Most of the 1.7 million hectares of the territory of the Republic of Azerbaijan liberated from Armenian occupation is suitable for the cultivation of various agricultural products. After the demining of the region, the settlement of the population will create conditions for the processing of these products and will allow the formation of a reliable supply base in the food industry. The socio-economic projects to be prepared for the Karabakh region may analyze in detail the existing potential of the region, including statistics of the former USSR, including water supply potential, electricity reserves, industrial recreation opportunities, minerals. And raw material potential. The volume of exports in the non-oil sector and many new products and services will be assessed and revitalized by developing traditional areas in these areas [2, p.63].

**Key words:** *Economic situation, Karabakh, liberated territories, industrial potential.*

## LITERATURE

1. *Bayramov İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, "Elm" nəşriyyatı, 696 səh.2019*

2. *Musayev İ. "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər)". Monoqrafiya. Bakı, 2017, 284 səh.*

3. *Əliyev İ. Zəngəzur dəhlizi türk dünyasını birləşdirən əsas nöqtədir. 04.04.2021. https://xalqqazeti.com/az/news/73722*

4. *Azərbaycan Respublikası Sahibkarlığın İnkişafi Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə prioritet istiqamətlər. 19.10.2021. http://edf.gov.az/az/content/105*

5. *Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması düşmənin revanşist ruhunu əzib. 08.07.2021.https://azertag.az/xeber/Azerbaycanin_Qarabag_ve_Serqi_Zengezur_iqtisadi_rayonlarinin_yaradilmasi_dusmenin_revansist_ruhunu_ezib-1826439*

6. *Alkan H. Azerbaycan Paradoksu, USAK, Ankara, 2010. KASIM, Kamer. Soğuk Savaş Sonrası Kafkasya, USAK, Ankara, 2019.*

7. *Kissinger H. Diplomasi, Çev: İbrahim H. KURT, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2019.*

8. *Neef C. Kafkasya: Rusya'nın Kanayan Yarası, çev: Özalp Göneralp, Yeni Hayat Kütüphanesi, İstanbul, 2019.*

9. *Toptaş E. 21. Yüzyılda Savaş, Kripto Yayınları, Ankara, 2020.*

## АНАЛИЗ СОВРЕМЕННОЙ ЭКОНОМИЧЕСКОЙ СИТУАЦИИ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

Деятельность признается целесообразной по применению особого льготного экономического режима на освобожденных территориях. Для успешного проведения этой работы создан Фонд возрождения Карабаха. Таким образом, наряду с выделенными из государственного бюджета на 2021 год 2,2 миллиарда манатов, вовлечение в оборот увеличивает объем капитала национальных ресурсов – земли, леса, воды, полезных ископаемых, имущества, культурных ресурсов – основных фондов. Эффективное использование всего этого обеспечит развитие освобожденных территорий. Следует отметить, что Организация Объединенных Наций объявила 2021 год «Международным годом креативной экономики» для устойчивого развития. Присоединение Азербайджана к этой инициативе в качестве образцового члена Организации Объединенных Наций еще больше повысит привлечение инвестиций для обеспечения устойчивого экономического развития в освобожденные территории. Это сыграет важную роль в успешной реализации целей устойчивого развития на освобожденных территориях. По данным Государственной автомобильной службы

при Министерстве транспорта, связи и высоких технологий, противник на протяжении 30 лет уничтожал транспортную инфраструктуру и автомобильный транспорт на наших территориях. Так, 22 транспортных предприятия, 10 автовокзалов и автовокзалов, 160 в Агдаме, 60 в Физули, 15 в Джабраиле, 40 в Зангилане, 90 в Шуше, 70 в Ходжалы, 50 в Губадлы, 350 в Ханкенди, 73 в Кельбаджаре, 73 в Агдаре и 10 в Ходжавенде. Было ограблено и повреждено 1015 автомобилей. Одним из важных вопросов является эффективное использование инвестиций в восстановление разрушенной транспортной инфраструктуры и материально-технической базы.

В настоящее время соответствующие средства выделены из Резервного фонда Президента. Уже начато строительство автомобильной дороги Физули-Шуша и железной дороги Барда-Агдам. Учитывая промышленный потенциал освобожденных территорий, в Физули уже начато строительство международного аэропорта. В то же время ведется подготовка к строительству дороги из Горадиза в Зангилан, оттуда в Губадлы и далее в Лачин. Говоря об армянском вандализме, Президент Азербайджанской Республики Ильхам Алиев отметил, что наряду с около 300 селами, 5 городами, 4 поселками и административными зданиями, 700 памятниками истории и культуры, 927 библиотеками, 800 домами культуры, 85 музыкальными и художественными школами, Были уничтожены 22 музея с общим количеством экспонатов 100 000, 4 картинные галереи, 4 кинотеатра, 2 концертных зала. Фонд возрождения Карабаха создан для успешного выполнения работы многомиллиардных инвестиций, которые потребуются для их восстановления.

**Ключевые слова:** *Экономическая ситуация, Карабах, освобожденные территории, промышленный потенциал.*

## AZƏRBAYCANIN AZAD EDİLMİŞ ƏRAZƏLƏRİNDƏ MÖVCUD İQTİSADİ VƏZİYYƏTİN TƏHLİLİ

### XÜLASƏ

İşğaldan azad edilmiş ərazilərdə xüsusi güzəştli iqtisadi rejimin tətbiqi istiqamətində fəaliyyət məqsədəuyğun hesab edilir. Bu işi uğurla həyata keçirmək üçün Qarabağın Dirçəliş Fondu yaradılıb. Belə ki, dövriyyəyə cəlb edilməsi 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2,2 milyard manatla yanaşı, milli sərvətlərin - torpaq, meşə, su, faydalı qazıntılar, əmlak, mədəni sərvətlərin əsas kapitalının həcmini artırır. Bütün bunlardan səmərəli istifadə azad edilmiş ərazilərin inkişafını təmin edəcək. Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatı 2021-ci ili dayanıqlı inkişaf üçün "Beynəlxalq Yaradıcı İqtisadiyyat İli" elan edib. Azərbaycanın BMT-nin nümunəvi üzvü kimi bu təşəbbüsə qoşulması ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsi üçün investisiyaların cəlbini daha da artıracaq. Bu, işğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf məqsədlərinin uğurla həyata keçirilməsində mühüm rol oynayacaq. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Xidmətindən verilən məlumata görə, düşmən 30 il ərzində ərazilərimizdə nəqliyyat infrastrukturunu və yol nəqliyyatını dağıdıb. Belə ki, 22 nəqliyyat müəssisəsi, 10 avtovağzal, Ağdamda 160, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndidə 350, Kəlbəcərdə 773, Ağdərədə və Xocavənddə 10. 1015 avtomobil qarət edilib və zədələnib. Vacib məsələlərdən biri də dağılmış nəqliyyat infrastrukturunun və maddi-texniki bazasının bərpasına qoyulan investisiyalardan səmərəli istifadə olunmasıdır.

Hazırda Prezidentin Ehtiyat Fondundan müvafiq vəsait ayrılıb. Artıq Füzuli-Şuşa avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolunun tikintisinə başlanılıb. İşğaldan azad edilmiş ərazilərin sənaye potensialı nəzərə alınaraq, artıq Füzulidə beynəlxalq hava limanının tikintisinə başlanılıb. Eyni zamanda, Horadizdən Zəngilana, oradan Qubadlıya, oradan da Laçına gedən yolun tikintisinə hazırlıq görülür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev erməni vandalizmindən danışaraq qeyd etdi ki, 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə və inzibati bina ilə yanaşı, 700 tarix və mədəniyyət abidəsi, 927 kitabxana, 800 mədəniyyət ocağı, 85 musiqi və incəsənət məktəbi, Ümumilikdə 100.000 eksponat olan 22 muzey, 4 rəsm qalereyası, 4 kinoteatr, 2 konsert zalı dağıdılıb. Onların bərpası üçün tələb olunacaq milyardlarla investisiyanın işini uğurla həyata keçirmək üçün Qarabağın Dirçəliş Fondu yaradılıb.

**Açar sözlər:** *İqtisadi vəziyyət, Qarabağ, işğaldan* azad edilmiş ərazilər, sənaye potensialı

UOT 332.122

# QARABAĞ İQTİSADİ RAYONUNDA XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAF MEYLLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

**NİCAT QOCAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: nicat.qocayev01@gmail.com*

**Giriş**

2014-cü ildən beynəlxalq bazarlarda neftin qiymətinin düşməsi ilə iqtisadiyyatı darboğaza sürüklənən Azərbaycan yüksək inflyasiya, 100%-ə çatan devalvasiya və mənfi artım rəqəmləri ilə üzləşdi. Bu neqativ prosesin təsiri ilə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər sürətləndirilib və hazırlanan strateji yol xəritələri 2016-cı ildə təsdiq edilərək praktiki fəaliyyətə başlayıb. Bu kontekstdə maliyyə, nəqliyyat, telekommunikasiya, turizm və müxtəlif sənaye sahələrində inkişaflar qeydə alınıb. Əslində, ölkə iqtisadiyyatının mühüm sütunlarından birini təşkil edən və neft ixracı ilə arxa plana keçən ağır sənayedə alüminium, dəmir və sement sənayesi böyük əhəmiyyət kəsb edir. Xidmət sektoru məşğulluğun yarısının qarşılandığı ən vacib iş sahəsidir. Xüsusilə nəqliyyat və telekommunikasiya sahələrində baş verən inkişaflarla xidmət sektoru daha da yaxşılaşmışdır [9].

Neft və qaz hasilatı və emalı Azərbaycanın ÜDM-nin yarısını və ixracının 90%-ni təşkil edən ən mühüm sahədir. Xidmətlər sektoru isə maliyyə, telekommunikasiya və turizm sahələrində artımla inkişaf etməkdə olan sektordur və ÜDM-in 40%-ni və məşğulluğun yarısını təşkil edir [12].




**Şəkil 1. Azərbaycanda 2010-2020-ci illər iqtisadi sektorların ÜDM-də payı**
*Mənbə: www.statista.com, 2021*

2021-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda 71589,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. ÜDM istehsalının 10,3 faizi ticarət, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,8 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin payına düşmüşdür [15].

**Cədvəl 1. Əhaliyə göstərilən ödənişli xidmətlərin növlər üzrə strukturu (min manat)**

| İllər | 2020 | 2019 | 2018 |
|---|---|---|---|
| Məişət | 756064.7 | 1021799.3 | 991319.0 |
| Nəqliyyat | 1046580.9 | 1838622.9 | 1776447.3 |
| Rabitə | 1933045.9 | 1903553.5 | 1864401.1 |
| Mənzil təsərrüfatı | 110272.6 | 204934.1 | 196347.3 |
| Kommunal təsərrüfatı | 1469369.1 | 1432338.7 | 1378235.2 |
| Mədəniyyət | 45434.3 | 218385.1 | 209156.2 |
| Turist-ekskursiya | 85651.6 | 356895.9 | 294995.2 |
| Bədən tərbiyəsi və idman | 25913.6 | 88762.1 | 83587.3 |
| Səhiyyə | 548927.6 | 571362.3 | 504473.1 |
| Sanatoriya-kurort və sağlamlıq | 31628.7 | 110257.9 | 104753.5 |
| Hüquq səciyyəli və bank | 251256.3 | 435785.6 | 422910.7 |
| Təhsil | 425553.1 | 746909.7 | 679620.5 |
| Sair ödənişli xidmətlər | 268675.9 | 677651.6 | 625512.2 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.***

Turizmin inkişafı, turist axınının artması və bir bölgəyə investisiya qoyuluşu xidmət sektorunun əhəmiyyət qazanmasına və inkişafına səbəb olur. Turizmin təsirinə məruz qalan üçüncü istehsal sektorları çörək, ət, tərəvəz məhsulları, ərzaq məhsulları kimi cari istehlakla bağlı sektorlardır; elektrik, boya, tikinti işləri kimi avadanlıq sənəti ilə əlaqəli sektorlar; moda, idman malları, parfümeriya, çiçəkçilik kimi rahatlıqla əlaqəli sektorlar; yardım və təhlükəsizlik xidmətləri ilə bağlı banklar, sığorta, səhiyyə müəssisələri və lüks xidmətlərlə bağlı zərgərlər, gecə klubları və saunalar kimi sektorlar [7].

**Qarabağ İqtisadi rayonu.** Azad edilmiş ərazilər də əhəmiyyətli dərəcədə bərpa olunan, xüsusilə

də hidroenergetika potensialına malikdir. Təxminən 2,56 milyard kubmetr su və ya Azərbaycanın yerli su ehtiyatlarının 25%-i Qarabağda formalaşır ki, bu da su elektrik stansiyalarının (SES) yaradılmasına imkanlar yaradır. 44 günlük müharibə zamanı sözügedən su ehtiyatlarından istifadə edərək istismar edilən və erməni işğalçıları tərəfindən dağıdılan 30 SES-ə Azərbaycan nəzarəti ələ keçirdi. Bu elektrik stansiyalarının bir çoxu bərpa olunub, digərlərində isə bərpa işləri davam etdirilir. Qarabağ həm də kifayət qədər günəş və külək enerjisi potensialına malikdir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin ilkin hesablamalara görə, 4000 meqavatdan çox günəş və 500 meqavata qədər külək enerjisi potensialı var. Füzuli rayonu günəş enerjisi potensialı ilə zəngindir [6].

Azərbaycanın telekommunikasiya infrastrukturu hələ kifayət qədər inkişaf etməsə də, bu sahəyə böyük investisiyalar yatırılır. Azərbaycanda neftdən sonra ən çox xarici sərmayənin qoyulduğu sahə informasiya-kommunikasiya texnologiyalarıdır.

**Cədvəl 2. Qarabağ iqtisadi rayonda bölgələrin işğaldan azad olunma tarixləri**

| | |
|---|---|
| Füzuli | 17.10.2020 |
| Şuşa | 08.11.2020 |
| Xankəndi | 10.11.2020 |
| Xocalı | 10.11.2020 |
| Xocavənd | 10.11.2020 |
| Ağdam | 20.11.2020 |

***Mənbə: Virtual Qarabağ İKT mərkəzi, www.virtualkarabakh.az, 2020***

**Nəqliyyat.** İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşması üçün dayanıqlı nəqliyyat infrastrukturunun olması da zəruridir. Ona görə də işğaldan azad edilmiş ərazilərin bərpası proqramının əsas istiqamətlərindən biri də hərtərəfli nəqliyyat infrastrukturunun yaradılmasıdır.

**Cədvəl 3. Qarabağ iqtisadi rayonunda nəqliyyat**

| Əsas magistral yollar | Dəmir yolu | Hava limanı |
|---|---|---|
| Zəfər şossesi<br>Əhmədbəyli-Füzuli-Şuşa<br>Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd<br>Füzuli-hadrut<br>Bərdə-Ağdam | Bərdə-Ağdam<br>Füzuli-Şuşa<br>Horadiz-Ağbənd<br>Ağcabədi-Beyləqan<br>Bərdə-Ağdaş | Füzuli aeroportu |

***Mənbə: Jafarov J., (2021), Karabakh and Eastern Zangazur economic regions of Azerbaijan. Baku, 29 p məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.***

Qarabağın ilk hava limanı olan Füzuli Beynəlxalq Hava Limanı artıq tikilib və sınaq uçuşları həyata keçirilib. Bu hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Azərbaycan hava limanları ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə yerli avtomobil və dəmir yolları şəbəkəsinin bərpası və genişləndirilməsi işlərinə də başlayıb. Artıq bəzi avtomobil yolları istifadəyə verilib. Bu yollar Qarabağa şimal, şərq və cənub istiqamətlərindən çıxışa imkan yaradacaq və onu regionun nəqliyyat qovşağına çevirəcək.

**Turizm.** Ölkə iqtisadiyyatında turizm sektorunun payı günü-gündən artır. Nəticədə sektorda gəlirlərin artması bu gəlirdən daha böyük pay almaq üçün turizm bölgələri arasında rəqabəti gücləndirir. Digər tərəfdən, turizm sektoru ümumilikdə iqtisadiyyatın artım potensialını artırır.

1990-cı illərin əvvəllərindən Azərbaycanın Qarabağ bölgəsi Ermənistan tərəfindən işğal olunub. Bu müharibə ilə bağlı ölkədə yüksək turizm potensialına baxmayaraq, sektor baxımından turizmdə irəliləyiş əldə olunmayıb. 2020-ci ilin son yazında Azərbaycanın Qarabağ bölgəsində işğaldan sağ çıxan zəngin turizm resurslarının böyük əksəriyyəti Ermənistan tərəfindən dağıdılıb. Lakin son illər Azərbaycanda turizm sektorunun inkişafı üçün bir çox beynəlxalq təşkilatlar və tədbirlər həyata keçirilib. Bundan əlavə, bu rayonun turizmlə canlandırılması baxımından yaxın illərdə bir çox müasir obyektlərin tikintisi nəzərdə tutulur. Bu araşdırmada Qarabağ bölgəsinin böyük potensiala malik olduğu turizm sektoru, Qarabağın sağlamlıq turizmi potensialı, xüsusilə bu bölgədəki mineral suları (İstisu, Turşsu, Şırlan, Minkənd, Koturlu və s.) müəyyən edilmiş, sağlamlıq turizmi baxımından potensialı, istifadə və inkişaf şəraiti müəyyənləşdirilmiş, aşkarlanması nəzərdə tutulmuşdur.

**Cədvəl 4. Qarabağ iqtisadi rayonunda turizm potensialı**

| | |
|---|---|
| Ağcabədi | Ag-Gel Milli Parkı |
| Bərdə | Mirəli məqbərəsi, Tərtərçay üzərindəki qədim körpü |
| Tərtər | Suqovuşan, Müqəddəs Yelisey məbədi |

| | |
|---|---|
| Ağdam | Ağdam Cümə məscidi, Şahbulaq qalası, Pənahəli Xan Sarayı, Çörək muzeyi, Qutlu Musa məqbərəsi |
| Füzuli | Köndələnçay su anbarı, Şeyx Babi məqbərəsi, Şah Abbas karvansarası, Mirəli məqbərəsi, Əli körpüsü, Kərəm körpüsü |
| Xocavənd | Azıx mağarası, Amaras monastırı, Tağlar mağarası, Dizak Məlik sarayı, Gtichavank monastırı, Ağ Xaç kilsəsi, Qırmızı kilsə, Yeddi Qapı məbədi |
| Şuşa | Cıdır düzü, Çatır şəlaləsi, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Natəvan sarayı, Qarabağ xanlar sarayı, Molla Pənah Vaqif məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası, Üzeyir Hacıbəyovun ev muzeyi, Bülbülün ev muzeyi, Qara Böyük Xanım qalası, Ağa Qəhrəman Mirsiyab karvansarası, İki mərtəbə karvansara, Qazancı kilsəsi |

*Mənbə: Jafarov J., (2021), Karabakh and Eastern Zangazur economıc regions of Azerbaijan. Baku, 29 p məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

**Qarabağ bölgəsinin termal (sağlamlıq) turizm potensialı:** Su hamamı, içməli inhalyasiya, palçıq vannası, müxtəlif növ kurort müalicəsi, o cümlədən iqlim müalicəsi, fiziki müalicə, reabilitasiya və termal sular kimi bəzi dəstəkləyici müalicələr əyləncə və istirahət üçün istifadə edilən turizm növüdür.

**Cədvəl 5. Qarabağ iqtisadi rayonunun mineral suları**

| Şəhər | Mineral su | Faydaları |
|---|---|---|
| Şuşa | Turşsu<br>Şırlan<br>İsa bulağı<br>Keçəldağ<br>Nurəddin | Ürək-damar, qanazlığı, qaraciyər, öd yolları, öd yolları, öd kisəsi |
| Xocavənd (Hadrut) | Tumi | Müxtəlif dəri və sinir xəstəlikləri, qaraciyər |
| Xocalı | Zərdanaşen | Oynaq və sinir xəstəlikləri |

*Mənbə: Seferov R., Veliyeva A., (2020), Karabağ bölgesinde sağlık turizm potansiyelinin değerlendirilmesi: mineral ve termal sular.*

**Açar sözlər:** *Xidmət sektoru, Qarabağ iqtisadi rayonu.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az*

*2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, www.economy.gov.az, 08.2021*

*3. Azərbaycan və Dünya Ticarət Təşkilatı, https://wto.az/*

*4. DEİK, (2011), Azerbaycan iş yapma rehberi. İstanbul, 71 s*

*5. ETF, (2021), New forms of employment in the eastern partnershıp countrıes: platform work – Azerbaijan. 16 p*

*6. Eurasia Review news & analysis, www.eurasiareview.com, 08.12.2021*

*7. Əsgərov E., (2017), Azerbeycanda turizm ve onun problemleri. Azerbaycan Devlet İktisat Üniversitesi, Bakü, 66 s*

*8. Habibov H., (2019), Uluslarası turizm hizmetleri ticaretinin Azerbaycan ekonomisi açısından önemi. Azerbaycan Devlet İktisat Üniversitesi, Bakü, 75 s.*

*9. İnsani ve Sosyal Araştırmalar Merkezi, www.insamer.com*

*10. Jafarov J., (2021), Karabakh and Eastern Zangazur economıc regions of Azerbaijan. Center for Analysis of Economic Reforms and Communication of the Republic of Azerbaijan, Baku, 29 p*

*11. Karaca N., Aydoğdu B., Bozkırlı O., (2016), Azerbaycan Cumhuriyeti ülke raporu. T.C. Serhat Kalkınma Ajansı, İstanbul, 92 s*

*12. Kolay ihracat platformu, (www.kolayihracat.gov)*

*13. Trading economics, https://tradingeconomics.com/, 2021*

*14. Virtual Qarabağ İKT mərkəzi, www.virtualkarabakh.az, 2020*

*15. www.statista.com, 2021*

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ И ОСОБЕННОСТИ СФЕР ОБСЛУЖИВАНИЯ КАРАБАХСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

### РЕЗЮМЕ

7 июля президент Азербайджана Ильхам

Алиев подписал указ о новом разделении экономических районов в Азербайджане. Согласно указу, столица страны была разделена на отдельные экономические районы, созданы новые Карабахский и Восточный Зангезур. Карабахский экономический район охватывает город Ханкенди, Агджабединский, Агдамский, Бардинский, Физулинский, Ходжалинский, Ходжавендский, Шушинский и Тертерский районы (www.economy.gov.az). В документе о районе Нового Карабаха подчеркивается важность создания этого региона для обеспечения восстановления и быстрого развития древнего Карабахского региона, обладающего богатым историко-культурным наследием и очаровательной природой.

Новое деление экономических районов в Азербайджане обеспечит экономическую специализацию, реализацию эффективной инвестиционной политики и гибкое региональное управление. Создание новых экономических зон даст импульс восстановлению и развитию территорий, освобожденных после 44-дневной войны. Поэтому новое деление экономических районов можно считать важным шагом в создании единого плана развития освобожденных территорий. Это важно и в условиях реинтеграции освобожденных территорий в экономику Азербайджана, что требует обеспечения эффективности планирования и управления развитием экономических районов, пересмотра структуры этих экономических районов.

Нет сомнения, что реализация экономических возможностей на освобожденных территориях после восстановления окажет серьезное влияние на экономику Азербайджана. На ранее оккупированных землях имеются различные богатые месторождения полезных ископаемых, таких как золото, медь, ртуть, хромит, свинец-цинк, которые незаконно эксплуатировались Арменией во время оккупации. Восстановление этих производительных сил внесет значительный вклад в развитие различных отраслей народного хозяйства, особенно сельского хозяйства.

**Ключевые слова:** *Сфера услуг, Карабахский экономический район.*

## DEVELOPMENT TENDENCIES AND FEATURES OF SERVICE AREAS IN KARABAKH ECONOMIC REGION

### SUMMARY

On July 7, President of Azerbaijan Ilham Aliyev signed a decree on the new division of economic regions in Azerbaijan. According to the decree, the country's capital was divided into separate economic regions, and new Karabakh and East Zangazur were created. Karabakh economic region covers Khankendi city, Agjabadi, Aghdam, Barda, Fuzuli, Khojaly, Khojavend, Shusha and Tartar regions (www.economy.gov.az). The document on the New Karabakh region emphasizes the importance of creating this region to ensure the restoration and rapid development of the ancient Karabakh region, which has a rich historical and cultural heritage and charming nature.

The new division of economic regions in Azerbaijan will ensure economic specialization, implementation of effective investment policy and flexible regional governance. The creation of new economic zones will give impetus to the restoration and development of the territories liberated after the 44-day war. Therefore, the new division of economic regions can be considered an important step in creating a unified development plan for the liberated territories. It is also important in terms of reintegration of the liberated territories into the economy of Azerbaijan, which requires ensuring the effectiveness of planning and management of the development of economic regions, a review of the structure of these economic regions.

There is no doubt that the realization of economic opportunities in the liberated territories after the restoration will have a serious impact on the Azerbaijani economy. There are various rich mineral deposits in the previously occupied lands, such as gold, copper, mercury, chromite, lead-zinc, which were illegally exploited by Armenia during the occupation. The restoration of these productive forces will make a significant contribution to the development of various sectors of the economy, especially agriculture.

**Keywords:** *Service sector, Karabakh economic region.*

UOT 332.122

# QARABAĞDA TURİZM VƏ REKREASİYA BÖLGƏSİNİN YARADILMASI

**RƏŞAD SÜLEYMANLI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: resad.suleymanli01@gmail.com*

**Giriş**

İşğaldan azad edilmiş torpaqlarımızın mineral və termal su mənbələri vasitəsilə zəngin olması da bölgənin turizm imkanlarının artırılmasında mühüm faktordur. Qarabağ bölgəsi torpağı, həm də xalqımızın böyük mədəni irsinin mühüm daşıyıcısı hesab olunur. Bu bölgəmiz istedadlı şairləri, yazıçıları, musiqiçiləri ilə də məşhurdur. Qarabağın Azərbaycan musiqisinin beşiyi olması özünü çoxdan təsdiq etmiş həqiqətdir.

Dəniz səviyyəsindən l400 metrə hündürlükdə yerləşən Azərbaycan mədəniyyətinin incisi Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizmin marşrutlarının yaradılmasına imkan verir. Mənəvi dünyamızın tərcümanı olan bu şəhər mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətlərə sahibdir. Bunlar da turizm üçün çox yararlı istiqamətlərdir. Sahə mütəxəssisləri bu fikirdədirlər ki, yaxın gələcəkdə Qarabağın turizm infrastrukturunun yaradılması və inkişafı üçün keçmiş ənənələr də əhəmiyyətli rol oynaya bilər. Hələ post-sovet məkanında insanlar Qarabağa davamlı axın edirdilər. Azıx mağarası (doğrudur, erməni vandalları bu dünya miqyaslı tarixi abidəni də dağıdıblar) bəşəriyyət üçün unikal abidədir. Bizim Qarabağda UNESCO-nun irs siyahısına düşəcək abidələrimiz mövcuddur. Orada quruculuq-bərpa işlərinin keçirilməsi müəyyən zaman alsa da, Qarabağ bölgəsinin turizm potensialından istifadə Azərbaycana iqtisadi baxımdan böyük qazanc gətirəcək [10].

Qarabağın işğaldan əvvəlki dövrdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərini yenidən dirçəltmək də bu mənada önəmlidir. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa sanatoriyası", "Gülablı sanatoriyası", Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr və bu kimi turizm məskənləri ayrıca seçilirdi. Bu turizm və müalicə obyektləri Azərbaycan xalqının milli-tarixi dəyərlərini dünyaya tanıtmaqla yanaşı dövlət büdcəsinə külli miqdarda gəlir gətirirdi. Ölkəmizin hər yerində olduğu kimi burada da Böyük Zəfərimizin imkanlarıdan istifadə edərək bu ərazilərdə möhtəşəm turizm obyektləri inşa etmək mümkündür. Yaxın perspektivdə bu istiqamətdə böyük irəliləyişə nail omaq tamamilə mümkündür. Bununla da Qarabağda turizmin inkişafi otelçilik sektorunu da irəli aparmağa imkanlar yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, Qarabağda turizmin inkişafı üçün bir sıra kadrların əməyindən istifadə edilməlidir. Dövlət, özəl sektor, alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalıdır. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Turizmçilər bu fıkrdədirlər ki, təbiətinin zənginliyinə əsasən Qarabağın gələcəyi daha çox ekoturizmə bağlı olacaq. Bundan məharətlə istifadə etsək, Qarabağı dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevirəcəyik. Dövlətimizin bu istiqmaətdə xüsusi proqram da qəbul etməsi gözləniləndir.

Qarabağ bölgəsində turzimin inkişafi, həm də bu istiqamətdə yeni marşrutların açılması, yol infrastrukturunun genişləndirilməsi deməkdir. Xudafərin körpüsü və başqa tarixi abidələrə də gələcəkdə turist marşrutu ola bilər. Mədəni-tarixi incilərimizin əksəriyyəti dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili mümkündür. Sahə mütəxəssisləri ümid edirlər ki, qonşu İran İslam Respublikası vasitəsilə bu sahədə əməkdaşlıq olacaq.

Azərbaycan son illər ərzində bir çox uğurlara imza atıb, qələbələr qazanıb. Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Zəfər ölkənin müasir tarixinin ən parlaq səhifələrini təşkil edir. Bütün bu uğur və qələbələr xalqın zəngin insan potensialı vasitəsilə əlaqəlidir.

Azərbaycanı dünyaya tanıdan neft sərvəti dövlətin iqtisadi gücü və qüdrətinə çevrilib. "Qara qızıl" adlandırılan neftin insan kapitalına çevrilməsi və vətəndaşlara xidmət etməsi üçün addımlar atılıb.

Bir il öncə Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Bu dövrü "qara qızıl"dan "yaşıl qızıl"a keçid kimi dəyərləndirə bilərik. Söhbət turizmdən gedir. Hazırda hədəf ölkə iqtisadiyyatının turizmlə inkişaf etməsini təmin etməkdir.

Dövlət qurumları və ekspertlər bildirirlər ki, valyuta gətirən bu sahənin inkişafi üçün Qarabağ

bölgəsində böyük potensial mövcuddur [13].

Azərbaycanın Qələbəsi xalqımızın qurub-yaratmaq əzmini də ortaya qoyub. Artıq işğaldan azad olunmuş rayonlarda dövlətin vacib idarəetmə strukturlarının fəaliyyətinin bərpa olunması, Suqovuşandakı turizm və hidroehtiyatların istifadəyə cəlb olunması, bu ərazilərdə başladılan yol-infrastruktur çalışmaları, Xudafərin ərazisindəki su anbarlarının hidroenerji və meliorasiya məqsədilə istifadəsi məsələləri kimi sırf iqtisadi mahiyyətli tədbirlər kimi gündəmə gəlməkdədir. Düşmənin tamamən Qarabağdan çəkilməsindən sonra bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət mərkəzi, məşhur turizm destinasiyası olacağını deməyə əsas verir.

Qarabağ bölgəsi və erməni işğalından azad olunmuş başqa yeddi rayon müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin başqa regionları vasitəsilə inteqrativ əlaqələrə sahib olub. 30 il öncəsində də bu bölgənin coğrafı mövqeyi, təbii sərvətləri və insan resursları Qarabağ bölgəsi iqtisadiyyatının inkişafında mühüm rol oynayıb. O vaxtlar burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti vasitəsilə yanaşı, mövcud olan təbii ehtiyatlar energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm kimi sahələrdə mühüm layihələr həyata keçirməyə imkan verirdi. 1988-ci ilədək, yəni SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ bölgəsi iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdi. Həmin dövrün statistikasına nəzər salsaq, görərik ki, burada bir sıra məhsulların istehsalında respublika əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, təkcə kənd təsərrüfatı üzrə baxsaq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı, ətlik və südlük heyvandarlıq məhsullarının istehsalında mühüm göstəricilərin əldə olunduğunu görməkdəyik. Tarixən Qarabağ bölgəsi əhalisinin mənimsədiyi məşğuliyyət növləri və toplanan təcrübə burada əsas rol oynayıb. Eləcə də emal sənayesi və sənətkarlıqda, ələxsus dünyaca məşhur olan xalçaçılıqda Qarabağ bölgəsi adı hələ o dövrdə dünya markası halına gəlmişdi. Bütün bu və başqa sahələrlə yanaşı, Qarabağ bölgəsi özünün təkrarolunmaz turizm ehtiyatları və kurort-sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları vasitəsilə səyahətçilərin də diqqət mərkəzində olub.

Qarabağ bölgəsi iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafı mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları vasitəsilə əlaqədardır. Buna əsasən də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb olunması qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın yurd həsrəti çəkən Qarabağ bölgəsi sakinlərinin, onların yaxınlarının, müxtəlif humanitar missiyalar həyata keçirən beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri başqa işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir. Turizm növlərinə gəldikdə, 8 noyabr - Şuşanın işğaldan azad olunması tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gündə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Şuşa istiqamətində ilk səfərə çıxanlar, ələlxüsus xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə məhv edilmiş insan məskənlərini, korlanmış ekosistemi, dağıdılmış məzarlıqları və eləcə də Daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndiyə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək geniş bir ərazidə çox zəngin informativ resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu, onlarda ermənilərin gerçək həyat tərzi haqqında ən real təsəvvür yaradacaq. Onda bütün dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədiyi vaxt sıx məskunlaşdıqları los-Angeles, Marsel, Beyrut, Rostovda da hər an belə izlər qoyub getməyə hazırdırlar.

Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, Qarabağ bölgəsinin 30 il müddətində işğal altında qalması böyük həcmdə sosial və maddi zərərlə nəticələnib [11].

İlkin araşdırmalara əsasən, 1988-ci il üzrə məlumat bazasına əsaslanaraq mehmanxanaların 17%-i Qarabağa aid idi, 213 min adam sayına uyğun gecələmələrin sayı bu bölgəyə düşürdü. Şuşa şəhərində işğala qədər 400 yerlik istirahət evi, 130 yerlik "Şəfa" turist bazası, Şuşa sanatoriya-kurort birliyinə aid 1316 yerlik sanatoriya, sonuncu 1985-ci ildən son-

ra fəaliyyətdə olan ilk özəl sahə kimi “Zamanpəyə” (Soyuqbulaq) turist bazası fəaliyyət göstərib. Bundan əlavə, Ağdam rayonunda işğala qədər 100 yerlik Abdal-Gülablı sanatoriyası, 50 yerlik Şelli sanatoriyası, 40 nəfərlik Şahbulaq turist bazası fəaliyyət göstərmişdir. Hal-hazırda bu qeyd edilən ərazilər dağıdılıb və ya istifadəyə tam yararsız hala gətirilib. Nazirlər Kabineti (NK) yanında “AR-ı ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və təlefatların qiymətləndirilməsi üzrə İşçi Qrupu”-nun 2014-cü ildə dərc olunmuş sənədinə əsasən işğal altındakı ərazilərin turizm potensialına dəymiş zərər 57,903,033,600 AZN qiymətləndirilib.

Qurumdan verilən məlumata görə, Qarabağ bölgəsinin turizm potensialı vasitəsilə bağlı konsepsiya hazırlanır: “Ərazilərin turizm üzrə ilkin qiymətləndirilməsi, turizm resurslarının dəyərləndirilməsi, ərazinin turizm baxımından inkişafi vasitəsilə əlaqədar əsas iqtisadi fəaliyyətlərin yaradılmasına dair təkliflər, turizm məhsulları üzrə təkliflər, rekreasiya məqsədləri üçün zonalaşmasına dair təkliflər və başqa məlumatları özündə əks etdirən konsepsiya sənədləri hazırlanır. Konsepsiya sənədində təqdim edilən məlumatlar ərazi planlaşdırma mütəxəssisləri tərəfindən dəyərləndirilir və ərazilərin baş planlarında nəzərə alınır.

DTA tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm baxımından qiymətləndirilməsi, planlaşdırılması və müəyyən edilmiş tədbirlərin icrası mütəmadi həyata keçirilir. Bu istiqamət üzrə Agentlik tərəfindən işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafina nail olunması məqsədilə turizm siyasəti və icrası baxımından strategiyası, planlaşdırılmasına dair müxtəlif sənədlər hazırlanır. İşğaldan azad edilmiş ərazilər üzrə əsas prioritet istiqamətlər bazar və klaster yanaşmalarının tətbiqi, qısa və uzunmüddətli strateji yanaşmaları təklif edən sənəd hazırlanıb” [13].

DTA-dan bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə mina və partlamamış hərbi sursatlar təhlükəsi olduğunu nəzərə alaraq, ərazilərə insanların təhlükəsiz turlarının təşkil olunması üzrə tədbirlər görülür: “Bu istiqamətdə Ağdam şəhərində turların təşkili üzrə marşrut müəyyənləşdirilmiş, ilkin infrastruktur işləri görülmüş (məlumatverici lövhələr quraşdırılmış) və tur proqramları hazırlanmışdır. Eyni zamanda, turların davamlı təşkili üçün bələdçilərə təlimlər keçirilib.

**Açar sözlər:** *Qarabağ, rekreasiya bölgəsi, turizm.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafina dair Dövlət Proqramı” - Azərbaycan Respublikası Prezidentinin fərmanı, B., 27 avqust 2002.*

*2. Ağakərimov, İ.M. və Babazadə, S.İ. (2016). Ekskursiya və ekskursiya rəhbəri. B.*

*3. Ələkbərli, Ə. (2016). Qərbi Azərbaycan abidələri. Ağrıdağ, Bakı.*

*4. Bilalov, B. Ə. (2014). Dünyada və Azrbaycanda gəlmə turizmin müasir durumu. “Dirçəliş XXI əsr” jurnalı. Bakı.*

*5. Bilalov, B. Ə. AR-da işgüzar turizm. “Dirçəliş - XXI əsr” jurnalı. (2015). № 86-87, 315-332.*

*6. Bilalov, B. Ə. və Məmmədov, C. (2014). Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Mütərcim, Bakı.*

*7. Əıirzayev, Ə. T. və Aslanova, S. I. (2016). Turizmin inkişafinın sosialiqtisadi problemləri. B.*

*8. Haqverdiyev, T. Ş. (2012). Abidələr tarixin sirdaşıdır. Bakı.*

*9. http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/28655-ishghal-sonras-garabagh-igtisadiyyat-vae-turizmin-inkishaf.html*

*10. https://fed.az/az/turizm/qarabagi-qafqazin-en-boyuk-turizm-mekanina-cevirmek-olar-arasdirma-99594*

*11. https://sia.az/az/news/tourism/844259.html*

*12. http://anl.az/el/h/hi_te.pdf*

*13. https://www.bakivaxti.az/az/posts/detail/azerbaycanin-yasil-qizili-qarabag-turizm-merkezine-cevrilecek-1634671386*

*14. https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/turizm-taskili.pdf*

## СОЗДАНИЕ ДОРОГИ ТУРИЗМА И ОТДЫХА В КАРАБАХЕ

### РЕЗЮМЕ

Туризм и услуги очень привлекательны с точки зрения инвестиций. Эта сфера важна для развития инфраструктуры страны и с точки зрения денежного потока. С другой стороны, экономический потенциал развития туризма означает создание благоприятных условий для развития организационно-экономических процессов. Еще одним условием, в свою очередь, является расширение инфраструктуры этого района, благодатных условий, создаваемых этой местностью, что приводит к увеличению числа иностранных туристов, посещающих нашу

страну. Внутренний туризм также набирает обороты в нашей стране. Тот факт, что это число выросло с 500 000 до 700 000 только за последний год, свидетельствует о положительной тенденции. Освобождение наших земель под оккупацией нашей храброй Армии под руководством нашего Главнокомандующего, победившего в 44-дневной войне, вселило в нас большой энтузиазм и открыло новые перспективы для экономического развития нашей страны. В этом смысле развитие туризма на освобожденных территориях представляется более привлекательным. Можно с уверенностью сказать, что предпринимаемые нашим государством серьезные меры по превращению Карабаха в зону безопасности приведут к формированию и динамичному развитию туристической инфраструктуры в этом районе. В то же время новая и достоверная информация о туристическом потенциале Карабахского региона откроет двери для привлечения новых инвестиций в нашу страну.

Выгодное экономико-географическое положение Карабаха, его богатые запасы, уникальные природно-климатические особенности, плодородные земли, богатая фауна и животный мир открывают новые горизонты для развития туристической отрасли. Инвестиции в эти области откроют большие возможности для бизнеса в этой сфере, и фактом жизни является то, что эти инвестиции в конечном итоге принесут значительный доход в государственный бюджет.

**Ключевые слова:** *Карабах, зона отдыха, туризм.*

## CREATION OF TOURISM AND RECREATION ROAD IN KARABAKH

### SUMMARY

Tourism and services are very attractive in terms of investment. This area is important for the development of the country's infrastructure and in terms of cash flow. On the other hand, the economic potential of tourism development means the creation of favorable conditions for the development of organizational and economic processes. Another condition, in turn, is the expansion of the infrastructure of this area, the fertile conditions created by this area, which leads to an increase in the number of foreign tourists visiting our country. Domestic tourism is also gaining momentum in our country. The fact that this number has risen from 500,000 to 700,000 in the past year alone indicates a positive trend. The liberation of our lands under the occupation of our brave Army under the leadership of our Commander-in-Chief, who won the 44-day war, gave us great enthusiasm and opened new prospects for the economic development of our country. In this sense, the development of tourism in the liberated areas seems more attractive. It is safe to say that the serious measures taken by our state to turn Karabakh into a safe zone will lead to the formation and dynamic development of tourism infrastructure in this area. At the same time, the new and reliable information that informs the world about the tourism potential of the Karabakh region will open the door to attracting new investments to our country.

The favorable economic and geographical position of Karabakh, its rich reserves, unique natural and climatic features, fertile land, rich fauna and fauna mean a new horizon for the development of the tourism industry. Investing in these areas will create great opportunities for business in this area, and it is a fact of life that these investments will ultimately bring significant revenue to the state budget.

**Keywords:** *Karabakh, recreation area, tourism.*

UOT 339.5

# KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ GÖMRÜK SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARININ SƏMƏRƏLİ TƏŞKİLİ

**SAMİD YARIYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*E-mail: samid_11@mail.ru*

**Giriş**

COVID-19 pandemiyası həyatımızı heç təsəvvür etmədiyimiz şəkildə dəyişdi. Lakin bununla birgə bir nüans çox aydın oldu ki, qlobal ticarətin və malların sərhədlərdən, xüsusən də zəruri malların ən çox ehtiyac duyulan ərazilərə rahat axınını dəstəkləyən təşəbbüslərin davamlılığı ciddi əhəmiyyət daşıyır. Bu dövürdə əksər ölkələr yeni normaya uyğunlaşmaq üçün addımlar atdılar ki, bu da öz səmərəsini göstərdi. Koronavirus pandemiyasının ilk qlobal hal aldığında əsas məsələ qarşıdakı bu problemin təsirinin minimuma endirmək olduğu kimi, vəziyyət yaxşılaşdıqdan sonra isə güclü bərpanın dəstəkləmə yollarının həyata keçirilməsidir. Gömrük burada əsas rol oynayır.

COVID-19 pandemiyası həm ÜGT (WCO)-nin Yenidən İşlənmiş Kioto Konvensiyasının (RKC) və həm də ÜTT (WTO)-Ticarətin Asanlaşdırılması Sazişinin (TFA), o cümlədən bu alətlər tərəfindən dəstəklənən tam rəqəmsal rəsmiləşdirmə prosesi və səmərəli risklərin idarə edilməsi kimi əsas konsepsiyaların əhəmiyyətini göstərdi.

Yenidən işlənmiş Kyoto Konvensiyası (RKC) ticarətin asanlaşdırılması üzrə əsas Gömrük konvensiyasıdır. O, Ümumdünya Gömrük Təşkilatı tərəfindən hazırlanmış və 3 fevral 2006-cı ildə qüvvəyə minmışdır. Bu məqsədlə RKC müasir gömrük prosedurları və texnikaları üçün standartlar və tövsiyə olunan təcrübələri təmin edir [1].

ÜTT üzvləri 2013-cü il Bali Nazirlər Konfransında, ÜTT üzvlüyünün üçdə ikisi tərəfindən ratifikasiya edildikdən sonra Ticarətin Asanlaşdırılması Sazişi (TFA) 22 fevral 2017-ci ildə qüvvəyə minənmişdir. TFA malların, o cümlədən tranzit malların daşınmasının, buraxılmasının və rəsmiləşdirilməsinin sürətləndirilməsi üçün müddəaları özündə birləşdirir. Ticarətin Asanlaşdırılması Sazişi, həmçinin ticarətin asanlaşdırılması və gömrük qaydalarına riayət olunması məsələlərində gömrük və digər müvafiq orqanlar arasında səmərəli əməkdaşlıq üçün tədbirləri müəyyən edir. Saziş, daha sonra bu sahədə texniki yardım və potensialın gücləndirilməsi üçün müddəaları ehtiva edir [2].

Qlobal iqtisadiyyatın mümkün qədər tez sağalması üçün ölkələrin həm RKC, həm də TFA-nı tətbiq etmələri vacibdir. Gömrük və digər sərhəd qurumlarına normal mühitdən kənarda fəaliyyət göstərməyə və dəyişən şəraitə sürətlə uyğunlaşa bilməyə imkan verən yaxşı işlənmiş davamlılıq planlarının olması vacib əhəmiyyət kəsb edir. Bununla bağlı ilk tövsiyə verənlərdən biri də ÜGT olmuşdur və aşağıda sadalanmışdır:

Kritik malların sürətləndirilməsi: Koronavirusun yayılması ilə bağlı məsələləri və ya vəziyyətlərə birbaşa təsir edən və ya aradan qaldırmağa kömək edən malların sürətləndirilmiş rəsmiləşdirilməsinə ÜGT tərəfindən aydın təlimat verilmişdir. Bundan əlavə, ÜGT veb-saytı həmçinin Birləşmiş Millətlər Təşkilatının əsas tibbi və təcili yardım mallarının sürətləndirilmiş rəsmiləşdirilməsinə dair model sazişi üzrə təlimat təqdim etmişdir.

Risklərin idarə edilməsi sistemləri: Gəliş zamanı aşağı riskli yüklərin buraxılışını sürətləndirmək və şəxsi əlaqəni minimuma endirmək həm gömrük işçilərini, həm də idxalçıları qoruyacaq. Həm risklərin idarə edilməsi sistemləri, həm də risk profilinin yaradılması ticarətin asanlaşdırılması və uyğunluğun təmin edilməsi üçün əsas imkanlardır. O, həmçinin administrasiyalara məhdud gömrük resurslarından istifadəni optimallaşdırmağa kömək edir.

Fiziki yoxlamaları minimuma endirmək: Məhdud yoxlama resurslarından daha səmərəli istifadə etmək üçün gömrük orqanları qeyri-vacib və ya vaxta həssas olmayan fiziki yoxlamaları və inzibati yoxlamaları azaltmalı və bunun əvəzinə kritik rəsmiyyətlərə və yüksək riskli daşımalara diqqət yetirməlidir.

Elektron sənədləşdirmə: Rəqəmsallaşma heç vaxt indiki qədər vacib olmamışdır. Sosial məsafəni qorumaq üçün gömrük bəyannamələrinin və əlaqəli sənədlərin elektron şəkildə ötürülməsi vacibdir.

Tarif güzəştləri: Bu, ÜGT tərəfindən geniş şəkildə bildirilmiş və əsas tibbi məhsulların və avadanlıqların, əczaçılıq mallarının və qida məhsullarının sürətli çatdırılmasını təmin etmək üçün tamamilə həyati əhəmiyyət kəsb edən bir yoldur.

Rüsum və ödənişlərin təxirə salınması: Böhran

müddətində rüsum və rüsum ödənişləri üzrə cərimə və faizsiz möhlət elan etməyi nəzərdən keçirilməlidir. Fiskal ödənişlər üçün elektron ödənişlər və kağız əsaslı ödəniş protokollarına ehtiyacın azaldılması bu pandemiya şəraitində köməkçi rol oynayır (WCO News 2 June 2020 COVID-19 and its impact on Customs and trade [3].

Covid-19 bütün dünyada iqtisadi fəaliyyəti dayandırdığından, 2020-ci ildə dünya üzrə mal ticarəti axını əhəmiyyətli dərəcədə azalmışdır. Covid-19 pandemiyası həyati vasitələrə kəskin şəkildə təsir etdi. Bu prosesdə bütün dünyada iqtisadi fəaliyyətləri də pozdu. Xüsusilə, dünya üzrə mal ticarəti axını 2020-ci ildə 7% azalmışdır. Pandemiyanın beynəlxalq ticarətə təsir edə biləcək bir neçə aspekti var: onun sağlamlığa birbaşa təsiri və əlaqəli davranış dəyişiklikləri; virusun yayılmasının qarşısını almaq üçün hökumətlərin hərəkətlərinin nəticələri; və pandemiyanın üçüncü ölkələrə təsiri.

Pandemiya səbəbindən mənfi ticarət təsirlərini gözləmək intuitiv görünsə də, ölkə səviyyəsində təsir hər iki istiqamətdə də gedə bilər. Baldwinin qeyd etdiyi kimi, pandemiya həm tələb, həm də təklif tərəfdən bir şok yaşatdı. Hər ikisi mənfi olduğundan, ölkənin idxal tələbinə - onun daxili tələbi ilə daxili təklif arasındakı fərq kimi müəyyən edilən - nəticəsi apriori qeyri-müəyyəndir (Espitia A., Mattoo A., Rocba N., Ruta M. and Winkler D. (2021), "Trade and Covid-19: Lessons from the First Wave," VoxEU.org, 18 January).

**Cədvəl 1: Dünya və seçilmiş qruplar və ölkələr: qlobal mal ticarətinin həcmində dəyişiklik, dekabr 2019-2020-ci il**

| | İxrac | İdxal |
|---|---|---|
| Dünya | -18.3 | -15.8 |
| İnkişaf etmiş iqtisadiyyatlar | -22,7 | -15,8 |
| ABŞ | -30,8 | -15,8 |
| Yaponiya | -22,1 | -4,4 |
| Avrozona | -22,0 | -16,6 |
| İEO iqtisadiyyatlar | -12,8 | -15,8 |
| Çin | -7,7 | 13,8 |
| İEO Asiya ölkələri (Çin istisna) | -13,1 | -17,2 |
| Şərqi Avropa və MDB | -4,4 | -13,4 |
| Latın Amerikası və Karib hövzəsi | -26,1 | -27,4 |
| Afrika və Yaxın Şərq | -13.9 | -2.5 |

*Mənbə: Economic Commission for Latin America and the Caribbean (ECLAC), on the basis of Netherlands Bureau of Economic Policy Analysis (CPB), World Trade Monitor, https://www.cpb.nl/en/worldtrademonitor*

Koronavirus pandemiyasının ortaya çıxdığı ölkə Çin olmasına baxmayaraq, bu böhranda Çin digər ölkələrə nisbətdə daha az təsirləndi. Çinin bir üstünlüyü ondan ibarətdir ki, Çinin 2020-ci ilin dekabr ayına qədər aylıq ticarət məlumatı artıq mövcud idi. Digər bir üstünlük, Çinin bütün digər iqtisadiyyatlarla ticarət əlaqələri olması və dünyanın ən böyük ixracatçısı olmasıdır. Bundan əlavə, Çin 2020-ci ilin birinci rübündə Covid-19-dan ən çox əziyyət çəkən idi və o dövrdə dünyanın qalan hissəsi virusun nəticələrini yaşamağa başlamışdı. İkinci rübdən etibarən, vəziyyət əksinə oldu və Çin iqtisadiyyatı 2020-ci ildə 2,3% böyüyərək sürətlə bərpa olundu (Liu X., Ornelas E and Shi H. (2021) "The Trade Impact of the Covid-19 Pandemic", CEPR Discussion Paper 16201).

Qlobal iqtisadiyyatda COVID-19 pandemiyasında əvvəl də ticarətdə xaos yaranmışdır. Bunlardan biri də 2008-2009 böhranıdır. 2008-2009-cu illər böhranının nəticələrinə paralel olaraq beynəlxalq ticarət yenidən iflasa uğradı. Dünya ticarət həcmi 2020-ci ilin mart-aprel ayları arasında 21% azaldığı halda, əvvəlki böhran zamanı ən yüksək aylıq azalma 2008-ci ilin sentyabr-oktyabr ayları arasında 18% olmuşdu. 2019-cu ilin dekabr-2020-ci ilin mart ayları arasında məcmu ixrac artım tempi -7% olmuş, 2008-ci ilin iyul – 2009-cu ilin fevral ayları isə bu göstərici üçün -0,8% təşkil etmişdir. 2020-ci ildəki tənəzzül, sonuncu böhranın yaratdığından daha az uzun sürdü. COVID-19 böhranının mənşəyi sağlamlıq böhranı ilə mübarizə üçün qəbul edilmiş siyasət tədbirlərindən qaynaqlanır, 2008-2009 böhranının isə maliyyə ilə əlaqəli məsələlərə bağlı iqtisadi kökləri var idi.

2008-2009 illərdəki böhranla koronavirus pandemiyası iqtisadi kontekst, böhranın mənşəyi və ötürmə kanalları kimi amillər çox fərqli hesab olunmasına baxmayaraq, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) hesabatına görə, 2020-ci ildə beynəlxalq mal ticarətinin həcminin 9,2% azaldığını müəyyən edilmişdir ki, bu da 2008-2009-cu illərin qlobal maliyyə böhranı ilə eyni rəqəmdir [8, p.72].

Digər bir dünyada xaos yaranmasına səbəb olan hadisə isə SARS epidemiyasıdır. Empirik nöqteyi-nəzərdən, SARS epidemiyasının firmalara təsirini

təhlil etmək üçün 2003-2005-ci illər üçün rüblük məlumatlara müraciət edilmişdir [7]. Onlar göstərir ki, SARS-ın daha çox ötürüldüyü bölgələr təsirlənməmiş bölgələrlə müqayisədə daha az idxal və ixrac artımı yaşayıb. Virusun yayılması təbii fəlakətlərə bənzəyir, hər ikisi də xarici qeyri-iqtisadi əsaslı şoklar kimi şərh olunmuşdur [5].

Koronavirusun ilk ilk vaxtlarında xaosun idarə olunmasında kömək edən qurumlardan biri Fransa Gömrük İdarəsi olmuşdur. Fransanın Gömrük Baş İdarəsi sağlamlıq böhranı şəraitində müəssisələrə dəstək vermək üçün müstəsna tədbirlər tətbiq etdi. Bu tədbirlər bundan sonra bu böhranla əlaqədar maliyyə çətinliyi ilə üzləşən müəssisələr üçün nəzərdə tutuldu.

Onlar gömrük rəsmiləşdirilməsi, dolayı vergilər, eləcə də ox vergisi (TAE), illik yanalma və naviqasiya vergiləri (DAFN) və regional dok haqları (OMI) üçün məsuliyyət daşıyan şirkətlərə yönəldilmişdir. Operatorların açıq və təfərrüatlı sorğuları əsasında, məbləğlərin ödənilməli olduğu Gömrük Gəlirlərinin Kollektoru faylı sürətli şəkildə yoxlayacaq və ödəniş imkanlarının verilməsinə qərar verəcək. Bu tədbirlər xüsusilə ödənişlərin təxirə salınmasına səbəb ola bilər.

Müraciətlərə baxılmasını asanlaşdırmaq üçün DGDDI operatorlara cavabdeh olan Gömrük İdarəsinin funksional poçt qutusunu doldurmaq və geri qaytarmaq üçün operatorların istifadəsinə verilmişdir [9].

**Açar sözlər:** *Koronovirus pandemiyası, gömrük siyasəti, idxal-ixrac, əməliyyatların səmərəli təşkili.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. http://www.wcoomd.org/en/topics/facilitation/instrument-and tools/conventions/pf_revised_kyoto_conv.aspx (05.12.2021)*

*2. https://www.wto.org/english/tratop_e/tradfa_e/tradfa_e.htm, 2021*

*3. WCO News 2 June 2020 COVID-19 and its impact on Customs and trade https://mag.wcoomd.org/magazine/wco-news-92-june-2020/covid-19-and-its-impact-on-customs-and-trade/*

*4. Economic Commission for Latin America and the Caribbean (ECLAC), on the basis of Netherlands Bureau of Economic Policy Analysis (CPB), World Trade Monitor, https://www.cpb.nl/en/worldtrademonitor*

*5. Baker SR, Terry SJ, Bloom N, Davis SJ. (2020) COVID-Induced Economic Uncertainty. National Bureau of Economic Research, Cambridge. https://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0258356)*

*6. Espitia A., Mattoo A., Rocba N., Ruta M. and Winkler D. (2021), "Trade and Covid-19: Lessons from the First Wave," VoxEU.org, 18 January*

*7. Fernandes A., Tang H. (2020) "How did the 2003 SARS epidemic shape Chinese trade?" CESifo WP 8312, https://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0258356#*

*8. Friedt F.L., Zhang K. (2020) "The triple effect of Covid-19 on Chinese exports: First evidence of the export supply, import demand and GVC contagion effects". Covid Economics. pp.72–109. https://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0258356#*

*9. Ghislain de Pazzis (April 02, 2020) "COVID-19: What customs impact?" https://www.fidal.com/en/news/covid-19-what-customs-impact-12*

*10. Liu X., Ornelas E and Shi H. (2021) "The Trade Impact of the Covid-19 Pandemic", CEPR Discussion Paper 16201.*

## РЕАЛИЗАЦИЯ ТАМОЖЕННОЙ ПОЛИТИКИ И ЭФФЕКТИВНАЯ ОРГАНИЗАЦИЯ ИМПОРТНО-ЭКСПОРТНЫХ ОПЕРАЦИЙ В УСЛОВИЯХ ПАНДЕМИИ КАРОНАВИРУСА

### РЕЗЮМЕ

Пандемия COVID-19 нанесла серьезный удар по мировой экономике с серьезными последствиями для всех сообществ и отдельных лиц. Быстрое распространение вируса по основным артериям мировой экономики выиграло от основных взаимосвязей и уязвимостей глобализации, превратив глобальный кризис в области здравоохранения в глобальный экономический шок, поразивший наиболее уязвимые слои населения.

Пандемия коронавируса, которая уже более двух лет вызывает хаос в мире, продолжает сказываться и сегодня. Но год назад ситуация в мире была хуже. Потому что сколько бы кризисов ни происходило на международной арене, пандемия коронавируса имеет разные нюансы и аспекты. Поэтому срочные меры против пандемии коронавируса принять не удалось.

С первых месяцев 2020 года коронавирус стал глобальным явлением, и страны начали

принимать меры, как справиться с этим хаосом. Несомненно, наиболее пострадавшими от пандемии коронавируса сферами стали таможня и международная торговля. Потому что временная приостановка этих направлений, введение очень жестких ограничений еще больше осложнили сложную ситуацию и повысили уровень кризиса. В этом направлении проводились исследования. Рассмотрено состояние таможни и торговли в период коронавируса, применение мер по выходу из этого кризиса и организации его эффективности. В исследовании объясняется эффективность как ВТамО (пересмотренная Киотская конвенция), так и ВТО (Соглашение об упрощении процедур торговли (СУТ)), меры, принимаемые международными таможенными органами, и результаты этих мер.

**Ключевые слова:** *пандемия короновируса, таможенная политика, импорт-экспорт, эффективная организация операций.*

## IMPLEMENTATION OF CUSTOMS POLICY AND EFFECTIVE ORGANIZATION OF IMPORT-EXPORT OPERATIONS IN THE CONTEXT OF CORONAVIRUS PANDEMY

### SUMMARY

The COVID-19 pandemic has dealt a severe blow to the global economy, which has serious implications for all communities and individuals. Crossing external borders along the main arteries of the global economy, the virus has benefited from the main resources and vulnerabilities of globalization, and global economic security conditions have turned the global economic shock into the strongest blow.

There are already two survivors, and the coronavirus pandemic, which caused chaos in the world, continues to have its effects today. But a year ago, the situation in the world was worse. The coronavirus pandemic has different nuances and aspects. Therefore, rapid action against the coronavirus pandemic has not been possible.

In the early stages of 2020, the coronavirus became a global phenomenon and began to take measures to manage this chaos. Difficult to stop these factors from coronavirus pandemic, very serious application, further complicates the difficult situation, and control Studies have been conducted. The state of customs and trade coronavirus circulation, failure to meet these expectations, the application of control control were considered. The study provides information on the security of both the WCO (Revised Kyoto Convention) (RKC) and the WTO (Trade Facilitation Agreement (TFA)).

**Keywords:** *Coronovirus pandemic, customs policy, import-export, efficient organization of operations.*

UOT 332.122

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZM SIĞORTASININ İNKİŞAFI YOLLARI

**SƏFƏRLİ AĞASADİQ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: agasadiq.seferli01@gmail.com*

**Giriş**

44 günlük Vətən Müharibəsi Azərbaycanın qələbəsi və tarixi ədalətin bərpası ilə başa çatıb. Bu tarixi qələbə ölkəmizdə xalq-ordu-rəhbər birliyini bir daha təsdiqləməklə yanaşı, həm də Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bütün dünyaya sübut etdi. İllərlə darıxdığımız torpaqları görmək, məzarını ziyarət etmədiyimiz əzizlərimizin məzarlarını ziyarət etmək fürsətimiz oldu. Müharibə bitən kimi Azərbaycan dərhal gücünü göstərdi və rayonların bərpasına başladı. Bu gün rekultivasiya olunmuş torpaqlarda aparılan irimiqyaslı quruculuq işləri, iri layihələr dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir. Türkiyənin nüfuzlu şirkətlərinin bərpa işlərində yaxından iştirakı hər birimizi sevindirir və qürurlandırır [1].

Sevindirici haldır ki, işğaldan azad edilmiş torpaqlarımızda bu gün də genişmiqyaslı quruculuq işləri davam etdirilir ki, bu da dövlətimizin iqtisadi qüdrətinin göstəricisidir. Dövlətimizin həyata keçirdiyi beynəlxalq və regional əhəmiyyətli bir çox layihələr Füzuli rayonunda həyata keçirilir. Füzuli Beynəlxalq Hava Limanının tikintisi, Füzuli və Şükürbəyli yarımstansiyalarının istifadəyə verilməsi rayonumuzun strateji əhəmiyyətini daha da artıracaq layihələrdəndir. Hazırda bütün istiqamətlərdə magistral yol infrastrukturunun yaradılması istiqamətində araşdırmalar davam etdirilir. İlk növbədə, Füzuli-Şuşa, Zəfər, Horadiz-Zəngilan, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl avtomobil yollarının tikintisi davam etdirilir. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu infrastrukturu da tikilir. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqələrini yenidən quracaq və gələcəkdə Türkiyəyə qədər uzanacaq siyasi və strateji əhəmiyyətə malik Horadiz-Ağbənd dəmir yolunun tikintisi uğurla davam etdirilir. İnanırıq ki, bu mühüm infrastruktur layihələrinin öz ərazisində reallaşdırılması rayonumuzun gələcək sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaradacaqdır.

Yeni reallıqlar regionda yeni münasibətlər və yeni siyasi məkan yaradıb. Aydındır ki, bölgədə sülhün bərqərar olması üçün Ermənistan-Türkiyə münasibətlərinin normallaşması lazımdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanan bəyanatda bildirilir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır. Dəhlizlərin açılması prinsipial məsələdir. Bu əlaqəni qurmaq çox vaxt çəkmir. Müharibədən sonrakı son bir ildə min kilometrdən çox yol çəkmişik. İndi 40 kilometrlik yolun açılması elə də böyük problem deyil. Lakin müzakirə nəticəsiz qaldı. Yəni Ermənistan 10 Noyabr Bəyannaməsini və onun şərtlərini pozur. Ermənistan rəhbərliyi imzalanmış Bəyannamənin bütün müddəalarına əməl etməlidir. Hazırda Azərbaycanda Zəngəzur dəhlizinin yaradılması ilə bağlı geniş araşdırmalara başlanılıb. Zəngilanda həm dəmir yolu, həm də avtomobil yolları çəkilir. Gələcəkdə regionun beynəlxalq əhəmiyyətini artırmaq üçün hava limanları tikilir. Bütün bu işlər Qarabağın və Şərqi Zəngəzurun tezliklə cənnət olacağına, Azərbaycanın şirin guşəsi kimi qonaqlarını qarşılayacağına əminlik yaradır [2].

Məqsədyönlü islahatlar sayəsində ölkəmizdə son 17 ildə iqtisadiyyatın həcmi 3 dəfədən çox artmış, həmçinin güclü sosial-iqtisadi infrastruktur yaradılmışdır. Məhz bunların sayəsində Azərbaycan mövcud maliyyə imkanlarını tarixi maksimuma çatdırmış və yuxarı orta gəlirli dövlətlər qrupunda yerini möhkəmləndirmişdir. Hazırda iqtisadiyyatın davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur və bu prioritetlərin müəyyən edilməsi günün tələbindən irəli gəlmişdir. Çünki dünyada gedən siyasi-iqtisadi proseslər qarşıya iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsi vəzifəsini qoyur. Bu səbəbdən, sənəddə qeyd edildiyi kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunu, əsas sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də buna

uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir [3].

Məqalənin analiz hissəsində də Azərbyacanın işğaldan azad olunmuş ərazilərdəki turizm cəlbediciliyi araşdırılmış, turizm sığortasının reallaşdırılması yolları, müharibə şəraitinin turizmə təsiri təhlil edilmişdir. Çünki bir ərazinin turizm potensialının olması hər şeyi həll etmir. Xaricdən bir çox amil təsir edir ki, buraya ölkənin turizmə marağı, onu dəstəkləməsi, cəlbediciliyinin artırılması, turizm sığortasının təmin edilməsi və s. aiddir.

Bəs turizm sığortası nədir? Turizm sığortası həm ölkədaxili, həm də beynəlxalq səyahətlər zamanı qarşılaşa biləcək xəstəlik, qəza və baqaj itkisi kimi riskləri sığortalayan sığorta növüdür. Xüsusilə Avropa ölkələrinin viza prosedurları (məsələn, Şengen vizası) üçün ilkin şərt olduğu üçün "viza sığortası" kimi də tanınır.

Səyahət sığortasının olması zərurətdən daha çox zəmanət verir. Məsələn, səyahət sığortasına ehtiyacınız olmayan bir ölkəyə getdikdən sonra, müvafiq ölkədə hər hansı sağlamlıq problemi yaranarsa, o ölkənin xəstəxanalarına getdikdə xarici vətəndaş olduğunuz üçün çox yüksək ödənişlərlə qarşılaşa bilərsiniz. Etdiyiniz siyasətlə özünüzü belə bir riskdən əvvəlcədən sığortalaya bilərsiniz. Səyahət sığortası zamanı digər vacib məsələlər sığortanın etibarlı olduğu bölgələr və tarixlərdir. Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən Suriya, İraq və Əfqanıstan kimi müharibə şəraitində olan ölkələrdə siyasətlər keçərli deyil. Bundan əlavə, siyasətin tarix diapazonu səyahət etdiyiniz tarix diapazonuna uyğun olmalıdır [4].

Tətilə gedərkən və geri dönərkən səyahət xərclərinizi qoruyaraq sizə ayrıca maliyyə təminatı verir. Səyahətinizin ləğvi və ya uçuşunuzun gecikməsi kimi hallarda itkilərinizi aradan qaldıraraq iqtisadi zərər görmənizin qarşısını alır. Tətil zamanı xəstəlik və ya zədələnmə halında, uyğun tibb mərkəzinə çatdırılma xərclərinizi ödəməyə zəmanət sizə sərfəli səfər keçirməyə imkan verir. [5].

Yüksək riskli səyahət sığortası isə  xüsusi olaraq dünya miqyasında təhlükəli, uzaq və çətin yerlərə, o cümlədən müharibə zonalarına, vətəndaş iğtişaşlarına və ya terror fəaliyyətinə məruz qalan ərazilərə, böhran və fəlakətlərə yardım zonalarına səyahət edənləri əhatə etmək üçün nəzərdə tutulmuşdur [8].

а во-вторых, обеспечить сближение уровней экономического развития стран региона, совместное решение социальных проблем, занятости, социальной защиты и будущего развития здравоохранения. Валютный союз - это объединение определенных стран в один союз. Примером этого является Европейская валютная система, действующая с 1979 года. При создании этого союза, прежде всего, он был направлен на обеспечение стабильности валюты внутри союза, экономического развития, международной валюты, регулирующего воздействия на денежную систему. В первые годы Европейская валютная система долгое время использовала коллективную валюту «ЭКЮ». Европейская валютная система пережила кризис в 1980-х годах, а в 1990-х годах кризис усугубился. Процесс экономической интеграции зависит от ряда факторов: глобализации экономической жизни; углубление международного разделения труда; Это связано с мировой научно-технической революцией и ростом свободы народного хозяйства [2].

В зависимости от характера полномочий организации финансовые институты делятся на общие и специальные. В первом случае полномочия не ограничиваются какой-либо сферой сотрудничества. Примером может служить Организация Объединенных Наций. Эта организация может рассмотреть любую международную проблему. Исключение составляют лишь конкретные вопросы, входящие в компетенцию его специализированных агентств. Такой широкий авторитет не может не отражаться на деятельности универсальных организаций. Большинство организаций являются межгосударственными, не обладают наднациональной властью, и члены не возлагают на них свои правительственные функции. Задача таких организаций - регулировать сотрудничество. В то же время появились наднациональные организации [3].

Государства делегируют таким финансовым институтам часть своих суверенных полномочий. Они могут принимать решения по определенным вопросам, которые напрямую связаны с юридическими и физическими лицами. У этих организаций есть механизм для обеспе-

чения выполнения своих решений. Примером могут служить межправительственные органы государств-членов Евросоюза. Основные этапы деятельности организации - обсуждение, принятие решений и контроль за их выполнением. Отсюда три основные функции международной организации: регулирование, контроль и функционирование. Функция настройки в настоящее время является наиболее важной функцией. Эта функция состоит из принятия решений, определяющих цели, принципы и правила поведения государств-членов. Подобные решения имеют только моральную и политическую силу, но их влияние на межгосударственные отношения и международное право нельзя недооценивать: любому государству сложно выступить против решения международной организации [4].

Контрольная функция заключается в том, чтобы контролировать соответствие поведения государств нормам международного права, а также резолюциям. Для этого финансовые институты имеет право собирать и анализировать соответствующую информацию, обсуждать ее и выражать свое мнение в резолюциях. Во многих случаях государства обязаны регулярно отчитываться о выполнении норм и действий организации в соответствующих областях. Операционная функция означает, что цели достигаются за счет самой организации. В большинстве случаев организации влияют на реальность через суверенные государства-члены [5].

В то же время возрастает роль косвенной деятельности. Финансовые институты оказывает экономическую, научную, техническую и другую помощь, консультационные услуги. В системе наднационального регулирования международных экономических отношений, сформировавшейся во второй половине XX века, можно четко выделить два основных направления [11]:

1. регулирование параметров и условий международного экономического сотрудничества (объем номенклатуры, торговый, расчетный, кредитный, инвестиционный режим, условия и содержание экономического и технического сотрудничества, трудовая миграция и др.);

2. унификация правил осуществления мирохозяйственных связей для всех участников - унификация международной торговли товарами, услугами, лицензиями, унификация производственной и технической кооперации, международных расчетов, грузоперевозок и др.

В первом случае используемые инструменты включают межправительственные (в том числе региональные) торговые соглашения, торговые соглашения и другие формы сотрудничества. Принятые международными организациями конвенции, руководящие принципы и типовые соглашения являются инструментами унификации правил осуществления мирохозяйственных отношений. Межправительственные торговые соглашения образуют общий правовой режим торговли, отражают таможенно-тарифные вопросы, определяют статус физических и юридических лиц, образуют общий режим судоходства и других видов транспорта. Такие соглашения заключаются при наличии достаточно стабильных и устойчивых экономических и политических отношений и служат дальнейшему укреплению этих отношений. По своему характеру торговые соглашения заключаются от имени глав государств и должны проходить процедуру ратификации. Они играют ключевую роль в заключении в будущем более конкретных межправительственных соглашений, таких как Соглашение о торгово-экономическом сотрудничестве [10].

Появление международных экономических союзов и союзов не только препятствует развитию производственных отношений между странами-членами, но также затрудняет экономические отношения между странами-членами и приводит к накоплению товаров внутри экономических союзов3. Как показывает мировой опыт, все события Укрепление и развитие взаимозависимости являются объективными тенденциями экономических отношений, и эти тенденции делают создание международных экономических организаций и осуществление их регулирующей деятельности объективной необходимостью. Создание такого объективного законодательства в будущем создаст здоровую среду для продолжения международного разделения труда и интернационализации мировой экономики и других сфер государствами и международными организациями, с одной стороны, и ослабления или устранения международные экономические споры. Международные организации более или менее автономны в международных экономических отношениях. Они действуют и развиваются на его основе в соответствии со своим законодательством. В их число и детали входят принципы и между-

народные нормы, принятые международными организациями, соответствующими структурами, которые также определены уставом организации и действуют в области международных отношений, которые считаются целесообразными. Внешнеполитический курс государства более динамичен, чем курс международных экономических организаций, что в некоторых случаях приводит к противоречиям в системе международных экономических отношений или в структуре самой организации. Не исключено, что страны будут подталкивать международные экономические организации по разным объективным причинам, создающим препятствия. В некоторых случаях такая ситуация делает «коллективную» экономическую политику менее эффективной, и международным организациям необходимо менять ситуацию [9].

Знакомство с классификацией существующих финансовых организаций помогает понять важность международных организаций в процессе глобального развития. Один из первых исследователей международных экономических организаций Дж. Нэй (США) классифицировал их по географическим принципам (региональные или аналогичные региональным) и характеру деятельности. Линн Х. Миллер делит их на определенные междисциплинарные регионы и организации сотрудничества, союзы или союзы (военно-политические) и функциональные организации. Он относится только к Организации Объединенных Наций к глобальным организациям и к региональным организациям к организациям с формальной структурой географических, социальных, культурных и политических отношений в специальных межправительственных соглашениях. В частности, А. Стоит отметить комиссию ООН, которой Беннетт выделил место. Он отмечает, что они являются связующим звеном между глобальными организациями. А.Л. Беннетт дал классификацию международных финансовых институтов как «многоцелевые организации». Отмечая, что этот раздел является условным, А.Л. Беннетт отмечает, что этот термин может относиться к конкретному опыту социально-экономического и военного характера. Международные организации, в свою очередь, занимаются внешнеэкономическими и политическими проблемами [8].

Организация Объединенных Наций - универсальная и наиболее влиятельная современная международная организация. Валютно-финансовая деятельность осуществляется через международные организации: Международный банк реконструкции и развития, Международные финансовые корпорации, Международные ассоциации развития, Международный валютный фонд. Эти организации формально являются специализированными учреждениями Организации Объединенных Наций. Шреплер Ханс Альберт, дипломат и глава информационной службы Европейского союза в Страсбурге, и исследователь политической безопасности в Немецком федеральном институте в Бонне, отмечает, что следующие типы международных финансовых институтов развивались за последние два столетия [7, с.96]:

• административные предприятия, регулирующие международные средства связи и решающие специальные технические задачи;

• механизм разрешения и расследования международных споров или примирения сторон;

• по многим вопросам в экономической сфере, в основном в области глобальной или региональной коллективной безопасности

• общие международные организации, способствующие развитию сотрудничества.

Международные межправительственные финансовые организации - это объединение предприятий и государств на основе международных договоров для достижения общей цели. Он характеризуется членством в постоянных органах, количеством международных учредительных соглашений и членством государства. Он действует в интересах государства-члена, являясь субъектом международного права и служа их суверенитету. Хроника возникновения международных экономических организаций доказала, что попытки урегулировать проблемы мировой экономики на основе многогранности имели место в период существования мировой рыночной экономики. Обычно это происходит из-за растущего спроса в международной торговле, судоходстве, обмене валюты и других сферах. В то время регулирование и со временем организация приняла юридическую форму, а затем была реализована с помощью межгосударственных соглашений, охватывающих все государства. В конце XX века наряду с многосторонними соглашениями впервые возникли международные экономические организации [6].

**Ключевые слова:** *Финансовые системы, инвестиция, финансовое развитие, регулирования.*

**ЛИТЕРАТУРА**

*1. Bayramov Ə.Ə. Regional iqtisadi inteqrasiya. Bakı - 2017.*

*2. Həsənov R.T. İqtisadi siyasət: metodologiya və praktika. Bakı – 2019*

*3. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев – 2015;*

*4. Этапы международной экономической интеграции стран», статья http://www.grandars.ru/student/mirovaya-ekonomika/ekonomicheskayaintegraciya.html*

*5. Лебединец И. Н., «Глобалистика: Энциклопедия», Москва, 2017*

*6. Основные факты об Организации Объединенных Наций. – Москва: «Весь Мир», 2020.*

*7. Октай Эфендиев, Этибар Алиев. Внешнеэкономическая деятельность современного Азербайджана. Баку – 2017*

*8. Schumpeter J.A., (2018), The Theory of Economic Development, Translated from the German by Redvers Opie, New Brunswick, New Jersey, Transaction Publishers, p.410.*

*9. Stiglitz J.E., Bruce C. Greenwald : Creating a Learning Society: A New Approach, p. 680, 2019*

*10. Williamson John, Mahar Molly, (2018), Finansal Liberalizasyon Üzerine Bir İnceleme. Ankara: Çeviren Güven Delice, Liberte Yayınları, 111 s.*

*11. Winkler Adalbert, (2019), "The Dual of Financial Markets in Economic Development: Engine of Growth and Source of Instability", IPC Working Paper, No. 18, pp.1-39.*

## DETERMINATION OF THE ESSENCE AND CONDITIONS OF COOPERATION OF INTERNATIONAL FINANCIAL INSTITUTIONS

**SUMMARY**

The financial system of the economy consists of three main components: financial markets, financial intermediaries (institutions) and financial regulation. In addition, the high level of development of the country's financial system will also lead to high availability of financial services. Therefore, financial development should be viewed in a broader context. On a broader level, financial development means improving the quality of financial functions important for providing information for investment, controlling investment, promoting diversification and risk reduction, mobilizing savings, and improving the exchange of goods and services. The multidimensional nature of financial systems increases the need to use different indicators to measure financial development. However, determining which indicators will be most appropriate for measuring financial development remains an unanswered question, not an easy task. It is generally accepted that financial development can be measured in four dimensions: financial depth, access, efficiency and stability.

**Keywords:** *Financial systems, investment, financial development, regulation.*

## BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ ƏMƏKDAŞLIĞININ MAHİYYƏTİNİN VƏ ŞƏRTLƏRİNİN MÜƏYYƏNDİRİLMƏSİ

**XÜLASƏ**

İqtisadiyyatın maliyyə sistemi üç əsas komponentdən ibarətdir: maliyyə bazarları, maliyyə vasitəçiləri (qurumları) və maliyyə tənzimlənməsi. Bundan əlavə, ölkənin maliyyə sisteminin yüksək səviyyədə inkişafı həm də maliyyə xidmətlərinin yüksək əlçatanlığına səbəb olacaqdır. Ona görə də maliyyə inkişafına daha geniş kontekstdə baxmaq lazımdır. Daha geniş səviyyədə maliyyə inkişafı investisiya üçün məlumatın təmin edilməsi, investisiyaya nəzarət, diversifikasiya və risklərin azaldılmasının təşviqi, əmanətlərin səfərbər edilməsi, mal və xidmətlərin mübadiləsinin yaxşılaşdırılması üçün vacib olan maliyyə funksiyalarının keyfiyyətinin yüksəldilməsi deməkdir. Maliyyə sistemlərinin çoxölçülü olması maliyyə inkişafının ölçülməsi üçün müxtəlif göstəricilərdən istifadə ehtiyacını artırır. Bununla belə, maliyyə inkişafının ölçülməsi üçün hansı göstəricilərin daha uyğun olacağını müəyyən etmək asan məsələ deyil, cavabsız sual olaraq qalır. Ümumiyyətlə qəbul edilir ki, maliyyə inkişafı dörd ölçüdə ölçülə bilər: maliyyə dərinliyi, əlçatanlıq, səmərəlilik və sabitlik.

**Açar sözlər:** *Maliyyə sistemləri, investisiya, maliyyə inkişafı, tənzimləmə.*

Fəlsəfə və Sosiologiya

UOT 1

**FAİQ ƏLİYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*humanitar fənlər kafedrası,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail:faiq-aliyev@yahoo.com*

# MULTİKULTURALİZMİN FƏLSƏFİ MAHİYYƏTİNƏ BAXIŞ

Fəlsəfi lüğətlərdə multikulturalizm (“multi”–“çox”, “çoxluq”, “müxtə-liflik”, “kulturalizm” isə “mədəniyyət” deməkdir) mədəniyyətlərarası münasibətlərdə mədəniyyətlərin müxtəlifliyi və çoxçalarlılığı mənasında işlənir. Əsasını liberal demokratik dəyərlər, qloballaşma, yanaşı yaşama və inteqrasiya şəraitində mədəni müxtəlifliyin qorunmasın təşkil edən multikulturalizm “prinsip etibarilə nəzəriyyə və praktika, tarix və nəhayət, siyasət kimi” [12, 130] Qərb ictimai-siyasi və fəlsəfi fikrində, Qərb məkanında meydana gəlmişdir. Tədqiqatçılar multikulturalizmin öncə Şimali Amerikada – əvvəlcə Kanadada, sonra isə ABŞ-da meydana gəldiyini iddia edirlər. “Qlobal mədəniyyət” mənşəcə Amerika mədəniyyətidir. Amerikanizmin qlobal mədəniyyət kimi meydana gəlməsinin səbəblərindən biri ABŞ-ın öz mədəniyyətini multikultural mədəniyyət kimi qəbul etməsidir. Avropada multikulturalizm ünsürləri gec yarandı. ABŞ-da multikulturalizmin inkişafda əhəmiyyətini yaxşı anladılar [12, 128].

İnkişaf etmiş dünya ölkələri multikulturalizm siyasəti sayəsində ciddi nailiyyətlər əldə etsələr də son dövrlərdə ona münasıbət dəyişmişdir . “Multikulturalizm dövlət siyasəti kimi qəbul edildiyi ölkələrdə əhəmiyyətini saxlayır. Lakin bütün hallarda bu ideya yerli insan birliklərinin, ictimai rəyin dəstəyi olmadan həyata keçirilə bilməz. Məhz bu halda konkret səmərə gözləmək olar. Digər tərəfdən, sosial-mədəni inteqrasiyanın uğurlu prosesə çevrilməsi siyasi-hüquqi inteqrasiyadan kənarda başa düşülə bilməz” [1, 102].

Qloballaşan, demokratik cəmiyyətin fəlsəfi anlayışlarından biri müxtəlif mədəniyyətlərin inteqrasiyası ideyasını özündə əks etdirən multikulturalizmin nəzəriyyəsi və təcrübəsidir.Multikulturalizm bərabərhüquqlu dialoq əsasında bu mədəniyyətlərin qorunmasını, onların qarşılıqlı əlaqəsini və zənginləşməsini təmin etməyə imkan verir. Müasir çoxmədəniyyətli cəmiyyətin təşəkkülü prosesində onun fəlsəfi əsaslandırmasında əhəmiyyətli dəyişikliklər baş verir və cəmiyyətdəki transformasiyalar sosial reallığı dərk etməyə yanaşmaları dəyişir Qloballaşan cəmiyyətdə multikulturalizmin tədqiqi onillərdən artıqdır ki, davam edir və bütün bu müddət kəskin mübahisələrlə müşayiət olunur.Son vaxtlarda multikulturalizm bir tərəfdən tənqid, digər tərəfdən təqdir olunur.

Multikulturalizmin əsas prinsipləriaşağıdakı kimi müəyyənləşdirilmişdir:

“- Etnomədəni müxtəlifl iklərə pozitiv münasibət. Mədəni müxtəlifl ik cəmiyyəti zənginləşdirir və onu daha çox həyata davamlı edir; Dövlət və Din - № 06 (53)

- Mədəni müxtəliflik hüququ. Bütün birlik üzvləri öz mədəniyyətlərinin qorunub saxlanması hüququna malikdirlər;
- Mədəni bərabərlik və qarşılıqlı dözümlülük;
- Şəcərəli struktura malik olan ikili (çoxtərəfli) identiklik;
- Çoxluqda təklik. Qrupun mədəni müstəqilliyi çoxluğun əsas dəyərlərinə müxalif olmayan səviyyədə qəbul edilir;
- Fərdin özünü bu və ya digər etnomədəni qrupla identikləşdirməsi onda sabit özünüdərk formalaşdırır, onun psixoloji müdafi əsinə kömək edir, etnomədəni qruplarla münasibətlərinin açıq və tolerant olmasına zəmin yaradır;
- Bərabər şanslar hüququ. Mədəni müxtəlifl ik qeyri ayrı-seçkilik və sosial sahədə bərabərlik prinsipi ilə tamamlanır;
- Siyasi idarəçilik. Multikulturalizm özünü inkişaf etdirən fenomen deyil, onun ormalaşması və inkişafı üçün siyasi iradə və dəstək zəruridir”[8]

Bir sözlə, multikulturalizm bir tərəfdən qloballaşmanın müasir şəraitində özünü göstərən mədəni, etnik müxtəlifliyi ifadə edir. Digər tərəfdən, multikulturalizm bir ölkə daxilində öz ənənəvi mədəniy-

yətinin qorunub saxlanmasına və inkişafına diqqəti ifadə edən, kütləvi miqyasda təzahür etdikdə müasir dünyada mədəniyyətlərin müxtəlifliyinin formalaşmasına töhfə verən siyasi ideologiyadır.

Multikulturalizm müxtəlif milli və etnik mədəniyyətlərin sosial nəzarətçisi funksiyasını da yerinə yetirir. Mədəniyyətlərin müxtəlifliyi çərçivəsində müxtəlif mədəniyyətlər və etnik qruplar arasında əlaqələr qurulur və cəmiyyət mədəniyyətlərin dialoqunun ayrılmaz bir mexanizmini inkişaf etdirir. Politologiya çərçivəsində multikulturalizm anlayışı öz ifadəsini tapır. Burada multikulturalizm siyasət və etik fəlsəfəsinin normativ hüquqi aktlarda və əxlaqi-etik münasibətlərdə ifadə olunan mövqeyi, mədəniyyətin dəyər komponenti və mədəniyyətin ictimai inkişafın müasir şəraitinə uyğunlaşması fenomeni üzərində üstqurumu başa düşülür.

Multikulturalizm müasir fəlsəfi tədqiqatların diqqət mərkəzində duran problemdir. XX əsrin sonu - XXI əsrin əvvəllərində onun fəlsəfi və ideoloji aspektləri öyrənilir, ilk növbədə əsas sosial- fəlsəfi təhlil əsasında dünyanın həyati davranış təcrübələri araşdırılır. Bu baxımdan fəlsəfə ümumiliyi müəyyən edir, müasir multikulturalizmin tənqidi dərk edilməsini həyata keçirir .

Multikulturalizm fenomeninin üç səviyyəsinə təsadüf edilir. Onlardan biri demoqrafik səviyyədir ki, bu səviyyə müəyyən bir cəmiyyətdə etnomədəni dəyişikliklərin öyrənilməsi ilə bağlıdır; multikulturalizm eyni zamanda yeni gələnlərin müəyyən ərazidə mövcud olan mədəniyyət çərçivəsinə daxil edilməsi praktikasının ifadəsidir. İkincisi ideoloji səviyyədir ki, o, milli doktrina, ideya sistemlərinin inkişafına aiddir. Siyasi fəaliyyətlə bilavasitə bağlı olan siyasi səviyyədir ki, multikulturalizm burada dövlətlə müxtəlif etnik formasiyalar arasında münasibətlərin normallaşdırılmasını nəzərə alan siyasi proqram kimi özünü Multikulturalizm toqquşmanın qarşısını almağa yönəlmiş bir anlayış kimi dəyərlərin vəhdəti vasitəsilə mədəniyyətlərə münasibətdə tolerantlıq ideyalarını inkişaf etdirir. Həmçinin multikulturalizm qloballaşmanın nəticələrinin qarşısının alınması yollarından biri olduğu güman edilir. [10,189]

Multikulturalizmin nəzəri konsepsiyası hələ tam müəyyən edilməmişdir. Həmin konsept elmi biliklərin müxtəlif sahələrində bir anlayış kimi çox məşhur olub hər bir mədəniyyətin dəyərini, özünəməxsusluğunu, orijinallığını göstərir.

Beləliklə, qloballaşma şəraitində proseslərdə multikulturalizmin aktuallığı göz qabağındadır. Ən azından onun avtonom səviyyəsi təhlil tələb edir. R.Danakarinin belə bir tezisi ilə razılaşmağa dəyər: “Mədəni, etnik, miqrasiya prosesləri konkret elmlərin müstəvisindədir, lakin cəmiyyətdə multikulturalizmin inkişaf tendensiyalarının təhlili fəlsəfənin səlahiyyətindədir” [9,49]

Multikulturalizm anlayışının müxtəlif kontekstlərdə differensiallaşdırılması təklif olunmuşdur. ABŞ-ın Kembric Universitetinin post-marksist professoru G. Terborn "multikulturalizm" və "multikulturallıq" anlayışlarını ümumiyyətlə üç kontekstdə istifadə etmişdir. “Onlardan biri siyasi multikulturalizm, başqa birisi empirik, və ya analitik multikulturalizmdir. Bu, elmi əsərlərdə və ictimai müzakirələrdə özünü göstərir,cəmiyyətin mədəni müxtəlifliyinə təsir edir və ən çox da “multikultural cəmiyyətlərin” yaranması ilə daha sıx bağlıdır. Üçüncü kontekst sosial və siyasi fəlsəfəyə, ictimai və siyasi məsələlərə aid olan multikulturalizm olub bu və ya digər cəmiyyətdə mədəniyyətlərin müxtəlifliyi şəraitində sosial qaydalar və insan hüquqları problemlələrini əhatə edir.” [13,51] Terborn eqalitar konsepsiyanın mədəni müxtəlifliyin qorunmasının tərəfdarı kimi çıxış etmişdir.

Tanınmış tədqiqatçı S.Benhabib isə öz növbəsində müasir Qərb cəmiyyətlərində multikulturalizm prinsiplərinin həyata keçirilməsilə bağlı problemləri təhlil edir. O, hesab edir ki, dünyada mövcud vəziyyət biri-birinə zidd olan iki tendensiya ilə xarakterizə olunur. Bir tərəfdən, bəşəriyyət ictimai həyatın müxtəlif sferalarında baş verən proseslərin intensivliyinin, həcminin və nəticələrinin artması ilə müşayət edilən qloballaşma mərhələsindədir. Digər tərəfdən isə müxtəlif mədəni birliklərin daha az homogenliyə və daha çox rəngarəngliyə, qlobal proseslərə inteqrasiyanın zəifləməsinə, daha çox lokal və regional muxtariyyətə çalışması tam aydındır. Bu ziddiyyətli tendensiyaların təzahürlərindən biri daha tam formada ABŞ-da həyata keçirilən multikulturalizm ideologiyasıdır. S.Benhabibin nəzərincə, multikulturalizm siyasi doktrina və praktiki siyasətin istiqaməti olaraq mədəniyyətlərin müqayisə edilə bilməməsinə və biri-birinə çevrilə bilməməsinə, onlar arasında hər hansı bir birliyin olmamasına və

mədəni müxtəlifliyin mütləqləşdirilməsinə əsaslanır. Multikulturalizm ideoloqları mədəniyyətləri sərt, keçilməz və hərəkətsiz sərhədlərlə məhdudlaşdırılan, daxili transformasiyalara məruz qalmayan, lakin şəxsiyyətin individual özünü identifikasiyası onun qrupa mənsubluğu ilə, yəni müəyyən etnik birliyə mənsub olması ilə eyniləşdirilən dəqiq hüdudlara malik vahid kimi təqdim edirlər. Qeyd edilənlər kontekstində multikulturalizmin bir sıra xarakterik xüsusiyyətləri özünü biruzə verir. Bunlar: mədəni identikliyin hədsiz sərt sərhədlərinin müəyyən ləşdirilməsi; daxili üzvlüyü və həyat tərzinin "özəlliyini" tənzimləmək məqsədilə bu sərhədlərin qorunub saxlanılması; mədəniyyətlərin yenidən nəzərdən keçirilməsi və yenidən dərk edilməsinin ziddinə olaraq onların saxlanılması məsələlərinin prioritetliyi; Çoxmədəniyyətli cəmiyyətlərdə müxtəlif mədəni ənənələrə və institusional quruluşun variativliyinə istiqamətlənmiş hüquqi plüralizmin inkişafı və müxtəlif yurisdiksiya sistemlərinin yanaşı mövcudluğu zərurətinin saxlanılması.

Beləliklə, multikulturalizm mədəniyyətlərin özəlliyinə və müxtəlifliyinə hədsiz dərəcədə böyük əhəmiyyət verilir onları tənqidlərdən qorumaq üçün fetişləşdirir. Benhabib hesab edir ki, "mozaikalı multikulturalizm" nəticəsində bütün vətəndaşların azadlıq və bərabərliyinə dair liberal prinsiplərlə mədəni qrup praktikaları ("mədəniyyətin iddiaları") arasında – "mədəni müstəsnalığa iddialarla insan hüquqları normaları arasında münaqişə" yaranır [13, 103].

Dünyada multikulturalizmin Qərb, Avropa, postsovet, o cümlədən Azərbaycan modelləri mövcuddur. Professor E.Nəcəfov müxtəlif ölkələrdə multikulturalizm siyasətini müqayisəli təhlil edərək belə qənaətə gəlmişdir: "Multikulturalizm – pozitiv sosial təzahürdür. O, cəmiyyətin inkişafı üçün münbit şərait yaradır; etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmləndirir. Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, heç şübhəsiz ki, multikultural cəmiyyətin formalaşmasında və multikultural ətraf mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur" [7]. Multikulturalizmin müxtəlif ölkələrdə fərqli təzahürü həmin ölkələrin demokratik vəziyyətindən, adət- ənənələrindən, milli mentalitetindən asılıdır. Multikulturalizm bu gün ən aktual fəlsəfi problemlərdən birinə çevrilib. Üstəlik, bu problemin aktuallığı heç bir halda bəzi siyasətçilərin bəyanatları ilə ləğv olunmur.Alimlər multikulturalizmin aradan çıxması və ya bu konsepsiyanın yalnız Qərbə şamil edilməsi haqqında danışırlar. Onlar multikulturalizmin tənəzzülündən danışanda, bir qayda olaraq, belə bir arqument gətirirlər: bu və ya digər xalq digər mədəniyyətlərin təsirini, eləcə də qloballaşma prosesini öz mədəni kimliklərinə təhlükə hiss edirlər.

Azərbaycanın multikulturalizm modeli bütün dünyada şöhrət qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev məhz bu barədə belə demişdir: "Multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir dəyərdir" [3]. Dövlət başçısı Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə ölkəmizin multikulturalizm və tolerantlıq məkanı olduğunu, indiki müstəqil Azərbaycanın öz siyasətini həmin təməl üzərində qurduğunu göstərir.

Qərbdə multikulturalizm tənəzzülə uğrayır. "Multikulturalizmin "Azərbaycan modeli" də sübut edir ki, fərqli millətlərin və dinlərin təmsilçiləri öz identikliklərini qorumaqla və digərlərinə hörmətlə yanaşmaqla inkişaf etmək iqtidarındadırlar. Sadəcə olaraq bunu fərqlilikləri assimilyasiya etməyə çalışan həyat tərzi kimi qəbul etmək lazımdır... Bəşəriyyət var olduqca multikulturalizm də mövcud olacaqdır" [5, 11].

Şübhəsiz ki, multikulturalizm yalnız həyat tərzi deyil, siyasət, fəlsəfə, dialoq mədəniyyəti və ictimai psixologiyadır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev demişdir ki, "Multikulturalizm Azərbaycanda dövlər siyasətilə yanaşı, həm də həyat tərzidir və bununla bağlı prinsiplər cəmiyyət tərəfindən dəstəklənir… Bu gün Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bu, bizim sərvətimiz, böyük dəyərimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq… Vətəndaş cəmiyyətinin formalaşması, millətlərarası münasibətlərin müsbət istiqamətdə inkişafı hesab edirəm ki, bizim böyük nailiyyətimizdir" [3].

Bütün sahələrdə uğurlar qazanan Azərbaycan artıq dünyanın ən qabaqcıl multimədəni ölkələrdən

birinə çevrilmişdir. Dövlət başçısı öz çıxışında demişdir ki, müasir Azərbaycan dünyaya dini tolerantlıq, millətlərarası münasibətlərin inkişafı modelini nümayiş etdirir. “Bu gün Azərbaycan artıq dünyada tanınmış mültukulturalizm mərkəzlərindən biridir. Azərbaycanda … biz öz siyasətimizlə də, cəmiyyətizin durumu ilə də sübut edirik, multikulturalizm yaşayır. O, yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur” [2].

İ.Məmmədzadə haqlı olaraq yazır: “Belə nəticəyə gələ bilərik ki, birincisi ictimai və humanitar elmlərin müxtəlif sahələrində mədəni qarşılıqlı əlaqələrə dair tədqiqatların səmərəliliyini artırmağa imkan verən metodoloji yanaşmaların axtarışı fəlsəfi və nəzəri cəhətdən bu gün çox məhsuldardır İkincisi, multikulturalizmin elmlərarası, etnososioloji və psixoloji, tarixi və sosioloji müqayisəli tədqiqatlara ehtiyacı vardır. Üçüncüsü, fəlsəfə mənəvi transformasiya funksiyasını yerinə yetirməlidir. Mədəni təcrübələrin humanistliyi üçün bu funksiya əsasdır Axı, dünyanın daha yaxşı, daha humanist olması üçün ilk növbədə mədəniyyət araşdırılmalıdır. Dördüncüsü, mədəni müxtəlifliyin nədən ibarət olduğunu, müxtəlif ölkələrdəki, cəmiyyətlərdəki müxtəlif vaxtlarda məkandan və zamandan asılı olmayaraq onları birləşdirən hər nə varsa hər şeyi fəlsəfi cəhətdən dərk etmək lazımdır.” [11]

Multikulturalizm müxtəlif etnosların vahid dövlət çərçivəsində birgə yaşayışını təmin edir. “Multikulturalizm konsepsiyası etnik azlıqların inteqrasiyasına vahid proses kimi deyil, ümumi qarşılıqlı dözümlülük atmosferində mədəni müxtəlifliyin qorunması kimi baxır. Multikulturalizmin təşəkkül tapmasının ən mühüm amillərindən biri müasir sosiomədəni gerçəklikdir, onun çərçivəsində ilk növbədə qloballaşma hadisəsi hiss olunur” [4, 89-90].

Bir sözlə, multikulturalizm tolerantlıqla sıx bağlı olub, qloballaşma prosesində dünya xalqlarının milli-mənəvi varlığının qorunmasını və inkişafını təmin edən mühüm fenomen kimi çıxış edir.

Bakı Slavyan Universitetinin əməkdaşı İrina Kunina “Qafqazda multikulturalizm: “Azərbaycan modeli” məqaləsində göstərir ki, “Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək əlbəttə, təbiidir. Burada xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət xasdır” [6].

Beləliklə, multikulturalizm konsepsiyası ilə bir çox müasir milli cəmiyyətlərin xüsusiyyəti kimi etnomədəni plüralizmin tanınması və qorunması ideyası daha da inkişaf etdirilmişdir. Buna görə də multikulturalizmin əsas vəzifəsi müvafiq milli dövlətlər daxilində azlıqların və milli çoxluğun bərabər statusunu, onların mədəniyyətlərinin qorunub saxlanması və inkişafı üçün bərabər şansları təmin edəcək hüquqi və siyasi şəraitin yaradılmasıdır.

**Açar sözlər:** *mədəniyyət nəzəriyyəsi, Azərbaycan modeli, multikulturalizm, diskurs, fəlsəfi mahiyyət, qloballaşma.*

## ƏDƏBİYYAT SİYAHISI

*1Aslanova R. XXI əsr: yeni mədəniyyət məkanına inteqrasiya. Bakı:2007, 439 s.*

*2.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: “Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir”. //”Səs” qəzeti, 16 noyabr 2013-cü il*

*3.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Üçüncü Bakı Humanitar Forumunda çıxışı.// “Səs” qəzeti, 1 noyabr 2013-cü il*

*4.Babayev F. Azərbaycanda vətəndaş inteqrasiyası və KİV. Bakı, Apostrof Çap Evi, 2011,101 s*

*5.Həbibbəyli Ə. Bəşəriyyət yol ayrıcığında: multikulturalizm, yoxsa sivilizasiyaların toqquşması? // Qlobal, siyasət: təhdidlər, çağırışlar, ümidlər. Bakı: Qanun, 2013 s.11-29*

*6.Kunina İ. “Qafqazda multikulturalizm: “Azərbaycan modeli”// Multikulturalizm: nailiyyətlər və problemlər./ /https:// bakuforum .az/ az/ multikulturalizm-nailiyyetler-veproblemler/?-fid=2258/14.10.2011/*

*7.Nəcəfov E. Müxtəlif ölkələrdə multikulturalizm siyasətinin müqayisəli təhlili /https:// bakuforum .az/ az/ multikulturalizm-nailiyyetler-veproblemler/?fid=2258/14.10.2011/*

*8.Geißler R. Multikulturalismus in Kanada — Modell fuer Deutschland? [Elektronische Ressource] // Bundeszentrale fuer politische Bildung / http://www.bpb.de/apuz/27564/ multikulturalismus-in-kanada-modell-fuer-deutschland*

*8.Данакари Р. Этническое бытие России, мультикультурализм и «лабиринты» миграции:*

*опыт социально-философского исследования // Вестник Волгоградского государственного универ-ситета. 2015. № 3. С. 48–57.*

*9.Мальковская И.А. Многоликий Янус открытого общества: опыт критического осмысления ликов общества в эпоху глобализации. Москва: КомКнига, 2005,276 с.*

*10.Мамед-заде И. О философии мультикультурализма //Журнал "Вопросы философии" 2016,№ 10 vphil. ru/in-dex.php?option-=com_ content&task=-view&id=1504/11.11.2016/*

*11.Мамед-заде И.Р. Опыт интерпретации морали.Баку,2006, 168 с.*

*12.Терборн Г. Мультикультурные общества // Социологическое обозрение. 2001. Том 1.№ 1. С. 50–67.*

*13.Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. М.: Логос, 2003, 350 с.*

**Faiq Aliyev**

**THE REVIEW AT THE PHILOSOPHICAL CONTENT OF MULTICULTURALISM**

**SUMMARY**

The article reflects various aspects of philosophical thought on the problem of multiculturalism, examines the essence of the philosophical discourse on multiculturalism, reveals the importance of multiculturalism, cultural pluralism as an objective factor of modern reality. It is noted that the policy of multiculturalism, aimed at maintaining the stability of a multicultural society, has contributed to the harmonization of ethnocultural relations. He later set an example for many countries in developing their own models of multicultural policy. In Azerbaijan, it has its own peculiarities. The policy of multiculturalism in the Republic of Azerbaijan is an integral part of the official state policy. The ethnocultural policy pursued by the state in recent years increasingly reflects its key elements.

**Keywords:** *cultural theory, Azerbaijani model, multiculturalism, discourse, philosophical essence, globalization.*

**Фаик Алиев**

**ВЗГЛЯД НА ФИЛОСОФСКУЮ СУЩНОСТЬ МУЛЬТИКУЛЬТУРАЛИЗМА**

**РЕЗЮМЕ**

В статье отражены различные аспекты философской мысли по проблеме мультикультурализма, рассмотрена сущность философского дискурса о мультикультурализме, раскрыто значение мультикультурализма, культурного плюрализма как объективного фактора современной действительности. Отмечается, что политика мультикультурализма, направленная на сохранение стабильности поликультурного общества, способствовала гармонизации этнокультурных отношений. Позже он подал пример многим странам в разработке собственных моделей мультикультурной политики. В Азербайджане она имеет свои особенности. Политика мультикультурализма в Азербайджанской Республике является неотъемлемой частью официальной государственной политики. Этнокультурная политика, проводимая государством в последние годы, все больше отражает ее ключевые элементы.

**Ключевые слова:** *теория культуры, азербайджанская модель, мультикультурализм, дискурс, философская сущность, глобализация.*

UOT 1

# KANTIN HÜQUQİ DÖVLƏT KONSEPSİYASI, MAARİFÇİLİYİN YUMŞAQ GÜCƏ VƏ MƏDƏNİYYƏTƏ TƏSİRİ

**ORXAN NAĞIYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*
*E-mail: orkhan.naghiyev@outlook.com*

İmmanuel Kant (1724 - 1804) klassik Alman fəlsəfəsinin banilərindən biridir. Müasir hüquq nəzəriyyəsinin ən böyük cərəyanlarından birinin qurucusu olan Kantın doktrinası XVIII əsrin 70-ci illərinin əvvəllərində formalaşmışdır. Kant "Əxlaq metafizikasının əsasları" (1785), "Praktik ağlın tənqidi" (1788), "Əbədi sülhə doğru" (1795) və "İki hissəli əxlaq metafizikası" əsərlərində hüquq və dövlət doktrinasını inkişaf etdirmişdir [12, s.38]. "Praktik ağlın tənqidi" əsərində Kant göstərir ki, nəzəri düşüncənin köməyi ilə insan Tanrının, azadlığın, ruhun ölümsüzlüyünün olduğunu və ya olmadığını sübut edə bilər. Nəzəri səbəb aqnostisizmə düşdükdə mənəvi şüur, "praktiki ağıl" köməyə gəlir. Kanta görə, hər bir insanın ruhunda bir əxlaq qanunu, yaxud kateqoriya imperativi adlandırdığı haqq qanunu var və bu mənəvi şüurun postulatıdır. Kantın dövlət və hüquq doktrinası etik baxışları ilə ayrılmaz şəkildə bağlıdır. Mütəfəkkirin dünya tarixi anlayışı belədir: insanlıq qarşınızda həmişə bir məqsəd kimi olacaq və insanlığa heç vaxt bir vasitə kimi yanaşmayın. Kant dünya tarixini bəşəriyyətin tərəqqi tarixi kimi qəbul edir. Kanta görə mütərəqqi inkişafın mövzusu bütövlükdə insanlıqdır və dünya tarixi azadlıq ideyasının tərənnümündən irəli gəlir. Kant göstərir ki, insanın davranışları təbiətin müəyyən ümumi qanunlarına tabedir və müəyyən nümunələrə malikdir. Bu nümunələr dünya tarixində, irəli hərəkət prosesində, bütün bəşəriyyətin inkişafında ortaya çıxır və hər bir yeni nailiyyət, kəşflər, maarifçilik meyilləri nəsildən-nəsilə ötürülür. Kantın fikrincə, insan yalnız rasional deyil, həm də aktiv bir varlıqdır [18, s.346]. Aktiv prinsip insana təbiət tərəfindən verilir, çünki o, təbiətcə azad iradəyə malikdir. Kant göstərir ki, insan təbiətinə görə bir tərəfdən öz cinsi ilə ünsiyyət qurmağa, digər tərəfdən cəmiyyətdən təcrid olunmağa meyllidir. Beləliklə, insanda həm yaxşı, həm pis başlanğıc vardır. Paxıllıq, eqoizm və digər xüsusiyyətlər səbəbiylə insan tənbəlliyi məğlub edərək cəmiyyətdə öz mövqeyini tutmağa çalışır, həmcinslərinə qarşı olsa da onlara ehtiyacı da var. İnsandakı şöhrətpərəstliyin, tamahkarlığın, paxıllığın əsasları vəhşilikdən mədəniyyətə doğru yönəlmişdir. Məhz insanın fitrətindəki pislik mədəni irəliləyişə gətirir. Belə demək olarsa, insana xas olan antinomiyalar dünya tarixinin və mədəniyyətin tərəqqisinə səbəb olur. Kant göstərir ki, hər bir insan özünəməxsus, müstəsna olduğunu düşünür və buna görə də kateqoriyalı imperativi pozur. Bunun qarşısının alınması üçün insanın məcburiyyətə ehtiyacı var, o, digər insanların azadlığını pozmamaqla bağlı məsuliyyət daşımalıdır. Kanta görə, əslində bu məsuliyyətlə bağlı qanunu da insan özü verdiyi üçün başlıca məqsəd mükəmməl dövlət quruluşunun yaradılması olmalıdır. Bu əsasda Kant özünün dövlət və hüquq doktrinasını təqdim edir [14, s.192]. Demokratik dövlət quruluşunun tərəfdarı olan Kant mükəmməl dövlət quruluşunun mükəmməl qanunlarını əxlaqi münasibətlərin bərqərar olması ilə əlaqələndirir və bunları ilk növbədə insanların azad iradəsi ilə bağlayır [4, s.285].

Kantın mükəmməl dövləti maarifçilik ideyalarından bəhrələnmişdir. Onun mükəmməl hüquqi dövlətində sosial ədalət insanlara bərabər imkanlar təqdim edir və hər kəsin təhsil almasına şərait yaradır. Təhsilli vətəndaş və bilikli cəmiyyət mükəmməl dövlət idarəçiliyinin əsas göstəriciləri ola bilər. Maariflənmiş cəmiyyət öz haqlarını bilən və tələb edən vətəndaş cəmiyyətidir, o, idarəetmənn birbaşa iştirakçısıdır. Eyni zamanda təhsilli dövlət xadimi idarəçilikdə sərt qərarların verilməsinə yol vermir. O, öz biliklərinin gücü ilə idarə və çox zaman manipulyasiya etməyi bacarır, yəni yumuşaq güc tətbiq edir. İnsanlarda elə təəssürat yaranır ki, onlar öz müqəddəratlarını seçərkən azad iradə nümayiş etdirirlər. Əslində isə onların azad seçimi təqdim edilən təkliflər üzərində reallaşır [15, s.63]

Kant əxlaqı adətən əxlaqi seçim azadlığı doktrinası kimi xarakterizə olunur. Kant "hüquq doktrinası"nda ağlın təmiz qanunlarına əsaslanmalı olduqları üçün dövləti və qanunu mənəvi əsasları ilə təyin etməyə çalışır. Ümumi məcburiyyət qanunu, təmiz hüquq anlayışı yaradır, yəni bu tərif özünü daha çox

apriori düşüncədə göstərir [8, s.31-33].

Belə demək olar ki, Kantın yaradıcılığı ilə əxlaq və siyasət məslələrindən bibaşa yumşaq gücün nəzəri əsaslandırılmasına fəlsəfi keçid başlayır. Kantın hüquqi dövləti və maarifpərvər cəmiyyəti hər kəsə öz hüquq və azadlıqlarını bilmək və dərk etmək imkanı yaradır. Bu dərketmə həm də öz məsuliyyətini başa düşüb reallaşdırmaq bacarıqlarını ehtiva edir [15, s.195]

Kanta görə, insan bəşəriyyət qarşısındakı məsuliyyətini dərk etdiyi zaman əxalaqi şəxsiyyət ola bilər. İnsanlar bir-birilərinə münasibətdə mütləq mənəvi dəyərə malikdirlər və hər bir şəxs dünyada baş verənlərə görə mənəvi məsuliyyət daşıyır [5,s.123]. Bu prinsiplərə əsaslanaraq, Kant mənəvi qanun anlayışını irəli sürmüşdür. Kantın fikrincə, əxlaqlı insan öz yaşamında məkanın və zamanın şərtlərindən asılı olan hipotetik qaydaları rəhbər tuta bilməz [13, s.402]. İnsanlar öz davranışlarında kateqoriyalı, yəni şərtsiz imperativin tələblərinə riayət etməlidirlər. Kant kateqoriyalı imperativi mənəvi azadlıq qanunu adlandırdı və bu anlayışları sinonim kimi istifadə edirdi. Filosof kateqoriyalı imperativ üçün iki əsas formul təqdim edir. Birincisi: "Elə davranın ki, hərəkətiniz ümumbəşəri qanuna çevrilsin". İkinci: "Elə hərəkət et ki, sən hər zaman insanlığa aid olasan..." [4, s.285].

Kantın bu çağırışı həm idarəetmə subyektlərinə, həm də idarəetmə obyektlərinə yönəlmişdir. Formulalar mahiyyətcə bir-birinə yaxın olub fərdin ləyaqəti və əxlaqi şüurunun muxtariyyəti düşüncələrini təcəssüm etdirir. Kantın kateqoriyalı imperativi mütəfəkkirin hüquq və dövlət doktrinasının əsasını təşkil edir. Kant dövlət və hüquq doktrinasının əsas məqsədini hüququ onu əhatə edən qanunsuzluğun iyrəncliyindən qurtarmaqda görür. Kantın fikrincə dövlət fərdlərin hüquqlarının qorunması üçün bir orqan olmalıdır. Dövlət vətəndaşlardan qanuna riayət edilməsini tələb etdiyi kimi, hər bir vətəndaş da dövlətdən hüquqlarının təmin edilməsini tələb edə bilər. Bu əsasda Kant dövlətin və vətəndşın qarşılıqlı məsuliyyəti konsepsiyasını inkişaf etdirir, hüquqi dövlətçilik ideyasının mahiyyətini əsaslandırır [1, s.97]. Kant şəxsiyyətin ayrılmaz hüuqlarının qaunvericiliklə təsdiqlənməsinin tərəfdarı idi. Kant hüquqi dövlət konsepsiyasında hüquqi düşüncə məsələsinə xüsusi əhəmiyyət verirdi [11, s.684]. O, deyirdi: "Hüquq nədir? – sualı, həqiqət nədir? – sualı qədər çətindir... Lakin qanunların yazdıqları ədalətlidirmi? – sualı ədalət və ədalətsizliyin nə olduğunu dərk etməyi tələb edir. ...Hüquq ümumbəşəri azadlıq qanunu baxımından birinin özbaşınalığının digərinin özbaşınalığına uyğun olduğu şərtlər toplusudur" [4, s.286]. Bu fikirdən çıxış edərək Kant universal hüquq prinsipini irəli sürür: "Universal hüquq qanunu deyir: zahirən elə hərəkət edin ki, özbaşınalığınızın sərbəst təzahürü universal qanuna uyğun olaraq hər kəsin azadlığı ilə uyğun olsun" [1, s.98].

Kant iddia edir ki, "yanlış olan hər şey universal qanuna uyğun olaraq azadlığa mane olur, məcburiyyət də azadlığa mane olur və ya ona müqavimət göstərir. Nəticədə, azadlığın müəyyən bir təzahürü azadlığa və ümumbəşəri qanunlara maneə yaradır. O zaman belə bir tətbiqə qarşı, yəni azadlığa maneə törədən amilə qarşı yönəldilmiş məcburiyyət universal qanunlara müvafiq azadlığa uyğun gəlir" [4, s.286].

Kant hüququn geniş və dar mənasında fərqləndirir. "Sözün dar mənasında qanun hər kəsin qanuni öhdəliklərinin fərqində olmasına əsaslanır... ...Sözün dar mənasında hər hansı bir hüquqla (ius rigidum) məcburetmə gücü əlaqələndirilir. Ancaq hüquq haqqında daha geniş mənada da düşünə bilərsiniz (ius latum). Burada məcburetmə gücü heç bir qanunla təyin oluna bilməz. Burada real və ya xəyali hüquqlardan ikisi var: ədalət və həddindən artıq zərurət hüququ; bunlardan birincisi məcburiyyət olmadan qanuna, ikincisi - qanunsuz məcburiyyətə icazə verir. ...bu cür qeyri - müəyyənliyin əslində ...şübhəli qanun halları ilə bağlılığını görmək asandır" [4, s.306].

Göründüyü kimi Kant daxili məsuliyyət hissi ilə bağlı olan davranışı əxlaqlı adlandırır. Mütəfəkkirə görə hüquqi davranış subyektin daxili motivlərindən asılı olmayan, qanuna əsaslanan davranışdır. Kanta görə əxlaqi davranış – motivlər sahəsi olub, əxlaqi ədalətlə bağlıdır. Hüquq xarici davranışdır və onun əsasında iradənin xarici təzhürləri dayanır, burada motivlər əsas deyil. Hakimiyyət fərdlərin necə davranacağını diktə etməməli və fikir azadlığını tənzimləməməlidir. Dövlət etik qanunlar təyin edə bilməz. Kantın fikrincə, dövlət davranış motivləri, zehni impulslar sahəsinə müdaxilə etməməlidir, insanı xoşbəxt və azad olmağa məcbur etmək mümkün deyil [10, s.36].

Digər tərəfdən, Kant əxlaq və qanunu əlaqələndirir. Belə ki qanunun əsasında kateqoriyalı impe-

rativin əxlaqi prinsipi dayanır. Beləliklə, Kantın fikrincə, obyektiv baxımdan hüquq hamının ümumi bir əxlaq qanununa tabe olmasından ibarətdir, subyektiv baxımdan isə hüquq hər kəsin özbaşınalığı (azadlığı) ilə barışmalıdır. Kantın təqdim etdiyi hüquq dünyası və əxlaq dünyası eyniləşdirilə bilməz, çünki onlar muxtardırlar.

Kant üç hüquqi kateqoriyanı fərqləndirir:

1) təbii hüquq;

2) müsbət hüquq;

3) ədalət.

Təbii hüquq öz növbəsində şəxsi hüquq və ictimai hüquqa bölünür. Birincisi, fərdlərin mülkiyyətçi kimi münasibətlərini tənzimləyir. İkincisi, siyasi bütövün üzvləri olaraq vətəndaşların ittifaqı olan dövlətdə insanlar arasındakı qarşılılı əlaqəni təyin edir [10, s.36].

Təbii qanunlar dedikdə, Kant fərdin təbii, doğuşdan gələn hüquqlarını nəzərdə tutur. Bu əsasda Kant insanın təbii hüquqlarının təfsirini inkişaf etdirir. Kant görə, insan fiziki varlıq olaraq təbiət qanunlarına, iradəli varlıq olaraq əxlaqi qanunlara tabedir. Kant bu qanunları özünün kateqoriyalı imperativində formalaşdırmışdır.

Kantian nəzəriyyəsinə əsasən hər bir insan mükəmməl ləyaqətə, mütləq dəyərə sahibdir; şəxsiyyət hər hansı bir planın, hətta ümumi xeyir üçün ən nəcib planların həyata keçirilməsi üçün vasitə ola bilməz. İnsan - əxlaqi şüur subyekti kimi ətraf aləmdən fərqlənir və öz davranışlarında əxlaq qanunu rəhbər tutmalıdır. Bu qanun xarici şəraitin təsirinə məruz qalmır və buna görə də qeyd-şərtsizdir [7, s.216].

Kanta görə müsbət qanun qanunvericinin iradəsinə əsaslanan təbii qanuna uyğun olmalıdır. Kant qeyd edir ki: "Təbii qanuna vətəndaş quruluşunun qanunları zərər verə bilməz və buna görə də hüquqi prinsip qüvvədə qalır: Mənim özbaşınalığımın qeyri-mümkün olduğu maksimuma uyğun hərəkət edən hər kəs mənə zərər verir; əslində, yalnız sivil quruluş hüquqi bir dövlətdir və onun sayəsində hər bir kəsin özünə zəmanət verilir, amma əslində o, qurulmur və təyin edilmir" [4, s.306].

Kant əmindir ki, ədalət azadlıqla bağlıdır. "Azadlıq – ümumbəşəri qanuna uyğun olaraq digərlərinin azadlığı ilə uyğundur və bu, bəşər nəslinə mənsubluğuna görə hər bir insana xas olan yeganə ilkin hüquqdur" [4, s.291-292].

Kant şəxsi və ictimai hüququn münasibətlərini öyrənərkən vətəndaş cəmiyyətinin dövlətdən ayrılması tərəfdarı kimi çıxış edir. O, şəxsi hüquqların fərdlərin şəxsi mülkiyyəti ilə bağlı olduğunu göstərir. Kanta görə təbii hüquq prinsiplərinə uyğun olaraq cəmiyyətdə münasibətlər azadlıq, bərabərlik üzərində qurulmalıdır. Hüquq formal bərabərliyi nümayiş etdirdiyi üçün vətəndaşlar da formal olaraq bərabərdirlər. Kant orta əsrlərə xas xüsusiyyət kimi kimlərinsə imtiyazlı hüquqlarının olması əsasında yaranan qeyri-bərabərliyə, köləliyə qarşı çıxır. O, deyir: "Qanunla hərəkət edən insan ol... Heç kəslə qanundan kənar davranma" [4, s.290]. Kanta görə, mülkiyyət "xarici əşya", "sahibinin mahiyyət etibarilə həmin şeylə bağlı bütün hüquqlara malik və onun öz mülahizəsinə görə sərəncam verə biləcəyi, sahibinə məxsus xarici obyektdir" [4, s.318].

Mülki hüquq sistemində Kant şəxsi hüququ fərqləndirir. Mülkiyyət-şəxsi hüququ şəxsi hüququn üç növündən biri olaraq "xarici bir əşyaya sahib olmaq və bir şəxs olaraq ondan istifadə etmək hüququdur". Həm də ər -arvad, valideynlər və uşaqlar, ağa və qul münasibətlərini tənzimləyir.

Şəxsi hüquq sistemindəki digər hüquqlar arasında, Kant evlilik qanununu, valideyn hüququnu, ev sahibinin haqqını, miras hüququnu və s. fərqləndirir.

Kant hesab edir ki, şəxsi hüquq təbii vəziyyətə, yəni ədalətli cəmiyyətin vətəndaş vəziyyətinə, bir sözlə ictimai hüquq dövlətinə uyğundur. O, iddia edir ki, "təbii halında şəxsi hüquq ictimai qanun postulatına uyğun gəlir: sən bütün digər insanlarla qaçılmaz birgə yaşam münasibətlərindən hüquqi dövlətə, yəni tənzimləyici ədalətli vəziyyətə keçməlisən" [4, s.329]. İctimai hüquq şəxslərin vətəndaş münasibətlərini tənzimləyir. Kanta görə, bu münasibətlərdə əsas məsələ xalqın konstitusiyanın qəbul edilməsində iştirak etmək hüququdur. Hüquq ümumiyyətlə məcburi olmalıdır, çünki insanın məqsədi öz azadlığını başqalarının azadlığı ilə uyğunlaşdırmaqdır. Hüquqa əməl edilməsi üçün məcburiyyət lazımdır, məcburiyyətin həyata keçirilməsi isə Kanta görə dövlətlə əlaqəlidir.

Kant əxlaqı hüquqla və hüququ dövlətlə əlaqələndirir. Bu da kateqoriya imperativinin tələblərinə və müvafiq olaraq hüquq prinsiplərinə əsaslanır. Bu əsasda Kant hüquqi dövlət konsepsiyasını irəli sürür [18, s.87].

Kanta görə, "Dövlət (civitas) hüquq qanunlarına tabe olan çox sayda insanın birləşməsidir. Bu qanunlar aprior qanunlar kimi zəruri olduğu üçün,

yəni özlüyündə xarici hüquq anlayışlarından irəli gəldiyindən, dövlət formasının ...dövlətin təmiz hüquq prinsiplərinə uyğun olması lazımdır və bu ideya hər hansı bir həqiqi birləşdirmə üçün bələdçi ipi (norma) rolunu oynayır" [4, s.324].

Hüquqi dövlət elə bir dövlətdir ki, burada bütün təbii hüquqlara riayət olunur və ayrı-ayrı subyektlərin azadlığına, bərabərliyinə və müstəqilliyinə laqeyd yanaşılmır, yəni kateqoriya imperativinin tələblərinə əməl olunur. Kantın xüsusi olaraq "hüquqi dövlət" terminini istifadə etmir, lakin onun hüquq nəzəriyyəsi hüquqi dövlət ideyası üzərində qurulmuşdur.

Kant dövləti qanuni hakimiyyət altında birləşən insanların birliyi kimi təqdim edir. O, respublikanı hüquqi ittifaq kimi ən yaxşı dövlət hesab edir. Kanta görə, suverenliyin xalqa məxsus olduğu dövlətin əsas vəzifəsi vətəndaşların hüquq və azadlıqlarını qorumaq və zəmanət verməkdir [4, s.351].

Kantın xalq suverenliyi ideyası dövlətin mənşəyi ilə bağlı müqavilə nəzəriyyəsinə istinad edir. Kant dövlətin mənşəyini təhlil edərkən onun başlanğıcını hər cür qanuniliyin zəmanətindən məhrum olan təbii vəziyyət kimi müəyyənləşdirir. Əxlaqi borc, təbii hüquqa hörmət hissi insanları bu vəziyyəti tərk etməyə və vətəndaş cəmiyyətinə keçməyə sövq edir. Təcrid olunmuş fərdlər müqavilə sənədi əsasında xalq və dövlət yaradırlar. Kanta görə bu müqavilənin mahiyyəti muxtar iradə, mənəvi subyektlər olan fərdlər və digər ideyalarla bağlıdır. Bağlanılan müqavilənin əsas şərti hər bir təşkilatın "öz məqsədlərinə nail olmaq üçün başqalarını vasitə etməmək" borcunu dərk edən və bu borcunu yerinə yetirə bilən şəxsi tanımaq öhdəliyidir [4, s.324]. Kanta görə, ictimai müqavilə mənəvi cəhətdən inkişaf etmiş insanlar arasında bağlanır. Buna görə də dövlət hakimiyyəti onlara münasibətdə mənəvi qanunu bilməyən və davranış xəttini düzgün seçməyən insanlar kimi davranmamalıdır. İctimai müqaviləyə əsasən xalqı təşkil etməklə insanlar öz xarici azadlıqlarından imtina etmiş olurlar və dərhal artıq dövləti təşkil edən üzvlər kimi yenidən azadlıq əldə edirlər, nizamsız azadlıqdan həqiqi və hüquqi azadlığa keçirlər. Hüquqi çərçivədə azadlıq ilk növbədə tənqid etmək azadlığını nəzərdə tutur [4, s.351].

Kant vətəndaş cəmiyyəti ilə dövləti fərqləndirir. Mülki cəmiyyətin yaranma səbəblərini araşdırarkən filosof belə bir nəticəyə gəlir ki, təbii halda fərdlər öz hüquqlarını tam təmin edə bilmirlər, çünki onlar təbiətən fərqlidirlər. Kanta görə, əgər "insan bütün hüquqi anlayışlardan imtina etmək istəmirsə təbii haldan çıxmaq haqqında qərar verməlidir. O, bütün digər insanlarla birləşərək, ictimai hüquqa tabe olmalıdır, yəni hər kəsə qanunla müəyyən ediləcək və kifayət qədər güc veriləcək bir vəziyyətə gəlməli, özü olaraq tanınmalıdır, yəni o, ilk növbədə vətəndaş olmalıdır" [4, s.354].

Kant iddia edir ki, dövlət şəxsiyyətlə dövlətin qarşılıqlı məsuliyyəti əsasında qurulmalıdır. Dövlət və vətəndaş bərabər hüquq subyektləridir. Dövlətin fəaliyyəti hüquq qanunlarına əsaslanır, bu qanunlar isə öz növbəsində insan hüquqlarının mənasını təşkil edən hüquqi prinsiplərə uyğun olmalıdır. Kant vətəndaşların hüquq və azadlıqlarını dövlət əsas əlamətləri olaraq fərqləndirir: "Qanunvericilik naminə birləşmiş cəmiyyət üzvləri vətəndaş (cives) adlanır. Onların ayrılmaz hüquqi atributları – hər kəsin aid olduğu dövlətin qanunlarına əsaslanan azadlığı başqa qanunlara itaət etməməlidir. Vətəndaş bərabərliyi - xalqın tərkibində yalnız özündən yuxarıda duraraq hüquqi öhdəliklər tətbiq etmək qabiliyyətinə malik olan şəxsi tanımaq; vətəndaş müstəqilliyinin atributu - öz varlığı və məzmunu ilə xalqın tərkibində başqasının deyil, birliyin üzvü kimi öz hüquq və qüvvələrinə cavabdeh olmaq və buna uyğun olaraq vətəndaşlardan başqa heç kim tərəfindən təmsil olunmamaqdır". Kant digər vətəndaş hüquqları arasında seçki hüququnu da ayırır [4, s.351].

Kant ümumi rifah və şəxsiyyətin hüquqlarının müdafiəsi naminə dövlətdə hakimiyyət bölgüsü prinsipinin bərqərar olması tərəfdarıdır: "Hər bir dövlətdə üç hakimiyyət, yəni üç istiqamətdə birləşən iradə var: ali hakimiyyət qanunvericilik simasında, icra hakimiyyəti hökmdarın şəxsində və məhkəmə hakimiyyəti hakimin simasında". Ali hakimiyyət qanunvericilik hakimiyyətinə müdaxilə etməməlidir. "Qanunverici hakimiyyət yalnız xalqın vahid iradəsinə aid ola bilər". Qanunvericilik hakimiyyəti heç kəslə qanundan kənar rəftar edə bilməz, yəni qanunverici orqan tərəfindən verilən hüquqi aktlar insana xas olan azadlıq, bərabərlik və ədalət kimi hüquqi prinsiplərə uyğun olmalıdır. Qanunvericilik aktlarının yaradılması prosesində insan "dövlət qanunvericiliyində yalnız vasitə olaraq deyil, həm də məqsəd olaraq iştirak etməlidir" [4, s.382].

V.N.Kuznetsovun qeyd etdiyi kimi, Kant təsdiq edir ki, "dövlətin hər üç hakimiyyəti ilk növbədə

öz aralarında əxalqi şəxslər kimi əlaqəlidirlər. Yəni dövlət quruluşunun kamilliyi naminə biri digərini tamamlayır, ikincisi, onlar arasında elə bir tabeçilik sistemi qurulub ki, biri kömək etdiyi digərinin funksiyalarını mənimsəyə bilməz, çünki öz funksiyaları vardır. Belə ki, o, özündən yuxarıda olana tabedir. Üçüncüsü, bu və ya digər funksiyaların birləşdirilməsi ilə olan tabe olana onun hüquqlarını təqdim edirlər" [6, s.327].

Qeyd edilməlidir ki, Kantın hakimiyyət bölgüsü subordinasiya və razılıq prinsipləri üzərində qurulub. Sosial ədalətin təminatçısı olan məhkəmə hakimiyyəti xalqa məxsus olanı təmin etmək məqsədini daşıyır. "Nəticə etibarilə, yalnız xalq öz tərkibində hər kəsi dolayı da olsa, öz seçdiyi nümayəndələri vasitəsi ilə mühakimə edə bilər (münsif məhkəməsi)" [4, s.378].

Kanta görə bu üç fərqli hakimiyyət sayəsində dövlət muxtariyyətə malik olub, azadlıq qanunlarına uyğun olaraq özü-özünü yaradır və saxlayır. Dövlətin rifahı vətəndaşların rifahı və xoşbəxtliyi demək deyil. Dövlətin rifahı dövlət quruluşunun qanunun prinsiplərinə uyğunluğunun ən yüksək dərəcəsi deməkdir. Dövlətin əsas məqsədi və istəyi vətəndaşların rifahı və xoşbəxtliyidir. Kantın fikrincə, buna nail olmaq üçün dövlətin hüquqi təşkili hakimiyyət bölgüsünə əsaslanmalıdır [18, s.22].

Kant idarəetmə formalarının aşağıdakı təsnifatını təklif edir:

1) İdarəetmə formaları, qanunverici şəxslərin sayına görə:

a) avtokratiya (mütləq);

b) aristokratiya;

c) demokratiya.

Kanta görə, ən yaxşı hakimiyyət forması avtokratiya, ən pis idarəetmə forması demokratiyadır.

2) Dövlətin qurulması probleminin ağırlıq mərkəzi birbaşa xalqın idarəetmə üsul və vasitələrilə bağlıdır. Bu fikirdən çıxış edərək, Kant aşağıdakı idarəetmə formalarını təqdim edir:

a) respublika - icra hakimiyyətinin qanunvericilikdən ayrılmasına əsaslanır;

b) despotik - icra hakimiyyətinin və qanunvericiliyin birləşməsinə əsaslanır.

Kanta görə, qanunvericilik və icra hakimiyyəti bölgüsünün bərqərar olduğu respublika yaxşı idarəetmə forması ola bilər, demokratiya isə hər an despotizmə çevrilmə təhlükəsindədir. Demokratiya ilə bağlı Kant xalqın dövlət başçısını cəzalandırmaq hüququna etiraz edir. Kant qiyama qarşı fikrini bildirir, yalnız passiv etiraza üstünlük verir. Mütəfəkkirin fikrincə, hətta öz hüququn uğrunda mübarizə də qanuna itaətsizlikdir. İnqilabi dəyişikliklərə qarşı olan Kant siyasi islahatların aparılmasını daha müvafiq hesab edir. Kant bildirir ki: "suveren xalq mövcud dövlət quruluşunu dəyişmək imkanına malik olmalıdır" [4, s.394].

Y.Y.Baskinin qeyd etdiyi kimi İ.Kantın başlıca xidməti yalnız qanunun aliliyi nəzəriyyəsinin kateqoriyalı imperativ konsepsiyası ilə əsaslandırılması deyil, həm də vətəndaşlar və dövlət orqanlarının ali meyar olaraq qanuna riayət etməsi ilə bağlıdır. Kanta görə, vətəndaş təkcə mövcud hüquq normalarının icraçısı deyil, həm də hüquqi şüurunun qanunlara uyğun olması faktının göstəricisidir. Vətəndaşın davranışı qanunverici üçün nümunə ola bilər və olmalıdır. Məhz buna görə hər bir vətəndaşın dövlətdən bərabərlik tələb etmək hüququ var [2, s.61, 62].

Dövlət idarəçiliyində sosial islahatların ilk ideoloqlarından olan Kant üsyan, qiyam, inqilab, işğal, münaqişə və müharibələrə qarşı çıxır. Əbədi sülh tərəfdarı kimi çıxış edən kant respublika prinsipi ilə qurulmuş müstəqil bərabər hüquqlu dövlət quruluşunun tərəfdarıdır. O, gələcəkdə əbədi sülhə xidmət edəcək kosmopolitik ittifaqın yaradılmasına inanır. Bu məqsədə nail olmaq üçün Kant xalqların maarifləndirilməsi və tərbiyə edilməsini, hökmdarın müdrik və xeyirxah olmasını, millətlərin maliyyə tələbatlarının olmasını əsas şərt hesab edir.

Ən yaxşı dövlət formasının respublika olduğunu iddia edən Kant, burada hakimyyət bölgüsünün aparılmasını, qanun, azadlıq və məcburiyyətin uyğunlaşdırılmasını üstün məqam olaraq vurğulayır. O, göstərir ki, anarxiyada azadlıq var, lakin qanun və məcburiyyət yoxdur, monarxiyada qanun və məcburiyyət var, amma azadlıq yoxdur. Siyasi rejimdən danışarkən Kant icra və qanunvericilik hakimiyyətinin nisbətinə diqqət yetirir. Əgər onlar bir şəxsdə birləşdirilirsə, onda despotiya yaranır. Kant da Hegel kimi konstitusiya monarxiyasını, yəni konstitusiyaya söykənən monarxiyanı ən yaxşı dövlət forması hesab edir [4, s.397].

Beləliklə, İ.Kant öz siyasi etik konsepsiyasında sistemli formada liberalizmin siyasi doktrinasını əsaslandırmışdır. İ.Kantın bu təlimi hüquqi dövlət nəzəriyyəsi ilə sıx bağlıdır. Qanunun hakimiyyətinin bərqərar olması tərəfdarı kimi çıxış edən Kant belə hesab edirdi ki, konstitusiyaya tabe olan dövlət

vətəndaşlarına bərabər hüquqlar təmin etməli və qanunların olduğu kimi tətbiq edilməsinə zəmanət verməlidir. Bəşəriyyətin başlıca məqsədinin sülh və əmin-amanlıq olmalı olduğunu bildirən Kant qeyd edir ki, müdafiə məqsədi daşıyan müharibələr yalnız xalqların öz azadlıqlarını əldə etməsi uğrunda aparıla bilər. Kant müharibə vaxtı hər şeyə icazə verilməsinə qarşı çıxır və şpionaj, sui-qəsdlərin vasitə kimi mharibələrdə istifadəsinə qarşı olduğunu bildirir. Kant bildirir ki, müharibə məqsəd olmamalı, yalnız sülhün bərpası vasitəsi kimi istifadə edilməlidir.

E.Y.Solovyovun qeyd etdiyi kimi, "Kant etik idealizmin nümunəvi nümayəndəsi olaraq, müharibə qorxusu yaratmağa qarşı çıxır. Bununla da Kant rasionalist metodik kimi vaxtı qabaqlayır. Kantın fikrincə, xalqlar arasında sülhə can atmaq əxlaqi və praktiki dəlillərdən qaynaqlanır. Kant alternativ taleyin müjdəçisi kimi çıxış edir: ya universal qəbiristanlıq sükutu və ya əbədi sülh, ya da diplomatik həll yolu ilə əbədi sülh. Dövrünün əksər pasifistlərindən fərqli olaraq, Kant ən pis perspektivdən başlayır. Kant dis-utopiya janrında işləyir və müharibəni termonüvə dövrünün görə biləcəyi formada görür" [9, s.3].

Beynəlxalq siyasi münasibətlərdə əmin-amanlıq və sülh tərəfdarı olan Kantın bütün yaradıcılığı kimi müharibə haqqındakı düşüncələri də gələcəklə bağlı olub, bəşəriyyətin qorunub saxlanması ideyasına söykənir. Müharibələrin qarşısının alınmasının çıxış yolu kimi dünyada eyni idarəçilik formasının bərqərar olmasını və dünya dövlətlərinin ittifaq yaratmasını görən Kant dünyanın və bəşəriyyətin xilası yolları haqda mülahizələr irəli sürür.

Y.P.İvonin və O.İ. İvonina İ.Kantın dövlətlərin xarici siyasətlə bağlı fikirlərini analiz edərək, bildirirlər ki, "Kant müharibələri gözdən salmaq üçün Hobbs mexanizmindən istifadə edir: rasionallıq qarşıdurmanın məhsuludur və sonra öz önəmini aradan qaldırmağa çalışır. Ancaq Hobbsdann fərqli olaraq alman alimi bu mexanizmi beynəlxalq münasibətlərə qədər uzadır. Kanta görə, beynəlxalq hüquq kollektiv zəkanın mövcud vəziyyətini əks etdirir" [3, s.260].

İ.Kant dövlətlərin federasiyasının yaradılmasını təklif edirdi. Kantın dövlət və hüquq haqqındakı ideyaları bu gün sadə bir həqiqət kimi dünya dövlətlərinin idarəçiliyində öz yerini almışdır. Müəyyən mənada Kant maarifçi idi, çünki o, bilikli cəmiyyət haqda təhlil təqdim edir. Kantın maariflənmiş cəmiyyəti öz hüquqlarını bilən və dövlət qərarlarının verilməsində və dövlət idarəçiliyində iştirak edən, nə özünün, nə də başqalarının hüquqlarının pozulmasına imkan verməyən cəmiyyətdir.

Onun dövlətlərin federasiyası ideyasının Avropa İttifaqı, Avrasiya İttifaqı və s. dövlət birliklərində reallaşmışdır.

## ƏDƏBİYYAT SİYAHISI

***Rus dilində***

*1. Асмус В. Ф. Иммануил Кант. - М.: Высшая школа, 2005. С. 97.*

*2. Баскин Ю. Я., Кант и формирование идеи правового государства в первой половине XIX века в Германии // Кантовский сборник. 1993 Выпуск №1 с. 61-66.*

*3. Ивонин Ю.П., Ивонина О.И. Проблема международной безопасности в политической теории И. Канта // Вестник НГУЭУ. 2014, № 3*

*4. Кант И. Метафизика нравов в двух частях // Кант И. Критика практического разума. СПб., 1995.*

*5. Кант И. Основы метафизики нравственности // Кант И. Соч.: В 6 т. Т. 4 (1). М., 1965.*

*6. Кузнецов В. Н.Немецкая классическая философия. - М.: Высшая школа, 2001*

*7. Мамут Л.С. Политические и правовые учения в Германии в конце XVIII – начале XIX в. - М.,1995.*

*8. Мухин Н.А. Учение канта о праве // История государства и права. – 2012. - № 15.*

*9. Соловьев Э.Ю. И. Кант: взаимодополнительность морали и права. М., 1992.*

*10. Шульц И. Разъясняющее изложение "Критики практического разума". - М: Книжный дом "ЛИБРОКОМ", 2010.*

***İngilis dilində***

*11. Gregor, M. (ed.) Practical Philosophy, Cambridge: Cambridge Univeversity Press, 1999, 706p.*

*12. Gregor, M. and Timmermann, J. Kant: Groundwork of the Metaphysics of Morals, Cambridge: Cambridge University Press, 2012, 130p.*

*13. Kant, I. Critique of Pure Reason, London: Penguin Classics, 2008, 784p.*

*14. Kant, I. Critique of the Power of Judgement, Cambridge: Cambridge University Press, 2000, 476p.*

15. Kant, I. The Educational Theory of Immanuel Kant, Whitefish, Montana: Kessinger Publishing, 2010, 320p.

16. Strawson, P. The Bounds of Sense: An Essay on Kant's Critique of Pure Reason, Oxford: Routledge, 2018, 328p.

17. Wood, A. and di Giovanni, G. (eds) Religion and Rational Theology, Cambridge, Cambridge University Press, 1996, 548p.

18. Young, J. (ed.) Lectures on Logic, Cambridge: Cambridge University Press, 1992, 732p.

## XÜLASƏ

Klassik Alman fəlsəfəsinin banilərindən olan İmmanuel Kant əxalqın metafizikasını müəyyənləşdirərkən burada dövlət, hüquq və qanunlar, vətəndaş mövqeyi və s haqqında konsepsiyasını təqdim etmişdir. Hüquqi dövlət, bölgülü idarəçilik, vətəndaş cəmyyəti haqqında ilk fikir söyləyənlərdən biri kimi İ.Kant başlıca əxlaqi kateqoriyalar olaraq azadlıq, ədalət, xoşbəxtlik və s. anlayışların açılışını vermiş, bu anlayışları dövlət idarəçiliyi ilə əlaqələndirmişdir. Bu mənada İ.Kantı "yumuşaq güc" konsepsiyasının banilərindən biri kimi qəbul etmək olar.

Məqalənin yeniliyi İ.Kantın hüquq nəzəriyyəsi və maarifçilik ilə bağlı düşüncələrinin "yumuşaq güc" konsepsiyası çərçivəsində nəzərdən keçirilməsi ilə bağlıdır.

Məqalənin praktiki əhəmiyyəti hüquqi dövlət mövzusu ilə bağlı proqram və kurslarda istifadə etmək imkanları ilə əlaqədardır.

**Açar sözlər:** *yumşaq güc, maarifçilik, məsuliyyət, azadlıq, vətəndaş, dövlət.*

### Влияние просвещения на учение Канта о правовом государстве

## РЕЗЮМЕ

Иммануил Кант, один из основоположников классической немецкой философии, определяя метафизику нравов, представил свою концепцию о государстве, о законах и правах, о гражданском положениии и т. д. Кант был одним из первых, кто заговорил о верховенстве закона, о разделенном управлении и гражданском обществе. Он дал интерпретацию этических категорий свобода, справедливость, счастье и т.д. и связывал их с государственным управлением. В этом смысле Канта можно считать одним из основоположников концепции «мягкой силы».

Новизна статьи связана с рассмотрением теории права и просветления И. Канта в рамках концепции «мягкой силы».

Практическая значимость статьи связана с возможностью ее использования в программах и курсах по тематике правового государства.

**Ключевые слова:** *мягкая сила, просветление, просветительство, обязательство, свобода, гражданин, государство.*

### The impact of education/enlightenment on Kant's indoctrination of the legal state

## SUMMARY

Immanuel Kant, one of the founders of classical German philosophy, while defining the metaphysics of the people, presented his concept of the state, law and laws, civil position, etc. As one of the first to speak about the legal state, fragmented governance, and civil society, Kant identified freedom, justice, happiness, etc. as the main moral categories. Kant gave the opening of concepts, connected these concepts with public administration. In this sense, Kant can be considered one of the founders of the concept of "soft power".

The novelty of the article is related to the consideration of I. Kant's theory of law and his thoughts about enlightenment within the concept of "soft power".

The practical significance of the article is related to the possibility of using it in programs and courses on the subject of the rule of law.

**Keywords:** *soft power, enlightenment, commitment, freedom, citizen, state.*

UOT 1

# ELMİ-TEXNİKİ YARADICILIĞIN ƏSAS CƏHƏTLƏRİ

**ADİL SADIXOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

*Email: a.sadixov@mail.ru*

**FAİQ ƏLİYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*humanitar fənlər kafedrası,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail:faiq-aliyev@yahoo.com*

Müasir şəraitdə elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi öz ifadəsini vahid "elm-texnika-istkehsal" sistemində tapır. Buna görə də elmi yaradıcılığın sosial fenomen kimi təhlil edilməsi bütöv sosial fəalıyyətın zəruri komponentlərindən biri kimi yaradıcılığın həmçinin texnikada nəzərdən keçirilməsini tələb edir.

Elmi-texniki yaradıcılığın əsas cəhətlərindən biri olan elmi-nəzəri texniki yaradıcılığa keçməzdən əvvəl onun iki daxili şərti: texniki obyekt və texniki rəsmxət üzərində dayanmaq lazımdır.

Əmək alətləri yaradıcılıqda təbii obyektlərə münasibətdə daha çox müstəqilliyə nail olmağa imkan verən texniki obyektləri təşkil edirdi. Texniki obyektlərin, vasitələrin komplekti texniki vasitələrin işləməsinin səmərəliliyini yüksəltmək məqsədilə istehsal prosesində onlarla xeyli dərəcədə sərbəst kombinasiya etməyə imkan verir. Enerjini onun mənbəyindən işçi orqanlarına güclə ötürülməsində toplanmış alətlər, vasitələr sistemi, əsasını onun öz hissələrinin qarşılıqlı əlaqəsi təşkil edən vahid bir tam yaratmağa imkan verir.

Elmi-nəzəri yaradıcılığın inkişafının mühüm şərtlərindən biri də uzun tarixə malik olan rəsmxətdir. Çertyoj fikrin ifadə vasitəsidir, onu düşüncə predmetinə çevirir ki, bu da nəinki məsələni aydınlaşdırmağa, həm də ideyaları formalaşdıran və əsaslandıranlarla, onları reallaşdıranlar arasında əmək bölgüsünü həyata keçirməyə imkan verir.

Q.Morj yazır ki, çertyoj cisimlərin formalarından və qarşılıqlı yerləşməsindən labüddən irəli gələn yekunun dəqiq təsvirinin çıxarılmasının dili və vasitəsidir. Onun vasitəsilə texnikanın sözlə təsvirinin qeyri-müəyyənliyi aradan qaldırılır və əyani şəkildə onun elementlərinin qarşlıqlı əlaqəsinin həndəsəsi qeyd olunur.

Çertyojun dili əsasında texniki obyektin elementlərini birləşdirmək üsullarını dərindən təhlil etmək, vahid bir tam kimi onun xüsusiyyətlərini açıb göstərmək olar, bu da onun davranışını, güclü və zəif tərəflərini aprior surətdə qabaqcadan söyləməyə imkan yaradır. Rəsmxət ideal obrazın məna tutumunu gücləndirdi, texniki ideyaların inkişafına, yaradıcılığın fərqləndirilməsinə, onun ictimai məzmununun yüksəldilməsinə səbəb oldu.

Daha mükəmməl texnikanın yaradılmasına təcrübə də (istismar, təmir, hazırlama, sazlama) kömək edə bilər, lakin onun rolu məhduddur, çünki o özözlüyündə yeni texniki fikri əsaslandırmaqda səhih ola bilməz. Təcrübə fikri yalnız təbiət qanunlarını üzə çıxardığı, istifadə etdiyi dərəcədə əsaslandıra bilir.

Məsələn, məşhur ingilis təyyarəçisi T.Xevilenddeyirdi ki, "bir halda ki, mən altı duyum yüksəkliyə qalxmışam, deməli, mən daha 600 fut da qalxa bilərəm". Ona elə gəlirdi ki, onun şəxsi təcrübəsi onun konstruksiyalarının əsasını təşkil edir. Əslində isə onun layihəsinin dərk edilməmiş əsasında təyyarənin konstruksiyasında qeydə alınan qaldırma qüvvəsi qanunu durur. Keçmişdə olduğu kimi, təcrübə texniki yaradıcılıqda istifadə olunan qanuna "gətirib çıxarır".

Nəzəri anlayışların olmaması texnikanın işləmə prinsiplərini lazımi qədər dərindən açmağa imkan vermir. Empirik yolla tapılmış asılılıqların xüsusi əhəmiyyəti vardır və ixtiraların məhdud dairəsinə tətbiq edilə bilər. Empirik anlayışlar yalnız izahedici çertyojlar və yoxlama modeli yaradırlar və texniki rəsmxətin və nəzəri mülahizələrin işlənib hazırlanmasını təmin edə bilmirlər.

Elmi- texniki yaradıcılığın təhlilinin çıxış nöqtəsi onun sosial praktikanın mühüm cəhəti kimi anlaşılmasıdır. Praktika insanların, təbiətin dəyişdirilməsinə və ictimai münasibətlər sisteminin təkmilləşdirilməsinə yönəldilmiş ictimai-tarixi fəaliyyətidir. Praktikada insan öz fəaliyyətinin obyekti kimi təbiətə qarşı durur, onu məqsədəuyğun şəkildə dəyişdirir və öz tələbatlarını ödəyir. İnsanın tələbatları

istehsala əsaslanır və zəruri məhsulların istehsalını müəyyən edir.

Praktiki fəaliyyətin bir növü olan elmi-texniki yaradıcılıq spesifik ictimai hadisədir. Onun spesifikası həlli üçün real vasitələr, ixtiralar yaxud onun yaradılmasını tələb edən texniki məsələnin xarakteri ilə müəyyən olunur. Elmi yaradıcılıqdan fərqli olaraq texniki yaradıcılıq yeni qurğuların yaradılması və istehsala tətbiq edilməsi prosesində mövcud texniki qurğuların istismar praktikasının nəzərə alınması ilə bağlıdır. Texniki yaradıcılıqda fəaliyyətin praktik və mənəvi aspektləri sıx çulğalaşmışdır. Praktik fəaliyyət texniki obyektin real surətdə yaradılması zamanı təbiət materialının dəyişdirilməsində ifadə olunur. Mənəvi fəaliyyət obyektin ideal şəkildə yaradılması kimi çıxış edir.

Qeyd olunmalıdır ki, elmi-texnikada yaradıcılıq prosesi həm ideya axtarışını, həm də onun reallaşdırılmasını, həm insanın mənəvi imkanlarının inkişafını, həm də obyektin yaradılmasını əhatə etməklə mənəvi və maddi istehsalın özünəməxsus sintezidir. Lakin, texniki yaradıcılığın xarakteri haqqında digər mülahizələr də irəli sürülür. Belə ki, L.Uvarova texniki vasitələrin işlənib hazırlanmasını idraki-dəyişdirici fəaliyyətə müncər edir, V.Belozersev isə texniki yaradıcılığı yalnız mənəvi fəaliyyət növü kimi səciyyələndirir.

Texniki yaradıcılıq idraki-dəyişdirici fəaliyyəti özünə daxil etməsinə baxmayaraq heç vaxt ona müncər edilməmişdir. Bu mənada praktiki fəaliyyət sosial subyekt tərəfindən fəaliyyətin məqsədinin, ona nail olmanın vasitələrinin, həm də dəyişdirilən obyektin xüsusiyyətlərinin dərk edilməsi əsasında həyata keçirilir. Praktikada insanın tələbatları predmetləşir, subyektiv olan obyektiv olur. Obyektivləşmə - məqsədin subyektiv fəaliyyət formasından obyekt formasına çevrilməsidir. Obyektivləşmə insanın yaradıcı kimi mahiyyət qüvvələrinin ifadə edilməsi şəraitində yüksək və bitkin şəkil alır. Yaradıcı fəaliyyətin universal vasitəsi ideyadır. Obyektin xassələrinin ideyada əks olunması insanın onu sosial əhəmiyyətli sərvətə dəyişdirmək cəhdi ilə üst-üstə düşür. Obyektin insanın tələbatlarına uyğun olaraq dəyişdirilməsi praktikada həyata keçirilir. Burada ideyanın məzmunu fəaliyyət formasına və ondan da yaradılmış predmetin varlıq formasına keçir. Sosial planda müəyyən tamlıq olmaq etibarilə praktika müxtəlif növlərdə meydana çıxır. Onun mühüm təzahürlərindən biri də elmi-texniki praktikadır. Praktikanın bu növünün məzmununu və səviyyələrini texnikanın istisması, hazırlanması və layihələşdirilməsi təşkil edir. Texniki praktikanın məhsulu □ texnikadır, texniki qurğuların işləməsinin etibarlılığı və səmərəliliyidir. Onun vasitələri müxtəlif cihazlar, sənaye avadanlığı və sınaq stendləri, ideyalar nöqteyi-nəzərindən isə elmi-texniki və təbii-elmi nəzəriyyələrdir. Texniki praktika texniki yaradıcılığın bilavasitə bazasını yaradır. Ondan kənarda, onunla əlaqəsiz texnika sahəsində yaradıcılıq yoxdur və ola da bilməz.

Lakin, texniki yaradıcılıq vaxtilə P. Enqelmeyerin sübut etməyə çalışdığı kimi sırf mənəvi proses də deyildir. Onun fikrincə, ideyanın materialda təcəssüm tapması qabiliyyət tələb etməyən əməliyyatdır və yaradıcı məzmundan tamamilə məhrumdur. Sonralar texniki yaradıcılığın sırf mənəvi xarakter daşıması müddəasını F.Dessauer müdafiə edirdi. Fikrimizcə, texniki yaradıcılıq fəaliyyətin praktik mənəvi növüdür. İctimai tələbatı ödəmək vasitəsi kimi istifadə etmək məqsədilə o təbii prosesi onun nisbi “xalisliyi” halında yaratmaq üçün materiyanın dəyişdirilməsini, onun müqavimətinin aradan qaldırılmasını, xarici və kənar olandan praktik mücərrədləşməni tələb edir.

İdeyanın axtarılması və onun materialda reallaşdırılması elmi-texniki yaradıcılığın mühüm cəhətləridir. Tarixən o emiprik təsəvvürlərdən tutmuş elmi anlayışlaradək müxtəlif formalarda ola bilər. Lakin bütün hallarda texniki obyektin meydana gəlməsi ideya vasitəsilə ifadə olunur. Predmetləşdirildiyi üçün o “ölür”, şablona, texniki məsələlərin müəyyən növünün həll edilməsi nümunəsinə çevrilir. Texniki obyekt onda maddiləşdirilən ideyaların özünəməxsus yığını olur.

Elmi-texniki yaradıcılığın predmeti isə ideyadır. Onsuz yaradıcılığı həyata keçirmək mümkün deyildir. İdeyanın köməkliyi ilə texniki tələbatlar predmetləşirlər, tədqiqat və obyektivləşmə predmeti olurlar. Beləliklə, texniki yaradıcılıq insanın obyektiv şərtlənən praktik mənəvi forma yaradan fəaliyyətidir, onun spesifik predmeti texniki obyektdə maddiləşdirilən ideyadır. İctimai praktikanın dəyişməsi ilə texniki yaradıcılığın inkişafının müxtəlif mərhələləri və səviyyələri meydana çıxır. Hal-ha-

zırda inkişaf etmiş ölkələrdə texnikanın yaradılması prorsesinin yüksək səviyyədə olması onun müəyyən növlərə ayrılması ilə, əməyin ixtisaslaşması ilə bağlıdır. Gündəlikdə texniki yaradıcılıq sahəsində ideyaları ümumiləşdirən metodların bütün xəzinəsindən şüurlu surətdə istifadə etmək bacarığı olan mütəxəssislərin planauyğun hazırlanması problemi durur.

Yaradıcı prosesin elə təşkil edilməsi zəruridir ki, əməyin kooperasiyasına əsaslanan reproduktiv fəaliyyəti təqlid etmədən, onun mahiyyətinə uyğun gəlsin.

Elmi-texniki tərəqqi şəraitində yeni ideyaların yayılmasının, texniki yaradıcılıq metodlarının daha dərindən anlaşılmasının zəruriliyi artır. Təkcə bir uğurlu məhsul hazırlamaq üçün 55-60 ideya tələb olunur. "İdeyalar istehsalı" texnikanın hazırlanmasının ayrılmaz hissəsidir, texniki ideyaların müəyyən ehtiyatı olmadan müasir istehsal texnikaya olan ictimai tələbatların səviyyəsinə tez bir zamanda uyğun gəlmir.

Müxtəlif nəzəriyyələr ideyalarda tamamlanaraq elmi-texniki yaradıcılığın əsas cəhətlərindən birinə çevrilir. Nəzəriyyə dünyanı yalnız əks etdirir, bəşəriyətin əməli təcrübəsini ümumiləşdirir. Lakin nəzəriyyə praktikanı ümumiləşdirərərk praktikaya əks təsir göstərir, onun inkişafına kömək edir. Praktikasız nəzəriyyə predmetsizdir. Nəzəriyyəsiz praktika kordur. Nəzəriyyə praktikaya yol göstərir, əməli məqsədlərə çatmaq üçün ən təsirli vasitələr tapmağa kömək edir. Nəzəriyyə ilə praktikanın vəhdəti dialektik inkişafın ən yüksək prinsipidir. İndi kadrların nəzəri səviyyəsinin artması yenilik ruhunda və əməli, işgüzarlıq ruhunda hazırlığına olan tələblər gündən-günə yüksəlir, elmi-texniki yaradıcılığa əsaslı şərait yaradır.

Nəzəriyyənin praktiki funksiyası onun əlaqələndirən qabaqgörənlik funksiyası ilə üzvi surətdə bağlıdır. Nəzəriyyənin praktika ilə əlaqəsinin isə iki tərəfi vardır. Bir tərəfdən nəzəriyyə insanların praktiki fəaliyyəti gedişində yaranıb, mahiyyəti etibarilə bu fəaliyyətin məhsuludur, digər tərəfdən, insanların praktiki fəaliyyəti nəzəriyyə əsasında həyata keçirilib, onun tərəfindən istiqamətləndirilir, elmi-texniki yaradıcılığa kömək edir.

Nəzəriyyənin mühüm əlamətlərindən biri də onun innterpretasiya xüsusiyyəti ilə bağlıdır. Nəzəriyyə qarşısında qoyulan bu tələbat müasir elmi biliyin inkişaf xüsusiyyətlərindən irəli gəlir. İnterpretasiya adətən empirik və nəzəri növlərə ayrılır. Empirik interpretasiyanın funksiyası nəzəriyyənin terminlərinin empirik mənşəli olub-olmadığını yoxlamaqdır. Empirik interpretasiya elmi nəzəriyyənin zəruri əlamətlərindən biri olsa da, elmi nəzəriyyənin interpretasiya problemini tükəndirmir. Nəzəriyyə empirik interpretasiyasız keçinə bilməz, əks halda nəzəriyyə sadəcə olaraq işarələr məcmusuna çevrilərdi. Bununla belə empirik interpretasiya belə bir suala cavab vermir ki, nəzəriyyənin terminləri nəyi ifadə edirlər. Buna görə də empirik interpretasiyanı nəzəriyyə terminlərinin əks etdirdiyi obyektləri göstərən semantik interpretasiya ilə tamamlamaq lazım gəlir.

Elmi-texniki yaradıcılığın digər cəhətlərindən biri onun daima inkişaf dinamikasıdır. Texniki tələbat həmişə olduğu kimi müasir dövrdə elmi biliyin inkişafına mühüm təsir göstərir. Tətbiqi elmlər sahəsindəki tədqiqatlarda bu əlaqə və asılılıq özünü daha aydın göstərir. Elmin ictimai istehsalın tələbatı ilə şərtlənməsi qanunauyğunluğu, indiki şəraitdə də fəaliyyət göstərir. Deməli, elm bütün dövrlərdə maddi istehsaldan asılı olur. Lakin, bu asılılığın xarakteri müxtəlif dövrlərdə eyni deyildir.

Elmi biliyin inkişaf dinamikası müəyyən qanunauyğunluqlar əsasında baş verən mürəkkəb prosesdir. Buna misal olaraq ümumsosial və ümumielmi qanunayuğunluqlan göstərmək olar. Ümumsosial qanunauyğunluqlar elmi sosial hadisə kimi, ümumelmi qanunauyğunluqlar isə fəaliyyət sahəsi kimi idrakın daxili inkişafını səciyyələndirir. Hər iki qrup qanunauyğunluqlar bir-biri ilə sıx bağlıdır, ikinci qrup qanunauyğunluqlar birinci qrupa əsaslanaraq fəaliyyət göstərir. Elmi biliyin və texnikanın ən mühüm ümumsosial qanunauyğunluğu onun maddi istehsaldan asılı olaraq inkişaf etməsidir. Məhz istehsalın tələbatı nəticə etibarı ilə elmi biliklərin tərəqqisini şərtləndirir. Xüsusən maşınlı istehsal yarandıqdan sonra texniki tələbatın elmin inkişafına stimullaşdırıcı təsiri artır. F.Engels yazırdı: "Əgər cəmiyyətdə texniki tələbat yaranırsa, 0 elmi onlarla universitetdən daha çox inkişaf etdirir".

Elmin bu gün hər yerdə bilavasitə məhsuldar qüvvə kimi çıxış etməsi özünü daha aydın şəkildə göstərir. Bu da onunla bağlıdır ki, nəhəng ölçüdə

və böyük sürətlə baş verən elmi-texniki tərəqqinin nəticələri həyatın bütün sahələrində və insan fəaliyyətinin bütün sferalarında hiss olunacaq dərəcədə özünü büruzə verir.

Elmi biliyin və texnikanın inkişafını səciyyələndirən ümumelmi qanunauyğunluqlar daha mürəkkəbdir. Onu 3 dərəcəyə ayırmaq olar:

a) Elmin və texnikanın daxili ziddiyyətlərinin elmi biliklərin inkişafının kəmiyyət və keyfiyyət tərəfinin qarşılıqlı əlaqəsinin elmi inqilaba səciyyələndirən

qanunauyğunluqlar (təkamül və inqilab);

b) Elmi biliklərin inkişaf istiqamətini elmin tərəqqisini göstərən qanunauyğunluqlar (nisbi və mütləq həqiqətlərin dialektikası).

c) Elmi biliklərin və texnikanın fəaliyətinin inkişafının kəmiyyət tərəfini göstərən qanunauyğunluqlar (elmi işlərin nəşri, elmi kadrlar, elmin maliyyələşdirilməsi və s.

İctimai tərəqqi nöqteyi-nəzərindən yanaşdıqda elmi biliklər və elmi-texniki yaradıcılıq özü-özlüyündə universal, ümumi məhsuldar qüvvə kimi çıxış edir. Elm inkişaf etdikcə bilikləri və vərdişlərin toplanması, ictimai beyin, ümumi məhsuldar qüvvələrin yığımı prosesi baş verir. Qətiyyən şübhə yoxdur ki elmi biliklər həmişə müəyyən sosial və mədəni şəraitdə mövcud olur və inkişaf edir, fəaliyyətin başqa sferaları - istehsal, texniki, siyasi, ideoloji və s. sahələr ilə qarşılıqlı əlaqədə olur və bu əlaqələr sosial, lakin elm üçün xarici xarakter daşıyır. Təbiidir ki, bu əsasda əlaqə elm və ictimai həyatın başqa sferaları arasında meydana gəlir. Elmdə, yaradıcılıq fəaliyyəti sahəsi kimi şəxsiyyətin rolu olduqca böyükdür. Onlar göz qabağındadır. Lakin əhəmiyyətli bir də odur ki, alimlərin yaradıcılıq fəaliyyəti əsasən sosial institut kimi elm çərçivəsində baş verir.

Elmi biliyin və texnikanın dinamikası həm də böyük dünyagörüşü mahiyyəti daşıyır. Müasir dövrdə adi şüur belə “elmləşmişdir”. Artıq XX əsrin sonlarında və XXI əsrin əvvəllərində insanın yalnız elmin qüdrətinə inamı təsdiqlənmiş hal almışdır.

Elmi-texniki yaradıcılığında nəzəri dərk etməyin əhəmiyyəti olduqca vacibdir. Qeyd olunmalıdır ki, nəzəri dərketmədə bir çox amillərlə yanaşı alimlərin dərin, hərtərəfli tədqiqatları, subyektin yaradıcılıq potensialı olduqca muhum rol oynayır. Çünki insanların yaradıcılıq potensialları bir-birlərindən əsaslı şəkildə seçilirlər.

Yaradıcılıq potensialına həm subyektin yaradıcılıq qabiliyyətinə hələ inkişaf etməyən imkanları, həm də bu yaradıcı qabiliyyətlərin özləri, həmçinin subyektin mövcud yaradıcılıq qabiliyyətlərini gücləndirən, xarici şərtlər aiddir.

İnsan beyni özünün təbii ehtiyatlarına görə praktik olaraq tükənməz yaradıcılıq imkanlarına malikdir.Onun əsəb əlaqələrinin kombinasiyaları saysız-hesabsızdır. İnsan beyni qaba bənzər şəkildə özündə müxtəlif məzmun yerləşdirə bilər. Hər şey fərdi əhatə edən və onun beynində əks olunan mühitin necə olmasından asılıdır. Nəzəri dərketmənin təkmilləşməsinin özü hər şeydən əvvəl onda mürəkkəb xarici gerçəkliyin əks olunduğu əlaqələrin mürəkkəb sistemi ilə müəyyən edilir. Nəzəri dərketmənin özünəməxsus cəhətləri dünyanın hadisə və proseslərin daha dolğun dərk etmək, elmi biliyin təşkilini təmin etmək və əldə olunmuş nailiyyətlərin praktikada səmərəli istifadə edilməsinə nail olmaqla əlaqəlidir. İdrak prosesi ilə bağlı olan nəzəri dərketmədə insanın öz praktiki fəaliyyətinin müxtəlif sahələrində metod və üsullardan istifadə etməsi onun həyat tərzinin, məqsədyönlü fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindəndir. Nəzəri dərketmə biliyin xüsusi formasıdır. Həmin biliyin isə spesifikliyi bundadır ki, o, tədqiqat obyekti haqqında informasiya mənbəyi rolunu oynamaqla yanaşı, həm də subyektin obyektə məqsədyönlü təsirinin norması kimi çıxış edir.

Ümumiyyətlə, insanın yaradıcılıq imkanları beyində həkk olunan və sosial-psixoloji hadisə kimi yaradıcılığın əsasını təşkil edən onun həyat fəaliyyətinin məzmunu ilə şərtlənir. Subyektin yaradıcılıq potensialı insanın dərk edilən və yaradılanla kifayətlənməməsində, məlum olmayanları kəşf etməsi və hələ mövcud olmayanları yaratmaqla irəliyə doğru can atmasıdır. Bununla bərabər sosial subyektin yaradıcı potensialının yüksəldilməsinin daxili amilləri kimi insan beyninin və psixikasının çox böyük ehtiyatlarını lazımi qədər qiymətləndirməmək olmaz. Müasir cəmiyyət insanın bioloji təbiətinin və psixoloji xarakteristikasının məqsədəuyğun tənzimlənməsinin astanasındadır.

Nəzəri dərketmədə insanın yaradıcı fəaliyyəti yalnız həqiqi metodlar sayəsində təsirli və səmərəli

ola bilər. Nəzəri cəhətdən düzgün dərk edilmiş hər bir metod elmi idrakın əvəzsiz vasitəsidir. Elmi idrakın nəzəri dərketmədə müstəsna əhəmiyyəti vardır. Həqiqi bilik tədqiqatçının yaradıcı fəaliyyətinə düzgün istiqamət verməklə ən qısa və optimal yolu seçməkdə ona yaxından kömək göstərir. Alimin nəzəri nəticələrə və həqiqi ümumiləşdirmələrə gətirib çıxaran elmi təfəkkür xaotik surətdə, nizamsız şəkildə deyil, tamamilə nizamlı, məsuliyyətli qaydada, elmi qanunauyğunluqlar əsasında baş verdiyindən hər bir axtarışda olan insan məqsəd və vəzifələrini düzgün müəyyən edərək dərk edir və onların praktikada reallaşması xeyli asanlaşır. Yaradıcılıq prosesi həm ideya axtarışını, həm də onun reallaşmasını, həm insanın mənəvi imkanlarının inkişafını, həm də obyektin yaradılmasını əhatə etməklə mənəvi və maddi istehsalın özünəməxsus sintezidir.

Elmi-texniki yaradıcılığın daha yüksək səviyyəsi yeni texnikanın layihələşdirilməsi və istehsalı zamanı tələb olunur. Yaradıcılığın bu növü istehsal alətlərinin yaradılmasının daha geniş və yeni elmi prinsiplərinə əsaslanır. Elmi-texniki yaradıcılığın rolunun artması texnikanın məqsədəuyğun və plana uyğun hazırlanmasını və onun inkişafına elmi rəhbərliyi tələb edir.

**Açar sözlər:** *elm, texnika, yaradıcılıq, praktika, insan, tərəqqi, fəaliyyət*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

*1. Məmmədov Ə.Elmi idrakın metod və formaları. B., 1980.*

*2. Məmmədov Ə. Elmi idrak və onun inkişaf dialektikası. B., 2001.*

*3. Горохов В.Г., Розин В.М. Введение в философию техники. М., 1998*

*4. Канке В.А. Основные философские направления и концепции науки. Итоги XX столетия. М., 2000.*

*5. Степин В.С., Горохов В.Г., Розов М.А. Философия науки и техники. М., 1995*

*6. Белозерцев В.И. Проблемы технического творчества как вида духовного производства. Ульяновск, 1980.*

*7. Мухачев В. Как рождаются изобретения. М., 1984.*

## Основные стороны научно-технического творчества

### РЕЗЮМЕ

В статье говорится, что научно-техническое творчество непосредственно связано с социальной практикой. Практика представляет себя в разных видах. Одним из таких сторон является научно-техническая практика.

Техническая потребность оказывает важное влияние на развитие научных знаний. Повышение роли научно-технического творчества требует целенаправленной подготовки техники и развитие науки.

**Ключевые слова:** *наука, техника, творчество, практика, человек, прогресс, деятельность.*

## The main features of scientific-technical work

### SUMMARY

It is stated in this article that the scientific-technical work is linked directly to social practice. The practice performs itself in different forms. The scientific-technical practice is an example.

The technical requirement significantly influence on science development. The purposeful preparation of both the technology and the science evolution strengthens the role of scientific-technical work.

**Key words:** *science, technology, work, creativity, practice, human being, progress, activity*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

MƏHƏMMƏD CƏBRAYILOV: MÜASİR GEOSİYASİ ŞƏRAİTDƏ NEOİMPERİALİZMİN TƏHLÜKƏLƏRİ.......... 5

SULTAN ZAHİDOV: TÜRKİYƏNİN MÜASİR YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİNƏ REALİZM PERSPEKTİVİNDƏN BAXIŞ: XARİCİ SİYASƏTDƏ "YENİ OSMANLIÇI-LIQ"DAN "REALPOLİTİK"Ə TRANSFORMASİYA VƏ ONUN HAZIRKI NƏTİCƏLƏRİ.......... 14

KAMRAN MƏMMƏDOV: AZƏRBAYCANIN AVROPA İNTEQRASİYA PROSESLƏRİNƏ QOŞULMASI: AQS-DƏN AVRONESTƏ.......... 21

VASİF İSMAYILOV: MÜASİR AZƏRBAYCANDA MODERNLƏŞMƏNİN İNNOVATİV TƏZAHÜRLƏRİ.......... 26

ФАРИД АСКЕРОВ: РОЛЬ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА В УКРЕПЛЕНИИ ДОВЕРИЯ МЕЖДУ ГОСУДАРСТВОМ И ГРАЖДАНСКИМ ОБЩЕСТВОМ.......... 30

AYSEL BƏDƏLOVA: 44 GÜNLÜK MÜHARİBƏ ZAMANI ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TÖRƏTDİYİ MÜHARİBƏ CİNAYƏTLƏRİ.......... 35

## TARİX

LƏMAN HÜSEYNOVA: AZƏRBAYCAN BÖLGƏLƏRİNDƏ SOVET QURUCULUĞU PROSESİNİNİLKİN MƏNZƏRƏSİ.......... 39

GÜLNAR BƏŞİROVA: KÜTLƏVİ ƏHALİ YERDƏYİŞMƏLƏRİNİN FORMALARI HAQQINDA.......... 44

## İQTİSADİYYAT

NİZAMİ QAFAROV: AZƏRBAYCANIN AQRAR-ƏRZAQ BAZARI: MÖVCUD VƏZİYYƏT VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ.......... 49

RAUF ALLAHYAROV: AUDİT XİDMƏTİNİN MÜƏSSİSƏLƏRİN İDARƏEDİLMƏSİNDƏ ROLU.......... 58

KƏNAN VƏKİLOV: AZƏRBAYCANDA BİLİK İQTİSADİYYATININ GENİŞLƏNDİRİLMƏSİNDƏ İNNOVATİV SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ... 64

SAMİDDİN QASIMOV: QLOBAL REGİONAL ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ EV TƏSƏRRÜFATLARININ İNKİŞAF MƏSƏLƏLƏRİ.......... 71

RÜFƏT BAXŞƏLİYEV: AZƏRBAYCANIN REGİONLARINDA BANK-KREDİT MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN GÜCLƏNDİRİLMƏSİ YOLLARI.......... 76

MƏHƏMMƏD MUXTAROV: MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANIN VALYUTA SİYASƏTİNİN VƏZİFƏLƏRİ VƏ İSTİQAMƏTLƏRİ.......... 82

MÜŞFİQ TÜKANOV: AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATINDA MALİYYƏ-KREDİT MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......... 86

ZAKİR NƏCƏFOV: İNFLYASİYA PROSESLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ.......... 91

NARGIZ AGALAROVA: REGIONAL SOCIO-ECONOMIC DEVELOPMENT: PROBLEMS AND REALITIES.......... 96

PƏRVANƏ İSMAYILOVA: İNNOVASİYA EKOSİSTEMİNDƏ DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİ.......... 100

RİYAD  BAĞIROV: İDARƏETMƏ UÇOTUNUN MAHİYYƏTİ, ONUN MƏQSƏD VƏ FUNKSİYALARI.......... 105

ASİF ZEYNALOV: İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB OLUNMASI.......... 109

AYNUR MƏMMƏDOVA: AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İQTİSADİ POTENSİYALI VƏ ONUN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDAKI GÖZLƏNİLƏN ROLU.......... 113

ALI AFANDIYEV: CODEX ALIMENTARIUS AND INTERNATIONAL TRADE OF FOOD PRODUCTS.......... 117

ILKIN YAGUBZADE: CONCEPTUAL BASES OF FORMATION OF THE KNOWLEDGE ECONOMY.......... 121

LALƏ MAXSUDOVA: COVİD-19 PANDEMİYASININ BİZNES MÜHİTİNDƏ TƏSİRLƏRİNİN TƏDQİQİ.......... 125

SƏBİNƏ DADAŞOVA: AZƏRBAYCANDA BÜDCƏDƏNKƏNAR FONDLARIN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......... 129

ELDAR NABIZADE: ANALYSIS OF THE CURRENT ECONOMICSITUATION IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN.......... 134

NİCAT QOCAYEV: QARABAĞ İQTİSADİ RAYONUNDA XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAF MEYLLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ.......... 138

RƏŞAD SÜLEYMANLI: QARABAĞDA TURİZM VƏ REKREASİYA BÖLGƏSİNİN YARADILMASI.......... 142

SAMİD YARIYEV: KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ GÖMRÜK SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ VƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARININ SƏMƏRƏLİ TƏŞKİLİ......... 146

SƏFƏRLİ AĞASADİQ: İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZM SIĞORTASININ İNKİŞAFI YOLLARI........................................................................................ 150

SƏRXOŞ HÜSEYNZADƏ: İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ MÜƏSSİSƏLƏRİN TƏŞKİLİNİN İQTİSADİ ƏSASLARI.................................................................... 154

SÜRƏYYA FƏRƏCZADƏ: KORONAVİRUS (COVİD-19) DÖNƏMİNDƏ ELEKTRON TİCARƏTİN ROLU VƏ ÜSTÜNLÜKLƏRİ................................................................................ 158

TÜKƏZ ƏLİYEVA: AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ İNVESTİSİYA QOYULUŞLARININ TƏHLİLİ........................................................................ 162

ULVİRA BAYRAMOVA: A STUDY OF THE EFFECTS OF THE COVID-19 PANDEMIC ON THE WORLD ECONOMY............................................................................ 167

XƏDİCƏ ZEYNALLI: RƏQAMSAL MARKETİNQ VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ.................. 171

ЗАРИФА БАГИРОВА: ОПРЕДЕЛЕНИЕ СУЩНОСТИ И УСЛОВИЙ СОТРУДНИЧЕСТВА МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ ИНСТИТУТОВ.................................................................... 176

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

FAİQ ƏLİYEV: MULTIKULTURALİZMİN FƏLSƏFİ MAHİYYƏTİNƏ BAXIŞ......................... 180

ORXAN NAĞIYEV: KANTIN HÜQUQİ DÖVLƏT KONSEPSİYASI, MAARİFÇİLİYİN YUMŞAQ GÜCƏ VƏ MƏDƏNİYYƏTƏ TƏSİRİ................................................................................ 185

ADİL SADIXOV, FAİQ ƏLİYEV: ELMİ-TEXNİKİ YARADICILIĞIN ƏSAS CƏHƏTLƏRİ...... 192

| Azərbaycanca | English |
|---|---|
| **Təsisiçi:** | **Founder:** |
| **“Kaspi MY” MMC** | **“Kaspi PD” MMC** |
| **Korrektor:** | **Corrector:** |
| **Leyla Binyatova** | **Leyla Binyatova** |
| **Dizayner:** | **Designer:** |
| **İman Hüseynov** | **Iman Huseynov** |
| **Redaksiyanın ünvanı:** | **Address of the editorial office:** |
| **Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi** | **Matbuat ave. 23M. International Press Centre** |
| **Tel: (+994 12) 537 16 05** | **Tel: (+994 12) 537 16 05** |
| **Faks: (+994 12) 537 16 05** | **Fax: (+994 12) 537 16 05** |
| **E-poçt: strategiya.az@mail.ru** | **E-mail: strategiya.az@mail.ru** |
| **Tiraj: 300** | **Number of copies printed: 300** |
| **Sifariş № 85** | **Order № 85** |
| **“PrintMe” nəşriyyatının mətbəəsində çap olunub** | **Published by “PrintMe” publishing house** |